**Müzahim İSMAYILZADƏ**

# DÜNYANIN AXIRI:

# YAŞADIĞIMIZ.... YAŞAYA BİLMƏDİYİMİZ İLLƏR....

**Bakı-2011**

**Redaktor:** Eyvaz Həmid

Müzahim İsmayılzadə, Dünyanın axırı: Yaşadığımız… yaşaya bilmədiyimiz illər…
Bakı, 2011, «MBM» nəşriyyatı, 336 səh.

Müzahim İsmayılzadənin "Dünyanın axırı: Yaşadığımız... yaşaya bilmədiyimiz illər" kitabına müxtəlif hekayələr, povestlər, esselər, publisistik yazılar daxildir. Ənənəsinə sadiq qalan müəllif, cəmiyyətin problemlərini ön plana çəkərək, hadisələri öz dünyagörüşünə məxsus canlandırır, keçmişin naqis cəhətlərini aradan qaldırılmasına çalışır.

© Müzahim İsmayılzadə
«MBM», Bakı, 2011

## Ön söz

Yaşadığımız illər haqqında düşünürəm. Yaşadığımız illər! Tez-tez. Bəzən də aylarla heç nə yadıma düşmür, daha doğrusu, nəyisə araşdırmağa, saf-çürük etməyə vaxt imkanım olmur. Kompüter əsrinin tələbatı başqadır – sürət, sürət və sürət! Əgər bu sürətlə qaçmağı bacarmırsansa... yaşamaq çətin olur. Gərək bacarasan! Yorulmuş atları yarı yolda güllələyirlər.

Orta əsrlər Avropasında (İngiltərə, Almaniya, Fransada...) manufakturaların meydana gəlməsi on minlərlə insanı işsiz-gücsüz, ac-yalavac qoydu.

Tüfəng çıxandan sonra Koroğlunun Misri qılıncı yerə düşdü!

Yaşadığımız illər haqqında düşünürəm. Anadan olandan indiyə qədər nələr etmişəm! Nə düz, nə səhv olub! Filan ildə filan işi başqa cür etsəydim, həyat tamam başqa yöndə davam edərdi. Etsəydim! Ancaq etmədim! Niyə? O an mən hadisələri o cür qiymətləndirirdim və üstündən onillər ötəndən sonra başqa qənaətə gəlməyimin yeri yoxdu. Bu gün ağıllı, tədbirlimi olmuşam?! Bəlkə də. Üstündən onillər keçəndən sonra fikirləşəcəm ki, onda (yəni bu gün) elə yox, belə etsəydim, mənim üçün daha yaxşı olardı!

Hər halda – səhv, ya düz elədiyim illər kərpic kimi üst-üstə pərçimlənib göylərə ucalır.

Yaşadığım illər haqqında düşünəndə yaşaya bilmədiyim illər haqqında da düşünürəm, əslinə qalanda yaşadığım illər elə yaşaya bilmədiyim illərdir ki, fikrimdə, xəyalımda dolanır, məni səhv yoldan çəkindirib düzgün yola sürükləyir.

Düz yolla addımlamaq şərəfli olduğu qədər çətindir! Bunun üçün insanda hədsiz güc, bilik və bacarıq gərəkdir! Xeyirlə şərin, işıqla qaranlığın çarpışdığı dünyada ikincilər birincilərə müvəqqəti qalib gəlsələr də, son nəticədə məğlub olurlar. Hökmən məğlub olurlar. Yalanın, iftiranın, şərin, böhtanın üzə çıxması üçün müəyyən zaman kəsiyi lazımdır və bu müəyyən zaman kəsiyi imkan verir ki, xeyir, düz, saflıq, şəffaflıq baltalanıb kəsik-kəsik olsun!

Yaşadığımız, yaşaya bilmədiyimiz illər gözəldir! Biri-birin-

dən gözəldir! Ona görə ki, bizim dünyaya gəlişimiz, yaşamağımız özü böyük bir xoşbəxtlikdir! Eyni Günəş altında yaşayan insanlar bir-birlərinə borcludurlar! Burada söhbət maddiyyatdan yox, mənəvi çalarlardan gedir. Özü də irqindən ,dinindən asılı olmayaraq bütün insanlar!

Yaşadığımız illər haqqında düşünürəm! düşündükcə görürəm ki, rast gəldiyim minlərlə insanın hər birinin özünəməxsus yaşam tərzi, xarakteri var və bu xarakterlər həddindən artıq mürəkkəbdir! İnsanların qəlbini, fikirlərindən keçənləri oxumaq süni yumurta istehsal etmək deyil ki?!

Və o mürəkkəb xarakterli insanların səbəbindən yaşaya bilmədiyimiz illər peyda olur, insanlar insanların yaşayış tərzinə təsir göstərir, müəyyən hadisələrin sərbəst gedişinə sədd çəkirlər.

İnsan dünyada olan vəhşilərin ən vəhşisidir! Şir meşənin ən güclüsü olsa belə, insan zəkasının yaratdığı silah onu uzaqdan asanlıqla məhv edə bilər. Bunun üçün bir tüfəng gülləsi kifayət edər. Ancaq insan təkcə şiri yox, bütün  dünyanı məhv edən silahların da yaradıcısıdır.

Yaşadığımız və yaşaya bilmədiyimiz illər bizlərin alın, tale yazısıdır!

Biz bu qismətdən qaça bilmərik! Kirayənişin qaldığımız qoca dünyanın sevinci və kədəri, gülüşü və göz yaşları alnımızdan açılan qırışların yol yolçularıdır!

Yolumuz açıq olsun ki, bəxtimizə düşən həyatı yaşaya bilək!

Yaşamaq gözəldir, qardaşım!

# DÜŞÜNCƏLƏR...
# DÜŞÜNCƏLƏR...

1. Gecə ağ vərəq kimi dizimin üstə sərilib. Barmaqlarımı ulduzlara batırıb o ağ vərəqlərin xətləri üzərində gəzdirirəm. Mahnılarım sevinc və qəm doludur. İnsan ömrü boyu sevinə bilməz. Hətta sevgili günlərində insan kədərlənir.

***

2. İlk sevgi anadan təzəcə doğulmuş uşağın şəklinə bənzəyir. O şəkil sonralar çəkilmiş şəkillərdən fərqlənir – sənə daha yaxın, müqəddəs və unudulmaz olur.

***

3. Onun xatirə dəftərinə çoxlu adlar yazılmışdı. Mənim ona bağışladığım qızılgül dəftərin vərəqlərin arasında təravətini itirdi.

***

4. Hamı nəğmə oxuyur və hamıya elə gəlir ki, onun oxuduğu nəğmədən gözəl nəğmə yoxdur.

***

5. Bəzən aydınlaşdırmaq olmur ki, nəyə görə qəmli mahnıları çox sevirik.

***

6. Qocaldıqca insanın nəfsi iti olur.

***

7. Qışda Günəşin parıltısı üçün darıxırsan. Ona görə qızılı şəfəqləri görəndə çoxlarının çöhrəsinə təbəssüm və mərhəmət qonur.

***

8. Günəşdə partlayış var!

***

9. Bir kibrit çöpü bir eli yandıra bilər.

***

10. İydə çiçəyinin ətri və may günəşinin işığı boranlı ömür qədər əziz və sevimlidir.

***

11. İnsan anadan olandan ölümə doğru addımlayır.

***

12. Gecənin-gündüzün yaxşısı, yamanı, uzunu-qısası yoxdu. Hər şey əhval-ruhiyyədən asılıdır.

***

13. Ürəyimin istədiyi bir mahnını ürəyim istəyincə oxuyuram.

***

14. Yağışlı havada insan qorunmaq üçün dağdakı yeganə palıd ağacının altına qısılır, göydə çaxan ildırımın zərbəsi meşəni yox, o ağacı tutur.

***

15. Gözlərim göy üzünə dönmüşdü – leysan yağışları yağırdı.

***

16. Sarışın saçların gözlərimdə bərq vurur.

***

17. Sən özün məcbur edirsən ki, mən dəyişim.

***

18. Dünya əbədi deyil, bunu əbədi olaraq unutmaq xoşbəxtlikdir.

***

19. Sabah yağış yağacaq, onun damcıları indidən gözlərimdə toplanır.

***

20. Baxışların şimal küləyinə yaman oxşayır.

***

21. Ulduzların sayı-hesabı yoxdu: gecələr ulduzların arasından özünə bənzərini axtarsan da tapa bilmirsən və səhərlər Günəşin işığında o ulduzları axtarmaq yadına düşmür.

***

22. Həyatda hər kəsin öz dili var: gərək hər kəslə öz dilində danışasan.

***

23. Kiminin ağlı, kiminin əli, kiminin də dişləri qızıl olur.

***

24. Əgər təmkinlə susursansa, bu qiymətlidir.

***

25. Sevirsənsə, həyat sənin üçün gözəl və yaşamlıdır.

***

26. Oğul üçün dünyada ən güclü insan atadır.

***

27. Bu gün xoşbəxtlik səndən uzaqdırsa, sabaha inamını itirmə. İnan ki, xoşbəxtlik həmişə sonradan gəlir.

***

28. Üstünə düşən kölgəni həmişə özündən uzaqlaşdırır, çünki o kölgə ömrü boyu səni qarabaqara izləyəcək.

***

29. Yuxuda gözlərinə qonan təbəssüm günəşin dünyanı işıqlandırması ilə eynidir.

***

30. Dünya fikir dünyasıdır, ancaq yüz fikir bir borcu ödəmir.

***

31. Sənin mənə deyə bilmədiyin sözlər mənim sənə deyə bilmədiyim sözlərlə həmqafiyədir.

***

32. Ömrünə yağan yağışların ardı-arası kəsilmir. Bu yağış deyəsən heç kəsməyəcək.

***

33. Dağlar axşamüstü daha böyük, uca və kədərli görünür.

***

34. Bəyaz tellərinin həsrəti mənə, özü isə sənə qaldı.

***

35. Bəzən adi bir kağız parçası canlı insandan etibarlı və inamlı olur.

***

36. Səbrsiz insanları qorumaq üçün səbrli adamlar lazımdı.

***

37. Natəmiz adamlar həmişə təmizlikdən danışırlar. Əxlaqsız adamlar əxlaqdan.

***

38. Sənin məhəbbətin yarpaqlar kimidir – heç vaxt təravətini itirmir.

***

39. Bəlanın təhlükəlisi üzə gülə-gülə gələnidir.

***

40. Əgər səsim sənə yetmirsə, deməli hələ qışdır.

***

41. Sənin verdiyin əzablan məni cəsur və mübariz etdi.

***

42. İnsan ehtiyacın əsiridir. Ehtiyac ucundan yaranıb və ehtiyac onu hər cür yola sürükləyir.

***

43. Sənə sevgi dolu məktublar yazdım. Yan-yana düzülən sözlərin ürəyimin atəşi olduğunu anladım.

***

44. Sabahkı günün də öz qisməti var.

***

45. Yül Renarın "Gündəlik"ini oxuyuram.

***

46. Külək gecəni yatmağa qoymurdu.

***

47. Özgəyə bağışladığın hədiyyə onun qəlbini fəth etməyindir.

***

48. Gənclik illərində vaxtın gec, ahıl yaşlarında tez ötdüyündən gileylənirsən.

***

49. Sənə qayıtmaq ümidim ölməyib. İllər bir-birini əvəz etdikcə bu daha da güclənir.



***

50. Gündüzün bütün üfunətləri gecənin zülmətində yox olur.

***

51. O, ilan xislətli olduğunu bilir.

***

52. Qəhrəmanların ölümü də qəhrəmancasına olur.

***

53. Həyatda istedadsız insan yoxdur – dəlinin məharəti onun dəli olmağındadır.

***

54. Fikirlərim qarmaqarışıqdır – sənin gözlərinlə ulduzları qarışıq salıram.

***

55. Sözün düzü o adamlar üçün acıdır ki, onlar çirkabın, üfunətin, cinayətin içində üzürlər – hər şeyi özlərindən kənarlaşdırmaq üçün dəridən-qabıqdan çıxırlar.

***

56. İstedadın qarşısını almaq üçün heç bir maneə yoxdur – onu məhv etməkdən savayı.

***

57. Günlər çəkilib atılmış papiros kötüklərinə bənzəyir.

***

58. Bəzən kiminsə yaşamağındansa, ölümü daha şərəflidir.

***

59. Qadını pişiyə daha çox oxşadırlar. Pişik isə tumarlanmağı sevir.

***

60. Günlər yol boyunca baş-başa verən sərv ağacları kimidi – biz ömür payımızda onları saya-saya gedirik.

***

61. Görüş yerləriymiş,
görüş yerləri.
Təmiz məhəbbəti
ucuzlaşdıran.

***

62. Kişi üçün qadın xəyanətindən ağır zərbə yoxdur.

***

63. Sənin ömrün göz yaşımın bir giləsinə dəyməzmiş...

***

64. Qəlbimdə alovlanan sevgi işığını istəsən də söndürə bilməzsən, sənin əllərin o işığın kölgəsindən çox-çox uzaqdadı.

***

65. Keçmiş arxada qalsa da, heç zaman ölmür.

***

66. Bəzən fırtınalarla dolu dənizin yelkənsiz gəmisi kimi sahilə - limana can atıram.

***

67. Qorxu cana kafirdir.

***

68. Bəzən haqlı olursan. Görürsən ki, göz görəli haq-nahaqqın ayağına verilir. Nahaqqı törədənlər sənin səsini dördəlli boğmağa çalışırlar (boğurlar). Sən təklənir, lakin mübarizə aparırsan. Haqqı sübut eləyincə səninki sənə dəyir və haqq o zaman üzə çıxır ki, nahaqqı qoruyanlar səhnədən silinirlər. Bu isə gec və lüzumsuz olur. Sən gəncliyini, əsəblərini və həvəsini itirirsən.

***

69. Təkcə xatirələrim özümündü, onu məndən heç kim ala bilməz.

***

70. Dünya kibrit qutusu,
Günlərsə dənələri.
Özümüz yandırırıq,
Ondakı gilələri.

***

71. Həyatda bütün insanlar bir-birlərinə borcludurlar.

***

72. Ürəyinin sirrini tez açmağa tələsmə.

***

73. Sənin alxışınla,
Yaranmamışam,
Sənin qarğışınla,
Ölməyəcəyəm.

***

74. Atamın ömrünə bənzər bir ömür yaşayıram.

***

75. Sənə gənclik illərindən gətirdiyim salam bütün hər şeydən qiymətli və təravətlidir.

***

76. İnsan nə vaxtsa özünə əzab verməkdən bezir.

***

77. Həyat sənə də, mənə də bir dəfə bəxş olunub; sənin laqeydliyinə mən onun bir anını belə bağışlamaram.

***

78. Sağlamlığınızın qədrini sağlam olanda bilin.

***

79. Müəllim – cəza verən deməkdir.

***

80. Sən mənim üzümü ağartmaqdansa, saçımı ağartdın.

***

81. Şəhanə baxışlarla heç kimə məhəl qoymadan ötüb keçirsən. Hər şeyə biganəsən. heç özün də bilmirsən ki, gözəlliyin üstündə gəzdiyin torpağa çökür. Təbiət sənin gözəlliyindən gözəllik donu geyinir.

***

82. Neçə ki, uzaqlarda, əlçatmaz zirvələrdəsən – zahirən kölgəli, ağlagəlməz fikirlərə qərq edilən bir insansan. Yaxınlaşdıqca, bundan əsər-əlamət qalmır. Hər şey çılpaqlığı ilə özünü büruzə verir.

***

83. Bu gün kiməsə etdiyin yaxşılıq, pislik – hər nə varsa, borcdur. Sabah olmasa da, biri gün qarşına çıxacaq.

***

84. Dünya mənim dostumdu.

***

85. Yaxşı adamlar düşmən sarıdan korluq çəkmirlər.

***

86. Kiçik balıqlar quruda da yaşaya bilərlər. – böyük balıqlara dənizlər, okeanlar gərəkdir.

***

87. Sən mənim yuxularımın şahzadəsisən.

***

88. Ağacın bir budağı sınırsa, onda ağac da, budaq da əziyyət çəkir.

***

89. O böyük bir ağacın ayrılmış budağı idi, bu budaq var-gücüylə kökünə yapışmağa çalışırdı.

# HEKAYƏLƏR

# MİLYON DOLLARLIQ NAHAR

*Heç nəyim yox idi, çox şeyim vardı,*
*Hər şeyim var mənim, çox şeyim yoxdu.*

– ...milyon...

Qadın danışırdı, bunu dodaqlarının tərpənişindən, bir-birinə toxunmasından hiss edirdi. Qalan nə danışırdı, nə deyirdi – eşitmirdi, sözlər ağır daş kimi başına, fikirlərinə toxunub qayıdırdı. O, gözəl idi. Saçının düzülüşü son Avropa modelinə uyğun gəlirdi. Üzünün, alnının qırışları usta tərəfindən məharətlə örtülmüşdü. Bu onu gənc göstərirdi. Özünə də otuz beş, otuz yeddi yaş ancaq vermək olardı. Yaşı ilə tutduğu vəzifənin arasındakı məsafə onu deməyə imkan verirdi ki, xanım yüksək elitanın adamlarındandı.

Dodaqlar qımıldanır, xanım bəzən əl-qol hərəkətləri edirdi, lakin bir addımlıqdan o səsi eşitmirdi. Əvəzində qara kölgəli nəhəng adamlar növbə ilə xanımın üstünə düşüb yavaş-yavaş yox olurdular. Divardan asılmış şəkillər, saat, otaqdakı italyan mebeli, onun içindəki kitablar quru taxta kimiydi.

Con Makkaynın də varlığı-yoxluğu bilinmirdi. Oturduğu yerdə müqəvva kimi durmuşdu. Əli çənəsindəydisə, deməli nəyisə saf-çürük edir. Söhbəti başa düşmür, ümumi vəziyyətdən xəbərdardır.

Pəncərədən Xəzər dənizinin Günəşi əks etdirən dalğalarının parıltıları görünür. Sahil dənizin ortasından, pəncərədən görünən kəsikdən başlanır. Con istəsə də, istəməsə də başını qaldırıb düz baxsa, dənizi görəcək. İndi dənizin gözəl vaxtıdı. Yayın cırhacır istisində Novxanıda, Pirşağıda, Bilgəhdə olasan, narın qumun üstə uzanıb dincini alasan. Bu Con üçün də maraqlı olar. Həm də yorğunluqları çıxar. Gərgin iş rejimindən ayrılıb hər şeyi unutmaq, heç olmasa bir-iki saat qum üstündə uzanıb gözünün yuxusunu almaq – bundan əvəzsiz heç nə ola bilməzdi. Elə xanımın sözlərinin daşa dönmüş başına dəyib qayıtmasının səbəbi də elə bu idi. Təyyarədə, ya xidməti maşında gözünün çimirini almaqla iş keçməzdi.

Londondan Moskvaya uçuşu təxirə salıb Bakıya gəldilər.

Sadə iş rejimləri vardı. Diləfruz xanımla görüşməli, sonra Dənizkənarı Parkda oturub nahar etməli və Bakı–Moskva reysi ilə qayıtmalı idilər. Con iki il bundan öncə Bakıda olmuşdu. Onda yarpaq dolması çox xoşuna gəlmişdi və hansı məclisdə olsa, dolmadan ağızdolusu danışırdı. İndi Conu xəngələ qonaq edəcəkdi. Özü də nə vaxtdandı qurutlu xəngəlin həsrətində idi. Anası tez-tez bişirərdi. Bir ovuc inək yağını qarından çıxarıb əridər, üstündə soğan qızardardı. Xəmiri yayar, əlinin qırağı ilə düz kəsərdi. Anasının əlləri xətkeş idi, kəsik xətt düppədüz alınardı. O, anasının dördkünc kəsdiyi yarpaqları qazandakı qaynar suya atardı. Sonra həmin qazanı vedrənin üstündəki aşsüzənə boşaldardı – həlim vedrədə, kündələr aşsüzəndə qalardı. Aşsüzəni iri siniyə, boşqablara boşaldar, üstünə əvvəlcə qurut, sonra ərinmiş yağ-soğan tökərdi. Qəribədir, anası evdə nə qədər çəngəl olsa da, onlara verməzdi. Əllə yeyərdilər. Dodaqları, əlləri yağlı, bəzən də qurutlu olardı. Anası ağ, quru əski parçasını stolun üstünə qoyub "ağzınızı, əllərinizi dəsmalla təmiz silin" deyərdi. Nə qədər silsən də yağ dodaqlarında, onun ətrafında qalırdı.

Ailələri böyük idi: beş qardaş, üç bacı idilər. O, evin üçüncüsü idi. Leninin adını daşıyan kolxozda kolxozçu işləyən atasının, anasının əməkgününə cüzi miqdarda pul düşürdü. Qış aylarında isə pul ümumiyyətlə, heç olmurdu. Həyətyanı sahəni becərir, meyvə ağaclarına qulluq edir, mal-qara, toyuq-cücə saxlayırdılar. Evlərində xüsusi bölgü vardı, hamının görəcəyi işlər bəlli idi. O, böyük qardaşları ilə çöl işlərində atasına kömək edirdi. Həyətin əkilməsi, becərilməsi, ot biçini, mal-qara növbəsi onların üzərinə düşürdü. Ev işləri, toyuq-cücənin yemlənməsi anasının, qızların, kiçik qardaşlarının işləri idi. Böyüklərin sözü kiçiklər üçün qanun idi. Süfrədə böyüklər çörəyə əl uzadıb "bismillah" deyəndən sonra onlar yeməyə başlayırdılar.

Artıq israfçılığa yol verilməz, evə alınan əşyalar təmiz, səliqəli saxlanar, nadir hallarda sındırılardı. Bir dəfə bacısı qabları yuyanda stəkanın birini sındırdı. Ağlamaqdan gözləri qızarmış bacısının hıçqırıqlarını güclə kəsdilər.

Kasıb evlərini, daş döşənmiş həyətlərini, məhəllələrindəki

ağacları, heyvanları böyük məhəbbətlə sevir, qoruyurdular.

– Ana, qırmızı cücənin kefi yoxdu, yamanca sozalıb. – Bacısı cücəni qucağına alıb sığallayırdı. Anası cücəni görən kimi evə keçir, ikigözlü qaz peçinin qapısını açırdı. Buraya dərmanlar qoyulurdu. Sarı dərmanın birinin qırağını qoparırdı.

– Həvəngdəstədə əz, üstünə azca su tök, içirt. Keçib gedəcək.

Qonşunun boz pişiyi vardı, pələngə oxşayırdı, toyuğun fallığına dadanmışdı. Yumurtaları sındırıb içirdi. Balaca Gülgəzin işi fallığa baxmaq idi. Toyuqları gözləyirdi, yumurtlayıb qaqqıldayan kimi yumurtanı götürüb qiymətli əşya kimi yaşıl vedrəyə qoyurdu.

– Yazını yazmısanmı?

– Dərslərimi hazırlamışam. Təkcə çil toyuq qalıb, onun da yumurtasını götürüm, sonra gedib yazacam.

Onun qırmızı atı. Adını Qızıl qoymuşdu. Sinif yoldaşı, kolxoz sədrinin oğlu Məzahir onu lağa qoyub demişdi ki, sən gərək atının adını Qızıl yox, Mis qoyaydın. O da borclu qalmamışdı.

– Bəyəm sənin atan Koroğludu ki, sən atının adını Qırat qoymusan?

...Nobata gedəndə Öküz dağında, çoban Əsgərlə rastlaşdı. Əsgərin atı otlayırdı, balası da yanında. Dayça iki aylıq olardı. Elə gözəl idi ki... Atın belində xurcun vardı. Əsgərin yeməyi, paltarı onun içindəydi. Plaşını qatlayıb yəhərə bağlamış, qamçısını kəndirə keçirmişdi. O an elə bildi ki, əsgər kəndin ən varlı, xoşbəxt adamlarından biridi. Kaş onun da atı olaydı. Kitablarda at şəklinə dönə-dönə baxır, sonra xəyalında təsəvvür etdiyi atın şəklini yaddaşına köçürürdü. At minən uşaqlara həsədlə baxır, bəzən dözə bilməyib "Ver atını mən də minim" deyərdi. İndi yaddaşındakı at gözünün qabağındaydı: bapbalaca, gözəl. Əlacı olsaydı, cumub qucağına götürər, düz evlərinəcən aparardı.

Dayça anasından on beş-iyirmi metr aralıda, cığırda dayanıb ətrafa boylanırdı. Onun qayğısı yox idi.

Əsgərlə yanaşı oturdular. Əlindəki iri gərməşov ağacını yanına qoyub papağını başından çıxartdı, çırpdı.

– Gün döndü – dedi. – İnnən belə çətin olmayacaq. Yo-

rulmadın?

– Yox, Əsgər əmi. – Yemək torbasına əl vurmamışdı, odur ki, ağır idi.

– Uşaqlardan sənə kömək eliyəni yoxdumu?

– Özüm istəmirəm, Əsgər əmi. Mənim üçün maraqlı, həm də asandı. – Arada sükut oldu. Əsgər kənddən gələn yola baxırdı.

– Bəs sən gecə komada qalmaqdan qorxmursanmı, Əsgər əmi? Bizim evdən comanız görünür. Gecə lampanızın işığı elə gur olur ki.

– Öyrəşmişəm, ay oğul. Əvvəla yaxşı itlərimiz var, səhərə kimi sürünün yanında olurlar. Həm də qoşalülə tüfəngim var. Başımın üstündə olur. Bu dağlarda canavar çox olur. Onlar da itlərin qorxusundan yaxına gələ bilmirlər. Elə də olur ki, dəstə halında gəlirlər. Bir neçə dəfə mənim başıma gəlib. Gərək yatanda sərvaxt olasan. İtlərin səsinə qalxdım. Birini öldürdüm, biri yaralandı. Qaçıb aradan çıxdılar.

Əsgərə naharın vaxtının keçdiyini dedi, onun cavabını gözləmədən torbanın ağzını açdı, dəsmalı ikisinin arasına sərib çörəyi, pendiri, yumurtaları, göy soğanı ortaya düzdü.

Əsgərin söhbəti ona şirin gəlirdi. Sən demə, anası ilə Əsgər bir sinifdə oxuyublarmış. Məktəb illərindən, dəcəlliklərindən, müəllimlərə gizli tələ qurduqlarından danışdı.

– Çox döydülər, çalışdılar, oxumadım. Yaxşı zehnim vardı. Nə olsun. Əksər yoldaşlarımız ali təhsil aldılar, məni də özün görürsən.

Süfrəni yığıb ayağa qalxdılar. Aralananda Əsgər qayıdıb soruşdu ki, onlar təsərrüfat adamlarıdı, nə yaxşı bir at almırlar.

Dərdi təzələndi, ətrafa baxdı, at sürünün içindəydi, dayça da yanında.

– Mən çox istəyirəm, Əsgər əmi.

– Əlbəttə, atın olsa, heyvanı otarmaq asan olar. Səpində, biçində də adama çox kömək olur. Deməli, at istəyirsən. De görüm, atın olsa, ona baxa biləcəksənmi?

– Elə baxaram, hamıdan yaxşı – dedi.

– Onda o dayçanı görürsənmi, böyüsün, gəlib apararsan.

– Doğrudan, Əsgər əmi?
– Lap doğrudan. Mənim sözüm sözdü.
– Bəs əvəzində nə alacaqsan?
– Əvəzində səndən onu istəyəcəm ki, ona yaxşı baxasan.
Sevincinin həddi-hüdudu yox idi. Yer, göy sanki ona bağışlanmışdı. Qanad açıb uçmaq istəyirdi. Evə gələndə onu tanımaq olmurdu. Hələ soruşdular ki, sənə nə olub. "Heç nə" deyib birtəhər ötüşdü.

Özü də hiss edirdi ki, əvvəlki adam deyil. Tez-tez yuxusunda müxtəlif rəngli, qəribə atlar minib möcüzəli yerlərdən keçir, gözə görünməyən adamların səsini eşidirdi. Ta o vaxta kimi ki, Əsgər ona ismarıc göndərdi. O, Öküz dağına – Əsgərin arxacına gəldi, dayçanın kəndirini ondan alıb evə gətirdi. Elə bil evdəkilər – hətta atası da ömründə at görməmişdilər. Dayçanı həyətdəki çökə ağacına bağlamışdı. Hamı onun ətrafına dolanır, başına, üzünə, saçına, quyruğuna, ayaqlarına baxırdılar.

Dayça həyəti gözdən keçirir, gah sakit, gah da hürkək halda dayanırdı. Atası "çox yaxına getməyin, hələ xamdı" – dedi və evə keçdi.

– Hə, qoyun heyvancığaz özünə gəlsin. – Anası atasının sözünə güc verdi. Balaca Aysel sevincindən həyəcanlı danışırdı.
– Qardaş, bu at həmişəlik bizim olacaq.
– Bəli.
– Mən ona əppək versəm, yeyər?
– Yox.
– Bəs o nə yeyir?
– Ot.
– Gedim gətirim?
– Yox, bir azdan aparıb otaracam.

***

...Daha Diləfruz xanımı eşidə bilirdi.
Diləfruz xanım: – Bu yoldaş kimdi? Heç tanış etmədiniz?
O: – Bu yoldaş bizim şirkətin vitse-prezidenti Con Makkayndır.
Con başı ilə məmnunluq işarəsi bildirdi, azca da gülümsədi.

Diləfruz xanım: – Bəlkə söhbəti ingiliscə arağaq. Biğdən yaxşı çıxmaz.

O: – Qətiyyən. Narahat olmayın. O, öz işini gözəl bilir.

Diləfruz xanım: – Göğüğsüz də! Gəğək həğ şeyi mən yada salım, mən göstəğiş veğim. Milyon dəfə demişəm, milyon dəfə tapşığmışam ki, qonaq gələndə çay veğin.

(Düyməni basıb hirslə çay süfrəsi açmağı əmr etdi.) Heç elə də şey olağ? Ləyaqətli qonaqlağ, uzaq yol gəlibləğ. Bəs bizə nə olub? Biz sizinlə fəxğ edigik. Biliğik ki, lobbimizin ən fəal üzvləğindənsiniz. Bunu deməyə əsas vağ. Hətta ən yüksək daiğələğdə sizə münasibət çox yüksəkdi.

Diləfruz xanımın ikinci səsi: – Sən xaricdə kifayət qədər var-dövlətə sahib olan həmyerlimizsən. Bunu böyükdən-kiçiyə hamı bilir. Çoxdan istəyirdim ki, belə bir görüşümüz olsun. Nələr eləmisən, nələr eləməmisən, bu sənin şəxsi işindi. Məni maraqlandıran ilk öncə özüməm. Özümü qiymətləndirməyi bacarmasam, ətrafı necə qiymətləndirə bilərəm?

O: – Layihələrimiz çoxdur. Həm Azərbaycanda, həm də dünyada. Genişmiqyaslı bir proqramdı. Əgər hamısını istənilən səviyyədə həyata keçirsək, nəticəsi müsbət olacaq.

Diləfruz xanım "əlbəttə, əlbəttə" deyib başı ilə onun sözlərini gülərüzlə qarşıladı. Nə qədər tələsdiyi hiss olunsa da, mətləb üstə gələ bilmirdi. O da ovsunlanmışdı. Xahişini dilə gətirməyə sanki utanırdı.

Anlar ötdükcə ağırlıq artırdı. Bunu Conun baxışlarından hiss etmək olardı. O, əməlli-başlı darıxırdı. Bu hal hadisələri sürətləndirmək əvəzinə keçid üçün söhbəti uzadırdı. Əslində o da, Diləfruz xanım da bu görüşün məqsədinin nədən ibarət olduğunu bilirdilər. Lakin hər ikisi ehtiyat edir, ilk söz deməkdən çəkinirdilər. Diləfruz xanımın mobil telefonu zəng çaldı. Səs sükuta qərq olmuş otağın səssizliyini pozdu. Cenifer Lopesin mahnısı ətrafa yayıldı. Con heyrətdolu təəccüblə telefona baxdı. Müğənni sanki ən böyük salonda konsert verirdi.

Diləfruz xanımın səsi: – Alo Mən yaxşıyam. Sən necəsən? Təki, təki. Həə. Həə. Həə. Yaxşı. Göğək də Yəqin ki. Nəzağəti biğ an da gözdən qoyma. Sağ ol. Mən də.

Diləfruz xanımın ikinci səsi: Alo. Sənsən. Hə. Mən yaxşı-

yam. Sən necəsən? Az, gəlib çıxıb. Oturublar. Bir ingilisnəndi. Söhbətə təzə başlamışdıq. Hərif özünü elə aparır ki, deyirsən acın-gicin biridi. Zərifəni də tanıyıb-eləmir. Guya Moskvanın barlarında çaşqa-loşqalıq eləyənlər bunlar deyil. Görüşməyiblər? Bəs bunun quyruğunu basan kimi hardan peyda oldu bu milyarder? Məktub yazıb? O dedi, sən də inandın. Əşi, nəyimizə lazımdı. Bizə nə lazımdı? Ay sağ ol. Yetimxanaya verirsən, dəlixanaya verirsən. Bəs biz burda nəyik? Bambılı deyilik ki? Ciddiyəm. Özün məni tanımırsan?

***

..."Qızıl" gündən-günə böyüyür, gözəlləşirdi. Bütün heyvanları bir yanaydı, o bir yana. Ailənin bütün üzvlərinin mehr saldığı heyvan sığallanır, əzizlənir, yeniləşirdi. Atı axşamlar çöldə qoymurdular, "birdən canavara-zada urcah olar" deyir, tövləyə bağlayır, ötən ildən qalmış otdan verirdilər. Ancaq Ələmdar kişinin sözləri onun ağlına batdı.

– Elə ata baxmazlar. Atınkı təzə otdu. Otlu yer tap, otar, gecələr isə hörüklə. – Ələmdar kişi cavan vaxtı gecələr atlarını biçənəyə buraxıb otardığını, sonra güneyə hörüklədiyini danışanda düşünürdü ki, onun dediyi kimi edəcək. Ağsaqqal xüsusi vurğuladı ki, bu işi gərək təklikdə görəsən, heç kim xəbər tutmasın. Sirri ikinci adam bildisə, o sirr deyil.

Şər qarışanda atı Göl yerinə – biçənəyə gətirdi, kolxoz sədrinin yerinə buraxdı. At yaşıl otları qoparıb xırtıldatdıqca, ona ləzzət edirdi.

Kəndin gecələrinin xüsusi ləzzəti vardı. Zil qaranlıq olurdu. Ayın işığı Öküz dağının döşündəki dolayı yoldan yuxarıya düşürdü. Uzaqdakı qaraltını sezmək olmur, arada qəribə səslər eşidilirdi. Lakin o heç nədən qorxmurdu. Əsgər indi ondan da uzaqda tək gecələyir. Bir də qorxacaq nə vardı ki? Gecə vaxtı buralara it gəlməz. Canavar hücum etsə, ata minib kəndə sarı çapacaq. Kənd evləri ilə arası o qədər uzaq deyil.

Gecələrin sükutu da gözəldi. Səs-küyündən əsər qalmayıb. Yollar, izlər, çəmənliklər, dağlar, dərələr də yuxuya gedib. Bir sənsən, bir də təbiətin əsrarəngiz gözəllikləri. Doyunca tamaşa et, gör doya bilirsənmi? Güllərin-çiçəklərin, yaşıl otların ət-

ri səni bihuş edir. Dağların əzəməti səni böyüdür, müdrikləşdirir, ürəyinə sevgi, məhəbbət atəşi salır. Bu sevgi insanı saflaşdırır, hər cür çirkinlikdən kənar edir. Düşünürdü ki, gecələrin qaranlığı pisliklərin üstünə çöküb onu qanadları altında gizlədir. Çoban Əsgər niyə yaxşı adamdı? Çünki gündüzü-gecəsi dağlarda keçir. Təmiz havadan udur, saflaşır. Buz bulaqların gözündən su içir, saflaşır. İnsanlardan çox dağlarla, daşlarla, dağ kəlləri, qartallarla təmasda olur, görür, saf-çürük edir. Hər şeyin sonunu təmizliklə, düzgünlüklə, ədalətlə yekunlaşdırır. Təzə "VEF" radiosu alıb. Onu açıb xəbərlərə, musiqiyə qulaq asır.

Elə o gecələrdə ürəyindən ilğım kimi bir hiss keçdi. – Zərifə gözlərinin önündə canlandı, sonra qızın əksi gözlərinə həkk olundu, onun danışığı, yerişi, gülüşü, qara, uzun saçları xəyalında dolandı. Qızla ürəyində söhbətləşdi, ən gözəl sözləri yağış kimi başından yağdırdı. Çiçəklərin ən gözəlindən dəstə bağladı, ona hədiyyə etdi. "Sən çiçəklərdən də gözəlsən" dedi. Qız çiçəyi alıb utancaq baxışlarla ona baxdı.

"Mənə şeir yaz göndər" – dedi. Dediyi sözlər yəqin qızın xoşuna gəlməyib. Özünə acığı tutdu. Niyə yaxşı, ürəkaçan bir söz bilmir. Əzbərlədiyi şeirləri fikrindən keçirdi. Heç biri Zərifəyə layiq deyildi. Məktəbin, kəndin kitabxanalarına üz tutdu. Toz basmış kitabları alıb oxudu, Zərifəyə yazacağı şeirləri seçdi. Onları Aya, ulduzlara söylədi, söylədikcə elə bildi ki, Zərifə onun səsinə valeh olub bütün varlığı ilə qulaq asır, ürəyinin pıçıltılarını eşidir.

– Sən atına nə verirsən ki, belə gözəl olur?

Əlihüseyn sualı həsəd və maraqla verdi. Gözünü onun atından çəkmirdi. "Qızıl" indicə kolxoz sədrinin oğlunun atı ilə ötüşmüş və qalib gəlmişdi.

– Sevgi və məhəbbət.

Əlihüseyn bu cavabdan tutuldu, o dəqiqə də "baa" dedi. Cavab onu qane etməmişdi. Sevgi, məhəbbətlə də at bəsləmək olar? Ata ot-alaf verərlər, yem verərlər.

– Deyirəm, Məzahirin atı kolxozun yemindən o qədər yeyir, ancaq sənin atını keçə bilmir. – Əlihüseynin sözü ağzında qaldı. Məzahir başının dəstəsi ilə gəlmişdi.

– Sən bizim biçənəyi otardırsan. – Onsuz da hirsli idi. Atı-

nın uduzmağı onu özündən çıxartmışdı. Odur ki, atı Göy çökəkdə buraxmışdı. Ona fikir vermədi.

– Sənnən döyəm? Guya eşitmirsən?

– Mənnənsən?

– Hə, sənnənəm. Gecələr atı buraxırsan bizim biçənəyə. Bütün otu otartmısan.

– Nə bilirsən mən otartmışam? Görmüsən?

– Görməmişəm.

– Kim deyir ki, mən atımı sizin biçənəkdə otarıram? Yəqin bir görən olar də?

– Deyirlər.

– Kim deyir? – Məzahirin susması onu ürəkləndirdi. – Elə boş-boşuna deməklə deyil ki? Mən necə at otarmışam ki, onu görən olmayıb.

– Orda at nəcisi var.

– Nə bilirsən ki, o mənim atımındı? Bəlkə analiz aparmısan? Hamının atı var, özü də məndən qabaq. Get, axtar, tap gör biçənəyinizə girən kimdi.

– Elə bilirsən tutmayacağıq? Tutacağıq, bax onda atının ayaqlarını sındırmaq mənə borc olsun.

– Tut. Tutmayan da, sındırmayan da heç kişi deyil.

“Kişi deyil” sözü Məzahirin xoşuna gəlmədi, həm də yanındakılar onu qızışdırdılar ki, gör kim sənə nə deyir.

– Sən mənə kişi deyil deyirsən?

Məzahir açıq-aşkar dava eləmək fikrində idi. O isə nə Məzahirdən, nə də onun yanındakılardan çəkinmirdi.

– Mən dedim ki, atı biçənəkdə tutmayan kişi deyil.

– Yox, sən mənə kişi deyil dedin. – Əl atıb onun yaxasından tutmaq istəyərkən Məzahirin qolunu göydə tutub burdu və itələdi. Məzahir müvazinətini itirib arxası üstə yıxıldı və diyirlənib çökəyə düşdü. Dava başladı. Üzbəüz, qol-qola dartışdılar, çalışırdı ki, boynunu onun əlinə verməsin, belə olsaydı, ağır bədənli Məzahir onun boynunu qoltuğuna alıb sıxacaq, nəfəsini kəsəcəkdi. Hirsli olduğundan gözü heç nəyi görmür, əl-qolunu hara gəldi atırdı. Məsafə saxlayır, müdafiə olunur, özünü elə göstərirdi ki, guya qorxur. Məzahir hücumdaydı, qorunmaq haqqında düşünmür, onu əzişdirəcəyini düşünürdü.

At kişnədi, bu sanki ona qol-qanad verdi, birdən şığıyıb

Məzahirin ayaqlarını dartıb yerdən üzdü. Məzahir yerə dəyib "zıqq" elədi. Alıcı quş kimi sinəsində oturub əllərini çarpazladı. Məzahir tərpənmir, "burax məni, burax məni" deyirdi. Başında gələnlər onu ayağa qaldırıb, qollarını tutdular. Məzahirin zərbəsi sol gözündən tutdu. Uşaqlar Məzahirin daha bir neçə zərbə vurmasına şərait yaratdılar.

Başında kəskin ağrılar vardı. Az sonra gözünün bir tayının görmədiyini hiss etdi. Çaya enib alnına, üzünə su vurdu. Bu ona kömək etmədi. Ayaq üstə dura bilmirdi. Evdə nə qədər soruşsalar da heç nə demədi. Bir aya yaxın gözünün qarası getmədi. Ancaq bunu əvəzsiz qoymadı. Məzahirin dostlarının payını bircə-bircə verdi...

***

...– Biliğsiniz, mən istəməzdim ki, tanınmış iş adamına əziyyət veğim. Ancaq bu qız tutduğunu buğaxmaz. Dediyi dedikdi. Nə biliğ, onu da ediğ. Milyon dəfə demişəm, ay qız, belə olmaz. Sən özünü çoxbilmiş sayığsan? Təmizsən? Hamı hamını tanıyığ, höğmət eləyiğ, bu o demək deyil ki, həddini aşasan. Milyon dəfə demişəm, biğcə dəqiqənin içində adamın qulağından tutub atağlağ çölə. Bəlkə belə deyil? Biliğik ki, siz vağsınız, biğini göğəndə, beşinə göz yumuğuq.

Diləfruz xanımın ikinci səsi: – Sən bir bu qızın boyuna-buxununa bax, tutduqlarına bax. Özünü elə aparır ki, deyirsən Nadir şahın bacısı qızıdı. Təmizlikdən danışır. Ağəz, sənin haran təmizdi? Ərinin dalınnan dəymisən, bir ayağın milyarderin yanındadı. Tək adamsan, hələ ayrı əməllərini demirəm. Sən məni saymırsan? Necə yəni onun idarəsinin mənə dəxli yoxdu? Mən bu rayonun böyüyüyəm. Mənə ayda bir dəfə salam verməlisən. Necə lazımdı elə... Salam... Salam... Salam...

...Əsgərlikdən təzə qayıtmışdı. Atası iri bir cöngə kəsdi, qonum-qonşu təbrikə gəldi – təkcə sədrdən başqa. Yay vaxtı olduğundan Məzahir də, Zərifə də kənddə idilər. Onlar ali məktəbdə oxuyurdular. Məzahirlə onsuz da küsülü idi, ancaq kin saxlamırdı. Üzbəüz gələndə ürəyindən görüşmək keçsə də alınmırdı – Məzahir sifətini turşudub üzünü yana çevirirdi. Sonra onu ağ "Jiquli" sürən gördü. Zərifə, anası da maşında

idilər. Qızla görüşə bilməsə də, söz-söhbət kəndi başına götürmüşdü. Onun adını Zərifə ilə qoşa çəkirdilər. Ancaq o bunu yaxşı hal saymırdı. Qızla görüşməmiş, bir kəlmə kəsməmiş, onun fikrini dəqiqləşdirməmişdi. Buna nə qədər cəhd göstərsə də, alınmamışdı. İki il hərbi xidmətdə olduğu vaxtda Zərifə tibb universitetinə qəbul olunmuşdu, indi ikinci kurs tələbəsidi. Yaxşı ki, onu istəyən yox idi. Olsaydı, hər halda söz-söhbət çıxardı. Budur, əsgərlikdən qayıdıb, qız da tətildədi. Kənddə onunla necə görüşsün? Mümkün olan iş deyildi. Risk etmək də olmazdı, hər hansı bir artıq hərəkət hər şeyi alt-üst edərdi. Alt-üst edənsə, başqa şey oldu. Kolxoz sədri atası ilə mübahisə etdi, axırda onu acıladı.

– Oğlun sərsəri kimi evimin başına dolanır. Getsin anqırsın tayını tapsın. Mənim qızım onun tayı deyil. Mən qızımı milyonçuya verəcəm.

– Atan səni milyonçuya verəcək, sənin fikrin nədir? – Klubda hind kinosuna baxanda Zərifədən sinif yoldaşı Səba soruşmuşdu. – Bu onun üçün çox vacibdir.

– Mən heç nə deyə bilmərəm.

– Bu cavab deyil. Sən də uşaq deyilsən.

– Heç olmasa oxusun, bir yerə girsin.

– Oxuyacaq, özü də yurfaktı oxuyacaq. Deyir ki, məni gözləsin...

Üç gündən sonra kənddən çıxdı. Evdəkilərdən başqa çoxunun bu işdən xəbəri olmadı. Soruşanda deyirdilər ki, Bakıya işləməyə gedib. Əslində isə o hərbi xidmətdə olduğu Krasnoyarsk şəhərinə getmişdi. Tikintidə işə başladı, fəhləlik edə-edə universitetdə oxudu. Hüquqşünas olsa da, o sahədə işləmədi. Tikinti şirkətində işləri yaxşı gedirdi. Artıq üçüncü kursda oxuyanda icraçı direktor Anatoli Vasilyeviç Merzyakov onu şirkətdə məsul vəzifəyə təyin etmişdi. İşi ağır və məsuliyyətli idi. Şirkət təkcə ölkə daxilində deyil, xaricdə də hündürmərtəbəli binalar inşa edirdi. Müqavilələrin imzalanmasını Anatoli Vasilyeviç ona etibar edirdi.

– Mən onun təmizliyinə, obyektivliyinə, bacarığına, ən əsası təşəbbüskarlığına inanıram. – İcraçı direktorun bu sözləri ona paxıllıq edənlərə cavab idi. Onu sevənlərin sayı daha çox

idi. Bu istəyi o öz davranışı, mədəniyyəti ilə qazanmışdı. Xarici səfərlər bir-birini əvəz etdikcə, şirkətin əlaqələri genişlənir, maddi durumu yüksəlirdi. Vətənə gəlmək imkanı olmasa da, o kənd ilə müntəzəm əlaqə saxlayırdı. Kənddən tez-tez məktub alır, evlərinə pul göndərirdi. Zərifə haqqında məlumatı isə Səba göndərirdi. Sevimli atını canavarın parçalaması xəbərini eşidəndə Zərifəni də tezliklə itirəcəyi ürəyinə dammışdı. Qərara aldı ki, yayda Bakıya gələcək, toy edib Zərifəni yanına aparacaq. Ancaq gec idi – Zərifə nişanlanmışdı. Zərifəyə məktub yazdı, Səbaya göndərdi ki, tez ona çatdırsın. Məktub uzun idi, nə yazdığını dəqiqliyi ilə xatırlamır.

"Səni heç kim mənim tək xoşbəxt edə bilməz". – Son cümləsi bu idi...

***

...– Çağığmışam, göğək gələcəkmi?. Adət edibləğ, hazığın naziğidiləğ. Biğ təşəbbüskağlıqlağı, necə deyim, işgüzağlıqlağı yoxdu. Bax ey, ancaq özləğini işə veğmiğləğ. Həğ şeyi tək mən həll edə bilməğəm ki?.. Elə Zəğifə xanımın özü. Sizin kimi tanınmış, məşhuğ biğ iş adamı ilə biğ kənddəndi, tanıdığı adamdı. Biliğsiz, çoxlağında qəğibə biğ psixologiya əmələ gəlib. Hamı ancaq özünü düşünüğ. Öz şəxsi işləğindən ötğü nə desən edəğləğ. Ümumi iş gələndə həğə yaxasını kənağa çəkiğ. Olmaz belə, olmaz.

"– Zərifə elə qadın deyil. Ola bilər vaxt, zaman onu dəyişdirib, ancaq, ümumiyyətlə, aramızda görüş söhbəti olmayıb. Kəlmə də kəsməmişik. Bu da bir taledi. Mən onu sevmişəm, indi də sevirəm. Onun mənə münasibətini bilmirəm. Axı, aradan çox vaxt keçib".

Con saatına baxdı, vaxtın Bakıda, Londonda, Moskvada necə olduğunu müqayisə edirdi. Sonra saatı qolunda rahatladı. Deməli, o, darıxır. Ya da hansı tədbirəsə gecikir. Diləfruz xanımın başının üstündəki saata baxdı. Söhbətləri uzun çəkib. Belə getsə "Mirvari" restoranında nahar edə bilməyəcəkdilər.

Diləfruz xanım danışırdı:

– Biğ xasiyyəti də vağ. Tələb edəndə əjdahaya dönüğ. Deyiğsən bu kimdi, nəçidi? Kak-budto mənim babamın onlağa

boğcu olub, mən indi onu veğməliyəm. Qoy gəlsin, özünüz göğəcəksiniz.

***

...Kəhər at kişnədi. Səs uzaqdan gəlirdi. Əsgər kişi ilə üzbəüz oturmuşdular. Üzünü tük bassa da, şuxluğunu itirməmişdi.

– Mənimki dağlardı. Bir gün Öküz dağına çıxmasam, özümü birtəhər hiss edərəm. Təsərrüfata baxıram. Başımı qatıram. Boş durmağa öyrəşməmişəm.

– Kiminlə qalırsan?

– Balaca ilə. O birilər Bakıdadı. Oxudular, qaldılar.

– Sənə necə baxırlar?

– Hələ ki, mən onlara baxıram. Belə, pis deyillər.

– Atın varmı?

Əsgər kişi köks ötürdü, o saat da yerində qurcalandı.

– Vardı. Bir atım vardı, məni səsimdən tanıyırdı, adam kimi dil bilirdi. Keçən il xəstələnmişdim. Məni Bakıya apardılar, operasiya elədilər. Bir az orda qaldım. Gələndə gördüm ki, atı satıblar.

– Təzəsini alasan bəlkə?

– Yox. O atdan sonra heç nə istəmirəm.

– Bəlkə o atı qaytarasan?

Əsgər kişinin gözləri dolmuşdu. Stolun üstündəki qəndqabının qapağını oynatdı, heç nə demədi.

– Nə qədər istəyir verək, atı qaytaraq.

– İndi zamana dəyişib. Bir qapıda at yoxdu. Təkcə məndə qalmışdı. Uşaqlar narazılıq elədilər ki, ot çatdıra bilmirik, kimdi o atı minən. İndi hərənin bir maşını var.

– Oğlunun maşını varmı?

– Yoox. – Əsgər kişi yox sözünü xüsusi ahənglə dedi. Bu onu düşündürdü.

– Maşın sürə bilirsənmi?

– Yox.

– Əsgər əmi, sənə bir maşının pulunu verəcəm. Oğlun səni hara istəsən aparar.

– Elə də şeymi olar, ay oğul? Razı olmaram.

– Bu söhbət bitdi. Dediyim kimi edərsən. Bu da mənim sənə bacıoğlu hədiyyəm olar...

Diləfruz xanım düymələrdən birinin sarı işığını yandırdı, “nooldu” soruşdu, o dəqiqə də düyməni basdı.

– Milyon dəfəm demişəm ki, mobil telefonlağınızı açıq qoyun. Deməknəndi? A balam, bu əl telefonu nə üçündü? Odey, hamısı kefdədi, Allah biliğ Qubada, ya Şamaxıda yeyib-içiğləğ. Bizim kimi deyilləğ ha, nə gecəmiz vağ, nə gündüzümüz. İstədim süğpğiz edim, sizi göğüşdüğüm. Nə mobili, nə də evi cavab veğiğ. Nə isə. Yenə də həğ şeyi mən öz üzəğimə götüğməliyəm. Deməli, Zəğifə xanımın ğəhbəğlik etdiyi idağənin binası köhnəlib. Binada çatlağ vağ, kanalizasiya xətləği demək olağ ki, işləmiğ. Yeni koğpusa ehtiyac vağ. Düzdü, binanın tikintisi plandadı, ancaq yubanığ.

“– Deməli, Zərifəni buna görə get-gələ salır, incidir, müxtəlif təzyiqlər göstərirlər. Bütöv tikintini bizim şirkətə həvalə etmək istəyirlər. Zərifə də bunu istəmir...”

Diləfruz xanımın adı yadından çıxdı. Cona bir işarə etdi. O, stulun yanına qoyduğu sumkanı götürüb açdı, vərəqləri gözdən keçirib ona uzatdı.

– Xanım, bu binanın layihəsidi. Bizim işimizdi. Londonda belə bir bina tikmişik. Sənədləri də hazırdı. Bu layihə ilə tikintini nə vaxt istəsəniz başlaya bilərsiniz. Sabah tikinti üçün vəsait hesaba köçürüləcək.

Diləfruz xanım kağızları götürüb ötəri baxdı, saymazyana kənara atdı. Bu onun nəzərindən yayınmadı, qadının ürəyindən keçəni göydə tutdu. Condan soruşdu ki, tikintinin tam başa çatması üçün nə qədər vəsait lazımdı. Con bir barmağını göstərib “milyon dollar” sözünü əlavə etdi.

Diləfruz xanım ayağa qalxıb divardakı saata baxdı.

– Nahağ vaxtı keçib. Siz bizim qonağımızsınız. Sizi nahağa dəvət ediğəm.

– Bir başqa vaxt.

– Haçan? Sizi tapmaq çətindi. Güclə əlimizə düşmüsüz.

– Vaxt olarsa. Tapılmayan təkcə vaxtdı.

– Sizi tapmağın yolunu daha biliğəm. Eybi yox, boğc olsun.
Ona hər şey aydın idi, odur ki, heç nə demədi.

***

Təyyarədə gözlərini yumsa da, yata bilmədi. Zərifə gözünün önündən getmirdi. Elə bil Diləfruz xanımla deyil, Zərifə ilə görüşmüş, illərdən bəri xəyalında gəzdirdiyi insanın səsini ilk dəfə eşitmiş, gözlərini yaxından görmüşdü.

– Necəsən, Zərifə?

– ...

– Heç dəyişməmisən. Gör aradan nə qədər vaxt keçib?

– Sən də. Təkcə saçın ağarıb. Ancaq bu səni daha gözəl göstərir.

– Qocalırıq. Ömür çox qısa imiş. Deyirlər insan ilk sevgisini ölənəcən unutmur.

– ...

– Dünyanın hansı nöqtəsində oluramsa olum, səni xatırlayıram. Elə bil bu sevgidən doymuram. Nə qədər sevsəm də düşünürəm ki, azdır, çox azdır. Səni göylər qədər sevməliyəm.

– Sən xoşbəxt insansan. Bu xoşbəxtliyə də layiqsən. Mənsə... heç... Ömrü yelə verdim, boş-boşuna...

– Mən bu gün nəyə nail olmuşamsa, ona görə bir Allahıma, bir də sənə minnətdaram. Sən olmasaydın, mən heç kimdim, heç nəydim. Mən sənə olan məhəbbətimdən güc alıb milyonlara sahib oldum. Elə bilirsən milyon sahibi olmaq xoşbəxt olmaq deməkdir? Sənin bircə təbəssümünü, bircə baxışını dünyanın varına dəyişmərəm. Yadındamı, at belində sizin evin yanından keçirdim, səni görmək üçün. Mən onda daha xoşbəxt idim. Bu nədi, sən ağlayırsan?.. Yaxşı görək, ağıllı ol. Bir vaxtlar atan deyirdi ki, səni milyonçuya verəcək. Gördün, düz deyirmiş...

## A N 213-ÜN QAYIDIŞI

### I

...Əvvəlcə həbsxananın dəmir qapısı cırıldadı, zərblə örtüldükdən sonra səsi binanı silkələdi. Addım səsləri hündür dəhlizin rəngi solmuş, bəzi yerlərdə palçığı tökülüb taxtaya çıxmış divarlarda əks-səda verdi. Tükürpədici səslər ağır cinayətlər törətmiş, əvəzində uzunmüddətli həbs cəzası almış məhbuslar üçün yeganə qorxu yeri idi.

Kamerada tək idi. Çöldə istidən nəfəs almaq olmurdu, di gəl soyuqdan tir-tir əsirdi. Qış paltarlarından bəzilərini əyninə keçirmiş, üstünə qalın adyal atmışdı. Əlacı tərləməkdə görürdülər. İsti çayın, zoğal mürəbbəsinin təsirini hələ hiss etmirdi. Yuxusu da ərşə çəkilmişdi. Çöldə, bayırda bir ucdan əsnəyir, halsız olur, çarpayıya uzananda gözləri tavandakı üçgözlü lampaya dirənib qalırdı. Ağ rəngi bozarmış çilçırağın bir gözü yanır, dumanlı işıq verirdi. Gecə qəzet hərflərini oxumaq çətin idi. Lampa salmaq çətin iş deyildi, həbsxana rəhbərliyi qeyri-rəsmi tapşırıq vermişdi ki, əlavə lampadan istifadə edənlər işıq pullarını özləri ödəməli idilər.

Gözünü yumsa da, ayıq idi. Ürəyindən indiyə qədər duymadığı bir rahatlıq keçdi. Məhbus yoldaşları indi isti günün altında tər tökə-tökə işləyirdilər. Paqonlu nəzarətçilər kölgədə oturub papaqları ilə özlərini sərinləşdirir, arada soyuq sudan içib işləyənlərə qışqırırdılar.

“- Ayə, tez elən! Heç nə işləmirsiniz. Elə bil sanatoriyadasınız. Əclaflar! İşi qurtarmayınca getdi yoxdu! Mən sizə görə artıq söz götürən deyiləm! Canınız çıxsın, işləyin!”.

Onlara yazığı gəldi. O, az sonra həbsxana ilə vidalaşacaqdı. Yoldaşlarının çoxu hələ neçə il dəmir barmaqlıqlar arasında oturmalı olacaqdılar. On iki il, on il, səkkiz il yarım, altı il, üç ay... Bu illər ərzində kameraya gələnlər olacaqdı – hərəsi bir cinayət üstə... Neçə ki, həyat var, yaşamaq var, cinayətkarlar da olacaq. Niyə? Hansı səbəbə görə?

O, bu suala cavab tapa bilmirdi. Onu da bilmirdi ki, məh-

buslar azadlığa çıxandan sonra nə işlə məşğul olacaqlar? Azad yaşamağı dörd divar arasındakı həyatdan üstün tutacaqlarmı? Titrətmə içərisində soyuq alnı gözlərinin önündə yazı lövhəsi kimi dayanırdı və iri cüssəli, başı daz cəllad əlindəki dəmiri odun içində qızdırıb ona yaxınlaşdı, qıpqırmızı dəmiri onun alnına yapışdırdı. Alnı cızıldadı, səkkiz rəqəminin yarısına bənzər işarə alnında əbədi məskən saldı. Sonra cəllad bu işarələri digər məhbusların alınlarına həkk elədi. Dörd bir tərəf insan kütləsi ilə dolu idi və bu əməliyyat hər dəfə icra olunduqca qışqırıq, hay-küy səsləri qulaq batırırdı. Onları fitə basır, təhqir edir, söyüşlər yağdırırdılar.

Sağ böyrü üstünə çevrildi, düşündüyü dəhşətli mənzərəni xəyalından silməyə çalışdı.

“– Yazıqlar! Yazıq bizlər! Gör nə gündəyik! Hamı üzümüzə tüpürür! Biz buna layiqikmi?”.

Əlini hər iki üzündə gəzdirdi. Qupquru idi. Bir az təskinlik tapdı. Polis zabitinin quruyub ağ ərp bağladığı dodaqlarından su çıxmamışdı.

Ancaq onların məhəllələrini – 8-ci Perpendikulyar küçəsini sel yuyub aparırdı. Aramsız leysan yağışları çay daşlarından salınmış küçə ilə üzüaşağı dənizə tərəf axırdı. Ətrafda ins-cins gözə dəymirdi – hərə qaçıb başını bir yana soxmuşdu. Çoxdandı şəhərə belə yağış yağmamışdı. Ağsaqqalların dediyinə görə 1937-ci ildə buna bənzər bir leysan görüblərmiş.

Göyün üzü boşarırdı. Qapqara buluddan əsər-əlamət qalmamışdı. Ağ buludların arasından göylərin maviliyi addabudda görünürdü. Günəş bu maviliyə düşəndə yuyulmuş daşları parıldadırdı. Sökülüb yerində ikitərəfli pilləkan tikilmiş heykəlin yanındakı evin (8-ci Perpendikulyar küçəsi buradan başlanırdı) darvazaları açıldı. Yüzə qədər müxtəlif göyərçin küçənin kənarındakı yaşıllığa doğru irəlilədilər, bəziləri qanad açıb səmaya qalxdı. Papirosunu ağzında o yan-bu yana oynadan keçəl kişi ev formasında quşların arxasınca bir neçə addım atıb əlindəki qırıq çörəkləri quşlara atdı. Azadlığa çıxıb lovğa-lovğa gəzən quşlar qırıntılara əhəmiyyət vermədilər.

Ağazal qəzet köşkünün əl içi boyda pəncərəsini açıb qol-

tuğundakı qəzetləri yan-yana düzdü, üstünə dəmir parçaları qoydu.

– Son vaxtlar qəzet oxumursan, qədeş! – Ağazal üzünü Mirzəbəyə tutdu.

– Nə var e, qəzetlərdə? Hapnan-gopnan doludu. Ağızlarına nə gəlir yazırlar.

– Elə demə, yaxşı-yaxşı şeylər olur orada. Sənin həvəsin yoxdu, nöşün ki, pulun yoxdu. Pul da olmadı, batdın.

Mirzəbəy arada quşlara acıqlanıb Ağazala tərəf gəldi.

– "Stoliçnı" tapdın?

– Bizim skladda yox idi. Yolnan keçəndə su budkasının vitrinində gördüm. Sənin xətrinə düşüb aldım. Cəmi iki dənə idi. Onları da gün vurub saraldıb.

– Eybi yox. – Köşkə tərəf addımladılar. Ağazal çöldən əlini salıb qəzetlərin üstündən iki qutunu götürdü, o üz-bu üzünə diqqətlə baxıb Mirzəbəyə uzatdı.

– Bu siqaretlərdən sən nə istəyirsən, mən heç baş açmıram. Day bulardan buraxmırlar.

– Bu siqaretə öyrəşmişəm, Mirzə. İlk dəfə də bunu çəkməklə başlamışam. Adı da gözəldi, özü də.

– Heç bir gözəlliyi yoxdu. İndi təzə siqaret çıxıb. Hamı "Kosmos" çəkir. "Kosmos". "Stoliçnı"nı buraxan fabrik indi "Kosmos" buraxır. Tütünləri eyni zibildi. Prostu adını dəyişib qiymətini qaldırıblar. Keç ona.

...Hacıbala hələ də yağış damcılarını saxlayan çadırı o yan-bu yana dartıb düzəltmək istəyirdi. Vaxtı onsuz da keçmiş meyvələr, göyərtilər suyun içində birtəhər olmuşdu. Mirqurban ayaqqabı təmiri budkasından çıxıb ona yaxınlaşdı.

– Axşam bazarın yaxşı olacaq, heç fikir eləmə, Hacı. Yağış on günlük tozu yudu. – Onsuz da əsəbi olan Hacıbaba pis bir söyüş işlətdi.

– Alver yoxdu, seyid. Bir dəstə göyərtini alan yoxdu.

– Ə, qəribə adamsan, göyərtin üç gündü qalıb günün altında, qupquru olub. Onu hansı köpəkoğlu alar? Qarpızlarını donuz da yeməz. Bax, sən ol alıcı, gəl al görüm bu zibillikdən nə alırsan? Malı gündəlik təzələ. Əməlli-başlı mal gətir, müştəri də gəlsin alsın.

Mirqurban Hacıbaba ilə üzbəüz olur, onun hər işini bilirdi. Hacıbaba sahə müvəkkilinin əlindən təzə mal gətirmir, bir şey istəyəndə əlini meyvələrə uzadıb deyirdi:

– Rəis, sənə canım da qurbandı, nə istəyirsən bu dəqiqə verim. Borcumuzdu. Maşınını bəri ver, indi klokları doldururam.

– Bu nədi, ə, Hacıbaba? Bura Balaxanı zibilliyindən də betərdi. Əməlli mal niyə gətirmirsən?

– Əlimdə maya yoxdu, rəis, neynim. Bunnan birtəhər başını girrəyirəm.

Sahə müvəkkili Hacıbabanı maşına oturdub Köhnə bazara sürür, oradan bazarlıq etdirib piyada geri yollayırdı.

...Bu da Perpendikulyar küçəsinin mərkəzi, dörd yolun kəsişdiyi yer. Akasiya ağaclarının altı məhlə uşaqlarının hər gün yığışdığı sevimli yer idi. Bir az kənarda daşlıq, çökəklik yer vardı, ildən-ilə yaddan çıxıb təmizlənmir, təmir olunmurdu. Böyüklərdən çəkinən uşaqlar burada papirosun tüstüsünü ciyərlərinə sümürürdülər.

Hər səhər tezdən saat doqquzun yarısında Məsməxanım son dəblə geyinib sumkasını qoltuğunda möhkəm tuta-tuta avtobus dayanacağına gedir, çox halda 8 nömrəli trolleybusa qabaqdan minərək işə – Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsinə gedirdi. O da, məhəllə sakinləri də qənirsiz gözəlliyi ilə seçilən Məsməxanıma həsədlə baxır, onun dayanacağa qədər gedişinə göz qoyur, trolleybusda birgə getməklərindən fəxr duyurdular. Onlara elə gəlirdi ki, hamının evindəki televizor Məsməxanımın barmağı ilə işə düşür, o trolleybusa minib getməsə, televizorlar heç nə göstərməz.



“– Məsməxanım, televizor niyə saat 1-dən 5-ə qədər heç nə göstərmir?” – O, izah edirdi ki, işçilər yemək yeyir, istirahət edir, paltarlarını dəyişir, saçlarını qaydaya salır, sonra televizora çıxırlar.

“– Bəs sən işdən gələndən sonra axşamlar televizor necə işləyir?”

“– İş smennəndi də. Gündüz mən oluram, gecə başqası”.

Məsməxanım onun ilk məhəbbəti idi.

Hələ orta məktəbdə oxuyandan bu qıza göz qoyur, məktə-

bə gedəndə, dərsdən qayıdanda onun arxasınca kölgə kimi düşür, ancaq ona bir kəlmə demirdi. Məsməxanım bunu bilir, özünü yığışdırır, yolda çox danışmır, tələsik darvazalarından içəri keçib qapını bağlayırdı. Perpendikulyar küçəsinin "şefi" sayılan Rzabalanın onu sevməsi Məsməxanımı xoşhallandırırdı, ancaq Rzabala Məsməxanımın ürəyindəki arzularının idealı deyildi. Məsməxanım istəyirdi ki, Rzabala ona xoş sözlər desin, nazını çəksin, onu kinoya, dənizkənarı bulvara aparsın, ona məktublar yazsın, desin ki, sən dünyada gözəllər gözəlindən də gözəlsən, sevgi şeirləri söyləsin...

Rzabala başqa cür idi. Perpendikulyar küçəsindən keçən oğlanı tutub onun hüzuruna gətirirdilər. O, müstəntiq kimi sualları bir-birinin ardınca yağdırırdı.

"– Sənin bu məhəllədə nə işin var?"

"– Köhnə bazara gəlmişdim. Burdan evimizə gedirəm".

"– Harda yaşayırsan?"

"– Yasamalda".

"– Köhnə bazarın o biri tərəfindən niyə getmirsən?"

"– Ordan az marşrut işləyir. Həm də bura çox yaxındı. Trolleybuslar dalbadal işləyir".

"– Bəlkə burdan qız-zad istəyirsən, onun dalınca gəlmisən?"

"– Nə qız? Nə dalınca gəlmək? Mən burdan keçib gedirəm. Yəni burdan keçmək olmaz?"

"– Olmaz".

"– Niyə olmaz?"

"– Olmaz də. Qandın? Burdan keçmək olmaz. Birdəfəlik yadında saxla. Sən buraları yaxşı tanımırsan. Tanısan nə burdan keçərdin, nə də artıq-əskik danışmazdın".

Oğlanı akasiya ağaclarının arxasına çəkib əzişdirdilər...

Bu söhbətləri eşidəndə Məsməxanım təəccüblənmirdi, Rzabalanı, onun əlaltılarını qəhrəman kimi qəbul etmirdi, əksinə onlara nifrəti daha da artırdı. O, istəyirdi ki, hansısa güclü bir oğlan elə o dörd yolun ayrıcında, akasiya ağaclarının arxasındakı çökəkliklərdə onun sümüklərini sındırsın, gözünün altını qaraltsın, qolunu qanırıb sındırsın...

...Həmin o çökəklikdə gözəl bir mağaza tikildi. Akasiya ağacları kəsilib atıldı. Məsməxanım evdən çıxıb qırmızı rəngli "Jiquli"sini ora sürür, mağazanın qabağında saxlayır, arxa tərəfdən otağına keçir. Qara, hündür kresloda oturub o yan-bu yana fırlanır, telefon danışıqları aparır, "Jiquli" ilə harasa gedir, axşam qayıdır...

Sən demə yatıbmış. Bunları yuxuda görürmüş. Yağış nə gəzir? Çöldə göydən od tökülür. Bəs yatmışdısa, gözləri niyə açıq idi?..

## II

Addım səsləri kəsildi. Qapının cəftəsini keçirməmişdi. Bir an kifayət idi ki, gələn adam içəri girsin. O, gözlərini qapıya zilləyib gələnin kim olduğunu aydınlaşdırmaq istədi. Qapı açılmadığından şübhələndi. Növbətçilər onun otağını tanıyırdılar. Gələn növbətçi idisə və otağı tanıyırdısa, niyə içəri keçmirdi? Deməli, bu adam nabələd idi. İndi otaqların üstündəki rəqəmə baxıb fikirləşirdi. Onun qaldığı otaq ayrı, nömrəsiz idi.

Bıçaq bir addımlığında – televizorun arxasında idi. Gələn nə qədər cəld olsa belə, qapıdan onun üstünə atılana qədər o əlini uzadıb silahı götürə biləcəkdi. Başının altındakı balışın içindəki şüşə də uzaqda deyildi.

"– Zəifləmisən!" – Bu sözü dünən ona yalquzaq Kərəm hamının yanında açıqca dedi. Düzdü, onun cavabını yerində, özü də əməlli-başlıca verdi. Söhbət azyaşlı uşağı zorlayan şəxsin bu günlərdə onların həbsxanasına gətiriləcəyindən gedirdi. Ona veriləcək cəzanı şef Rzabala kəsməli idi.

"– O, bütün gecələri şampan şüşəsində oturmaqla keçirəcək. Vəssalam. Alət də hazırdı".

Şişman növbətçi oğlunun ad gününə bazarlıq üçün aldığı pulun hesabına şampan şüşəsini ona çatdırmışdı.

Yalquzaq Kərəmin iradında həqiqət vardı. Rzabala özü də bunu hiss etmişdi. Son vaxtlar çox fikrə gedir, gecələr qarışıq yuxular görürdü. 8-ci Perpendikulyar küçəsi, birmərtəbəli evlər, maşınlar qeyri-adi gözəlləşir, cənnətməkanı xatırladırdı.

İnsanlar da eləcə. Rzabala yaşıdlarını, ağsaqqalları, uşaqları hansısa yad planetdən gələnlərə bənzədirdi. Məsməxanım tez-tez mələk libasında qonağı olur, ağ büllür bədənini görk edərək uzun-uzadı söhbət edirdi.

"– Məsmə, sən məni gözləmədin! Bilirdin ki, səni sevirəm, Niyə tələsdin?"

"– Məni sevirdin? Bircə kəlmə mənə ağız açdın? Xoş bir kəlmə dedin? Demədin. Ancaq insafla danış. Səni illərlə gözlədim. Birinci dəfə həbsdən çıxanda dedim day istəyimə çatacam. Olmadı. Sən yenidən ora qayıtdın. Nə qədər gözləməliydim? On il ötdü, bircə barmaq kağız, ya söz yollamadın ki, gözlə, gələcəyəm!"

"– Haqqın var. Mən sənə qarşı diqqətsiz olmuşam. Ancaq gərək mənim mövqeyimi nəzərə alaydın. Mən başqa cür ola bilməzdim".

"– Sənin nə mövqeyin var? Onu mövqe sayırsan? Vəzifən yox, savadın yox! Gəmidə oturub gəmiçi ilə savaşmaq həyatdı? Mən o həyatı qəbul etmirəm. Mənə azad, rahat həyat lazımdı. Ona da tək qadın xeylağı – heç vaxt nail ola bilməz. Qadın üçün tənhalıqdan qorxunc heç nə yoxdu".

"– Tənhalığa dözəmmədin?"

"– Hə. Nə qədər elədimsə, alınmadı!".

"– İstəsən alınardı, ancaq sən özün istədiyin həyatı yaşayırsan. Bu yüngül həyatdı".

"– ..."

"– Mənim günahlarım var. Heç gizlətmirəm. Onu bil ki, mən üç dəfə həbsxanaya günahsız düşmüşəm. Günahsız. Bir cins şalvarı satdırmağa səkkiz il iş düşür? Harda, hansı qanunda yazılıb? Yüz minləri, milyonları bir loxmayla udanlar eyş-işrət içində yaşayır. Onlardan sorğu aparan heç yoxdu! Mən bir adam idim, o qədər canavarların bir tikəsini özüm, ətrafımdakılar yesəydi, dünya dağılardı? Biz də bir tikə yeməliydik, ya yox? Mən Balaqardaşı öldürmək fikrində olmamışam. O, mənim satıcım idi. Satdığımın on faizini alırdı. Yetim oğlan idi. Deyirdim, ailəsini dolandırsın. Mal onun əlində tutulmuşdu. Özümə sığışdırmadım. Onun əvəzinə səkkiz il

yatdım. Naxələf çıxdı. Bir dəfə dalımca gəlmədi, adımı anmadı. Mənə xəyanət etdi. Mənim bazarımı bağladıb özünə bazar açdı. Mən də onu cəzalandırmaq üçün şərt qoydum. Mənimlə işləyəndə neçə faiz alırdısa, elə də olmalı idi. Mən ona hədə gəlmədim, öldürəcəm demədim. Onu öldürtdülər, özü də sənin əlinlə. Onun yaxını sən idin. Sən yeməyə zəhər qatdın".

"– O, onsuz da ölməli idi. Mən sənin işini yüngülləşdirdim!"

"– Əksinə. Sən onun yeməyinə zəhər qatdın, mənimsə həyatıma. On dörd il sənə zarafat gəlməsin. On dörd il! Türmədə hər saatım on ilə bərabər olub. Onda gör nə qədər yaşım var!"

"– Heç dəyişməmisən. Elə əvvəlki şefsən!"

"– Mən təsəlli almağı sevmirəm. Cəngəlliklər qanununda belə xırda hisslər kara gəlməz. Bu dövlət qanunlarından tam fərqlidi. Bilirsənmi, həbsxanaya düşən törətdiyi cinayətə görə cəza çəkir".

"– Onda sənin vəziyyətin ağır olar. Axı, adam öldürmək maddəsi ilə tutulmusan!"

"– Xeyr, hamı bilir ki, ölüm işini zorla mənim boynuma qoyublar".

"– Hardan bilirlər? Sən dedin, onlar da inandı?"

"– Qətiyyən. İşi onlarla adam yoxlayıb, yekun nəticəyə gəlinir. Yoxsa, elə sözlə keçinmək olmaz ki! Türmədəkilər mənim işimin ən incə nöqtələrini də bilirlər. Səni tanıyırlar, milis rəisini tanıyırlar, hökm çıxaran hakimi, daha kimləri deyim sənə".

"– Sən qayıdacaqsanmı?"

"– Niyə də yox? Əgər Allah məni bu dünyaya gətiribsə, ölənəcən yaşamaq haqqım var".

"– Ölənəcən cəngəllik qanunları ilə yaşayacaqsan?"

"– Onu sənə deyə bilmərəm".

"– Niyə? Sevdiyin adamdan söz gizlətmək olar?"

"– Sən heç nəyə layiq deyilsən?"...

Ayaq səsləri kəsilsə də qapının ağzında insan nəfəsi duyulurdu. İşıqların yanmaması dəhlizi qaranlıq etmişdi və gələn

adam qara kabus kimi kandarda dayanmışdı. Vahimə ona doğru irəliləyirdi. Sükutu elə kabusun özü pozdu. Gələn asta addımlarla yana getdi. Qapının cəftəsini yoxladı. Kamera bağlı idi. Addım səsləri yenidən onun otağına yaxınlaşdı.

...Mirzəbəy, Ağazal, Hacıbaba və Mirqurban qapısını az qala sındıracaqdılar. Yerindən qalxıb həyətə çıxdı, qapını açdı.

"– Nə yatırsan, ay şef? Yatmaq vaxtı deyil. Gör başımıza nə çarə qılırıq?"

"– Nə olub?"

"– Bilmirsən? Uçastkovunu dəyişiblər. Təzəsi gəlib".

"– Gəlib, belə xoş gəlib. Nə ağciyər adamlarsınız, ə?"

"– Ay şef, bazarımız bağlandı. Özümüzü də tutub basacaqlar qoduqluğa".

"– Bəs türmə kimlər üçündü? Elə deyirsiniz ömrümüz boyu buralarda cövlan edəcəksiniz? Guya siz bilmirsiniz ki, tutduğunuz işlər cinayətdi? Hər şeyin bir sonu olur?".

"– Sən nə danışırsan? Yəni deyirsən gedib türmədə oturaq? Biz o zəhrimarı zorla satmırıq ha. Kimin xətri çəkir, gəlib alır. Özü də yalvara-yalvara, xahiş-minnətlə".

"– Neynəyək? Nə məsləhət görürsünüz?"

"– Deyirəm gedək təzənin yanına. Pulunu verək, biznən işi olmasın?"

"– İndiyə qədər neçə uçastkovu gəlib, heç birinin ayağına getməmişəm. Özləri gəlib söhbət eləyiblər. İndi də elə olacaq. Yoxsa mən öz ayağımla gedib deyim ki, ay qarğa, məndə qoz var!!.

Qapı zərblə açıldı. Təpik var gücü ilə vurulmuşdu. Bir gözünü açıb milis formasını gördü. Növbətçilərdən olduğunu qətiləşdirib gözünü yumdu.

– Burdasan? Mən səhərdən şəhəri bu başdan vurub o başdan çıxmışam, bu öz kefindədi. Ayağa dur, əclaf.

Növbətçi təzə idi, elə bu gün bu həbsxanada ilk iş gününə çıxırdı. Əlindəki qovluqdan bilinirdi ki, rəis ona tapşırıq verib. Tapşırıq nədən ibarətdir? A N 213 nömrəli məhbus Şahbalayev Rzabala Əlibala oğlunu tap yanıma gətir. Məhbusu şəhərdə axtararlar? Dəmir barmaqlıqlar arasından bir çimdik təmiz hava almağa icazə verərlər?

"– Bu ya gicdi, ya da qarşısındakını axmaq yerinə qoyur. Məhbuslar səhər yeməyindən sonra ya kameralarda olur, ya da ki, işdə".

– Hə, nədi, sözüm xoşuna gəlmədi! Əcaib bir varlıqsan? Onda qatilsən! Adamyeyənsən! Dur ayağa! – Təpiklə onu vurmaq istədi, ayağı dəmir çarpayının küncünə toxundu.

Bu tənhalıqda – ikisinin olduğu kamerada təzə işə çıxmış, özünü göstərmək istəyən növbətçiyə əməlli-başlı dərs keçmək olardı, ancaq A N 213 yuxuda Məsməxanıma dediyi sözləri xatırladı. O, qayıdacaqdı, həm də bunu çox istəyirdi.

– Qaqa – əzizləmə mənasında dedi. – Sən təzəsən, çox şeyləri öyrənmək üçün xeyli vaxt lazımdı. Tanımadığın qapını heç vaxt döymə. Bir də sən mənim qatil olduğumu hardan bilirsən?

Növbətçiyə onun sözləri xoş gəlmədi.

– Sən mənə ağıl öyrətmə. Ağlın olsaydı burda oturmazdın. – Sənədi göstərdi, yəni oradakıları oxuyub.

– O kağız-mağız boş şeydi – artıq yerində oturmuşdu – əgər bilmək istəyirsənsə, ölüm işini mənim belimə yükləyiblər. Artıq bunun mənası yoxdu. Görürsən ki, mən ayaq üstə dura bilmirəm. De görək nə istəyirsən? Mənim "delom" səndə nə gəzir?

– Mənim daha heç sözüm yoxdu. Ağır cinayət törətmiş adam kef-damaq içində yaşayır. Televizora bax, qab-qaşığa, yatacağa bax. Belə şəraiti olan adam çölə çıxmaq istəyərmi? Sıpa kimisən. Özünü artistliyə vurma! Dur ayağa!

– Cavan oğlan, bura cəngəllikdi, buranın öz qayda-qanunları var! Sən hələ cavansan, dedim axı. Nəyə gəlmisən onu de, çıx get, Allah xatirinə!

– Sən niyə təkotaqlı kamerada qalırsan?

– Məsləhət biliblər, qalıram. Həbsxana üçün nə tək, nə ümumi.

– On dörd ildi burda qalırsan?

– On dörd ildi burada qalıram?

– Daha qalmayacaqsan. Bu axşamdan keçirirəm obşuya.

– Bu axşamdan?

– Hə.
– Onda mənim əşyalarımı sən daşıyacaqsan. Bu şərtlə gedərəm.
– Sən mənə şərt qoyursan? – Təpik A N 213-ə çatmamış növbətçi hava ilə uçub qapıya dəydi, yerə sərildi. Ayağa dura bilmədi, çünki A N 213 onun sinəsində oturmuşdu. Zərbələr qolundan, boş böyründən dalbadal dəyirdi. Növbətçinin danışmaq heyi qalmamışdı, odur ki, dillənmirdi.
– Sən məni niyə məcbur edirsən ki, əlimi qana batırım? Sənə söz kar eləmir? Səhərdən bir quranlıq söz danışıram, elə bil daşa dəyib qayıdır. Məni tanımırsan? Mən adam öldürməkdə təqsirli bilinən, sovet məhkəmələrinin böyük ustalıqla boynuma qoyaraq on dörd il azadlıqdan nahaq yerə məhrum edilən A N 213-əm. Ləqəbim "şef"di. Aydın oldu sənə...
Növbətçi inildəyirdi. Rəngi bozarmış qovluq başının altında idi, başının harasındansa axan qan onun üstünə damcılayırdı.
– Öldürüm səni? Hulqumunu dartsam it kimi gəbərəcəksən. Bir on il də alacam. İslanmışın sudan qorxusu yoxdu. Mən adət etmişəm. Sən məhv olacaqsan. Əclafın biri əclaf! Dur ayağa! Əlimi mundarlama!
Növbətçi qımıldansa da, ağzı üstə uzanıqlı idi. Ayağa durmağa heyi yox idi. Yumşaq ətindən təpiklədi. Stəkana su tökdü.
– Dur, su iç. Bir də qanmazlıq eləmə. De görüm bura niyə və nə üçün gəlmisən? Səni kim göndərib?
Titrətməsi keçmişdi, elə bil neçə gündən bəri ağrılarının dərmanı zabiti çırpmaq imiş. Əlini uzadıb kürəyindən tutdu, bir hərəkətlə havaya qaldırıb çarpayıda oturtdu, stola qoyduğu stəkanı ona uzatdı. O, sudan bir-iki qurtum alıb qalanını üzünə, boynuna sürtdü, əlini başında gəzdirib qan axan yeri tapdı.
– Danış. – A N 213 indi əmrlə danışırdı, səsində yumşaqlıq vardı. – Utanma, de görüm niyə gəlmişdin?
– Rəis səni çağırır.
Solaxay sillə növbətçini birtəhər etdi.
– Ə, Allahsız oğlu, adamı rəisin yanına belə çağırırlar? Səni

özüm də bilmirəm nəyə görəsə bağışladım. Anan namaz üstündəymiş. Get rəisə denən ki, lazımsa, özü gəlsin. Özün də pilləkandan yıxılmısan, başın dəmirə dəyib. Di, marş!

Növbətçinin ayaq səsləri güclə eşidilirdi, qapını açıb-örtməyi heç eşidilmədi.

## III

Bu dəfə qapının cırıltısı daha bərk gəldi, addım səsləri qoşalaşdı. A N 213 işlərin nəhs gətirəcəyini yəqin etdi. Növbətçi satqınlıq etsəydi, işləri pis olacaqdı. Gələnlərin gəlişinin məqsədi nədi? Onun işinin ortaya çıxması nəylə əlaqədardır? Çıxmağına az qalırdı. Bəlkə sənədləri indidən hazırlamaq lazımdı?

Zənnində yanılmamışdı. Rəis növbətçi ilə içəri keçdi. Onu yataqda halsız vəziyyətdə görəndə toxtadı, dönüb növbətçiyə baxdı.

– Ə, 213, olmasın azar-bezar, dərdin dağlara-daşlara. Noolub saaa? Mənə deyəndə ki, möhkəm xəstələnib, inanmadım. Sən bərk adamsan, ağrını-acını yaxına buraxan deyilsən. Açığı, buna ixtiyarım yoxdu, ancaq yaxşı adam olmağının xətrinə o saat icazə verdim. Hələ dedim ki, lazımsa, həkim çağıraq, ya da göndərək qospitala. Dur görək, noolub saaa?

– Sağ ol. Sənin ağlınca, yaxşı adamın burda nə ölümü var?

– Elə demə, 213, burda da yaxşı adamlar var. Evə getmək istəyirsən?

– Gedəcəm.

– Biz istəyirik, sənin qalan günlərini ləğv eləyək?

– Qalan neçə gündü ki?

Rəis növbətçiyə baxdı, o da öz növbəsində qovluğu açıb baxdı, sonra "on dörd gün" dedi. Rəis onun sözlərini təsdiqlədi.

– On dörd gün, 213, on dörd gün az vaxt deyil.

– Bəs on dörd il necə, az vaxtdı, yoxsa çox?

– Belə də, az da deyil, çox da. Nədi ki?

– On dörd il günahsız yatan adam üçün on dörd gün heç nədi. Minnətsiz-sünnətsiz vaxtımı başa çatdıracam. Mən sədəqə yığanlardan deyiləm, yaxşı bilirsən?

Rəis qabağa çıxan qarnını qaşıdı.

– 213, tərslik eləmə. Əvvəla, günahsız adam yoxdu. Mənim də, sənin də günahın var. Qalanı mənlik deyil. Bu gündən azadsan. Sənədlərini götür. Burda yerin yoxdu! Marş evinə-eşiyinə!

Növbətçi qovluğun içindən qırmızı bileti, bir neçə vərəqi stolun üstünə qoydu. Rəis qarnını dörd barmaqla qaşıdı.

– 213, sənə yaxşı yol. Gələn görüşlərədək demirəm. İstəməzdim ki, bir də buralara qayıdasan. 213 yaxşı rəqəmdi. İstəsən, sənin xətrinə onu saxlayıb heç kimə verməræm.

A N 213-ün gözləri ölü gözlərinə döndü, başını yana çevirdi...

## IV

Köhnə bazar meydanında taksidən düşüb eynəyini gözünə taxdı. Buralar tamam dəyişmiş, gözəlləşmişdi. Dayanacağın arxasındakı evlərin çoxu sökülmüş, yerində hündürmərtəbəli bina tikilmişdi. 8-ci Perpendikulyar küçəsindəki evlərin də ömrünə az qalırdı. Mirzəbəyin quşlarının gəzinti yerləri olmayacaqdı. Ağazalın köşkü yerini dəyişəcəkdi. Hacıbabanın meyvə-tərəvəz taxtaları zibilliyə atılacaqdı. Mirqurbanın "Ayaqqabı təmiri" mağazasının da aqibəti yaxşı olmayacaqdı.

O, şax addımlarla irəliləyir, ətrafa nəzər yetirmirdi. Şər təzəcə qarışırdı. Evə tez getmək, heç kimin gözünə görünmək istəmirdi. Təkəmseyrək adamlarla rastlaşırdı. Adamlar kimi küçə də ona yad gəlirdi.

...Və qəfildən bu yadlığın içində tanış səs eşitdi.

– Kömək edin! Ay camaat, kömək edin! Məni öldürürlər!

Dayandı, eynəyini çıxarmadı. Üzüaşağı qaçan, qışqıran qadın ona yaxınlaşırdı. Köynəyi parça-parça olmuş, sinəsi açıq qadının üst-başı qan idi.

O, Məsməxanımı tanıdı. Qadın onun yanında dayandı. Əlini ürəyinin üstünə qoymuşdu.

– Ciyərim yanır, mənə bir damcı su ver! Kömək elə! Su ver! Su! Oy, yandım, ay aman!

Onu, deyəsən tanıdı, özünü üstünə atmaq istədi. Kənara çəkildi.

"– Qanını üstümə tökmə! Rədd ol!"

Aralanıb yolu keçdi. Hacıbaba, Ağazal, Mirzəbəy, Mirqurbanın dükanının qabağında idilər. Onu görüb təəccübləndilər.

– Həmişə azadlıqda, şef! Həmişə azadlıqda. Nə yaxşı vaxtında gəldin. Görürsən nələr olur?

– Deyəsən məni tanımırsınız? Mən Rzabalayam. Rzabala!

– Gördün, Məsməxanımı? Ofisdə bir atışma oldu, gəl görəsən. Neçə nəfər gəbərib? Məsmə qaçdı.

– O da gəbərəcək! – deyib laqeyd halda evinə doğru addımladı.

Dörd cüt göz onun arxasınca boylandı.

– Bu niyə belə eləyir?

– Elə bil heç bizi tanımır?

– Dəyişib. Yüz səksən dərəcə.

– Bizimki son vaxtlar onsuz da gətirmir. Axırımız nə olacaq, bilmirəm.

Keçmiş A N 213 dəmir darvazanın qapısını açıb həyətə keçdi və cəftəni sona kimi bağladı...

# İT QANI

Hava şaxtalı idi. Dayanacağa qədər gedən yol ağappaq ağarmışdı. Ayaq izlərinin açdığı cığır sürüşkən idi. Qonşuların çoxu üstünü qar örtmüş maşınlarını işə salmırdı. Hamı boş yolla gedirdi. Başı ağrımasa da, daş kimi idi. Qapıdan çıxanda ötəri güzgüdə özünə baxmışdı - gözləri qırmızıydı. Gecəni rahat yatmışdı. Düşündü ki, bu ancaq çox yatmaqdan ola bilər. Hesabladı: düz doqquz saat yarım yatmışdı. Nə vaxtdan bəri bu qədər yatdığı yadına gəlmirdi.

Avtobuslar aradabir, dolu gəlirdilər. Gecikənlər özlərini birtəhər içəri salırdılar. Papiros yandırdı. Yaxşı ki, səhər-səhər acı çay içmişdi. Yoxsa tütünün zəhəri onu birtəhər edərdi. Qonşusu (adını bilmirdi) "Jiquli" maşınının şüşəsini aşağı salıb papirosun tüstüsünü acgözlüklə ciyərlərinə çəkir, ona məhəl qoymurdu. Yəqin bilirdi ki, o heç vaxt taksiyə minmir. Radionun səsi gah eşidilir, gah da itib-batırdı. Köhnə mahnının melodiyaları soyuğu ötüb ətrafa yayılırdı. Bu onun ən çox sevdiyi mahnılardan idi.

- "...Neyçün səni bəs unuda bilmirəm?.."

Əvvəlcə aydınlaşdırmaq istədi ki, mahnını oxuyan hansı müğənnidi. O dəqiqə də yadına Zərifə düşdü. Unuda bilmədiyi o idi – ağlına gəlməyən anlarda onun surəti, kədərli gözləri, gülümsəməyi gözü önündə canlanırdı. O illərin üstündən nə qədər vaxt keçsə də, bu zaman fərqini hiss etmirdi, sanki elə indicə – dekabrın soyuq günündə Zərifə uşaq təbəssümü ilə böyründən çıxıb onun yanına gəlir, salamlaşıb utancaq əda ilə qoluna girir. Sonrası bəllidir. Üstünə hansısa rəqəmlər yazılmış avtobuslar onları Bakının bu başından o başına, daha haralara aparır. Ürəyindən isti bir ilğım keçdi.

Qonşunun taksisi yox olmuşdu. Qəribədir, gözü önündə dayanan maşına nə vaxt minən oldu, maşın nə vaxt yerindən tərpəndi – onu görməmişdi. Maşın yoxdusa, deməli, mahnı da itmişdi. Ancaq o, mahnını eşidirdi, mahnının sözləri onu riqqətə gətirir, düşündürür, keçmişə aparırdı... Bəlkə bu mahnını özü oxuyurdu? Oxuyurdusa, səsi niyə çıxmırdı? Niyə dayanacaqdakılar ona diqqət kəsilib qulaq asmır, alqışlamırdılar? Bəlkə bu mahnı onun iliyinə-qanına hopmuşdu, hər

yerdə, hər zaman onu kölgə təki izləyirdi?

Qış gününün halı olmur. Səhər açıldımı, işə gedirsən, o yan-bu yana qurdalanırsan, bir də görürsən ki, şər qarışdı. Bunu avtobusdakı kök qadın geyirdi. Mühazirəçiyə oxşayırdı. Hərçənd səsi kobud idi, danışığı diqqət çəkmirdi, onun yadına düşdü ki, bu gün dekabr ayının iyirmi biridi, bu gün ilin ən qısa günü və ən uzun gecəsidi. Hələ orta məktəbin aşağı siniflərində oxuyanda bunu beyninə həkk etmişdi.

Bu günün başlanğıcı gecə saat 00.00-dan başlayır. Çoxları bunu qarışıq salır, ancaq o hər şeyə dəqiqdi. Elə bu soyuq, qarlı qış günündə də xasiyyətindən əl çəkmir. Saat 10.00-da tabelə qol çəkməlidi. Beş-on dəqiqə gecikə bilər. Onun kimi vaxtında işə gələnlər var. Ancaq əksəriyyət tabelə imza atmır. Hərəsi bir bəhanə gətirir. Kərim kadrlar idarəsinin rəisi Sevda xanıma zəng edib boğuq səslə deyir ki, təzyiqdən gecəni yata bilməyib, skoru çağırtdırıb. Məhəbbət zəng çalır ki, yoldadı, Əzizbəyov dairəsində tıxaca düşüb. Seymurun bibisi həmişə xəstə olur. Xaləddin uşağı həkimə aparıb...

Sevda ilə yarıciddi, yarızarafat söhbət edir.

– Bu millət niyə işə gəlmir?

– Görürsən də. Gələn həmişə, özü də vaxtında gəlir. Gəlməyən də heç. Müdir də məni danlayır. O gün iclasda eşitdin də, dedi ki, sənin başın işləmir. Mən neynim e? Hamısına bircə-bircə zəng vurmuşam ki, işə gəlin, A balam, sən işçi deyilsən? İşə gəlməlisən də. Mən niyə zəng vurmalıyam. Konturum da çatmır.

– Sən belə elə də. İşə təzə bir avtobus aldır, hər səhər qapı-qapı düşüb işçiləri yığsın, işə gətirsin.

Sevda bunun zarafat olduğunu başa düşür, heç bir söz demir.

– Sən Allah, elə də şey olar ki, işçi ilə gəlməsin? Telefonla hər gün zəng vur, xahiş elə ki, dur işə gəl. Özü də işə gəlməyənə heç nə deyilmir. İş görən də, danlanan da elə işə gələnlərdi.

– Sevda xanım, bəs bilmirsən molla həmişə çatıya bağlanmış dananı döyür.

...Yoldaşı yorğanı özünə tərəf çəkir. Üstü açıq qalır. Qış gecəsinin soyuğunda yatmaqmı olar? Yorğana tərəf sürüşür.

– Qoy yatım da...

– Yat, sənə kim neynəyir?

– Yönünü o yana çevir. Ayağın ayağıma dəyməsin.
– Üstüm açıqdı. Yorğandan mənə də ver. Titrəyirəm.
– Dur bir şey, tap, üstünə sal!
Yuxusu qaçır, saatlarla yata bilmir.
"– Nə olsun ki, şəxsiyyət vəsiqəsinə rum rəqəmi ilə I yazıblar. Mənim qanım it qanıdı. Heç o yan-bu yanı yoxdu".
Danışığı da dəyişib, yerişi də. Son vaxtlar ürəkdən güldüyü heç ağlına gəlmirdi.
– Təmiz geyinmirsən, səliqəli deyilsən. Məni camaata söydürmə.
İşə getməmişdən paltarını qaydaya salır, ayaqqabılarını təmizləyir. Hər şey qaydasındadı. Yəqin yoldaşının daha iradı olmaz.
– Ay bərəkallah, bəzənib-düzənib hara gedirsən? Kiminlə görüşəcəksən?
– İşə gedirəm. Görüşüm-zadım yoxdu. Səliqəli geyinirəm. Sən belə istəmirdin?
– Tapmısan. İşə gələcəm, tapacam o it köpəkoğlunun qızını. Görüm kimdi o?
– Gələrsən, taparsan, saçını yolarsan. Mən işə gecikirəm.
– İşə gecikirsən, yoxsa o matışka ilə görüşə?
– Sən xəstəsən. Özü də elə xəstəsən ki, onun müalicəsi yoxdu. – Əsəbindən paltarlarını çıxarıb hərəsini bir yana atır. Ev paltarını geyinib dayanacağa üz tutur.
Yoldaşının səsini pilləkənlərdə də eşidir...

***

– Bu avtobus hara gedir? Barı nömrəsinə baxmısan? – Qız təşvişdən çox uşaq kimi sevinirdi. Bu sevinc onun yerişini, duruşunu, danışığını, təbəssümünü bürümüşdü. – Gəl burda, lap arxada oturaq.
Avtobus boş idi. Sürücü – yaşlı kişi güzgüdən salonu nəzərdən keçirdi. Əslində onlara baxırdı. Papiros yandırıb "İkarus"un orta qapısını bağladı.
– Məndən qabaq gedən avtobus var, – dedi və onların cavabını gözləmədən düşüb yaxındakı çayxanaya yollandı.
– Avtobus bizə qaldı. – Bəxtəvərliklə dillənən qız oturacağa yaxınlaşdı.

– Yorulmusan?

Qız başı ilə təsdiqlədi.

– Otur. Səhərdən ayaq üstəyik. – O, küncdə oturdu. Ətrafa gözucu nəzər saldı. Bina dənizin qabağını kəsmişdi. Səki ilə gəlib-gedən az idi. Maşınlar şütüyürdü.

– Birdən gecikərik?

– Geciksək nə olar ki?

– Yooox.

– Gecikmərik. Qorxma. Uzağı saat 1-də səni yataqxanaya çatdıracam.

Qızın dodaqları qaçır.

– Saat 10-dan sonra yataqxanaya gələnlərə pis baxırlar.

– O vaxt çöldə heç kim olmayacaq. Narahat olma.

– Tək qapıçı görsə bəsimdi. Bütün hamıya danışacaq. Özün ki, onu yaxşı tanıyırsan.

Qızın yanında oturdu. Asfalt yol ovucun içi kimi aydın görünürdü. Maşınlar sürətlə hərəkət edirdilər.

– Gəl maşınları sayaq?

– Necəə? – Qız sualı bilməyən uşaq kimi tutuldu.

– Sən gələnləri say, mən də gedənləri. – Qız əvvəlcə doğrudan maşınları saymaq istədi, ancaq fikrindən vaz keçdi. Qız:

– Sən lap uşaq kimisən. Saymaq nəyimizə lazımdı? Sayıb neyniyəcəyik?

– Riyazi savadımızı artırarıq.

– Mənə elə savad lazım deyil. Heç sənə də arzulamıram. – Onun əlindən tutub barmaqlarını saydı.

Üstünə "Əli Bayramlı" sözü yazılan avtobus onların bərabərində dayandı. Qız ona fikir vermir, barmaqlarını dönə-dönə sayırdı.

– Bu avtobus burda niyə dayandı? Bura ki, onun dayanacağı deyil? Zərif, bu avtobus bizi gözləyir. Gəl düşək, ona minək.

– Doğru deyirsən?

– Doğru demirəmsə, bizim yanımızda niyə dayanır? Kimi gözləyir?

– Əli Bayramlıda nə işimiz var? Heç bir dənə də boş yer yoxdu.

– Yer düzəldəcək sürücü. Gəl gedək. – Qızın əlindən tutub astaca dartmaq istədi.

– Yoooox. Sən məni aldadırsan.

Avtobus yola düşdü. Qız xəfif gülümsəyirdi.

– Sən dəlisən. Dəli, dəli, dəli. Az qala inanmışdım. Ürəyim atdandı.

– Elə bilirsən bu avtobus yaxına gedir? Bu avtobus Əli Bayramlıdan bir az bəriyə aparacaq bizi.

Qız ayağa qalxdı.

– Gəl düşək. Mən getmək istəmirəm.

– Bəs istəyirdin, Zərifə? Gəldik, oturduq.

– İndi istəmirəm. Gəlmişdik bir, düşərik iki. Nə problem var ki? Mən əvvəl elə bildim ki, bu hansısa xoş bir xatirədi. Qoy xatirəmiz avtobusa minib-düşməyimizlə yadımızda qalsın. Gecənin bir vaxtı uzağa gedib yolun ortasında qalmaq sadəcə ağılsızlıqdı.

Qızı sakitləşdirmək istədi.

– Sən nədən incidin, Zərif? Sənə birdən-birə nə oldu?

– Heç. İstəyirəm düşək, nə qədər istəyirsən bir olaq, gəzək. Mən qayıtmaq istəyirəm.

– Dalaşmayın. Sizin kimi cavanlara dalaşmaq yaraşmaz. Düş deyir, düşün! – Qaraçıyabənzər qadın dolu və əzik sumkalarını oturacağa qoymuşdu. Hardan gəldiyini hiss etməmişdilər. – Belə gözəl qızın sözünü heç yerə salmaq olar? Siz düşün, mən sumkalarımı yerləşdirim. Ora mənim yerimdi.

– Adın yazılmayıb, axı?

– Gərək adımmı yazıla? Hamı bilir ki, orda ancaq mən otururam.

– Biz bilmirdik.

– İndi bildiniz. Mən baxıcıyam. Dediyimin də hamısı düz çıxır. İstəsə, bu qızın bəxtinə baxaram.

– Nəynən baxırsan? – Zərifə heyrətlə soruşdu.

– Quranla. Mən falçı-zad döyləm. Quranı açıram, nə yazılıb oxuyuram.

– Gedək, – dedi Zərifəyə.

– Qoy baxsın. – Qız israr etdi.

– Pul tələsidi. Elə-belə sözlər deyəcək. Onları mən də bilirəm.

– Sən bilən şey deyil, oğlan. Qoy qız qalsın, tələbə adamdı, pul da istəmirəm.

Qadın kitabı əlinə alıb dodağında nəsə oxudu, Zərifənin adını, yaşını, anasının adını soruşdu. Hesablama aparıb kitabı açdı. Zərifə rəng verib rəng alır, həyəcan keçirirdi. Bunu açıqca hiss etdiyindən əsəbləşdi.

– Niyə birtəhər olmusan? Elə bil dərsini bilməyən birinci sinif uşağısan. Özünü ələ al. Nə deyəcək, e sənə? İstəyirsən mən deyim? Deyəcək ki, səni xoşbəxt bir həyat gözləyir. İki oğlun, bir qızın olacaq. Keçmişdə bir qaranlıq olub sənin həyatında, ancaq ötüb keçib.

Qadın ona ötəri baxdı. Asta-asta danışırdı.

– Sən qulaq as. Özünü də hər şeyi bilən kimi göstərmə. Qulaq asmaq üçün də səbr lazımdı. Səbr ən böyük mədəniyyətdi. – Sözünə ara verdi. – Qız, burda zəriflikdən danışılır, yəni sən zərif bir qızsan. Ürəyin sayadı, yumşaqdı, hamını özün kimi bilirsən. Belə adamlar Allahın ən sevimli bəndələridi. Allah-Təala onları həmişə hifz edir, yollarını açır, ən çətin işini asanlaşdırır.

– Bunları bilirik – dedi.

– Bilmədiklərinizi də deyəcəm. – Qadın ani fasilə verdi, dərindən nəfəs alıb kitaba nəzər saldı və örtdü. Elə bil nəyisə deməyə ürək eləmirdi. Bu Zərifəni qorxudur, qəribə hallara salırdı. Gərginliyi aradan qaldırmaq istədi.

– Qurtardın?

Qadın daha ona fikir vermirdi. Ağır bədənini tərpədib Zərifəyə tərəf döndü.



– Sağ əlini mənə ver.

Zərifə əlini uzatdı. Qadın onun barmaqlarına sığal çəkib ovcunu açdı, dönə-dönə baxdı.

– Kitabda yazılanlarla ovcundakı xətlərin düzülüşü eyni mənanı verir.

Zərifə əlini açıb xətlərə baxdı, sanki o xətləri birinci dəfəydi ki, görürdü.

– Hansı mənanı verir, xala? – Qızın səsi boğuldu.

– Dünya vəfasız, etibarsız dünyadı.

– Bunu bilirik. Sən xətlərdən danış.

– Xətlərə özün də bax, qızım. Xətlər çox qısadı.

– Onda nə olur?

Zərifənin sualına qadın cavab vermədi, gözləyirdi ki, onun əlindən tutub avtobusdan düşürtsün. Onsuz da sürücü sükanın arxasına keçmişdi, indicə qapılar açılacaq və sərnişinlər avtobusa dolacaqdılar. Zərifəni avtobusdan düşürtdü.

– Qoy cavab versin, sonra gedərik.

– Cavabı onun başına dəysin. Ali təhsilli, savadlı qızsan, bir falçının goplarına elə qulaq asır, elə inanırsan, day sənə sözüm yoxdu. Kitab belə deyir, xətt belə gəldi.

– Dənizə gedək, havam çatmır.

Yolu keçdilər. Gəmilərin lövbər saldığı istiqamətdən kif qoxulu iy gəlirdi.

– Buranı tez keçək. – Ancaq Zərifə dayandı, dərindən nəfəs almaq istədi. Rəngi qaralmışdı.

– Məni yataqxanaya çatdır – dedi. Səndirləyib onun üstünə yıxıldı...

Müdirlə görüşü soyuq alındı. Heç birinin ürəyindən deyildi. Əslində əlacı olsaydı üstünə “müdir” sözü yazılan qapıdan ömrü boyu girməzdi. Xoşu gəlmirdi – həm müdirdən, həm də müdirlə tez-tez görüşməkdən. Cəmil Bababəylinin apreldə 40 yaşı tamam olacaqdı. İxtisasca inşaatçı olan Cəmil əvvəlcə layihə institutlarından birində işə düzəlmişdi. Sonra onu nəşriyyatda gördülər, ara-sıra yazılar yazmağa başlamışdı. Əlinə heç vaxt oxumadığı “Qanunların icrasına nəzarət” adlı ara qəzeti düşmüşdü. Orda gözucu “Suludağ bələdiyyəsinin uğurları” məqaləsinə baxdı. Yazı inşaatçının məsləhətləri ilə başlayırdı. Cəmil Bababəyli yazırdı ki, hər bir binanın möhkəm olması üçün onun himi qaydasında qoyulmalıdır. Tökülən betonun sementi çox olmalıdır ki, ev sonralar uçmasın. Nə isə, bütün məsləhətlərdən sonra sonda qeyd olunurdu ki, Suludağ bələdiyyəsinin özülü möhkəm qurulub və bələdiyyənin sədri bu möhkəm özül üzərində göz oxşayan bir bina ucaldıb?!!

Cəmil Bababəyli onlara müdir təyin olunanda ilk dəfə o yazını göz önünə gətirdi və təəssüf hissi keçirdi. “Gör nə günlərə qaldıq” – dedi öz-özünə. Doğrudan da, yaman günlərə qaldılar. Cəmilin müdir kimi qəbul etdiyi qərarlar inşaatçının primitiv düşüncələrindən başqa bir şey deyildi və həmişə gülüş

doğururdu.

Üst-başına, üz-gözünə, əllərinə gen-bol tökdüyü ətirin iyi onu birtəhər etdi.

– İşə gecikirsən, haa!

– Kim gecikir?

– Səni deyirəm.

– Mən işə gecikən deyiləm. Onu sənə kim dedi?

– Dedilər daa.

– O deyənlərin özləri gecikmişdilər.

– Yaxşı, eybi yox, hava soyuqdu, qarlıdı, bu dəfə bir söz demirəm, ancaq işə gecikmək olmaz.

– Bu sözləri yaxınlarına, xətrini daha əziz tutduqlarına desən yap yaxşı olar.

Cəmilin məqsədi başqa idi, bu gecikmə söhbətinin üstündən tez keçmək istəyirdi.

– Burda hamı mənim üçün eyni adamlardı, iş yoldaşlarıdı. Sən niyə özündən çıxırsan?

– Çünki nahaqdan danışırsan. Gecikənə, işə günlərlə gəlməyənlərə heç nə demirsən, kim ki, vaxtında gəlir, nizam-intizamı gözləyir, düşürsən üstünə.

– Fərəcullazadənin yazısını oxudun?

– Yox.

– Belə olar də. Mənim yubileyim gəlir, biriniz bir kəlmə də yazmırsınız.

– Fərəculllazadə yazıb, Feyziyev yazır, Rail Əlləzoğlu yazar, Cahangirli, Əsmər xanım...



– Onu-bunu misal çəkmə, özündən de. Sən niyə yazmayasan ki? Biz bir kollektivik, hər şeyimiz birdi, bir kotyoldan yemək yeyirik. Gərək bir-birimizə də dayaq olaq.

– O boşqabdan kimə daha çox pay düşürsə, o da işini bilməlidi. Fərəcullazadə borcundan çıxıb. O necə çıxıbsa, o birilər də onun kimi eləməlidirlər. Feyziyevin bizim sahəyə heç bir aidiyyatı yoxdu. Sovet vaxtı kolxozda mühasib köməkçisi işləyib. Onu iqtisadiyyat şöbəsinə müdir qoymusan. Əməlli-başlıca reketçiliklə qazanır. Rail Əlləzoğlu tikiş fabrikində nəsə işləyib, orta savadı var, şikayət şöbəsinin müdiridi. Özü onun-bunun adına ərizələr yazıb düşür şəhərin canına. Əsmər

xanım hansısa özəl institutu necə qurtarıb, Allah bilir. O dövlət və hüquq siyasətindən nə bilir ki, nə də yazsın. İşbirliyi qurmağına sözüm yoxdu, ancaq bu işbirliyinin redaksiyaya bir qara qəpik də xeyri yoxdu. Sənin sayəndə qaz-vurub qazan doldururlar, indi himayədarlarının şəninə söz desinlər də.

– Deməyindən belə çıxır ki, sən burada heç nə qazanmırsan?

– Mən sənətimin peşəkarıyam, aldığım məvacib işimin müqabilində qat-qat azdı.

– Necə peşəkarsan ki, qazana bilmirsən? İndi maaşla dolanan kimdi?

– Mən dilənçi kimi onun-bunun qabağında burnumun suyunu tökməyi bacarmıram.

– Deməli yazmırsan?

– Yazmamağım daha məsləhətdi.

Söz Cəmili tutdu.

– O niyə elə olur ki? Bəyəm mən kimdənsə pis yazıram? Sən özündən nə yaman belə razısan ki, məndən yazmağı özünə sığışdırmırsan? Sən özün kimsən ki?

– Mən sənin kimi inşaatçıların şan-şöhrət xətrinə primitiv cızmaqaralarının üstündən xətt çəkən qələm sahibiyəm.

– Sən heç nəsən.

– Mən heç nəyəmsə, sən ədəbiyyatın oğrusu, yaltağı, ikiüzlüsü, simasızsızısan. Bunlardan yazım?!

Otaqdan çıxıb koridor boyu çıxışa tərəf addımladı. Üfunət iyi gələn qapını açıb şırhaşırla axan sudan üzünə vurdu. Bir az rahatlaşdı. Pəncərəyə yaxınlaşıb bayıra baxdı. Yol şüşə kimi idi. Maşınlar astaca hərəkət edirdilər. Papiros yandırdı.

"– Sən nə kişisən? Adını kişi qoymusan. Qazana bilmirsən. Maaşla ailə saxlamaq olar?".

Arvadı ilə Cəmilin sözləri üst-üstə düşürdü. Deməli, bunların sözündə həqiqət varmış. Əsmər işə gələndə əyninə geydiyi paltar nə gündə idi? İndi bax, bir paltarı ikinci dəfə geyinmir. Bər-bəzəyi də onun kimi. "Prado" sürür. Fərəcullazadənin "RANQ ROVER"i var. Feyziyevin, Cahangirlinin "Mersedess"ləri var. Qazanırlar, yeyib-içirlər, deyib-gülürlər. Kefləri sazdı, heç qanları qaralmır. Əsmər qaqqanaq çəkəndə səsi

binanı silkələyir. Onun qanı isə qaradır. Evdə də, işdə də.

– Bir papruz ver! – Şair Gülhüseyn Bənənyar idi. – Bir obyekt ver, əlim aşağıdı.

Xəzər dənizini göstərdi.

– Orda kimin yanına gedim?

– Dənizin içinə girəndə görəcəksən. Orda hər şey var.

– Zarafat edirsən?

– Nə zarafat? Ən böyük obyekt oradı. Bacarsan. Bacarmasan da ki, heç...

***

Çayı soyumuşdu. Heç nə edə bilmirdi. Papiros yandırmaq istəmirdi. Ağzı tütün iyi verirdi. Sevda xanım qapını açdı.

– Qafqaz Müsəlmanları İdarəsi xəstələr üçün aksiya keçirir. Qan verməlisiniz. Cəmil müəllim tapşırıb ki, hamı iştirak etməlidi. Gəlin, başdakı otaqdadırlar.

– Məni o siyahından çıx.

– Niyə? Cəmil müəllim sənin adını başdan birinci yazıb.

– Həmişə birinci başqaları olurdu?

– Müdirdi, indi də belə istəyib də.

– Mənim qanım yararlı deyil. Bunu sənin Cəmil müəllimin bilmir. Bilsəydi, heç yazmazdı.

– Niyə yararlı deyil? Nə olub sənə?

– Çünki mənim qanım heç bir qan qrupuna aid deyil.

– Bəs hansı qrupa aiddir?

– İt qanına.

– Doğrudan?!...

***

Pillələri düşürdü. Fasilə vaxtı olduğundan gediş-gəliş azalmışdı. Hardansa mobil telefon səsi eşidildi. O mahnını oxuyurdu.

Yadına heç kim düşmədi...

## PERİK DURNALAR

Göy üzünə boylandı. Sübhün alatoranında səma şəffaf su kimiydi. Təkcə günbatanda bir əlçim bulud vardı və o bulud qırmızı rəngdə idi. Ürəyində heyrətləndi, çünki heç vaxt qışın oğlan çağında – dekabrın sonunda hava belə ılıq və günəşli olmamışdu. Az qala köynəkdə gəzəcəkdin. O da fikrində dolandı ki, Allah dedikləri yalan deyil və o gözəgörünməz hər şeyi görür və yerli-yataqlı yoluna qoyur. Yolboyu çadırlarda gecələyən, doğma ocaqlarından didərgin düşənlərin nə günahı var? Bu soyuqda kimin ocağına pənah aparsınlar? Bir deyil, beş deyil...

Qatardan düşəndən bir gözü göy üzündəydi. Elə bil qəfil nəsə olacaqdı. Ancaq o, daha möcüzə olacağına inanmırdı və papirosunu yandırıb tüstünü acgözlüklə ciyərlərinə çəkəndə hiss etdi ki, gözü durna dəsini axtarır. Havalar isti keçir. Yəqin yol-iz uzaq olub, həm də isti durna dəsini çaşdırıb, elə biliblər ki, gedəcəkləri son mənzil elə bura qədərmiş. Ancaq qatarda yuxunu belə görməmişdi. Görmüşdü ki, durna dəsi nəğmə oxuya-oxuya kəndlərinin üstündən keçir. Birdən necə olursa dəstədən bir durna ayrılıb Öküz dağının üstünə düşür. Onun səsinə bütün kənd yığılır. Durnanı tutmaq istəyirlər. Bu ara dəli Həsrət qoşalüləni sinəsinə sıxıb qəribi nişan alır. Sayalı özünü Həsrətin üstünə atır.

– Qadan alım, Həsrət, qəribdi, onu qəribliyinə bağışla. Məni öldür, ancaq ona güllə atma.

Qalxıb yerində oturdu. Hamı yatmışdı və vaqondan qəribə səslər gəlirdi. İydən ürəyi sıxılırdı. Sınıq pəncərə şüşəsinin qabağında dayanıb papiros yandırdı.

...Sayalı onun arvadı idi. Qırx il bir yastığa baş qoymuşdular. İndi onların arasında qəribə bir uzaqlıq vardı. Sayalı qürbətdə qərib idi. Daha Sayalının qəbrinə baş çəkməyəcək, onun yanında dayanıb saatlarla xəyala dalmayacaq, qəbrin böyür-başının alağını təmizləməyəcəkdi. O gecə, vaqonun sınıq şüşəsindən üzünə külək əsdikcə özünü Sayalısız tənha saydı, uşaq kövrəkliyi ilə sızıldadı:

– Məni niyə yetim qoydun!

Ara qarışanda elə çətinlik çəkmədən doğma ocaqdın çıxdılar. Ondan olsaydı, getməzdi. Ancaq oğlunun xətrinə tələm-tələsik nələri vardısa, maşına yığdılar. Son dəfə qəbiristanlığa – Sayalının görüşünə getdi. Bir az gec qayıtdı. Maşın da, oğlu da, gəlin də onu gözləyirdi.

– Gəl görək, ay kişi. Sən də vaxt tapdın. Keçi canı hayındadı – Oğlu gəlininin sözünü kəsdi.

Otur görək, – hirsli idi, ona görə “ay ata” demədi. – Bunlara nə var ey, yaşadıqlarını yaşayıblar. Bizik bədbəxt. Yüz dəfə dedim, gəl gedək bu dağdan-daşdan. Eşitmədin. İndi görək neynəyəcəksən...

Yolboyu danışmadı. Gəlinin oğlundan soruşduqlarını eşitmədi. Onun gözünə isə heç nə görünmürdü – yol-iz Sayalı idi, ağlayırdı, gülürdü, qaçırdı, çay süzürdü, inək sağırdı.

Yolları Bakıyaydı. Gəlininin rəfiqəsi onlara ev də tapıbmış. Ancaq şəhərdə yaşamaq onun ürəyincə deyildi. Ömrü-günü Sayalı ilə dağlarda keçmişdi. Bu çal vaxtında şəhərdə yaşamağı ağlına belə gətirmirdi. Nə iş tutacaqdı? Heyvan yox, həyət-baca yox. Səhərdən axşamacan dörd divar arasında otur. Özgə əlindən nə gəlirdi? Kənd camaatı Gəncəyə yaxın kəndlərdən birinə köçəcəkdilər. Özü də elliknən. Necə olmasa, elnən bir olsa yaxşıydı.

Gəncəyə çatanda düşmək istədi.

– Bir gör fikirləşirmi, oğlu cavandı, təhsillidi. Onun taytuşları şəhərdə yaşayır, əli-ayağı quru. Hamısı da vəzifə sahibi. Bizim üstümüzdən gərək peyin iyi gələ. Bizi...

Nə o, nə də oğlu dillənmədi.

...Məsimin səsinə diksindi.

– Ay Qədir, nə oldu, Bədiri rahatlaya bildinmi?

– Nə.

– Mən də uşaqları rahatladım. İndi nağayraq deyirsən?

– Belə qalmışam.

– Qalıb qağayracaqsan. Gedək camaatın yaşadığı kəndə. Uzaq deyil. Kənd böyük, gələn də az. Hamı şəhərə gedir.

O bir də göy üzünə baxdı. Qırmızı yox olmuşdu. Ağ bulud-

lar vardı və deyirdin durna dəsidi, qatarlaşıb. Təkcə nəğmələri eşidilmir.

– Ay Məsim, istəyirəm bir kəndə dəyim, Yoxlamam yoxdu. Gedim alım gəlim.

– A kişi, indi qarışıqlıqdı. Yoxlama nəyə lazımdı? Deyirəm, kənd boşdu. Lazım olsa, sonra gedərsən.

– Heç zad olmaz. Sabaha qayıdıram. Mənə də bir ev saxlayarsan. Elə qonşuluqda.

– Qatar çoxan getmişdi. Dəmir relslər təzəcə doğan günəşin işığında parıldayırdı.

– Qatar da getdi.

– Yol maşınıyla gedəcəm...

Dayanacaq uzaqda deyilmiş. Təzə papiros yandırdı. Birdən ürəyi sıxıldı. Dizinin taqəti kəsildi. Oturmaq istədi. Gözünə qaranlıq çökdü. Elə bildi ki, Sayalının qəbrinin tozunu təmizləyir. Əlləri uzanıqlı qaldı. Dəli Həsrət əlini sıxdı. Sayalı ona yalvarırdı. Özü də inanmadığı bir güclə özünü Sayalının qabağına atdı. Güllə səsi eşidildi. O təkcə Sayalının adını deyə bildi.

## QURD DƏRMANI

Dağ rayonunun ən ucqar kəndlərindən birində otuz ildən artıq feldşerlik edən və hamının "doxdur" deyə çağırdığı Qasım Yelkənliyə yeni həkimin gəlməsini pis qarşılamadı, əksinə bir az ürəyində sevinən kimi oldu ki, daha saçları ağardıb, əldən düşən tək olub, əvvəlki kimi kəndin bu başından vurub o başından çıxa bilmir. Həm də açığı biliyi o qədər deyil, camaatın tələbatını ödəyə bilmir. Təzə gələn həkim deyilənə görə lap medinstitutun özünü qurtarıb, adamın üzünə baxan kimi xəstəliklərini bir-bir oxuyur.

Bu vaxt ərzində Qasım neçə dəfə eşitmişdi ki, Yelkənli kəndinə ali savadlı həkim göndərirlər, o həkimlərdən biri hətta kəndə gəlib çıxmış, ancaq cəmi-cümlətanı az vaxtdan sonra əvvəlcə Yelkənlini, sonra isə rayonu tərk etmişdi. İndi Qasıma o qəribə gəlirdi ki, görəsən bu igid kimdi ki, kəndə gəlir və nə yaxşı ki, gəlir!

Kəndin itoynadanları Qasıma sataşmağa başladılar.

– Qasım, daha sənin eşşəyin öldü!

– Bu gələn Qasımın çörəyini əlindən alacaq!

– Qasım, özünü tox tut, otuz ildi bu camaata baytar həkimliyi eləyirsən, axır bizim də canımız sənin əlindən qurtarmalı idi, ya yox?

Ancaq Qasım bunları zarafat kimi qəbul edir, çox vaxt dillənmir, bəzən də zarafata zarafatla cavab verirdi.

Sonra bu zarafat ciddiliklə əvəz olunurdu.

– Qasım, o kimdisə, burada çox davam gətirə bilməz. Yelkənliyə gəlmək asan, yaşamaq çətindi.

– Mən də inanmıram ki, o həkim bir həftədən çox burada tab gətirsin.

– Kim gəlir-gəlsin, bizim həkimimiz Qasımdı, ona öyrəşmişik, o da bizi tanıyır.

Bu söz-söhbətlərdən heç iki gün keçməmiş "VAZ" kəndin ortasında, çayçı Məhərin çayxanasının yanında dayandı. Qabaq qapıdan şişman, saçının ortası keçəlləşmiş, qırmızıyanaq kişi, arxadan isə alçaqboy, qarayanız, gur saçlarını arxaya

daramış oğlan düşdü. Kişi camaatla salamlaşıb kənd sovetinin sədrini soruşdu. Çayxanadan əlli metr aralıda yerləşən binadan sovet sədrini çağırdılar. O az qala qaça-qaça özünü qonaqlara çatdırdı.

– Xoş gəlib, səfa gətirmisiniz, ay yoldaş baş həkim. Siz hara, buralar hara?

– Görürsən də, gəlmişəm, özü də gözəl bir həkim gətirmişəm. Adı Gümrahdı. Həkimliyin baş institutunu bitirib. Bu kəndə də öz arzusu ilə gəlib. İnanıram ki, o Hippokrata içdiyi and ilə sizə qulluq göstərəcək, siz də onu əziz bir adamınız kimi göz üstündə saxlayacaqsınız.

– Gözümüz üstündə yeri var, həkim. Baş üstə, baş üstə.

– Əsas məsələ onun qalması üçün yerdi. O harda qala bilər?

– Heç bir problem yoxdu, yelkənlilərin hər bir evi onun öz doğma evidi. Hələlik bizdə qalar, sonrasına baxarıq – dedi sovet sədri və qonaqları evinə apardı.

Səhərisi gün tezdən təzə həkim dəyirmanın üstündəki feldşer-mama məntəqəsinə gəldi. Qasım işdə idi və indiyə qədər adı süpürgəçi yazılan, ancaq bir dəfə də olsun işə gəlməyən Səlminaz da əlinə köhnəlmiş süpürgə alıb yalandan qurdalanırdı. Qasım təzə həkimi təbrik edib açarları ona verdi.

– Açarlar səndə qalacaq.

– Niyə, həkim? – Əslində Qasım açarları təzə həkimə verməklə canını sübh tezdən işə gəlməkdən qurtarmaq istəyirdi.

– Ona görə ki, sən sübh tezdən gəlib burada səliqə-səhman yaratmalısan.

– Mən yox, ay doxdur, təmizliyə Səlminaz baxır.

– Onda açarları ona ver, o buranın işçisidi, hökumətdən maaş alır, bütün günü də işdə olmalıdı – doqquzun yarısından altının yarısınadək.

Səlminaz yaylığının ucunu ağzına tutdu.

– Ay doxdur, ağrın mənə gəlsin, mən o haçarları saxlayammıram, həm də səhərdən axşama mən burda neyniyəsiyəm? Külfət çox, mal-qaranın altını təmizləyib qurtarmaq olmur. Haçarlar elə sizdə qalsın.

Şofer Kitayın gəlişi söhbəti yarımçıq qoydu. Hiss olunurdu ki, tezdən yenə içib.

– Doxdur, əvvəla kəndimizə xoş gəlmisiniz. Mən dəyirmana dən üyütməyə gəlmişəm. Özüm kimi qırıq maşınım sizə qurbandı. Həmişə qulluğunuzda hazıram. Düz sözümdü, sən belə hərtərəfli qəhrəman adamsan ki, burda işləməyə gəlmisən.

Həkim razılıq etdi, nə istədiyini soruşdu.

– Allaha şükür, bir tikə çörəyimiz var, hələ ki, içki canımızın düşməni olsa da, içməyi bacarırıq. Bilmək istəyirəm: adam bir az içəndə göyə baxır, görür ki, göy fırlanır. Mən orta məktəbdə yaxşı oxumamışam, ancaq bilirəm ki, Yer öz oxu ətrafında fırlanır. Yerə baxıram, yer fırlanmır. Səncə göydü, yoxsa adamın başı?

Həkim stulda əyləşdi.

– Tibb elmi sübut edib ki, insan içəndə araq mədəyə tökülür, ancaq araq mədədə təsir gücünə malik olmur, elə ki, bağırsaqlara çatdı, başlayır təsir etməyə. Deməli, fırlanan nə göydü, nə də baş. Bağırsaqlardı.

– Nə bağırsaq?

– Bəli, bağırsaq arağın təsiri ilə fırlanır.

– Həkim, mən üzr istəyirəm, savadsız adamam, bağırsaq hara, baş hara?

– İnsanın bütün orqanizmləri bir-biri ilə bilavasitə əlaqədardır. Bax, ayağına bir şey dəysin, gözündən yaş gəlirmi? Gəlir.

– Sağ ol, həkim, ananın südü sənə halal olsun. Bunu eşitməmişdim. Deməli, bizi fırladan bağırsaqlardı.

– Bəs nə bilmişdin? Bağırsağı nə bilmişdin? Elevator kimi üyüdür.

Həkim otaqları gözdən keçirib ikisindən də narazı qaldı.

– Bura xəstəxanaya yox, tövləyə çox oxşayır. Çarpayıya illərdi ki, əl vurulmur. Bunları apar yu, ütülə gətir. Şkafların şüşələri rəngini dəyişib. Bir dəsmalnan təmizləmək nə çətin işdi? Bizim bir nömrəli işimiz təmizlikdi. Onu otaqda, həm də adamlarda yaratmalıyıq.

Telli oğlu ilə gəldi.

– Canım saa qurban, a doxdur, bir üç-dörd il bundan qavaxlar buram yaman sancılanırdı – əli ilə qarnının sağ tərəfini

göstərdi. – Allah işini onarmış Qasım doxdur dərman verdi, içdim, ağrım o saat xırp kəsdi. Həm də üzr istəyirəm, məndən yamanca qurd töküldü. İndi o ağrım təzədən başlayıf. Bir də bu uşağın qızdırması düşmür.

– Uzan! – Həkim Telliyə az qala qışqıracaqdı.

– Nəə?

– Uzan, qoy Səlminaz səni soyundursun, mən ürəyini, ciyərlərini yoxlamalıyam.

– Bıyy başına xeyir! – Səlminaz təəccübləndi. – Mən o qələti eliyəmmərəm, doxdur. Heylə belə dərman verirsən ver, yoxsa Qasımnan alıb içəcəm. Sən bu uşağa bax.

– Gəl görüm, otur, soyun. Tamam yox, köynəyini yuxarı qaldır. Qızdırman yüksəkdi? İndi ölçərik. Ayağın işləyir?

– Hə.

– Qusursan?

– Yox.

– Ürəyin bulanır?

– Hə.

O fenandoskopu qulaqlarına taxıb, ucluğu uşağın sinəsinə qoydu.

– Nəfəs al! Tez-tez! Yaxşı. İndi dərindən nəfəs al, burax.

Xeyli müayinədən sonra həkim stulda əyləşdi.

– Uşağın vəziyyəti olduqca kritikdi. O, təcili rayon xəstəxanasına getməli, qandan analiz verməlidi. Səhər tezdən bir az nəcisi spiçka karobkasına qoy, bir də butulkada sidik nümunəsi götür. Analizlərin cavabını gətir, resept yazım, yoxsa uşaq əldən gedir.

Telli Qasımı yana çəkdi.

– O dərmanından mənə də, uşağa da yetik ver. Bir saatdan bir atım, onnan da qurtarsın getsin. Bu dediyinə qalsa, birtəhər olarıq.

– Nə dərmandı elə? – Həkim Qasımdan soruşdu.

– Qurd dərmanıdı.

– Onu həkimin təyinatından sonra qəbul etməlisiniz. Analiz verilməli, cavabları bilinməlidi.

Telli dərmanları götürüb uşaqla getdi.

– Nə ürəklə bu dərmanları analizsiz-zadsız camaata verirsən?

Həkim Qasım ittiham etdi. – Qorxmursanmı bir fəsad verə?

– Neçə onillərdi ki, doxtur, mən bu camaatı tanıyıram. Hələ əlimdən xəta çıxmayıb. Elə olub ki, Bakıda müalicə olunmayanı mən burda müalicə eləmişəm...

***

İnişilki yay Semaşko adına xəstəxanada həkim işləyən Qərənfil Yelkənliyə qayınatasıgilə gəlmişdi. Qasımla görüşəndə dedi ki, oğlu bir dəridi, bir sümük. Nə illah eləyirsə, bir əlacı tapılmır... Bakıda göstərmədiyi həkim, eləmədiyi müalicə qalmayıb.

Qasım uşağın ora-burasına baxdı, köhnəlmiş çamadanını açıb qurd dərmanından bir ovuc götürdü.

– Bundan gündə üç dəfə yeməkdən əvvəl içərsən, qurtarıb gedəcək.

Qərənfil dərmanlara baxdı.

– Bu nə dərmanlardı, ay Qasım?

– Qurd dərmanıdı. Dediyimi elə, beş-on günə qurtarmasa, onda nə deyirsən, de.

Qərənfil çaş-baş qaldı. Anası Qasıma dəstək oldu:

– Ziyanlı döy ha, qoy içsin, bəlkəm xeyri oldu. Burda hamını bu dərman qurtarır.

Az keçməmiş Qasımın "müalicəsi" öz işini gördü və bundan sonra Qasım Yelkənlidə daha da məşhurlaşdı. Deyirdilər ki, Qasım Bakının professorlarından çox bilir.

***



İki ay sonra Gümrah həkim yoxa çıxdı.

Doxdur Qasım adəti üzrə köhnəlmiş çamadanını götürüb Yelkənlinin ayağından başına dolanırdı.

– Doxdur, təzyiqim qalxıb, dərmanın varmı?

– Başım ağrıyır, o dərmanından qalıbsa, mənə də ver.

– Qasım, ayaqlarım yer tutmur, o qurd dərmanından qalıbmı?

Qasım ayda bir-iki dəfə rayon mərkəzinə gedəndə çamadanını qurd dərmanı ilə doldururdu...

## PÖHRƏLƏR

*Tarix həmişə tarix olaraq qalır.*

### I

Qala alınmaz olmuşdu. Sıldırım qayaya söykənən təpə hər tərəfdən hündür hasara alınmış, üç metrdən bir gözlüklər qoyulmuşdu. Buradan üzüyuxarı yamaca doğru çıxanları məhv etmək olduqca asan idi. Üç gün ərzində neçə dəfə həmlə olsa da, bir nəticə hasil olmamış, xeyli itki verilmişdi.

Xan zənnində yanılmışdı. Az vaxt ərzində qonşu xanlıqları məğlub edərək ələ keçirən xan Çardaqqalada asanlıqla qələbə çalacağına əmin idi, çünki bu xanlıq digərlərindən o qədər də güclü sayılmırdı. Elçisini sərt cavabla geri qaytaran çardaqlıların müqavimət göstərmələri xanı əsəbləşdirmişdi. Hücumların nəticəsiz qalması onu düşünməyə məcbur edirdi. Ordu qala ilə üzbəüz dağın döşündəki meşəlikdə məskən saldı. Çadırlar quruldu, ocaqlar çatıldı. Xan əyanlarını topladı.

– Biz qalibiyyətli yürüşlər etdik, güclü sandığımız xanlıqları ələ keçirdik. Ordumuz güclüdür. Onun bundan sonra da zəfərlər çalacağına əminəm. Siz də mənim fikrimlə razısınız, elə deyilmi?

"Bəli" sədaları xorla səsləndi.

– Ancaq Çardaqqalanı ələ keçirmək bizim üçün müşkül işə çevrilib. Biz nəyin bahasına olursa olsun, qalanı tezliklə ələ keçirməliyik! Nə qədər tez zəfər çalsaq, şöhrətimiz artar. Qalanı ala bilməməyimiz bizi nüfuzdan salır. Bunu anlayırsınızmı? Çardaqqala bizim olmasa, hamı üstümüzə qalxacaq! Onda bizim işimiz çətin olacaq! Biz hətta məhv olmaq dərəcəsinə çatarıq. Məhv olmaq!

Ətrafa dərin sükut çökdü. Əyanlar başlarını aşağı salmışdılar. Sərkərdələr vəziyyətin belə acınacaqlı sonluqla bitəcəyini indi – xanın sözlərini dinlədikdən sonra anlamağa başlayırdılar.

– Çıxış yolunu axtarıb tapmaq lazımdı. Çıxış yolu isə var! Lakin biz onu tapmaqda acizik. Hər biriniz fikirləşin. Bu qədər

qələbələr çalan sərkərdələr acizlik göstərməsinlər, fikirlərini, təkliflərini söyləsinlər. Yekun qərara gəlib hücuma başlamalıyıq.

Xan çıxışına ara verdi. Bu o demək idi ki, fikirləşib təkliflər irəli sürülməlidir. Gərgin anlar idi. Verilən təklif inandırıcı və sonu qalibiyyətli olmalı idi!

Bütün nəzərlər xanın dörd sərkərdəsinə dikilmişdi. Söz onların idi, ancaq onlardan hələ ki, səs çıxmırdı. Görünür əsaslı təklifləri yox idi.

Xan üzünü əyanlara tutdu:

– Siz də düşünün. Bəlkə sizlərdən kimsə elə bir yol göstərər ki, o heç sərkərdələrin ağlına gəlməz?

Əyanlar bu qəfil təklifdən tutuldular. Xan hiss etdi ki, onların deməyə sözləri yoxdu.

– Hamı ağzına su alıb susacaqsa, hamı mənim dediklərimi "bəli, bəli" deməklə təsdiqləyəcəksə, onda nə oldu? Bir adam hər şeyin öhdəsindən tək gələ bilməz ki? Bir baş yaxşıdır, iki baş, daha yaxşıdır, üç baş isə əladır. Yaxşılıq, əlalıq heç nə yoxdu. Əgər hər şeyi mən həll edəcəyəmsə, onda siz nəyə lazımsınız? Birinci piyada bölüyün sərkərdəsi! Səni eşidirəm.

Sərkərdə ağır-ağır ayağa qalxdı. Narazı halda söz başladı.

– Xan sağ olsun, gözəl qeyd etdiniz ki, bizim ordu zəfərlər qazanan ordudu. Biz çoxlu sayda qələbələr qazanmışıq.

– Çardaqqalanı necə ələ keçirək! – Xan uca səslə dilləndi.

– Biz üç gün qalaya həmlə etdik, nəticədə xeyli itkilərimiz oldu, heç nə də qazana bilmədik. Qalanın mövqeyi alınmazdır. Dik yoxuşu sürətlə çıxmaq olmur, üstəlik qala keşikçiləri hücumu asanlıqla dəf edirlər. Biz bunun şahidi olduq. Ona görə təklif edirəm ki, qalaya hücumları dayandıraq, havayı itkilər verməyək. Əvəzində qalanı mühasirədə saxlayaq ki, sonda özləri məcburi təslim olsunlar.

– Məcburi təslim! Mühasirə! – Xan sərkərdənin çıxışından dəli kimi qışqırdı. – Sən nə danışdığını heç bilirsənmi? Mən deyirəm ki, biz qalanı tez bir zamanda ələ keçirməliyik, sən mühasirədən danışırsan. Mühasirə nə qədər çəkəcək? Bir il, iki il? Bir il, iki il buralarda vaxt öldürək ki, Daşqala, Soyuqqala, Topqala üstümüzə baş qaldırsın?

– Vəziyyət bunu tələb edir! İstəsək də, istəməsək də. Buradakı qüvvənin hamısını saxlamağa ehtiyac yoxdu. Bir hissəni geri göndərərik, vəziyyəti sabit saxlayarlar.

Söz atlı qoşunların sərkərdəsinə verildi.

– Mühasirə variantı pis deyil. Biz bu şəraiti saxlamaqla qalaya gələn su xəttini aşkar etməli, əhalini susuz qoymalıyıq. Belə olan halda qala öz-özünə təslim olacaq. Daha döyüşməyə ehtiyac qalmayacaq.

Xan başını yellədi.

– Sən deyə bilərsənmi, qala indiki halda mühasirədədir, ya yox?

– Mühasirədədir.

– Onda nə danışırsan? Bir düşün: qalanın mühasirədə olduğunu onlar yaxşı başa düşürlər. Mühasirə şəraitini biz yaratmırıq, onlar özləri yaradırlar. Bu onların xeyrinədir. Belə olan halda onlar suya ehtiyac yaradarlarmı? Yox. Orada neçə-neçə bulaqların olduğuna inanıram. Üstəlik, siz fikir vermisinizmi, dağ çayı qaladan axır!

Ehtiyat bölüyün sərkərdəsi qalaya xüsusi adamların göndərilməsini, onların qala qapılarını açmasını təklif etdi. Xanın xüsusi bölüyünün sərkərdəsi əsgərlərin yorğunluğunu aradan qaldırmaq, qəfil hücum haqqında qırıq cümlələr işlətdi.

Xan vəzirdən başqa hamının iclası tərk etməsini əmr etdi.

– Heç kim ağıllı bir söz deyə bilmir. Sərkərdələrin sözlərinin də şahidi oldun. Mən çıxılmaz vəziyyətdəyəm. Çarəsizlikdən artıq addım atmaq istəmirəm.

– Xan sağ olsun, səbirli olmağınız məsləhətdir. Bilirəm, ürəyinizdə bir alov məşəl kimi yanır. Onu ağılla söndürmək lazımdı.

– O ağıl kimdə ola bilər?

Vəzir dillənmədi.

– Anamda, vəzir, anamda!

– Bu heç ağlıma gəlməmişdi.

– Anam yeganə insandı ki, mənə çıxış yolunu göstərər. Elə bu dəqiqə adam götür, yola çıx. Anama vəziyyəti başa sal, de ki, məsləhətinə ehtiyacım var...

## II

Xan səbirsiz olmuşdu. Ona elə gəlirdi ki, vaxt öz yerindəcə dayanıb, Günəş səmada bir nöqtədə qərarlaşıb, qarşı dağın arxasında görünməz olmur ki, hava qaralsın, gecə düşsün. İki gecə gözümə yuxu getmədi, dağın müxtəlif yerlərindən sıldırım təpədə göz deşən qayaya, qalanın hasarlarına dönə-dönə baxdı. Hər baxdıqca özündə zəiflik, süstlük hiss edirdi.

"– Mən artıq düşünməyi bacarmıram! Zəifəm, çox zəifəm!"

Çadırına gəlib yemək yemədən yerinə uzandı. Keşikçilərə tapşırdı ki, vəzir səfərdən qayıdınca onu oyatmasınlar.

## III

Vəzir səfərdən əhvalsız qayıtmışdı. Atdan düşüb su istədi. İri parçı başına çəkib xanın çadırına tərəf addımladı.

– Xoş gəldin! – Xan mütəkkəyə söykənmişdi.

– Xoş gününüzə gəldim!

– Yorğun görünürsən! Səfərin necə keçdi?

Vəzir başını qaldırıb xanın gözlərinə baxa bilmədi.

– Yorğunluğum heç yada düşmür, xan sağ olsun. Əsas məsələ odur ki, bir iş görə bilmədim.

– Necə yəni?

– Mən Şəms xanımla görüşdüm, Sizin sözünüzü ona çatdırdım. O, bir kəlmə də olsun dillənmədi. Mən dəfələrlə xahiş etdim ki, xanın məsləhətinizə ehtiyacı var. O, tək sizə ümiddir.



– Dillənmədi?

– Bəli, dillənmədi.

– Vəzir, anamla görüşünü olduğu kimi danış, çalış ən xırda, vacib saymadığın məsələləri yadından çıxarmayasan. İnanmıram ki, anam səni əliboş yola salsın.

Vəzir yerini rahatladı.

– Xan sağ olsun, biz qəsrə çatanda sübh tezdən idi. Bizi eşikağası qarşıladı. Qəfil gəlişimiz onu qorxutdu. Şəms xanımla görüşmək istədiyimi bildirdim. Getdi, tez də qayıtdı. Xanım buyurmuşdu ki, uzaq yol gəliblər, əvvəlcə rahatlansınlar, sonra çay süfrəsi arxasında söhbət edərik. Təklif ürəyi-

mizcə oldu. Dayanmadan at çapmışdıq. Yol bizi yormuşdu. Yuyunduq, rahatlandıq. Şəms xanım bizi çox mehriban qarşıladı. Mən onu vəziyyətlə tanış etdim. Mənə diqqətlə qulaq asdı. Söhbət məsləhətin üstünə gələndə tutuldu, fikrə getdi. Çay süfrəsindən sonra o həyətə çıxdı. Eşikağası ilə mən də onun arxasınca. Şəms xanım həyətə düşüb bağa tərəf addımladı. Bar gətirən ağaclara bir-bir nəzər yetirirdi. Bu il meyvə o qədər də yaxşı gətirməmişdi.

Xanım gedirdi. Kənarda boş yer vardı. Ora balaca çubuqlar əkilmişdi. Dörd cərgə idi. Bir-birindən gözəl pöhrələr göz işlədikcə uzanırdı. O, pöhrələrə baxdı, baxdı, eşikağasını yanına çağırdı.

– Tapşır, axşamüstü bunlara su versinlər!

– Baş üstə! – Eşikağası hər iki əlini sinəsində çarpazladı.

Mən fürsət tapıb bir də xanımdan xahiş etdim ki, bəs xan sizdən məsləhət gözləyir. Nə buyurursunuz? Xana nə deyim? Yönünü çevirib qayıtdı. Hə, bir də eşikağasına tapşırdı ki, yola yemək tədarükünü unutmasın.

Biz axşama kimi gözlədik, bir nəticə olmadığını görüb korpeşiman geri qayıtdıq.

Xan fikrə getdi, sifətinə boz bulud qondu.

Vəzir mat-məəttəl xanın üzünə baxdı, ürəyində peşimançılıq və təəssüf hissi vardı.

– Axşama təcili yığıncaq çağır! Hamı bir nəfər kimi iştirak etməlidi. – Xan quş cəldliyi ilə ayağa qalxdı.

## IV

Xan çayın qırağı ilə üzüyuxarı – meşənin dərinlərinə uzanan yolla tək-tənha gedirdi. Axşama yaxın idi. Çayın şırıltısı, yarpaqların pıçıltısı eyninə deyildi. Soldakı sıldırım qayaların qaranlıqda böyüyən kölgəsi gözlərini örtmüşdü. Fikri-zikri hasarların arasında görünməz olan qalada idi. Arada səs-küy eşidilirdi.

"– Gec-tez alacam! Bu qala mənim olacaq!"

Meşədən səs gəldi. Xan dayanıb dinşədi. Əvvəlcə elə bildi

ki, vahimə onu basır. Ancaq addım səsləri yaxınlaşır, insan həniri eşidilirdi.

"– Bu vaxt buralarda gəzən kim ola?" – Xan irəli – səs gələn tərəfə addımladı. Dörd kölgə iti addımlarla gedirdi.

"– Dayanın!"

Kölgələr yerlərində dayandılar. Qaranlıqda onları səsləyənin kimliyini bilmək üçün kənardakı uzun oğlan xana tərəf gəldi. Xanı dərhal tanıdı, özünü yığışdırıb təzim etdi.

"– Xan sağ olsun, eşidirik!"

"– Siz kimsiniz?"

"– Birinci bölüyün əsgərləriyik. Mən yüzbaşıyam!"

"– Hardan gəlirsiniz? Sizə kim icazə verib bu vaxt asudə meşədə gəzəsiniz?"

"– Xan sağ olsun, haqqınız var. Biz heç kimdən icazə almamışıq. Ancaq icazə verin sizə ərz edim ki, biz bu yaxınlıqda məşq edirdik. Bizim günahımızdan keçin!"

"– Nə məşq?"

"– Arxada enli və hündür bir fısdıq ağacı var. Biz o ağacın gövdəsi ilə yeriyirdik!"

"– Ağacın gövdəsi ilə yeriyirdiniz? Nə danışdığını bilirsənmi?"

"– Xan sağ olsun, əlbəttə. Mən hələ uşaqlıqdan divarda yeriməyi sevirəm. Divarda istənilən heyvandan rahat yeriyirəm. Fısdıqda yerimək lap asandı. Uşaqlara da onu öyrədirdim".

"– Azadsınız!"

"– Xan sağ olsun, təşəkkür edirik!"

Dörd kölgə bir andan sonra gözdən itdilər. Xan yüzbaşının dediklərini xəyalında dolandırdı və qalanın bir tərəfini tutan sıldırım dağa baxdı.

## V

Xan iclasa azca gecikdi. Bunu bilərəkdən edirdi. İçəridə oturanların səs-küyü ətrafı başına götürmüşdü. Bu qarışıqlıqda iclasa etiraz olaraq kinayəli sözlər, gülüş aydınca sezilirdi. Sakit addımlarla taxta çıxdı, əyanların ayağa qalxmalarına diqqət yetirdi. Bəziləri qayda ilə, əksəriyyəti isə zorla, könülsüz ayağa durmuşdular:

– Oturun!

Əyanların oturmaları, stulların cırıltısı xanın əsəblərini oynatdı.

"– Nizam-intizam olmayan yerdə qələbə olmaz. Anamın birinci öyüdü budur!"

Xan yan-yana oturan əyanların sifətlərinə bir-bir göz gəzdirdi. Sifətlərindən yağ daman, boynunu piy basmış əyanların gözlərindən etinasızlıq yağırdı.

– Qalxın! – Xan az qala var səsi ilə bağırdı. Səs gecənin qaranlığında əks-səda verdi, bəlkə qalaya da çatdı. Bunu heç kim gözləmirdi. Bir anlığa duruxdular və kortəbii ayağa qalxdılar.

– Olmadı! Oturun! Qalxın!

Xan üç dəfə bu əmri verdi. Sonuncu dəfə istəyinə nail olduğunu görüb hamını ayaq üstə saxladı.

– Üç gündür ki, istirahət etdiniz! Üç gün! Yatmaqdan, yeyib-içməkdən başqa işiniz yoxdu. Ayağa qalxmağı da bacarmırsınız. Bu üç gündə bir dəfə də olsun maraqlanmadınız ki, nə iş görək. Sizlərə qalsa, ordunu burdan çəkib evə dönərsiniz. Sizin üçün bu qalanı almağın heç bir əhəmiyyəti yoxdur. Bir əhəmiyyət görmürsünüz, çünki sizlərin bəzilərində həvəs deyilən hissiyyat qalmayıb. Siz unutmusunuz ki, bizim məqsədimiz nədir. Məqsədsiz insan isə adi daş parçası, ya da quru odun kötüyüdür. Biz Çardaqqalanı almalıyıq. Özü də yaxın vaxtlarda! Bunun üçün hər şeydən keçməyə hazırıq! Canımızdan da! Bu bizim üçün şərəf işidir!

Xan danışığına ara verdi.

– İlk növbədə təşkilati məsələləri yoluna qoymalıyıq. Hansı təşkilati məsələləri? Bizim dörd bölüyün sərkərdələri artıq döyüşmək qabiliyyətlərini itiriblər. Tamam itiriblər. Odur ki, onların dördü də bu andan etibarən vəzifələrindən azad olunurlar.

Sərkərdələrin beynində ildırımlar oynadı, ağır nəfəs aldıqları hiss olunurdu.

– Xan sağ olsun, bizim nə günahımız var? Biz neyləyə bilərik?

– Sizin günahlarınız böyükdür. Ən böyük günahınız isə qalanı ala bilməməyinizdir.

Yaşca hamıdan böyük olan vəkil boğazını arıtladı.

– Xan sağ olsun, sizin hər bir sözünüz bizim üçün qanundur. Siz bizim başımızın tacısınız. Ancaq bir az səbirli olmaq lazımdır. Sizin səbriniz çox böyükdür. Mənə elə gəlir ki, dörd sərkərdəni birdən-birə kənara atmaq – özü də belə bir zamanda – bir az çətin məsələdir. Biz bu qalanı alana qədər yüzlərlə qələbə qazanmışıq. Onlarda bu sərkərdələrin çox böyük rolları var! Bunu hamı təsdiq edər. Bunları unutmaq olmaz. Əsgərlər arasında onların böyük nüfuzu var. Biz gərək əsəbi qərarlar çıxarmayaq. Yüz ölçüb bir biçmək lazımdır.

Vəkil yanındakılara boylandı, sanki onları da danışmağa təhrik edirdi.

– Vəkilin sözlərində həqiqət görürəm. Xan sağ olsun, siz həmişə ədalətli olmusunuz, indi də ədalətli qərar çıxaracağınıza əminik! – Xanın xəzinədarı sözünü bitirdi.

Xan heç kimi eşitmək fikrində deyildi.

– Dünənki işinə görə sağ ol, bu gün nə iş görmüsən? Biz hamımız bu sözlərə əməl etməliyik. Sonrası, mənim ədalətim ondan ibarət olacaq ki, sərkərdələr onbaşı təyin olunacaq, bizimlə birlikdə döyüşəcəklər.

– Onbaşı? – Heyrət dolu suallar bir anda vəziyyətin necə dəyişdirdiyini büruzə verdi.

– Siz azadsınız!

Sərkərdələr növbə ilə yerlərini tərk etdilər.

Vəkil ayaq üstə dura bilmirdi, xanın qərarı onun taqətini kəsmişdi.

– Xan sağ olsun, oturmaq olarmı?



– Olmaz. Siz oturanda başlarınız yaxşı işləmir, ona görə qərara aldım ki, ayaq üstə daha yaxşıdır.

Vəzir ilk dəfə ağzını açdı.

– Xan sağ olsun, bəs azad olunanların yerlərinə kimləri məsləhət bilirsiniz?

Xan qapıda dayanana işarə etdi. Dörd cavan əsgər içəri girdi, xana təzim etdi. Nəzərlər onlara dikildi. Vəkil özünü saxlaya bilmədi.

– Xan sağ olsun, bunların heç bığ yerləri də tərləməyib. Bunlar əsgərdilər, adi əsgər. Bunların başı sərkərdəlikdən nə

çıxır? Bunlar bizi biabır edərlər.

Xan üzünü yüzbaşıya tutdu.

– Qalanı necə almaq olar?

– Xan sağ olsun, qalanı almağın yeganə yolu qala qapısını açmaqdır. Əsas qüvvələr bu istiqamətdə toplanmalıdır. Kənarları da yaddan çıxarmamalı, düşmənin diqqətini bura yönəltməliyik. Qala qapısını açmaq əsas məsələdir. Bunun üçün Sivri qayadan qalaya düşməli, qapını açmalıyıq.

– Bu nə plandı? – Vəkil narazılığını bildirdi. – Bu, xan sağ olsun, nağıldan başqa bir şey deyil.

Yüzbaşı onun cavabını o dəqiqə verdi.

– Xan sağ olsun, biz dörd nəfər gecə ikən qayanın başından qalaya düşəcəyik. Yuxu şirin şeydi, biz bu zaman qalaya düşsək, heç kimin ağlına gəlməz ki, biz kimik.

- Əməliyyata nə zaman başlayaq? – Xan qalib əsgərlər kimi soruşdu.

– Bu gecə!

## VI

Xan zirvədən aşağıya, axan çaya baxırdı. Onun səsi əvvəlkindən daha aydın eşidilirdi. Meşənin üstündə isə Şəms xanımın əzəmətli şəkli dururdu. O, pöhrələrə su verirdi...

# SU XƏTTİ

## I

“– Özünü ələ al! Kənardan baxan sənə nə deyər? Kişi ol! Elə bilirdin ki, ömrünün axırına qədər vəzifədə olacaqsan? Bəsdir, gül kimi işin var. Get akademiyaya, elmi işini davam elə! Özünü də həmişə şax tut!”

Səlimə xanımın sözləri ona təskinlik verdi. Yoxsa axşam “Xəbərlər” proqramında işdən azad olması haqqında sərəncam onu az qala havalandıracaqdı. Əvvəlcə havası çatmadı, sonra başının gicəlləndiyini hiss etdi, divardan tuta-tuta eyvana çıxmaq istədi. Həyat yoldaşı qoymadı, onu divanda oturdub mətbəxdən bir stəkan su gətirdi.

“– Al, iç, özünə toxtaqlıq ver! İndi hamının gözü bizdədi! İnsan gərək məğlub olmağı da soyuqqanlı qarşılasın! Vəzifə pilləkəndi, bir gün qalxır, bir gün enirsən. Allaha şükür, mən də işləyirəm, sən də işləyirsən. Uşaqları rahatlamışıq. Nə dərdimiz var? Görünür, belə məsləhətdi!”

O iki qurtum su ona hər şeyi unutdurdu. Uşaqlar da zəng vurub səbirli olmağı tövsiyə etdilər. Yorğun olduğundan tez yuxuya getdi.

Sübh tezdən qalxmağa adət etmişdi. Bu səhər də elə oldu. Səlimə xanım çay dəmləmiş, süfrə açmışdı. Üzbəüz oturmuşdular.

“– Dediyim kimi, özünü şax tutursan. Təhvil-təslim et, günortadan sonra mən də boşam. Nə vaxtdandır şəhəri birlikdə gəzmirik!”

Evdə tək qaldı. Hələ getməyinə vaxt qalırdı. Mobil telefonuna zəng gəlmirdi. Ev telefonu da eləcə. Ancaq dünənə kimi zənglərə cavab verməkdən rahat yuxu da yata bilmirdi. Müavinlər zəng edirdi, idarə müdirləri, direktorlar... Hamısı bu gün nə iş görəcəklərini onunla məsləhətləşir, tapşırıqlar alırdılar.

“– Sabahınız xeyir, yoldaş Alməmmədov! Bağışlayın, sizi rahatsız etdim...”

“– Gününüz uğurlu, işiniz avand, canınız sağ olsun, yoldaş Alməmmədov! Vaxtsız zəng etdiyim üçün min dəfə üzr istəyirəm!..”

“– Hər vaxtınız xeyir, Alməmməd müəllim! Necəsiniz? Yaxşı olmağınızı bir olan Allahdan arzu edirəm! Dedim o işə sizin fikrinizi öyrənim...”

Zəng zəngin dalınca gələrdi. İndi telefonun səssizliyi otağa ölü bir sükut çökdürmüşdü. Kresloda oturub divara göz gəzdirdi. Ev təzə təmirdən çıxmışdı, ancaq o birinci dəfəydi ki, hər şeyi diqqətlə gözdən keçirirdi. Hər şey əla idi. Bunun üçün Səliməyə – ömür-gün yoldaşına minnətdar idi.

"– Alməmməd, təzə oboylar gəlib. Vaxtın varsa, gəl birlikdə seçək!"

"– Bir xalça görmüşəm, görsən ürəyin gedər. Hər otağa bir dənə götürürəm!"

"– "Samsunq"dayam. İstəyirəm soyuducunu, paltaryuyan maşını, tozsoranı, qaz sobasını... hamısını burdan birdəfəlik kreditlə götürüm. Özləri gətirib quraşdıracaqlar..."

Onun evdən xəbəri yox imiş. Səhər gedib axşam hamı yatandan sonra gəlirdi. İş ağır, gərgin, məsuliyyətli idi. Zarafat deyil, böyük bir rayona rəhbərlik etmək asan iş deyildi. Hər an gözlənilməz problemlər ortaya çıxırdı. Verilən tapşırıqlar vaxtında yerinə yetirilməli idi. Rayon sakinlərinin istəkləri, şikayətləri, tədbirlər, iclaslar...

Maşını siqnal səsindən tanıyıb ilk dəfə olaraq əliboş çölə çıxdı. Rzabala kişi darvazanın ağzında onu qarşıladı.

– Sabahınız xeyir!

– Sabahın xeyir.

– Niyə belə oldu?

– Otur, Rza kişi, görünür belə məsləhət imiş.

Mühərrik işə düşdü, maşın asta-asta hələ asfaltlanmamış yolla irəlilədi.

– Yorğun idim. Tez yatmışdım. Bir də gördüm uşaqlar məni dümsükləyirlər. Dedilər ki, bəs belə. Dilxor oldum. Zəng vurmağa ürək eləmədim. Səhəri diri gözlə açmışam.

– Niyə?

– Necə niyə, ay müəllim? Neçə ildi bir yerdə işləyirik. Üzümüz, gözümüz öyrəşib. İnnən belə mən gedib alayısı ilə işləyəmmərəm. Nə bilim nə donda adamdı?

– Yaxşı olar, Rza kişi. Yəqin soruşub öyrənər ki, sən layiqli adamsan, saxlayar. Bəlkə, o, məndən də yaxşı olacaq.

– Baxacam, müəllim, ağlım kəsməsə gedib oturacam evdə. Bir az istirahət edəcəm. Sonra maşınımı səhmana salıb xaltu-

ra edəcəm. Öz əlim, öz başım. Mənim innən belə söz götürən vaxtım deyil...

İdarəyə çatdılar. Arxa qapı açıq olsa da, onu qarşılayan olmadı. Pillələri qalxıb otağını açdı. Uzağı bir saatdan sonra buralar ona yad olacaqdı.

## II

Suları kəsilmişdi. Evin arxasındakı quyuda su azalmışdı. Həyətdəki xətləri qurdalasa da, bir şey alınmadı. Su idarəsinə zəng etmək istədi. Dəstəyi qaldırıb nə ağıl elədisə, yerinə qoydu. Mobil telefonunu açıb adları axtardı. Su idarəsinin müdirini tapdı.

– Alo! Salam!

– Salam! Kimdi?

– Tanımadın? Mənəm, Alməmmədovdu.

– Alo? Səsin qırıq-qırıq gəlir. Kimdi? – Su idarəsi rəisinin səsi az qaldı ki, telefonu partlatsın.

– Ə, Atamoğlan, Alməmmədovdu. Nömrə sənə tanış deyil?

– Avariyadı, nömrə-zad görünmür. Su hər yanı basıb.

– Atamoğlan, bir usta göndər, suyumuz neçə gündü kəsilib.

– Bu gün mümkün deyil, Alməmməd müəllim, heç cür mümkün deyil. Bəlkə gecəyə qədər işlədik. İndi heç kimi göndərəmmərəm. Sabaha qalsın. Sabah yadıma salın, baxaram.

Səs kəsildi, daha doğrusu, o su idarəsi müdirinin bağırtısından canını qurtarmaq üçün telefonu bağladı.

"– Yalançının atasına lənət, əgər hardasa qəza varsa. Göndərmək istəmir. Sən onun sözünə bax: "Sabah yadıma sal". Sənin o qədər işin var ki, usta göndərməyi yadına salmalıyam? İşin usta göndərməkdi də. Bütün günü rayonun sularını kəsməkdən başqa nə işin var?"

O, şəhər su idarəsinə zəng vurmağı qərara aldı. O qədər zəngləşmişdilər ki.

"– Telefon ya söndürülüb, ya da şəbəkə xidməti xaricindədir".

Dəstəyi götürüb ev telefonu ilə zəng çaldı və birinci dəfədən düşdü.

Telefonda səs: şəhər su idarəsinə xoş gəlmisiniz. Daxili

nömrəni bilirsinizsə, yığın, bilmirsinizsə "1" düyməsini basın.
"1" düyməsini basdı. Bir az keçmiş qız telefonu götürdü.
– Buyurun, eşidirəm!
– Məni idarənin rəisi ilə calaşdırın.
– Siz kimsiniz?
– Adi vətəndaş.
– Rəis yerində yoxdur.
– Bəs icra başçısı olsam necə?
– Qoyun yoxlayım.
Dəstəyin o başında rəisin yoğun səsi eşidildi.
- Aloo!
– Salam, Mirsahib müəllim.
– Salam. Kimdi?
– Alməmmədov. Nə tez unutdun?
– Hansı Alməmmədov? Professor?
– Yox. Keçmiş icra başçısı.
– Həə. Alməmmədov, necəsən? Səsin yaxşı gəlir. Xeyir ola, təzə obyekt-zadmı tikirsən? İcazə istəyirsən?
– Yox, qağa, bizim evin suyu neçə gündü kəsilib. Dedim bir usta göndərərdiniz, görək nə məsələdi.
– Ay Alməmmədov, sən gör neçə il başçı işlədin, bilmədin ki, sən deyən məsələ ilə rayonun su idarəsi məşğul olur. Sən neujelnı, o boyda su idarəsini qoyub bura zəng çalırsan?
– Belə. Bağışla, Mirsahib müəllim, sizə zəhmət verdim. Siz də sağ olun ki, mənə yol göstərdiniz.
– Dəyməz. Borcumuzdu. Belə prostoy şeyləri gərək özün biləsən. Zəng elə sənin su idarən vardı, ha, ey, bax ona. O, gəlib özü nə lazımdısa edəcək...

## III

İnstitutda sakitlik idi. Dəhlizdə tək-tük adama rast gəlinirdi. Liftə minib ona tanış rəqəmin düyməsini basdı. Güzgüdə saçını, qaşlarını sığalladı. Qapı açılanda elmi katib Abdulla Yəhyazadənin qara kölgəsi göründü. Salamlaşmağa güclə macal tapdılar.
– İndi universitetə dəyib gəlirəm. Gözlə! – dedi elmi katib

və divarların arasında yox oldu. İki taxta pilləkanı qalxan kimi direktorun otağı idi. Katibə dəyişmişdi, çünki onu tanımadı. Salam verib açıq qapıdan Çoban müəllimin daz başını gördü. O, müavini ilə söhbət edirdi. Arada başını yuxarı-aşağı eləyib bir barmağını göstərdi, yəni gözlə. Avtobusla nə vaxtdandı yol gəlmirdi, odur ki, evlərindən akademiyaya olan yol ona uzun gəldi və açığı yoruldu. Sən demə, bura metro ilə gəlmək daha asanmış. Qayıdanda elə edəcəkdi. Boş stullardan birində oturdu. Qarşısında makina vardı. İndi o özünü makinaçıya daha çox oxşadırdı.

Çoban müəllim asta-asta, aramla danışırdı.

– Yubileyin təxmini ssenarisi belə olmalıdı. Mən deyirəm, sən də baxarsan. Əlavən olsa indi de, ya sonra yadına düşsə, zəng çalarsan. Deməli, iclas zalıdı, iştirakçılarla doludu. Orada üç-dörd adamımız olmalıdı ki, rəyasət heyətinə gələnləri görən kimi ayağa qalxır, əl çalırlar. Hökmən ha! Çünki, onlar ayağa durub əl çalan kimi o birilər də duracaq. Durmayanlara lap sözlə desinlər. Bu vacibdi. Rəyasət heyətinin stulları fərqli, möhkəm olmalıdı. Ona nəzarət lazımdı. Hökmən. Birdən stul köhnə, qırıq olar, biabır olarıq. Stola dəsmal. Bizimki deyəsən köhnəlib, onu katibəyə ver yusun, ütüləsin. Dörd yerdə su qoymaq lazımdı. Hərəsinə iki dənə, özü də müxtəlif. Biri bizimki olsun, biri xarici. Stəkanlar yuyulsun. Oldumu? Fotoqrafa denən gecikməsin. Əməlli-başlı şəkillər çəksin. Televiziyayla əlaqə saxla. Neçə kanal var? Hə, hamısına xəbər ver.

Müavin ilk dəfə ağzını açıb nə dedisə, eşidə bilmədi.



– Ağızları nədi gəlmir, ə? Bu elə-belə tədbir deyil. Bunu tək bizim institut keçirmir ha! Bu ümumrespublika səviyyəsində keçirilən tədbirdi. Aparatdan gələcəklər, respublikanın tanınmış ziyalıları olacaq. Sən elə mənim dediyim kimi də deyərsən. Gəlməsələr, məsələni yuxarı dairələrdə qaldıraram. Hə, qəzetlər yaddan çıxmasın. Hökumətə yaxın qəzetlərin hamısına, agentliklərə dəvətnamələrimizi elə indidən göndər. Uşaqlar hamısı buralarda veyil-veyil fırlanır. Canları çıxsın, getsinlər. Hə, sonra mən tədbiri açıram, danışıram, bir-bir çıxışçılara söz verirəm. Aydın oldu? Bir qaranlıq məsələ qalsa, mənimlə əlaqə saxla.

Müavinin ayağa qalxmağı ilə telefonun zəng çalması bir oldu. Çoban müəllim dəstəyi götürüb danışmağa başladı. O, qurtarana qədər müavin ayaq üstə gözlədi.

– Hə, sən getdin? Hər şey aydın oldu? Yaxşı yol. Zəngini gözləyəcəm. – Durna kimi keçəl başını irəli uzadıb onu səslədi. – Gəl, Alməmməd müəllim. Xoş gəlirsən! Sən hara, bura hara?

– Bura Vətəndi, Çoban müəllim. Necə yəni? Mən burada ilkin addımlarımı atmışam, namizəd olmuşam, doktorluq işini götürmüşəm. Həyatda nə uğur qazanmışamsa, bu instituta, kollektivə minnətdaram. Onları da heç vaxt unutmamışam.

– Vəzifə yaman şeydi, Alməmməd! Həm şirindi, həm acı. Şirindi ona görə ki, başın qarışır, böyük adamlarnan oturub durursan, aşağı təbəqə yadına düşmür. Var-dövlət başından aşıb-daşır. Dövlət quşu deyirlər, ey, ha, həmin məsələdi. Ta qədimdən olub. Özü də dövlət quşu hər adamın başına qonmur ha. Yadında qalmış olar, şah əmr edir, hamı meydana yığışır, dövlət quşunu uçururlar, o da bir adamın bəxtinə qismət olur. Minlərin, on minlərin içində birinə! Öyrənirsən görmədiyin həyat tərzinə. Maşın, sürücü, katibə, telefonlar... Hamı qulluğunda müntəzir olur, ağzını gözləyirlər ki, nəsə tapşırasan. Acıdı ona görə ki, bu cür xoşbəxt günlər əlindən alınır, qayıdırsan əvvəlki həyat tərzinə. Vəzifədə olanın məharəti ondadır ki, işlədiyi vaxt ərzində özünün, ailəsinin gələcək həyat tərzi üçün ehtiyat yığa bilir. Sən bircə işi boş buraxdın. Doktorluq müdafiəsini vaxtında eləmədin. O, Qələmdağlı var idi ey ha, səndən sonra gəldi, nə sonra, cəmi-cümlətanı beş ilə oldu professor. Aparatın işçiləri idi, sən də aparat işçisi sayılırdın. Böyük bir rayon əlinin altındaydı. Gərək elə eləyəydin ki, indi gəlib şöbələrdən birinin müdiri olaydın.

– Mən işdən vaxt tapmırdım ki, kitabxanaya gedəm, yazam, çatdırmaq olmurdu.

Çoban müəllim istehza ilə güldü.

– Sənin elmi tədqiqat işləri aparmağına ehtiyac yox idi. Başqaları aparacaqdı, biz aparacaqdıq. Bəs bizim işimizin adı nədi? Hər şeyi hazırlayacaqdıq, sən də bir saat gəlib çıxacaqdın tribunaya, bir az ordan-burdan danışıb qərara alacaqdıq ki, çox əla bir elmi iş yazmısan.

– Belə də olar? Necə yəni, başqası mənim yerimə doktorluq işi yazsın, mən də onu müdafiə edim?

– Olur, Alməmməd, niyə olmur. Birinə üççə sot torpaq yeri versəydin, həll olunacaqdı.

– Çoban müəllim, sənə şəhərin mərkəzində on sot yer verdim, o yerin yarım milyon manat qiyməti vardı, sən niyə eləmədin?

Direktor boğazını arıtladı.

– Mən bir söz demirəm. Sən onu elədin, mən də əvəzində səni şöbədə yarımştat saxladım. Elə bilirsən asandı? Bir dəfə institutun kandarında görünmədin. İndi, eybi yox, səninki keçib, vəzifədən çıxanın problemləri başqadı. Rəhbərliklə danışın, işləri yoluna qoyaq, bir az əlin cibində olar, doktorluğu da yazdırarıq, müdafiə eliyərsən çıxıb gedər.

– Mənim doktorluq işimin az hissəsi qalıb. Demək olar ki, hazırdı.

– O iş öz aktuallığını itirib. Təzə mövzu olmalıdı, bu günün tələblərinə cavab verən.

– Mənim mövzum bu gün də, sabah da müasirdi. Mən özüm də öz işimi başa çatdıraram. Heç kimə ehtiyacım yoxdu.

– Yaxşı, lap yaxşı. Mən dedim sənin üçün rahat olar. Pul əl çirkidi. Canı tapmaq olmur. Canının qədrini bil.

Qovluğunu götürüb şöbəyə tərəf addımladı.

Onun gedişində məğrurluq vardı.

## IV



Metrodan çıxıb parka tərəf addımladı. Evlərinə yol parkdan keçirdi. Gözəl, ürəkaçan mənzərələr onu valeh etdi. Cürbəcür naxışlı güllər qəndillərin işığında göz oxşayırdı. Külək fontanların suyunu ətrafa səpələyirdi. Skamyada oturanlar, sağa-sola gəzişənlər çox idi.

O, bu mənzərəyə heyranlıqla tamaşa edə-edə gəzməyə başladı.

"– Gərək hər axşam Səlimə ilə bura gəlim. Elə payi-piyada. Evdən uzaq da deyil. O da çox əziyyət çəkir. Ona istirahət daha çox lazımdı".

Onunla salamlaşan hündürboy oğlanı tanımadı.

– Alməmməd müəllim, mən su idarəsində işləyirəm. Buna

siz səbəb olmusunuz. Mənim qızım Səlimə xanımın şagirdidi. İşsiz idim, məcbur olub ona ağız açdım. Siz də sağ olun ki, məni naümid qoymadınız.

Birdən yadına düşdü ki, su ustası lazımdır.

– Səlimə xanım demişdi. Sizin xətti çəkən usta ilə gəldik. Qonşunun həyətində xətt sıradan çıxmışdı. Düzəltdik. Suyunuz qaydasında gəlir.

Ciyərdolusu nəfəs aldı. İndi rahat idi. Həm də sərbəst. İstədiyi qədər burada qala bilərdi. Ancaq evə tələsdi. Səlimə tək idi, onu gözləyirdi. Gec getsə, narahat olardı.

## NOKDAUN

Dayanacaq üstünə "Taksi" yazılmış maşınlarla dolu idi. Hamısı da səliqəli şəkildə yan-yana düzülmüşdü. Sürücülər sükan arxasında oturub müştəri gözləyirdilər. Bir az irəlidə dayanacağındakı sərnişinlər bu maşınlara əhəmiyyət vermirdilər.

O, bu sırada birinci gün idi ki, dayanırdı. Ancaq dayanmağın faydası yox idi. Saat 12-yə az qalsa da, kimsə yaxına gəlmirdi. İki gün bundan qabağa qədər buradan sürətlə ötüb keçir, dayananlara nəzər sala bilmirdi. Buna ehtiyac duymurdu – o, iş adamı idi, saatla işləyirdi. Sübh tezdən – saat səkkizin yarısında - Azadlıq prospektində, Amerika səfirliyinin yanındakı beşmərtəbəli binanın ikinci blokunun qarşısında dayanır, tanınmış iş adamı Cahanbəyovun nəvələrini – Ağabala ilə Gülxanımı arxa qapıdan içəri keçirib qapını örtür, sükana əyləşib Baksovetdəki 400 nömrəli məktəbə aparırdı. Oğlan ikinci, qız isə birinci sinfə gedirdi. Onları məktəbin həyətində yoldaşları ilə sıraya qoyub evə qayıdırdı. Uşaqlar saat on ikidə dərsdən çıxırdılar. Müəllimlərindən onları təhvil götürüb evə gətirirdi. Yemək və istirahətdən sonra uşaqlar hazırlıq üçün müəllimlərin yanına, həftədə üç gün musiqi məktəbinə gedirdilər.

Günlər su kimi ötüb keçirdi. Başı elə qarışırdı ki, həftənin necə başa çatdığını hiss etmirdi. Öz uşaqlarına qayğı göstərməyə vaxtı olmurdu. Həyat yoldaşı uşaqları məktəbə aparıb gətirirdi. Cahanbəyovun nəvələrinin məktəbdə olduğu dörd saat ərzində evin bazarlığını, digər işlərini görə bilirdi. Yatmağa vaxtı çox olurdu – uşaqlar dərsdə olarkən elə oturduğu yerdəcə yuxulamağa adət etmişdi. Uşaqlar maşının pəncərəsini taqqıldadanda başını sükandan götürürdü. Onun maşında yatması balacalara qəribə gəlirdi, elə bilirdilər ki, bu belə də olmalıdı, daha gülmək, rişxənd etmək, ələ salmaq ağıllarına belə gəlmirdi.

İş o qədər gərgin olurdu ki, boş vaxtlarında maşından taksi kimi istifadə etmək ağlına belə gəlmirdi, həm də Cahanbəyovla söhbətləri belə olmuşdu ki, maşına kənar adamların minməsi qəti qadağan idi. Orta məktəbdə pis oxumamışdı. Tarixi, ədəbiyyatı, coğrafiyanı yaxşı bilirdi. Ali məktəbə imtahan zamanı qiymət alır,

müsabiqədən keçməyə bir, ya iki balı çatmırdı. Sonra hərbi xidmətdə oldu. Şəhərə qayıdan kimi evləndi. Oxumağa vaxtı qalmadı. Ailəni dolandırmaq üçün zavodda fəhlə işlədi, növbəyə yazılıb maşın aldı. İşdən sonra şəhərə çıxır, gecə yarıya qədər əməlli-başlı pul qazanırdı. Onda şəhərdə sən deyən çox maşın yox idi. Çox adam bu peşəyə meyl göstərmirdi. 1 nömrəli taksi-motor parkında işləyən qohumu ilə yas məclisindəki söhbətdən sonra isə fəhləliyə əlvida deyib, taksi sürücüsü oldu.

Yol boyu uşaqlardan neçə aldıqlarını, necə cavab verdiklərini soruşurdu. Ağabəy maşına oturan kimi hesabat verirdi.

– "Səlim əmi, bu gün iki dənə beş aldım!"

–"Halaldı sənə! De görüm, beşləri nədən almısan?"

–"Musiqidən, idmandan!"

–"Yaxşı. Bəs riyaziyyatdan, ana dilindən cavab vermədin?"

Ağabəy susurdu.

–"Gərək əsas dərslərdən də əla alasan! Bəs, Gülxanım, sən bu gün neçə aldın?"

–"Müəllim ona qiymət yazmır, eləcə ulduz işarəsi qoyur". – Ağabəy bacısının yerinə cavab verirdi.

–"Ulduz da beş deməkdi. Əla! İkinizə də halal olsun!"

Yol gələ-gələ o Ağabəyə toplama, çıxma öyrətdi, Ağabəy vurma cədvəlini də maşında əzbərlədi. Sonra o Ağabəyə nağıl əvəzinə ədəbiyyat kitabındakı hekayəni danışdı, şeiri əzbərlətdi. Müəllimləri Cahanbəyova uşaqlardan razılıq etdilər. Cahanbəyov da hazırlıq müəlliminin aylığını artırdı.

–"Səlim əmi, o "Prado"nu keç!"

–"Ağabəy, şəhərin içində, bu basabasda onu keçmək olmaz."

–"Niyə?"

–"Onu keçmək üçün o biri yola çıxmaq lazımdı. Ora isə çox təhlükəlidi. Üzbəüz maşın gələr, qəza törədər, siz də əzilərsiniz, maşın da. Hələ mən də birtəhər olaram. Ancaq şəhərdən kənarda onu bir göz qırpımında ötərik".

Öz maşınını nə vaxtdandı sürmürdü. Cahanbəyovun maşınına əli öyrəşmişdi. Saat kimi işləyirdi. O özü də maşına yaxşı baxırdı – vaxtında yağını dəyişdirir, mühərriki, işlək yerləri ustaya

yoxlatdırırdı. İçi, çölü tərtəmiz maşına qıraqdan baxan deyirdi, salondan təzə götürmədi. Vaxtı olmurdu, yoxsa öz maşınını da səliqəyə salardı...

Radionu açdı. Gənc müğənnilərdən kimsə xalq mahnısı oxuyurdu. Şüşə açıq olduğundan yaxınlıqdakı söhbəti eşidirdi.

–Bu hardan gəldi?

–Mazandarandan.

–Nəynən gəldi?

–Gəmi ilə.

–Gəminin təkəri yoxdu.

–Niyə yoxdu? Elə var, özü də on iki dənə.

Hiss edirdi ki, onun burda dayanmağını istəmirlər. O, özü də buralarda gün keçirmək istəmirdi. Naəlac idi. Odur ki, istəsələr də, istəməsələr də xaltura ilə pul qazanmalıydı. Bura heç kimin atasının yeri deyildi və heç kimin ixtiyarı yox idi ki, buralarda darğalıq etsin. Çox sərbəst oturmuşdu, istənilən həmləyə cavab verə bilərdi.

Səhərdən hava tutqun idi, ancaq şimal küləyi buludları parçaladı və Günəşin şəfəqləri hər yanı isitməyə başladı. Şüşədən düşən istilik onun gözlərini qapatdı, nə vaxt yuxuya getdiyindən xəbəri olmadı.

...İki gün əvvəl yuxudan zorla ayıldı, bədəni daş kimi ağır idi. Düşündü ki, xəstələnib, daha doğrusu, hardasa soyuqlayıb. Bir stəkan çayı yarımçıq içib, uşaqları aparmağa tələsdi. Məktəbə vaxtında çatdılar. Ağabəylə Gülxanımı qapıdan içəri ötürüb maşında oturdu. Mühərriki işə salıb salonu qızdırdı. Radionu açıb başını arxaya söykədi. Tıxac yaradan maşınlar bir-bir aradan çıxırdı. Az keçmiş ətrafda boşluq yarandı. O, tək qalmışdı. Telefon zənginə dksindi. Könülsüz qapağı qaldırıb rəqəmlərə baxdı. Zənnində yanılmamışdı. Bu nə Cahanbəyov, nə də arvadı idi. Zəng çalan atasının əmisi oğlu, xəstəxananın baş həkimi Ələmşah idi.

–"Ondan nə əcəb? Özü də səhərin gözü açılmamış? Allah özü axrını xeyrə calasın". – Tutulmuşdu. Neçə illər ərzində ona birinci dəfə zəng edirdi. Heç kimi bəyənməyən, özündən razı həkimi çoxları sevmir, qapısını belə tanımırdılar. O da başqaları kimi imkanlı qohumu ilə əlaqə saxlamırdı.

–“Səlimdi?”

–“Bəli. Sabahınız xeyir!”

–“Ə, saat on ikidə aeroportda ol, Osmanın meyidini gətirirlər. Qarşılamaq lazımdı. Dayıoğlundu da! Arvadın da gəlsin, əl-ayaq etsin!”

Əlaqə kəsildi. Ələmşahın uzun illərdən bəri eşitmədiyi səsi onun beynini mismarladı. Küt ağrılardan inildəməsə də, gözləri yumuldu. Onu qırx arşın quyunun dibinə atdılar. Dar, havasız və kəsif qoxulu bir dünyanın iki sakini vardı: Ələmşah və Osman. Onda Ələmşah şəhərdə tanınmış həkimlərdən sayılırdı. Bunu ona həkimlikdən çox apardığı ictimai işlər qazandırmışdı. Fakültənin partiya təşkilat katibi olan vaxtda müdafiə edib kafedranın dosenti olandan sonra dekan müavini, dekan, daha sonralar kafedra müdiri vəzifələrini tutan Ələmşah həkim nüfuz sahibi idi, sözü ötkəmli idi. Çoxlarının üzünə bağlı olan qapıları o, təpiklə vurub açırdı. Ucqar dağ kəndərindən biri olan Soyuqbulaqda Ələmşah doxdurun (soyuqbulaqlılar böyüklü-kiçikli ona bu cür müraciət edirdilər) radionun “Həkim məsləhəti” verilişindəki çıxışı onun həmyerlilərinin əsl sevincinə səbəb oldu. Divardan asılan, pəncərələrin ağzına qoyulan radioların səsi sonacan artırılırdı, hamı işgücünü atıb onun səsinə qulaq asırdı, sonra kişilər kəndə çıxıb birbirilərini təbrik edirdilər. Hərə öz fikrini bir cür ifadə edirdi. Bütün kənd sevinc içində idi. Soyuqbulaqlıların gözündə Ələmşahın nüfuzu birə-on qat artırdı. Rayon mərkəzinə üz tutanlar avtobusda, çayxanada Ələmşah doxdurun çıxışından danışır, ona qulaq asmayanlara təəccüb edirdilər.

–“Necə yəni, sizin evdə radio yoxdu? Nətəri olur ki, ona qulaq asmırsınız? Hayıf, çox hayıf. Çox şey itirmisiniz!”

Ələmşahın adı o qədər böyümüşdü ki, onun qohum-əqrabasına da münasibət dəyişmişdi.

–“Bu Ələmşah doxturun əmisinin kürəkənidi”.

–“Tanımadın? Ələmşah doxdur var ey, ha, mən onun doğmaca bibisioğlunun dayısı nəvəsiyəm”.

–“Mənim anamla o, bir sinifdə oxuyublar.”

Yavaş-yavaş kənddəki vəzifələrə onun qohumları qoyuldu.

Kolxoz sədri, briqadirlər, məktəb direktoru, onun müavini, kitabxanaçı, mağaza müdiri, poçt rəisi... Camaat buna adi hal kimi baxır, ən əsası qəbul edirdi. Axı, arada Ələmşah doxturun adı vardı!

Osman pedaqoji institutu bitirib təyinatla Soyuqbulaq kənd orta məktəbinə riyaziyyat müəllimi təyin olunanda Elnaz pioner baş dəstə rəhbəri işləyirdi. Doxturun bacısı qızı Bakıda qiyabi oxuyurdu və onu müəllim keçirməyə hələ vaxt var idi. Osmanın qızı sevməsi və qızın da ona laqeyd olmaması əvvəl məktəbi, kəndi, ən axırda isə şəhəri dolaşıb Ələmşah doxturun qulağına çatdı. Onsuz da qohumlarından kimin evlənməsi, kimin ərə getməsi onun razılığı ilə olurdu.

–"Tarixində ola bilməz!" – Bu sözlər əks-səda ilə kəndə qayıtdı. Osmanın da, Elnazın da qayğılı günləri başladı. İki nəsil arasında soyuqluq vardı, güman ki, doxtur buna əsasən, qəti sözünü Osmanı tanımamış demişdi. Boylu-buxunlu, yaraşıqlı Osmana "yox" demək Elnazın ata-anası üçün çətin idi, ancaq tanınmış ağsaqqallarının sözünü yerə salmaq da olmazdı! – belə olsaydı, doxtur onları qohumluqdan silərdi.

İki gəncin sevgisi isə daha da möhkəmlənirdi:

–"Atamla anam bir söz demirlər, razı kimidilər, ancaq dayımdan çəkinirlər!"

–"Nəyindən çəkinirlər?"

–"İki qardaşımın taleyi necə olacaq? Oxumaqları var, şəhərdə qalmaqları var!"

–"Guya dayın onları instituta qəbul elətdirəcək? Oxusunlar, qəbul olsunlar. Siz Bakıya gedəndə dayıngildə qalırsınız?"

–"Yox, dayımın təkcə adı bizə bəsdi."

–"Dayındı, ancaq siz özünüzü ondan asılı vəziyyətə salırsınız. İncimə, sənə bir söz deyim. Dayın heç də yaxşı adam deyil."

–"Elə demə!"

–"Səni ali məktəbə elə-belə düzəldib? Mən bilirəm ki, yox! O pulu kimə versən, onun gördüyü işi görərdi. Hələ ondan da yaxşı. Vaxt gələcək, mən ondan da böyük adam olacam! Görəcəksən!"

Osman da Osman idi ha! Tətildə Bakıya – Ələmşah doxturun iş yerinə gəldi, ondan bu izdivaca razılıq istədi. Ancaq cəhdi

uğursuz alındı. Ələmşah onu əliboş qaytardı. Söhbətləri o qədər də uzun çəkməmişdi.

–"Sən bir kasıb oğlansan. İndi necə oxuyub qurtardın, Allah bilir. Müəllimin maaşı nə qədərdi? Olsun yüz əlli manat. Bu pulla nə edəcəksən? Evin-eşiyin yox, bir şeyin yox! Evlənmək dım-dım halvası döy ha!"

–"Var-dövlət yaxşı şeydi, həkim, həm də pis şeydi. Əsas istəkdi. O olandan sonra..."

–"Mənim nağıla qulaq asmağa nə vaxtım var, nə də həvəsim. Get, öz nəslindən birini al!"

Osman daha məktəbə getmədi, ərizə yazıb işdən çıxdı və kəndi tərk etdi. Bir ara onun harada olduğundan xəbər tutan olmadı. Biri dedi Bakıda fəhlə işləyir, biri dedi Rusetə gedib. Bakıda onu görən olmadı, odur ki, kənd əhli belə qənaətə gəldi ki, Osman Rusetdədi.

Əslində isə o hərbi xidmətdə iki il qulluq etdiyi və küçələrini əzbər tanıdığı Alma-Ata şəhərinə gəldi, maşınqayırma zavodunda işə düzəldi, qiyabi politexnik institutuna qəbul olundu. Daha ondan səs-soraq çıxmadı. Çoxlarına elə gəldi ki, Osmanla Elnazın məhəbbətinə nöqtə qoyuldu. Qızın elçilərinin sayı artmağa başlasa da, hamısı "yox" cavabı alıb yerində oturdu. Ələmşah doxtur bərk əsəbləşdi, qız onun razılıq verdiyi oğlanın adamlarını kor-peşman geri qaytarmışdı.

–"Bu qız ya başını itirib, ya da o gədə ilə əlaqə saxlayır. Ayrı cür ola bilməz."

Gün o gün oldu ki, Elnaz imtahan vermək və diplom müdafiə etmək üçün şəhərə gəldi. Hər şey uğurla başa çatdı. Diplomunu alan Elnaz yoxa çıxdı. Məlum oldu ki, Osman onu Alma-Ataya aparıb.

***

–Mən uşaqları buraxıb heç yana gedən deyiləm! – Arvadı qəti bildirdi. – On beş ildi sizə gəlin gəlmişəm, nə sənin qohumlarının qapısını tanımışam, nə də qohumların mənim evimə gəlib. Düz demirəm, denən ki, düz demirsən. Özlərini dartıb qoyublar dağın başına, guya bunlardan başqa Yer üzündə adam yoxdu. O Ələm-

şahdı, Ələmxandı, kimdi, bilmirəm, ondan da ki, zəndeyi zəhləm gedir. Adını həkim qoyub, qandığı qrafa yoxdu. Qohumundu, ölüb, Allah rəhmət eləsin, istəyirsən qırx gün onların evindən çıxma.”

Səlim papiros yandırdı. Vaxt sürətlə ötüb keçirdi. Bir yandan uşaqları məktəbdən götürməyin vaxtı çatır, o biri tərəfdən aeroporta getmək lazım idi. Mobil telefonu götürüb Cahanbəyovun telefon nömrəsinə zəng vurmaq istədi. Arvadı sobanın üstündəki qazanı qarışdıra-qarışdıra danışırdı:

–Burdan aləmin borcunu yığıb, dünyanın o başına getdin. O böyüklükdə adam sənə bir fəhləlik işini qıymadı. Fəhləlik nədi? Nökərçilik. Onu sənə qıymayıb təpəsi üstə geri qaytaran adama nə deyərsən? Orda bir düşmənin qapısını döysəydin, sənə nə istəsən edərdi. Vallah edərdi. Bu etmədi. Elədi - arvad qohumlarına. Hamısı Alma-Atalı olub. İndi ölübmü, heç olmasa, gətirib basdırsınlar da. Ömürlük çörək verib onlara, bircə gün keflərindən ayrılıb əziyyət çəksinlər. Doxtur sahib duracaq də onun milyonlarına. Elə bilirsən, sənə də nəsə çatacaq? Firmalar var, hər şeyi təşkil edirlər. Mağar da qururlar, yemək də bişirirlər, qulluq da eləyirlər. Day nə istəyirlər? Ölənin öz pulundan özünə heç nə düşmür? Yadımdadı, çörək puluna ehtiyacımız vardı, onda Ələmşahdı, nədi, - o zəng eləyəydi də? İndi Allah taala o uşaqları bizə yetirib. Birtəhər dolanırıq. O da əlindən çıxsa, gecə-gündüz şəhərin küçələrində yalquzaq kimi dolanacaqsan, qalacaqsan ac-yalavac. Heç kim də sənə bir qara qəpik verməyəcək. Özün bil!

Cahanbəyov heç cür uşaqların musiqidən qalmasına razı olmadı. Uşaqları özü dərsdən evə aparıb birbaşa aeroporta gedəcəkdi. Təyyarədə yubanma çox olur. Yükləri almaq üçün bəzən bir saat vaxt itirirsən. O ki, olaydı tabut.

–Səlim, bu gün uşaqlar Şopeni öyrənməlidirlər! Sən Fridrix Şopeni tanımırsan. Əsərləri ilə də tanış deyilsən. Bu uşaqlara hava, su kimi lazımdı. Mənim sürücümün öz işləri var. Sən belə elə də, bazar günü vaxt eləyib bir ora dəyərsən. Uşaqları dərsdən yayındırma!

Cahanbəyov əmr edirdi, bu ona o qədər də təsir etmirdi. Müdir adam idi, haqqı vardı. Onun sözlərini eşitmək lazım idi. Həm də elə etmək lazım idi ki, razılıq alıb dəfndə iştirak edəydi.

–Cahan müəllim – ilk dəfə Cahanbəyovun adını yumşaq şəkildə dilinə aldı – o rəhmətlik Rusetdə yaşayıb, şəhərdə siz deyən çox adamı yoxdu, elə dəfn olunacaq, qalan mərasimlər heç keçirilməyəcək. Mənə yarımca gün vaxt lazımdı. Maşınnan aeroportda dəyib, evə gələcəyik, ordan da qəbiristanlığa...

–Mənim maşınım ölü daşıyan deyil. Mənə də heç nəyin dəxli yoxdu.

–Sizin maşının oralarda nə işi var? Öz maşınıma nə gəlib? Öz maşınımla gedəcəm.

–Getməyəcəksən. Uşaqlar musiqi dərsində olmalıdırlar. Daha məni narahat etmə!..

Daha Cahanbəyovu narahat etməyəcəkdi. Uşaqları evə qoyub maşını sabah tezdən təhvil verəcəkdi. Sonrası? Onu fikirləşmədi. Nə olardı, olardı. Uzaq Alma-Ataya uşaqlıq dostu Niyazinin təklifi ilə gedəndə də belə olmuşdu – onun dediklərinə sadəlövhcəsinə inanmış, aqibətinin necə olacağını düşünməmişdi.

–"Bircə yol pulun olsa, kifayət edər. Bir az da ilk vaxtlar xərcləməyə olsa, yaxşıdı. Olmasa da olar. İşdən çox iş var. Osman qağamın qohumu olduğunu bilsələr, problem yoxdu. Onun adı olan yerdə sənə maaşda da artıq yazacaqlar. İş də nədi? Kolxoz, sovxozlar üçün fermalar, inzibati binalar tikilir, təmir işləri aparılır."

Xərc-borc eləyib Niyazi ilə birlikdə Alma-Ataya uçdular. Onun yaşadığı yataqxanada bir neçə gün qaldılar.

Bir şənbə axşamı qərara aldılar ki, yaxşı düşməz, Osmangilə gedib onunla görüşsünlər. Sonra yaxşı çıxmazdı. Hər halda dayoğlu-bibioğlu idilər.

Şəhərin səfalı yerlərindən birindəki iri hasarın qırmızı rəngli qapısını döydülər. Qapını açan qulluqçu idi, çünki gözləri yerli adamı xatırladırdı. Həyətdə Ələmşah doxturla görüşdüər. Bir azdan Osman da gəldi. İlk andan hiss etdi ki, onun gəlişinə o qədər də sevinmirlər.

–"Osman, bircə onu bilirəm ki, səni burda rahat qoymayacaqlar. Nəsliniz böyük, cavanları çox!"

Osman qımışan kimi oldu:

–"Doxdur, bizim nəsildən bira gələn ilk adam mənəm, özüm də üç gündü gəlmişəm. Sizinkilər neçə illərdi burdadı, özü də demək olar ki, hamısı Osmanın başına toplaşıb."

Ələmşah üzünü Niyaziyə tutdu:

–"Ə, gördün dostun nə dedi? Üç gündü gəlib, özünü də sən gətirmisən, demaqoqluq edir. Kimdən? Səndən. Yaxşılığın sonunu gördünmü? Hələ çox belə şeylərlə rastlaşacaqsan!"

–"Nəyə gəlmisən bu şəhərə?" – Osman ondan soruşdu.

–"İşləməyə, qazanmağa. Orda vəziyyətimiz siz deyən yaxşı döy."

Ələmşah doxtur yerində qurcalandı, barmağını burnunun deşiyindən içəri salıb eşməyə başladı. Deyəsən, nəsə tapıb çıxarıb, yumruladı, bir az top kimi oynadıb, atmaq istədi. Fırtıx əlinə yapışmışdı. Neçə dəfə cəhd edib, axır ki, yaxasını qurtardı. Ətrafdakıların onun bu hərəkətindən dodaq büzmələrinə məhəl qoymadı.

–"İndi hamı Osmanın yolunu getmək istəyir, ancaq anlamırlar ki, o neçə illərdi yad yerdə, necə əziyyətlər çəkə-çəkə bu dərəcəyə yüksəlib. Hamı Osman olmaz ki? Bezdirdiniz, başına yüz oyun açdınız, biçarə axır isti yerindən baş götürüb qaçdı. Elə bilirsiniz, yad yerdə yaşamaq hasantdı?"

Səlim özlüyündə təəccüb içindəydi, doxturun sözləri ona əcaib, həm də qəribə gəlirdi. Bu o Ələmşah deyildimi ki, Elnazı Osmana verməyə qəti qadağa qoymuşdu? O, şəhərdə, iş otağında Osmanı yamanlayıb, otağından qovmamışdımı? Osman Ələmşahın acığına kəndini-kəsəyini, işini-gücünü atıb Alma-Ataya gəlməmişdimi? İndi Ələmşah Osmanın süfrəsinin başında oturub nələr danışır? Bəs Osman? Adını neçə araba çəkməyən, tanınmış iş adamı, deputat Ələmşahın yalanları qarşısında susur, kəlmə belə kəsmirdi.

Osmanın uca qaməti, arxaya daradığı qara saçı, təmiz ağ köynəyi, parıldayan qırmızı qalstuku onu iyrəndirdi. Ələmşah isə qırıq radio kimi baş-beynini tökürdü.

–"Qazanan oğul hər yedə qazanar! Əsas odu ki, işə həvəslə girişəsən, işdən qorxmayasan. Yoxsa elə bilet al, özünü yetir Os-

manın yanına, yat, onun qazandığını qarnına tıxa, belə də olmaz, axı? İmkan verin bu adam bir gözünü açsın, işini görsün. Bilirsən bunun nə qədər işi var? Siz bilməzsiniz, mən bilirəm o nələr çəkir. Deputat, iclaslar, tədbirlər. Hələ neçə zavodun işçiləri, plan, problemlər, qayğılar... nələr, nələr? Nə vecinizədi?"

Başı yumru daşa dönmüşdü, Ələmşahın sözləri alnına dəyib qayıdırdı. Çaydan bir qurtum alıb hörtüldətdi, bu iyrənclik beynində ildırım kimi çaxdı. Uzun illər adını eşidib, üzünü görmədiyi Ələmşah uzaq Alma-Atada – dayısı oğlunun süfrəsinin başında hakim kimi oturub hökm oxuyurdu. Bu hökmü çıxarmağa Osman imkan vermişdi! Üzünü hirsindən qıpqırmızı qızarmış Niyaziyə tutdu, əslində söz sahibi Ələmşah idi.

–"Ələmşah doxdur işin-gücün qızğın vaxtı buralarda nə gəzir?"

Əslində o, "Ələmşahın buralarda nə iti azıb" demək istəyirdi.

Sual Osmanı da, Ələmşahı da tutdu.

–"Sənin o sualı verməyə hələ yaşın çatmır!" – Osman özünü saxlaya bilmədi. Ələmşah doxdur birinci içini arıtladı, sonra iki barmağı ilə burnunu sığallayıb ona çəpəki boylandı.

–"Boynu qoltuq altı görməyib, ona görə belə danışır."

Gərginliyi azaltmaq üçün özünü o yerə qoymadı.

–"Mən pis mənada soruşmadım ha! Siz niyə inciyirsiniz?"

Osman:

–"Ələmşah müəllim SeSeSeRidə tanınmış alimdi, uşaq-muşaq deyil ki? Buraya Beynəlxalq konfransa gəlib. Bu ev də onun bacısı qızının evidi. Səndən icazə almayacaq ki?"

Cavab doxduru razı saldığından heç bir əlavə etmədi. Artıq oturmaq onu rahatsız edirdi. Bura onun ümid etdiyi yer deyildi. Ayağa qalxdı. Onunçün başlanacaq həyat darvazadan çöldə idi. Nə olsun ki, bura qürbətdi? Nə olsun ki, cibində sən deyən pul yoxdu? Osmansız da, lap elə Niyazisiz də keçinər. Azadlığı, sərbəstliyi var! Kiminsə minnətli çörəyini yeməkdən çətin şey yoxdu. Odur ki, ömründə birinci dəfə başı uca yeriməyinə diqqət yetirdi.

–"Dayan! Gəl çayını iç! Bilet alıb qayıtmağına kömək edərik!" – Ələmşahın səsi idi.

–“Sən böyüklüyü Osmana eliyərsən!” – dedi. Çayı qarşısına çıxan ilk çayxanada içdi. Üzbəüz oturduğu Zülfüqar sezona gəlibmiş. Onunla şəhərdən altmış beş killometr aralıda yerləşən qəsəbəyə getdilər. Payızın ortalarına qədər işləyib Bakıya bir qayıtdılar.

–“Ələmşah öləsiydi, Osmandan gör nə qədər böyükdü? Top kimidi. Canına elə qulaq asır, deyirsən cavan oğlandı. Geyimi də yaşına uyğun deyil. Arsızdı! Qocanın özünü arsızlığa vurmasından pis şey yoxdu.”

Tez gələnlərin biri də Niyazi oldu. Səmimi görüşdülər. Çay sifariş verib oturdular. Sən demə, o da Bakıda yaşayırmış.

–“Səndən sonra gördüm ki, mənə qarşı münasibətləri dəyişib. Bir söz deməsələr də, hiss edirdim. Bir il, iki il. Axır qayıtdım. Özümə bir dükan açdım. Maşın ehtiyat hissələri satıram. Öz əlimdi, öz başım. Bir kimsədən minnət götürmürəm. Beşindən pis dolanıramsa, üçündən yaxşıyam. Buna da şükür!”

Elnazı soruşdu.

–“Osmana qalsaydı, nə vardı ki? O, işdə-gücdə olur, evə bəzən gecə yarısı gəlirdi. Mənə münasibəti də pis deyildi. Evin hökmü Elnazdaydı. Elnaz nə dedi, o da olmalıydı. Ora kimi aparmaq, kimi yaxşı işlə təmin etmək onluqdu. O da qoca tülkünün göstərişi ilə oturub dururdu.”

Niyazi “qoca tülkü” deyəndə Ələmşahı nəzərdə tuturdu.

–“Həftə səkkiz, mən doqquz, gəlirdi oraya, Osmanın varından götürüb gətirirdi, ona ev alırdı, təmir etdirirdi. Neçə dənə mağazaları, dükanları, gözəllik salonları, nə bilim nələri var. Ələmşah indi olub sahibkar. O dəfə mənə söz vurur ki, guya mən mağazanı Osmanın pulu ilə almışam. Qayıtdım ki, sən heç imkan verərdin ki, mən Elnazdan bir qara qəpik alım. Ağlını başına top elə - dedim, get işinlə məşğul ol. Qoy oturmuşuq oturduğumuz yerdə. Alnımızın təri ilə beş-on qəpik qazanırıq. Mən onun-bunun var-dövlətinə heç zaman göz dikməmişəm. Pulu halallıqla qazanmışam. Bir adam deyə bilməz ki, Niyaziyə havayı nəsə eləyib. Kim eləyəcəkdi? Bir Allah bilir ki, nə əziyyətlər çəkmişəm. Təzə vaxtlarda Osmanın tanışının idarəsində işlədim, sonra gördüm ki, maaş azdı. Yerimi dəyişdim. Odey, sən. Qəbul

eləmədilər, gedib başqa yerdə qazandın. Osman var deyə acından ölməyəcəkdin ki? Düzdü, Osman tanınan adamdı, deputatdı, böyüklərlə oturub-durur – onun adına azərbaycanlılara çox hörmət edirlər. İntəhası, qıraqdan nə bilirlər ki, Osman sənə, mənə heç nə eləmək istəmir. Əlacı olsa, bizi şəhərdən sürgün elətdirərdi."

– "Çörəyi, var-dövləti verən Allahdı, bəndə nə karədi. Sən hələ qulaq as, Osmana birdən birə nə oldu? Cavan idi."

Niyazi çaydan bir qurtum alıb papiros yandırdı.

–"Ölüm cavanlığa, qocalığa baxmır ha! Ürəkdən operasiya olmuşdu. – Almaniyada. Bazar günü bağa gedibmiş. Özünü pis hiss eləyib. Həkimə zəng vurub, o gələnə kimi keçinib."

–"Bəs Elnazgil haradaymış?"

–"O uşaqları, nəvələri ilə Bakıdadı."

–"Bəs meyiti kim gətirir?"

–"Deyəsən kürəkənlərinin qardaşı, bir də Ələmşahın nəvəsinin nişanlısı."

Aeroporta deyilən vaxtdan iyirmi dəqiqə gec gəlsə də, qohum-əqrəbadan kimsə gözə dəymədi. Bəlkə gözləmə zalını səhv salır? Məlumat bürosundakı göy kostyumlu qızdan harada gözləməli olduğunu soruşdu. Zənnində yanılmamışdı. Ancaq qız dedi ki, təyyarə iki saat yarım gecikir. Bu orada havaların kəskin dəyişməsi ilə əlaqədardır. Deməli, Ələmşah doxdurgil gəlib, öyrəniblər. Onu görməyiblər. Bu çox pis oldu. bir az tez gəlsəydi... Ancaq o da ola bilərdi ki, onlar heç buralara gəlməyib, telefonla öyrəniblər. Hələ vaxta iki saat yarım vardı. Bu müddət ərzində taxta oturacaqlarda oturub neyləyəcəkdi? Uşaqları rahat musiqi dərsinə apara bilərdi. Cahanbəyov demişkən, Şopenin əsərini öyrənmək olduqca vacibdir.

–"Bu kimin maşınıdı?" – Ağabəy "Jiquli" maşınına həvəssiz baxdı.

–"Sən heç belə maşına minmisən?"

–"Yoox. Birinci dəfədi?"

–"İndi gör bu maşını ötən olacaq?"

–"Bu sənin maşınındı?"

–"Hə. Xoşuna gəlmədi?"

–"Gəldi."

Musiqi dərsi olmadı, müəllimə xəstələnibmiş. Evə tez qayıtdılar. Ağabəyi düşürüb təzədən aeroprta gəldi. Acmışdı. Marketdən peçenye, su götürüb maşında oturdu, iştaha ilə yeməyə başladı. Osmanın dəfni sabaha qaldı. Meyit axşama ancaq evə çatacaqdı. Ələmşah doxtur yəqin qəbir yeri, onun hazırlanması ilə məşğuldu.

Cahanbəyova nahaq zəng etmişdi. Nə biləydi ki, belə olacaq. Sabaha icazə almaq üçün ağız açmağa dəyməzdi. Kişi dəli olardı. Necə olacağını bilmirdi. Uzağı uşaqları rahatlayıb sonra dəfnə gələcəkdi. Arvadı düz deyirdi. Nə Osman, nə də Ələmşah onu adam yerinə qoymur! Axırıncı görüşlərindən gör nə qədər keçib, ondan sonra bir dəfə də olsun rastlaşmayıblar.

–"Sağ ol, Ələmşah!"

–"Hə, Ələmşahın nəvəsinin nişanlısı Osmanın köməkçisiydi. Mən görməmişəm, eşitmişəm. Nəsə, çəlləş, vuruş, milyonlar sahibi ol, xərcləyən vaxtı get gir torpağın altına. Dünya bekara şeymiş. İndi Ələmşahgilin meydanı lap açıq oldu. Osmanın qazancını bir ucdan başlayacaqlar xımır-xımır yeməyə. Hazır kökə tapmaq buna deyirlər."

Ələmşah aeroportun binasına girib ətrafa boylandı, çeçələ barmağı ilə burnunu eşdi. Yanındakı, deyəsən, sürücüsü idi.

–"Gəlmisiniz?"

Dillənmədilər.

–"Osmanın çörəyini yeyənlər çoxdu, indi qarşılayanları isə yoxdu. Dünya belədi."



–"Osmanın çörəyi hər adama qismət olmadı." – Niyazi dilləndi.

–"Mən onun bir stəkan çayını da içməmişəm. İçənlər görəsən haradadı?"

Ələmşah burnunu eşməkdə davam etdi.

–"İndi hamı deyəcək ki, heç Osmanı tanımıram. Nəsə, skorupomuş danışmışam. Meyidi onda aparacağıq. Elə təyyarənin yanından götürüləcək. Evi tanıyırsınız də?"

–"Tanımıram!" – dedi.

–"Bizim dalımızca gələrsiniz..."

***

Gecəni yatmadı. Niyazi ilə onu meyitin yanında qoydular. Sübh tezdən evdən çıxdılar.

–"Mən bazara getməliyəm. Əgər bu gün gedib almasam, bir həftə alverim olmayacaq"

O, uşaqları məktəbə aparmaq üçün Cahanbəyovgilə getdi, kişi pəncərədən onu görüb yox oldu. Bir azdan uşaqlarla birlikdə aşağı düşdü.

–"Bu nə maşındı?"

–"Maşındı də! Maşın necə olur?"

–"Mənim maşınım hanı?"

–"Evdə. Qarajda."

–"Mən o maşını sənə evdə saxlamağa vermişəm, ya nəyə?"

–"Uşaqları aparıb gətirməyə. Vəziyyətlə əlaqədar öz maşınımı götürmüşəm. Bunun da dörd təkəri, dörd qapısı var. Uşaqlar içində rahat oturur."

Ağabəy "Baba, bu maşın bizimkindən tez gedir" – dedi.

–"Uşaqları apar, onları götürməyə gəlmə. Maşını mənim sürücümə təhvil verərsən. Qurtardıq səninlə!"

– "Lap yaxşı. Ancaq maşını bu gün təhvil verə bilməyəcəm. Sabah, elə bu vaxt burda olar!"

***

Maşında oturmaqdan bezdi. Düşüb papiros yandırdı. Dayanacaq boşalmışdı, tək-tük adam gözə dəyirdi. Avtobusların oturacaqları boş olur, sürücülər bir-birlərini qovmurdular. Taksilərin sayı artmışdı. Birdən gözü maşının arxa təkərinə sataşdı. Təkər boşalmışdı. Kənarda söhbət edən sürücülər gözaltı ona nəzər saldılar.

Onların əməlləri idi, ayrı cür ola bilməzdi. Maşının yük yerini açıb, alətləri götürdü. Onun sükutunu görən sürücülər yaxına gəldilər.

–"Təkər boşalıb?"

Dillənmədi.

–"Yəqin mismar batıb. Yaxşı ki, burda boşalıb. Yolda olsaydı, pis olardı. Qabaq təkərə daş qoy. Birdən sürüşər."

O heç kimi görmür, eşitmirdi. Maşını qaldırıb təkəri açdı. Yolun o üzündə təkər təmiri vardı. Ustaya verdi. Mobil telefonu zəng çalırdı. Nömrəyə baxdı. Cahanbəyov idi. Yadına düşdü ki, on üç günün pulunu almayıb.

–“Yəqin pulu vermək üçün zəng edib”. – O an ondan alacağı pul ürəyini bulandırdı. Elə bildi ki, maşının təkərini deşən elə Cahanbəyovdu. Telefonu maşının qabaq oturacağına atmaqla sanki alacağı pulu onun sifətinə çırpdı.

–“Mismar-zad batıb eləməyib. Kimsə deşib.” – Ustanın rəyini onsuz da bilirdi.

Maşını rahatlayıb qaydasına saldı.

Uzun dəmiri götürüb sürücülərə tərəf gəldi.

–“Bir də mənim maşınıma əl vurana bunu çalacam” – dedi.

***

Evdən zəng etmişdilər. Arvadı idi.

–“Nazirin xanımı xahiş edir ki, uşaqları səhər gəlib dərsə aparsın. Uşaqlar başqa adamı istəmirlər. Maaşın da artırılır”.

Başını sükana söykədi...

## ASFALT

İkinci Bağlar küçəsinin sakinləri neçə illər idi ki, küçələrini asfaltlada bilmirdilər. Dəfələrlə təşəbbüs göstərib özləri pul toplasalar da, bir nəticə hasil olmamışdı-ya kimsə imkansızlıq ucundan pul verə bilməmişdi, ya da bir çoxları əsəbiləşib açıqca demişdilər ki, biz də bu şəhərin sakinləriyik. Niyə dövlət vəsaiti hesabına küçə asfaltlanmır. Yığılan pullar sakitcə yiyələrinə qaytarılırdı.

Onu demək lazımdır ki, ikinci Bağlar küçəsinin sakinləri zəhmətkeş, sadə və kasıb adamlar idi. Əksəriyyəti sübh tezdən işə tələsir, axşamlar evə qayıdırdılar. Hərə öz işi ilə məşğul olduğundan qonşular bəzən həftələrlə bir-birinin üzünü görmürdülər.Bu o demək deyildi ki, onların arasında soyuqluq vardı. Əsla. Əksinə, az-az görüşdükcə, qonşuların səmimiyyəti daha da artırdı.

- Necəsən, ay qonşu, üzünü görək!

- Heç demə, beş addımlıqda bir-birimizi görmürük. Neynək, işdən baş açmaq olur ki? Səhər naxır, axşam axır. Bu həftə işimiz ağır olub.

- Bizdə də iş getdikcə çətinləşir. Hərə bir tikə çörəyin dalınca düşməyə məcburdu. Təki salamatlıq olsun, qalanı düzələr.

Uşaqlar böyüklərin yolunu gözləyirdilər. Onları görən kimi dayanır, salam verir, artıq hərəkət etmirdilər. Papiros çəkənlərin papirosu ovuclarını yandırırdı.

Məhəllənin yeganə problemi yol idi. İlin dörd fəslində küçənin qırağı ilə axan kanalizasiya suyu ürək bulandırırdı. Yol sarı torpaq idi: yazda, yayda toz adamın üz-gözünü basırdı. Qışda, yağışlı havalarda yerimək mümkün deyildi. Dayanacağa çatınca üst-baş palçığa batırdı. Bəzi sakinlər ayaqqabılarını ələ götürüb rezin qaloşlarla dayanacağa çatır, orada ayaqqabılarını dəyişib, qaloşları mağazalara qoyur, axşam da eyni cür edirdilər.

Hamı bezmişdi. Şəhərdə yaşayasan, palçığın içində olasan!

-Heç kənddə adamın ayağı, üst-başı belə palçıq olmur. Bu nə gün-sufatdı biz çəkirik! – Fatma arvad nəvəsini məktəbdən çiynində gətirəndə belə deyirdi.

Xülasə, yazbaşı məhəllənin sakinləri arvad-uşaqlı küçəyə çıxdılar. Bu mitinqə daha çox oxşayırdı. Sakinlər gileylərini ağsaqqal Vəli müəllimə, Zərbalı müəllimə, Həsən kişiyə yönəltdilər.

-Belə olmaz, axı? Nə qədər palçıq ayaqlayacağıq? Zülüm çəkirik- həm özümüz, həm də uşaqlarımız.Elə bil şəhərdə yaşamırıq. Bu qonşu Birinci Bağlar küçəsinə inişil asfalt vurdular. Lap yaxşı. Qonşunu iki inəkli istə, sənə də pay verər. Keçən il azmış kimi təzədən asfaltladılar. Niyə? Onların nəyi bizdən artıqdır? Hay? Varlılar məhəlləsidi, vəzifəlilər orada yaşayır, lap yaxşı. Hər il onlara asfalt veriləcək? Varlıdılarmı, özlərinə qismət, pulnan lap hər həftə çəkdirsinlər. İstəmiyənin gözü kor olsun. Onlara var-dövlət başqa yerdən, ya göydən-zaddan ha düşməyib. Bu torpaqdan, bu insanlardan qazanıblar də! Bir qonşularına da əl uzatsınlar. Çörək ha istəmirik! El yolunu düzəltsinlər. Yol çəkmək ən böyük savabdı.

Həsən kişi onları sakitləşdirdi.

-Qulaq asın, hamımız indi ərizə yazıb qol çəkirik!

Hay-küy qulaqları batırdı.

-Nə ərizə, ay sağ olmuş? Nə qədər ərizə yazmışıq. Bəlkə də yüzdən artıq. Kimdi sənin ərizənə  fikir verən. Oxumamış atırlar zibil yeşiyinə, yalandan cavab yazırlar ki, tədbir görəcəyik. Ərizəlik döy!

- Sizi başa düşürəm! Mən də sizlərdən biriyəm. Mən palçıq ayaqlamıram? Bəlkə vertolyotnan-zadnan gəlib-gedirəm? Ərizə yazıb üç nəfər seçirik, gedirik deputatın qəbuluna. Daha yalan vədlərə inanmaq yoxdu. Konkret bizim küçəyə asfalt çəkilir, ya yox! Əgər, bir şey alınmasa, onda bütün məhəllə ilə nə edəcəyimizi deyəcəm. Üç nəfər kimlər olsun?



-Biri sən, biri  Zərbalı müəllim.

-Vəli müəlimin yerinə Fatma xalanı seçirik. O, çox mədəni adamdı. Burda mədəniyyət keçmir daha!

***

Axır ki, deputatları ilə görüşə bildilər. Ağadadaş  Dadaşlı onları soyuq qarşıladı. Soyuqluğu təbəssümlə örtmək istəsə də, alınmadı. Bu gələnlərin diqqətindən yayınmadı və gərginliyi artırdı. Fatma xalanın sifəti alovlanmışdı. Bir himə bənd idi.

-Eşidirəm - dedi deputat.

-Təkcə eşitmək kifayət eləmir, indi iş görəcəksən.- Zərbalı müəllim Fatmanı  sol əli geri itələdi.

-Ağadadaş müəllim, biz İkinci Bağlar küçəsinin sakinləriyik. Bütün məhəllə sakinlərinin adından gəlmişik.

-Hə, İkinci Bağlar küçəsi. Bildim, bildim. Orda nə məsələdi?

-Asfalt. Yola asfalt salmaq.

-Po moyemu, asfaltlatmışıq. Yox? - Fatma xala yoldaşlarına əhəmiyyət vermədi.

-Hə, asfaltlanmışdı, ancaq sel yuyub apardı.

-Nə sel?

-Sel də.

-Po moyemu, şəhərdə elə bərk yağış yağmayıb. Sel hardan əmələ gəlib?  Hə? Mən açığı xarici səfərlərdə daha çox oluram,

Ona görə şəhərdən az xəbərim var.

-Yuxarıda su durbası partladı, asfaltı yudu apardı, evlərə ziyan vurdu, iki nəfəri az qala sel aparmışdı.

-Nə danışırsınız? Bəs mənə niyə məlumat verməyiblər? Olmaz belə, olmaz. Bax, mən Afrika ölkələrindən birindən qayıdıram. Onlara humanitar yardım aparmışdıq. Prosto ujas. İnsanlar nə gündədirlər? Adamın ürəyi ağrıyır. İnanırsınız, hələ özümə gələ bilməmişəm.

-Bizim Afrikaya nə vaxt gələcəksiniz? Bir biz binəvaların da halına acıyın.

-Sizə nə olub ki? Bu nə radikal danışıqdı? Təsadüfən müxalifətçi deyilsən? Hə?

-Seçki ərəfəsində sizin adamlarınız, vəzir-vəkiliniz gəldi bizim küçəyə. İmza toplamağa. Sonda siz də gəldiniz. Öz gözlərinizlə gördünüz ki, küçə bərbad gündədi. Söz verdiniz ki, uzağı iki ay ərzində işlər qaydasına düşəcək. İki ay oldu iki il.

-Mən gəlmişdim? Hə? Ola bilər. İndi belə başa düşdüm ki, sizin küçəyə asfalt döşənməlidi. Döşəyək da! Bunu adam dilində desəniz olmaz?

-Adam dilində çox demişik, eşidən olmayıb-Həsən kişi bığlarını qurdaladı.

-Bu dəqiqə, ağsaqqal, səbrli olun, bu dəqiqə-Ağadadaş mobil telefonla nömrələri yığdı.

Ağadadaş –Alo! Abışov, salam, necəsen?
Abışov- Sağ olun, Ağadadaş müəllim, xoş gəlmisiniz.
Ağadadaş-Sağ ol.
Abışov – Səfəriniz necə keçdi?
Ağadadaş - Belə da. Prosto ujas.
Abışov - Hə, elədi. Mən də televizorda gördüm.
Ağadadaş–Hər şey normalno?
Abışov – Dadada.
Ağadadaş – Sluşay, mənim qəbulumda Bağlar küçəsinin şikayətçiləri var. İkinci. Hə onların küçəsinə asfalt döşənməyib.
Abışov – Birinciyə vurmuşuq. İki dəfə.Yadınızda deyil? Xancanov orda yaşayır, axı? Hə, keçən il vurmaq istəyirdik, ağzını çevirdi ora.
Ağadadaş – Ponyatno,ponyatno. Bu il po moyemu asfalt nəzərdə tutulub.
Abışov – Hə.
Ağadadaş – Mən xahiş edirəm o asfaltı ikinciyə vurun, camaat narazı olmasın.
Abışov – Biz helə nəzərdə tutmuşduq.Ancaq Xancanov elə qabağınızca zəng eləmişdi.
Ağadadaş – Nə deyirdi?
Abışov – Bu bazar günü qızının toyudu. Deyir küçə boyvaboy asfaltlanmalıdır. Çökəklər-zad əmələ gəilb. Birdən maşınlara, qonaqlara toz qonar, su çırtlayar.
Ağadadaş – Hə?
Abışov – İstədim atkaz eliyəm, gördüm mümkün deyil. Toy eləyir da! Küçəni asfaltlamasaq, gələn qonaqlar onu yox, bizi qınayarlar.
Ağadadaş – Tı prav. Düz deyirsən. Bəs bu camaatı neynəyək?
Abışov- Qoy gözləsinlər, nə vaxt asfalt verərlər, onda bir əlac edərik .
Ağadadaş – Çox sağ olun. Onlara helə də deyirəm.Dövlət proqramında nəzərdə tutulan müddətdə hökmən küçə asfaltlanacaq.
Ağadadaş mobil telefonu söndürüb qabın üstünə qoydu.
-Eşitdiniz, da! Dövlət proqramında məhəllə daxili yolların

asfaltlanması nəzərdə tutulur. Sizin küçə birincilər arasında olacaq. Oldu?

Fatma xala da, Həsən kişi də, Zərbalı müəllim də ayağa qalxdılar.

- Olmadı.

- Nə olmadı?

- Asfalt dana, asfalt.

- Asfalt nədi, dana nə? – Deputat ciddiləşdi.

- Asfalt asfaltdı, dana da dana. Bunu bilməyə nə var. – Fatma xala qapıdan çıxanda ağzını çölə tutdu:

- Sən bizim dildə danışa bilmirsən, mən nağayrım?..

***

"Üçlük" vəziyyətin gərginliyini məhəllə sakinlərinə çatdırdı. Əsəbləşən kim, qışqıra-qışqıra danışan kim, yol göstərən kim.

Həsən kişi hamını sakitləşdirdi.

-Ay camaat, bir səbriniz olsun. Hirsli başla, kimisə burda asıb-kəsməklə iş getməz. Asfalt çəkənkərə qalsa, bizim küçəni asfaltlayarlar. Əngəllik törədən Xancanovdu. Odu əsas səbəbkar. Vəzifəsi var, hökmü var. Hamı da açığı ondan çəkinir. Bu yaxınlarda onun qızının toyudu. Gəlin belə bir iş görək: üç nəfər azdı, on nəfər yığışaq, axşamüstü onun evinə gedək.

Təklif bəyənildi. On nəfər axşamın düşməsini gözlədi.

***

Qapının zənginə gec cavab verdilər.

-Kimdi?

-Qonşular.

-Nə lazımdı?

-Bizə yoldaş Xancanov lazımdır.

-Nə məsələdi?

-Məsələni özü ilə həll etməliyik. Özü şəxsən lazımdı.

- O yoxdu.

-Nə vaxt olar?

-Bilmirəm.

-Eybi yox, biz gözləyərik.Yəqin gecə də olsa, evinə gələr.

Söhbət bununla bitdi. Sakinlər hündür hasarın bəzəkli, qırmızı rəngli qapısında dayandılar. Təzə rənglənmiş divar, qapı, darvaza gecənin bəyazlığında hiss olunurdu. Az keçmiş qapı açıldı. Əlində telefon tutmuş, səliqəli ilə geyinmiş cavan oğlan çölə çıxdı, camaatı görəndə tutuldu.

-E..eşidirəm.

-Siz yoldaş Xancanovsunuz? – Həsən kişi astadan sorişdu.

- Xeyr.

- Yəqin qarovulçusan?

“Qaraovulçu” sözü xoşuna gəlməsə də, oğlan başı ilə təsdiqlədi.

-Bizə Xancanovun özü lazıımdır. Siz əziyyət çəkməyin.

- Deyin də nə məsələdi? Mən onunla əlaqə saxlayaram. Ola bilsin ki, gec gəldi.

- Biz gözləyərik – Fatma xala yana çəkilib gözü ilə oturmağa yer axtardı.

- Onun bütün məsələlərini mən həll edirəm.

- Həsən dayı, bir halda ki, onun məsələlərini bu yoldaş həll edir, dərdimizi deyək çatdırsın. Bəlkə heç onu gözləməyə ehtiyac olmayacaq?

Həsən kişi boğazını arıtlayıb asta-asta sözə başladı.

-Biz Xancanovvun qonşularıyıq. Bax, o İkinci Bağlar küçəsinin sakinləriyik. Əvvəla, Xancanovun bu günlərdə qızının toyudu. Gəldik ki, ona mübarək deyək. Allah xoşbəxt eləsin!



- Sağ olun, sağ olun - dedi oğlan.

- Bu bir. İkincisi bizim küçə - bilmirəm baxıb görübsən, ya bixəbərsən – çox bərbad gündədi. Neçə illərdi ki, asfalt döşədə bilmirik. Bizim küçəyə ayrılan asfaltı iki dəfə bu küçəyə vurublar. Görürsən nə gözəl asflalt yoldu? İndi bizim küçəni asfaltlamaq istəyirlər.

- Onu da Xancanov təzədən bu küçəyə vurdurmaq istəyir. – Fatma xala özünü saxlaya bilmədi.

-Hə - deyə Həsən kişi sözünə davam etdi – bura üst-üstə asfalt vurmağın əvvəla heç yeri yoxdu, həm də bizə ayrılan

asfaltı hədə-qorxu ilə almaq da düzgün deyil. Biz də istəyirik ki, küçəmiz təmiz, səliqəli olsun.

- Siz nə bilirsiniz ki, bu belədir?

- Lap dəqiq bilirik. Bilməsək, ömründə qapınızı döyməzdik. Zəng edib ki, asfaltı Birinci Bağlar küçəsinə vursunlar.

- Biz buna yol verməyəcəyik! – Fatma xala oğlanın üstünə az qala qışqıracaqdı.

- Mən indi soruşaram, ancaq inanmıram ki, belə bir iş olsun.

- İnan. Onu da denən ki, yol salmaq dədə-babadan savab iş sayılır. Əgər, asfalt bizim küçəyə vurulmasa, küçəmizin bütün sakinləri böyüklü-kiçikli evi mühasirəyə alıb toya imkan verməyəcək! Küçəmizdə 492 nəfər əhali yaşayır.

Oğlan içəri keçdi. Onun səsi qırıq-qırıq eşidilirdi. Oğlan qayıtdı.

- Sizə kimsə düzgün məlumat verməyib. Mən aydınlaşdırdım. Xancanov özü yüksək dairələrə tapşırıb ki, bu küçəni asfaltlamağa ehtiyac yoxdu. İkinci Bağlar küçəsi qaydaya salınmalıdır. Sabah yox birisi gün texnika sizin küçədə olacaq.

Fatma xala dərindən nəfəs aldı.

- Nə deyirik, qoy olsun...

# ONDA DAHA XOŞBƏXT İDİ

## I

Qışın oğlan çağı idi, işdən çıxanda qaranlıq düşmüşdü. Xeyli piyada gəlib metroya mindi. Basabas idi. Birtəhər özünü vaqona saldı. Hər tərəfdən sıxılır, nəfəs ala bilmirdi. Ürəyi qısı-lan kimi oldu.

Pillələri qalxıb avtobus dayanacağına tərəf addımladı. Adam əlindən tərpənmək olmurdu. Üşüyürdü. Şərfini boğazına, üzünə doladı. Ayaqları, əlləri və qulaqları donmuşdu. PAZ avtobusu hirslə adamların üzərinə şığıyıb qapıları şaqqıldatdı.

Hamı özünü içəri salmaq istəyir, ətrafdakıların qoca, qadın, uşaq olduqlarına fkir vermirdi. Xoşbəxtlik baş verdi:avtobusun arxa qapısı ona yaxın düşdü. İlkin içəri keçənlərdən biri də o idi!

Arxa oturacağa, mühərrikin isitdiyi yerə özünü verdi. Bir dəqiqənin içində avtobus ağzınacan doldu.

Qapı açıq idi, külək soyuğu ayaq üstə duranlara çırpırdı. O basabasda külək onun da alnına toxuna bildi.

...Darvazanı taqqıldatdı, Evdə eşitmirdilər. Bəzən o özü də darvazanın döyülməsi ilə küləyin qulaqbatıran səsini qarışdırırdı. Titrətmə tutmuşdu. Kaş, qapı tez açılaydı.

Yerdən əlinə keçən daşı götürüb dəmiri döyəclədi. Yazıq darvaza! Daşla döyülməkdən rəngini itirmişdi.Axır ki, qapının cırıltısı eşidildi. Deməli, səsi eşitmişdilər.

Başını və belini qalın şal ilə bükmüş həyat yoldaşı tanış səsi eşidib qapının rizəsini şaqqıldatdı.

-Üşümüsən? - soruşdu.

-Titrəyirəm.

-Keç. İşıqlar yanmır. Qazı kəsiblər.

İsti çay içib qızışa bilməyəcəkdi. Yemək də o məsələ.

-Bəs neylədin bu soyuqda?

-Neyniyəcəm? Səni gözlədim.

İçindən isti bir ilğım keçdi.

## II

İş otağından maşının açarının ingilis hərfli düyməsini basdı- o aşağı düşənə qədər "Land Qrouser"i işləyəcək, motor isinəcəkdi. Qışın oğlan çağı idi, şaxta qılınc kimi kəsirdi. Dəri gödəkcəsini çiyninə atdı. Maşına çatanacan idi. İçəri hamam olacaqdı. Kənardan onu qınamasalar, kostyumunu da çıxarardı.

Maşına oturub yola düzəldi. Yaxınlıqdakı dayanacaq adamla dolu idi. Bu şaxtada yazıqlar donmurlarmı?

...Döngəni ehtiyatla döndü. Burdan evlərinə dörd yüz metr qalırdı. Dördmərtəbəli evinin işıqları bərq vururdu. Üstü ingilis hərfli qara açarın düyməsini basdı. Darvazanın qapıları asta-asta, taybatay açıldı. İçəri girdi, enişi enib sola döndü. Kondinsionerlər vıyıldayır, istini üzünə çırpırdı.

Qarovulçunun qara silueti göründü. Kölgəsi ona tərəf yaxınlaşırdı. Danışır, gün ərzindəkiləri hesabat verirdi. Hovuz isti su ilə dolmuşdu. Paltarını dəyişib üzməyə düşəcəkdi.

Hərə öz otağına çəkilmişdi. Qulluqçu qazanların qapaqlarını açıb baxırdı. Çaynikin lüləsindən buxar çıxırdı. Heç nə yemək istəmirdi. Əynini dəyişmək üçün otaqlarına keçdi. Həyat yoldaşı uzanıb yatırdı. Bəlkə də yatmırdı, onun gəlişini eşidib gözlərini yummuşdu.

İçindən soyuq bir ilğım keçdi.

## III

Hündürmərtəbəli evin bahalı mebel dəstləri...Gecəqondu evin üfunət qarışıq iyində torları ordan-burdan qırılmış köhnə dəmir çarpayı...Onda yuxusu şirin idi.

...İndi gözlərini tavana zilləyib – yata bilmir.

...Sən demə, onda daha xoşbəxt imiş.

# SİLİNMƏ

Yuxudan gec ayılmışdı. Saat onun yarısı idi.Səhərə yaxın güclü külək əsdiyindən hava soyumuşdu. Şimal küləyi yay Günəşinin istisindən od-alova dönürdü. İstiyə dözümü qalmamışdı. Bu gün işdə axşamacan necə oturacağını düşünəndə vahimə bürüdü.

"-Professor Rüstəm Azmanov bu gün öləcək!"-Professor hardan düşdü yadına? Özü də səhər-səhər. Hələ əl-üzünü yumayıb, bir tikə çörək kəsməyib. Heç gecə yuxuda da görməyib professoru. Ondan iki yüz otuz kilometr aralıda professorun ölümünü necə hiss edə bilər? Otuz ildi onun sifətini görmür. Professor heç televizora çıxan adam da deyil. Otuz il qabaq universitetdə gördüyü kimi gözünün önünə gətirdi. Metrodan çıxıb üstünün rəngi solmuş boz portfelini məktəbli kimi qoltuğunda yellədə-yellədə, arada eynəyini (eynəyini şüşəsi çox qalın idi, görünür görməsi mənfi dörd ya beş olardı) yuxarı qaldıran, başının ortası keçəl Rüstəm müəllimin kostyumları köhnə və səliqəsiz olurdu. Qalstuk taxdığı köynəklərin boynu yeyilirdi. Yoldaşları zarafatla ondan soruşurdular ki, sən başını həftədə neçə dəfə yuyursan?

-İki-üç dəfə-deyirdi.- Nə olsun ki?

-Yerlin ayda bir dəfə yuyur. Denən tez-tez yuyunsun.

Doğrudan da, mühazirə oxuyarkən auditoriyada dolanan professor onun yanından ötəndə pis iy az qala nəfəsini kəsirdi. Bu ona utancaqlıq gətirirdi, ancaq özünü sındırmırdı.

-Siz onun başının içinə baxın.

-Başının içinə bomba düşsün. Nə var onun başının içində? Ordan-burdan köçürüb beynimizi xarab edir.

Səsi tükürpədici idi. Birdən elə səs çıxarırdı ki, deyirdin meşədədi. Onu uşaqlar sevmirdi. Di gəl, Rüstəm müəllim özünü elə aparırdı, deyirdin bu universiteti elə bu yaradıb.

"-Universitet Azərbaycanın yeganə yüksək təhsil ocağıdır. Biz professor adını şərəflə, ləyaqətlə, təmiz vicdanla daşımış, onu yüksəklərə qaldırmışıq. Siz də çalışın bu adı uca tutun."

Şəhər uşaqlarından fərqli olaraq rayondan gələn, öz gücünə

oxuyan, yataqxanada qalan tələbələrə Rüstəm müəllim ağzını açıb “salam” deməz, uzun sifətli başını aşağı-yuxarı tərpətməklə kifayətlənərdi. Ancaq şəhər uşaqlarının yanına gedər, əlini çiyinlərinə qoyardı.

“-Necəsən? Dərslərin çətin deyil ki? Atan necədir? Anan işləyirmi? Ona dərs demişəm. Çox savadlı idi. Hər ikisinə mənim xüsusi salamlarımı çatdır! Nə çətinliyin olsa, çəkinmə, de!”

Rüstəm müəllimdən elə ordaca soruşan olsaydı ki, nazir müavininin oğlunun nə çətinliyi olacaq? Evi var, yeməyi-içməyi, geyməyi var, cibi dolu puldur, maşın ayağının altında, ata-anası yanında – guya sən bunları bilmirsən? Ayıb deyilmi, atasının vəzifəsinə görə uşağa yaltaqlanırsan? Uşaq da səni məsxərəyə qoyur. Heç olmasa professor adına hörmət elə.

-And olsun Allaha, mən bu kostyumu çıxarıb tullamasam, allergiya tutar, səpərəm.

Hələ Samir qayıdıb ondan soruşur ki, sənin bu yerlin məndən nə istəyir.

“-Adam yəni o qədər heyvandı ki, mənim ondan zəhləm getdiyini görmür!”

Nəsə, professor ondan yan gəzir, üz-üzə gəlmək istəmir, ünsiyyət yaratmaqdan qaçırdı. O, bunu bilir və Rüstəm müəllim kimi hərəkət edirdi.İkinci kursda oxuyurdu. Uşaq deyildi ki, professor adı gələndə əsgər kimi ayağa qalxıb, təzim etsin. Yaxından tanıdıqca çoxları adiləşir, hətta yabançı olurdu...

***

Adət etmişdi, hər səhər soyuq su ilə yuyunurdu. Televizorda hava haqqında məlumat verirdilər. Qız onların rayonunda otuz altı, Bakıda otuz səkkiz dərəcə isti olacağını çatdırdı.

“-Otuz səkkiz dərəcə kölgədədir. Hardasa qırx beş dərəcə ölü yerindən isti olacaq.”

Yenə Rüstəm müəllimin şəkli durdu onun gözünün qabağında.

“-Nəhlət sənə, kor şeytan! Bu kişi hardan ürcah oldu mənə? Allah, sən özün saxla! Bu istidə ölmək də günahdı. Sən ucasan. Şükür mərhəmətinə!”

Yavaş-yavaş çay dəmləməyə, xörək bişirməyə öyrəşirdi. Tənbəllik etməsəydi, heç də pis aşpaz deyildi. Çayın qaynamağını gözləyirdi.Telefon zəng çaldı. Direktorları Fikrət müəllim idi. Səsi gur gəlirdi.

-"Axır ki, pulu hesabımıza köçürdün eləmi? " – dedi.

"- Hardan bildin?"

"- Yuxuda görmüşəm."

" – Yuxun düz çıxıb. İndi gəl gedək banka, ordan da İsrail müəllimin yanına. Görək nə qədər çıxara bilirik. "

Fikrət elə danışırdı ki, elə bil atasının, ya da özünün şəxsi pulunu banka qoyub, indi gedib çıxarır. Onun heç ağlına da gəlmirdi ki, bankdan bir qara qəpik də götürsnlər. Odur ki Fikrətə dedi ki, birbaşa iş yerinə gələcək. Banka da, İsrail müəllimin (İsrail Qəniyev rayon mədəniyyət şöbəsinin müdiri idi, hamı ona Qəniyev deyə müraciət edirdi.) yanına da özü getsin ki, şübhələnməsinlər.

Onun ağlı kəsdiyindən razılaşdı.

Dəstəyi yerə qoyub papiros yandırdı. Muzeyə camaatdan eksponatlar yığırdılar. Bir xeylisini xahiş-minnətə, tanışlığa almışdılar. Qiymətli əşyaları hansı dəli verərdi? Fikrət onların siyahısını tutmuş, əmin etmişdi ki, bizə pul ayıracaqlar, onda gəlib aparalar.

" – Bax, heç kimə satıb eləməzsən ha. Sözümüz sözdü." – Fikrət onlarla qiymət də kəsmişdi.Siyahını cibində gəzdirir, ümumi məbləği tez-tez Qəniyevin yadına salırdı. Qəniyev də Qəniyev idi. Otuz beş il idi ki, rayon mədəniyyət şöbəsinin müdiri işləyirdi. Neçə birinci katib qarşılayıb yola salmışdı.

"- Sən siyahını itirmə, baxarıq, ay Fikrət, yəqin bir şey edərik." – deyirdi Qəniyev. O bu istehzanı elə ustalıqla edrdi ki, Fikrət onun saxtalığına inanmırdı.

Bir də, Fikrətə qol-qanad verən raykomun birinci katibi Qəşəmov idi. Bir dəfə muzeyə baş çəkmişdi. Onda Fikrət rayonun tarıxı, qədimliyi haqqında danışmış, rayonda kifayət qədər maddi mədəniyyət abidələrinin – xüsusən xalçaların olmasını, lakin bunları əldə etməyin çətinliyini katibə bildirmişdi.

“- Nə lazımdır? “ -  katib soruşmuşdu.
“ - Yoldaş katib, camaat qiymətli əşyaları üçün ödəniş istəyir.”
“- Nə ödəniş? “ – katib də az aşın duzu deyildi.
“ - Ödəniş də, yoldaş katib.”
“- Açıq de görüm.”
Fikrətin rəngi qapqara olmuşdu.
-“Pul istəyirlər, yoldaş katib. Deyirlər ki, bu xalçanın iki yüz yaşı var. O qədər xalça istəyən var ki, ona satarıq. Sizə pulsuz nəyə görə verməliyik ki?”
-“Həə, belə de, başa düşək. Deməli, xalçalarını satmaq istəyirlər. Düz eləyirlər. Baxarıq, görək sizə bu məqsədlə pul ayırırlarmı? Mən araşdıraram. Ancaq siz çalışın ki, özləri muzeyə əşya verməkdə maraqlı olsunlar. Bu həm də onların öz tarixləridi, babalarının tarixidi. Elə deyilmi? Mən inanmıram ki, siz onlara bunu başa salsanız, onlar sizə təmənnasız nəsə verməsinlər. İşləmək, çalışmaq, yollar axtarmaq lazımdır”.
Fikrətin də, onun da katibə sözü çox olardı, ancaq onu, onun yanında gələn icraiyyə komitəsinin sədrini heç  cür inandırmaq olmayacaqdı ki, heç kim pulsuz heç nə vermir. Sən katib, gəl bu muzey üçün bir xalçanı havayı al ver görüm, necə verirsən!
Çay qaynar idi, odur ki, soyumağını gözlədi. Televizorda təzə populyar olan sarışın saçlı qız oxuyurdu.
...Professor düz qabağında dayanmışdı, suallara cavab versə də, Rüstəm müəllim imtahan vərəqinə “qeyri-kafi” yazdı.
“- Gedə bilərsən, imtahana yaxşı hazırlaşmamısan. Yayda vaxtın olar, hazırlaşıb qiymət alarsan.”
“ – Siz nə danışırsınız? Mənə nəyə görə qiymət yazmırsınız?”
“ – Yazmışam, kim deyir ki, yazmamışam?”
“ – Çox səhv edib  mənə iki yazırsınız.Buna hüququnuz çatmır.”
“ – Mən hüququmu yaxşı bilirəm. Yalançı beşləri düzdürüb gəlirsən, elə bilirsən mən də sənə yalandan qiymət yazacam? Nə olsun ki, yerlimsən? Yerlimsən deyin, məni minməyəcəksən ki?”
“Özünüzə hörmət etmirsinizsə, heç olmasa, rayonun adına

hörmət edin. Görərsən ki, adamı necə minirlər” – imtahan sualını, cavab vərəqlərini götürüb rektorluğa getdi. Ərizə yazıb komissiya yaradılmasını xahiş etdi. Adi bir təsadüf nəticəsində rektorla qapıda görüşdü.

“- Nə istəyirsən?”

“ Komissiya yaradılmasını. Bu mənim suallarım, bu da cavablarım. Bütün biletlərə də cavab verməyə hazıram. Professor Rüstəm Azmanov mənə haqsız “qeyri-kafi” yazıb. Mənim indiyə kimi qiymətlərim “əla”dı.

Rektor yazı ilə dolu vərəqlərə baxdı, onu patrkoma uzatdı.

“ – Hələ iclasa vaxtımız var. Bir ora dəyək, görək nə məsələdi? – Yolda rektor onun haralı olduğunu da soruşdu. – Qurban, bu tələbə onun öz yerlisidi.”

İmtahan hələ qurtarmamışdı. Rüstəm müəllim rektoru, onun yanındakıları görüb ayaq üstə qalxdı, rəng verib rəng aldı.

“ – Professor, - rektor bu sözü kinayə ilə dedi – bu tələbə ərizə yazıb, qiymətindən narazılıq edir.”

Qurban müəllim sual vərəqini, cavab kağızlarını ona uzatdı.

“ Mənim obyektivliyimə bələdsiniz, yoldaş Bağırzadə.”

“- Onun dərsə davamiyyəti necədir?” Rüstəm müəllim jurnala baxıb onun ad-familiyasını axtarırdı.

“- Qurban, sən bax!”- Qurban müəllim jurnala baxdı.

“ Bir saat da dərs buraxmayıb.”

“ Bilet çək!” – Rektor əsəbi halda dilləndi. Bilet götürüb suallara baxdı.

“ – İcazə verin fikirləşmədən danışım!”

“-Danış!”

Sualların üçünü də nəfəs dərmədən danışdı.

“ – Başqa bilet çək!”

Ayrı biletin suallarına da eləcə cavablandırdı.

“ –Rüstəm, bu uşağın “əla”sını yaz. Özün də sabah mənim yanıma gələrsən. Ciddi söhbətimiz olacaq.”

“Demaqoqun biri demaqoq! Mənim üstümə, professorun üstünə adam gətirir. Utanmaz! Utanmır! Mənim yerlim bundan artıq olmayacaq ki?”

Rüstəm müəllim dekan müavinin yanında ucadan qışqırdı. Yoldaşlarının hamısı imtahan otağının qabağına yığışmışdı. Özünü sakitləşdirmək, heç nə eşitmək istəmirdi.

"- Sən əclaf adamsan, vicdansız, ikiüzlü, simasız, yaltaqsan Professor adı eşşəyə palan yaraşan kimi sənə yaraşır!" – Sinif nümayəndəsi, dekan müavini onun qolundan tutub apardılar...

***

Muzeyin qapısı açıq idi. Baxıcı televizora baxır, süpürgəçi otağı təmizləyirdi.

-"Otaqları təmizləmişəm, bircə-bircə silmişəm. Sabah gəlməyəcəyəm. Həkimə gedəcəm. Qollarım qırılır".

-"Neyləmisən ki, qolların qırılır? Elə qollarım qırılır deyirsən, heç qırılmır,- ikisi də yerindədi".

" - Day neyləməliyəm ki?"

"- Heç nə. İşin nədi, onu eləyəcəksən. Muzeyin eksponatlarını toz basıb. İki ay olar ki, əl vurmursan. Onları bircə-bircə təmizlə. Pəncərələr nə gündədi? Oturub qeybət etdiyinizə, silin də. Axı, burdan maaş alırsınız! Gərək nə iş tutacağınız hər gün deyilə".

Telefon zəng çaldı. Fikrət müəllim idi.

"- Sən hər şeyi bilirsənmiş. Ona görə gəlmədin?"

" – Nəyi bilirdim?"

" - Pulun silinməyini."

"- Ay tövbə. Siliblər?"

" – Hə, qulaq as, mən Qəniyevin yanındayam. Bizə ayrılan pulu siliblər. Necə lazımdı, elə. Guya biz neçə xalçaya, mis alətlərə, nə bilim nələrə neçə minsə pul xərcləmişik. Mən ərizəmi yazdım. Kimi istəyirlər, qoy gəlsin işləsin. Hələlik! "

Dəstək əlində qaldı. Onun dediklərini hər ikisi eşitdi. Əllərini işdən ayırıb soruşdular:

– " Nə olub?"

– " Eşitmədiniz?"

– "Fikrət getdi? "Süpürgəçinin dişləri ağardı.

Çölə çıxdı. Göy üzü maviydi. Nöqtədən bir az böyük əşya üzü

günbatana tərəf səssiz gedir, arxasından ağ tüstü çıxırdı. Bir azdan ağ xətt silindi. Səmanın maviliyi yenə öz axarındaydı.

Televizorda "Xəbərləri" verirdilər. Sarı saçlı qız Azərbaycan elminə ağır itki üz verdiyini, professor Rüstəm Azmanovun yetmiş yeddi yaşında vəfat etdiyini bildirdi.

Baxıcı pıqqıldadı. Çəpəki nəzərlərlə ona baxdı. Əlini ağzına aparıb utandığını göstərmək istədi.

"– Bu nə familiyadı? Elə də familiya olar. Azmanov? Adamın gülməyi gəlir! "

Diktorun səsi Azmanovun varlığını silib apardı. Ona elə gəldi ki, özü də televizorun ekranından silinən sarı saçlı qız indicə yaş dəsmalı əlinə alıb eksponatların tozunu siləcək!

# ÇƏTƏNƏ

Qarısı ondan tez oyanıb ocağı qalamış, çayniki su ilə doldurub hisli daşların üstünə qoymuşdu. Çaynikin ağ rəngi də qapqara olmuşdu, sübhün alatoranında çataçatla yanan odunların işığında bu rəngi sezmək olurdu.

Gecəni yata bilməmişdi. Özündə bir ağırlıq hiss edirdi. Bu gün qoyun nobatının beşinci-sonuncu günü idi. Birtəhər yola verərdi.Dəyişməyə adam yox idi.İndi kənddə ot biçininin qızğın çağıdı. Hamı biçindədi. Sabah allazarlıların növbəsidi. Allahyar, ya da oğlu axşamüstü gələr.

Canavarların səsi meşəni, dağı-daşı başına götürmüşdü.Səs gecənin bağrını dəlir, yaylaqdakı komaların divarlarını silkələyirdi. Mal-qara, qoyun-quzu bu səsə öyrəşsə də, itlərin hürüşməsi onlara qarışırdı. Qalxıb əynini geyindi, İbrahimgilin qapısını taqqıldatdı. Yatmışdılar.

- Kimsən? – İbrahimin boğuq səsi güclə eşidildi.Səsini çıxartdı.

- Nə olub? Xeyirdimi gecənin bu vaxtı?

- Bəlkə, deyirəm bu zibillərə bir güllə atasan.Səs dünyanı başına götürüb.

- Sən də qocaldıqca ağıllanmaq əvəzinə sayıqlayırsan. Birinci dəfədimi canavar səsi eşidirsən? Ağlini başina top elə, get yat.

Çox adamda ov tüfəngi vardı. İbrahimdə qoşalülə idi. İbrahim quşu gözündən vururdu. Onu ovçu kimi tanıyırdılar. İbrahimin sözlərindən incimədi, əksinə ürəkləndi. “Avrora” qutusundan bir gilə götürüb yandırdı, göy daşın üstündə oturub canavarlar ulaşan İlan yalına baxdı. Doğrudan, daha səs ona o qədər də təsir etmirdi. Ancaq papirosun azlığı ürəyini sıxdı. Cəmi üç giləsi qalmışdı. Üç gilə heç günortaya çatmayacaqdı. Çətin olacaqdı ona. Yaylaqdakıların bəzisi çəkmir, bəzisi də kənddədi. Əksər comalarda qalanlar qadınlardı. Uşaqlardan Püstənin Bəhrəmi gizli çəkir. O da elə vələdüzna uşaqdı ki. Boğazına ilan salsan da verməz. Deyəcək ki, nə danışırsan, mən heç papiros çəkirəm?

Oğluna ismarıc eləmişdi ki, pensiyasının pulundan beş rublluq papiros alıb göndərsin. Dünən kənddən Pəri qarı gəlmişdi. Dedi ki, ona heç nə verməyiblər. Oğlunu qınadı. Nə olsun ki, biçin-

dədi. Papiros alıb göndərmək nə çətin işdi? Bilir ki, papirossuz qala bilmir. Çörək vermə, çay-su vermə, ancaq papirosun vaxtı keçdimi, o dünyalıq olur. Onda təskinlik tapdı ki, yəqin səhər kimsə gələcək, onda göndərərlər. O, günorta onsuz da qoyunları sağıma gətirəcək. Allahın köməyi ilə papirosundan bir parçanı götürüb günü yola verər. Bundan əlavə də qoca elə ehtiyatsız adam deyildi. Meşədə ağacların koğuşuna yarımçıq gilələr qoymuşdu. Sabah onları götürüb kağızına bükər, birtəhər ötüşər.

O ağaclardakı yarımçıq gilələr gözünün önündə canlandı, əlindəkini də yarımçıq söndürüb cibinə qoydu, gedib yerinə uzandı...

- İtburnu dəmlədim. Qara çayımız qurtarıb-dedi qarı, çayı ərinin qabağına qoydu. - Şirin elə. Şəkərimiz də qurtarır.

- Canın sağ olsun, göndərərlər. Göndərməzlər, gedib alaram. Büyün nobatımız qurtarır. Boşam. Ağrıyıram bir az. O doxdur vardı ha, özümü ona bir göstərəcəm. Pis odu ki, papruzum qurtarıb.

- Dünya dağılacaq ey, kişinin oğlunun yaman şeyi qurtarıb. Bax o nədi, pufhapuf pufuldadırsan. Cana, cibə ziyandan başqa nə xeyri var?Ağzindan, üst-başından zəhrimar iysi gəlir. Boşla getsin o yana.

Qarı bu gileyi bəlkə də əlli il idi ki, ona edirdi. Arada ona bəraət qazandırırdı, ancaq papirosu boşlamaq əlindən gəlmirdi.

- Boşlasam boşlayardım, day heç sənə deməzdim. Boşlayammıram. Sənə nə olub, səhərin gözü açılmamışdan köhnə dostdan danışırsan?

İnsafən qarı daha heç nə demədi, sərnici götürüb inəkləri sağmağa getdi.

Çayın rəngi əsəblərini nizamladı, ürəyinin yanğısını azaltdı. Bir stəkan da özü süzdü. Çay qaynar idi, onun soyumağını gözləyincə papiros qabına bir də baxdı. Üç gilə, bir də yarımçıq. Cavanlar yarımçığa "astatka" deyirdilər.

" - Allah kərimdi" – dedi öz-özünə -məni heç vaxt darda qoymayıb.

Bayırda mal-qaranın, adamların səsi gecənin qaranlığını aydınlığa çıxarırdı.

***

İlan yalının başındakı göy daşın üstündə oturdu. Qoyunlar üzü meşəyə tərəf otlayırdı. Ot ayağın üstə çıxırdı. Burdan dolayı meşəliklə Səki  yurda düşdü. Dağ çayı az axsa da, heyvanları suvarmaq yeri idi. Yaylaqdakıların heyvanları su içmək üçün bura gəlirdi.

Qarşıdakı kənd əlin içi kimi görünürdü. Evlərin hamısının üstünə qırmızı kərpic vurulmuşdu. Günəşin şüaları qırmızı kərpici qızılı rəngə çevirirdi. Bura rus kəndi idi. Qoca o kənddə çox olmuşdu. Qoruqçu heyvanları damlayanda cərimə ödəyib almışdı. Neçə dəfə o kəndin mağazasından qənd, çay, un, konfet, çörək, papiros almışdı.Yaxın görünməyinə baxma, piyada xeyli yoldu. Elə atnan gedəndə nə qədər vaxt gedir. Bir pis şey var ki, kəndin mağazası günorta açıq olmur. Ora ya o başdan, ya da axşamüstü gedəsən. İndi kənd camaatının işgörən vaxtıdı. Heç kim qınanılası döy. Dükançı durub gözləməyəcək ki, görüm iki saatdan bir kim ya qənd, ya da papiros almağa gələcək.

Oğlu indi ot çalır.O başdan, saat beşdən Göy çökəyə gedir, gün qızana qədər – saat birin yarısınacan işləyir. Kərənti hərləmək ağır işdi. Gərək arada nəfəs alıb oturasan, çay içəsən. Gəlin ona çay gətirirmi? Yox, elə saat onacan yatır. Kənd yerində onacan yatmaq olar? Uşaq da özü ilə termosda çay aparır, ya da qonşuluqda ot biçənlər haylayırlar ki, gəl bir çay içək.

Hamı hamını tanıyır. O gəlinini də, onun ailəsini də beş barmağı kimi bilirdi. Elə bil cadu elədilər. Oğlu iki ayağını bir başmağa dirədi ki, alsa odur, almasa heç kim.

\- A qarı, – dedi arvadına - o uşağın başına ağıl qoy. Denən ki, ömrünü-gününü göy əskiyə döndərəcək. Ailə çətin şeydi. Bir gün döy, beş gün döy.Qoy əl çəksin bu sevdadan. Bir nəslin ki, adı bezdirənlərdi, ora bir üz tutan sevinir, bir də canın, qurtaranlar.

Alınmadı. Candərdi oğlunu evləndirdi. Qıraq-bucaqdan ona çatdıranlar oldu, çoxları susdu. Guya qoca bilmirdi?

“ - Mən nağayrım, a Cəbrayıl, uşaq istəyir. Əl çəkmir”.

\- “Qələt eləyir, ə, oğul. O nə oğuldu ki, ata-ananın sözünü eşitmir. Sən öl mənimki ola, yumşaq ətinə iki təpik vurub iti qovan kimi qovaram”.

Kərənti hərləyən adam qayıdıb ot yığırsa, batdı. Oğlu günorta evə gəlib uzanır, axşam yaba-dırmıq götürüb biçdiyi yeri xotmalayır.Axşam sərini təzədən kərəntini işə salır.

" - A tünbətünün qızı, yeyib-yatmaqla nə olasıdı? Bir hərəkət elə, dağa çıx, turp kimi şişmiş bədənin qoy açılsın. Bəlkə elə köklükdən Allah təala sənə şirin pay verə bilmir."

Uzaqdan dolayları enib gələnin İbrahim olduğunu gördü. O saat ağlına gəldi ki, bəlkə bazarlığa gedir. Aşağı yola düşüb gərməşova söykəndi.Üç gün qabaq İbrahim Qurd dərəsində, ceyran vurmuşdu.Komanın qabağında soyub dərisini duzlayıb, ətindən bir pay da onlara vermişdi.Qarı əti o saat şişə çəkib kabab eləmişdi. Handan-hana qırmızı at göründü.

- Ay İrvaham, sən gündöyən vaxtı evdən çıxmazdın. Xeyir ola, hara gedirsən?

-Aşağı Qurd dərəsinə düşəcəm. Sən xeyir ola, mənnən yaman maraqlanırsan?

-Qonşu, həmyaşıd döyükmü? Nə var Qurd dərəsində? Dünən bir güllə nəydi atmadın?

-Mən havayı güllə atmıram.

- Deyirsən indi də canavarlar ordadır?

-Yox, a kişi, o gün ceyran vurmuşam. Erkəyi idi. Dişisi qalıb. Onu axtarıram.

İbrahimə, onun qoşalülə tüfənginə həsədlə baxdı.Birdən arxadan onu səslədi.

-A İrvaham, deyirəm birdən təsadüfən yolun kəndə düşdü, sən Allah, papruz almaq yadından çıxmasın. Pulunnan nayran olma. Papruzun qurtarıb.

İkinci giləni yandırdı, ayrı vaxt olsaydı, beş-onunu çəkərdi. İndiyə kimi iknci papirosu yandırdı.

"Qarı düz deyir, hər şey adamın öz əlindədir. İstəsə, çəkməz. Bir az çətinliyi var. Öyrəşdinmi, heç çəkmək haqqında düşünmürsən. Elə bil heç ömrün boyu papirosun nə olduğunu bilməmisən".

Heyvanların yarısı meşəyə girmişdi. Addımlarını yeyinlədib onlara çatdı.Yerdən əlinə keçən daşı qabağa atdı.

-Ey ha, ey ha! Səni görüm ağlara qalasan!

Heyvanlar geri qayıtdılar. Anbardar Nəcəfin qoyunları idi.

Qocanın ondan çox heyvanlarından zəhləsi gedirdi. O boyda otlağı qoyub burunlarını hara gəldi soxurlar.A kişi, bu qədər camaatın heyvanı çaydan su içir, Nəcəfinkilər gərək bulaqdan içsinlər. Qoca o an fikirləşdi və əmin oldu ki, adamların öz xasiyyətləri heyvanlarına da keçir. Nəcəf elə döymü? Kolxozun anbardarı zibilin, yeyintinin içindədi. Di gəl həkimə deyir (həm də yuxarılara yazır) sən xəstəyə baxanda rüşvət alırsan. Rüşvət ha! Qoca bir dəfə özünü yoxlatmış, Davud həkim resept yazmışdı. Onda, ondan qabaq da, sonra da Davud həkim, elə orda işləyənlərin heç biri ondan beş qəpik də istəməmişdi. Nəcəf qaraltıya danışır, şər atırdı. Niyə? Nəcəfin arvadı doğanda kənd həkim məntəqəsinə müraciət etmişdi. Onlar da demişdilər ki, rayon səhiyyə şöbəsinin müdiri tapşırıb ki, doğuşlar rayondakı doğum evində tutulmalıdı, yoxsa işçini işdən azad edəcəklər. Mamaça Nəcəfə bunu çatdirdi və dedi ki, onu evə çağırıb eləməsin. Çağırsa da, gəlməyəcək. Nəcəf məcbur olub arvadını rayon mərkəzinə apardı. Sonra başladı həkimləri şərləməyə. Rayondan, Bakıdan yoxlama gəldi, getdi.Bundan sonra Nəcəf məktəbə, kitabxanaya, poçt idarəsinə yoxlamalar gətirtdi.Heç nə tapmayan komissiya üzvləri Nəcəfi böhtan atmaqda ittiham edirdilər. Nəcəf isə heç özünü sındırmırdı.

-Mən nə deyirəm? Partiya tələb edir ki, bütün sahələrdə işlər şəffaf aparılmalıdır.Mən də istəyirəm o şəffaflığa aydınlıq gətirim. İndi gördünüz də!

Gözünə dönüm Əsgər müəllimin. Dedi ki, ə, nətəri olur anbardar hamını yoxladır, heç onun anbarını yoxlamırlar. Elə vaxt yoxlama gətirdi ki, Nəcəfin quyruğu qapı arasında qaldı. Nəcəfi xeyli tərləyəndən sonra iki il icbari işi yapışdırdılar kürəyinə. Ağlı başına gəldimi? Ay tövbə! İndi onun qoyunları qocaya əziyyət verir, heyvanların ağzını dərəyə-təpəyə salır. O heyvanları görəndə kişi cin atına minir. Əlacı olsa, Nəcəfin qoyunlarını əli ilə aclıqdan ulaşan canavarlara verər, heç uf da deməz. Sonra gəl Nəcəfdən yaxanı qurtar.

-Yox mənim qoyunum cavan idi, yunu on kilo olurdı, südü inəyin südü boyda olurdu.

Nəcəf bir qoyuna iki qoyun almasa, əl çəkməzdi.

Heyvanların ağzını Sarı dağa çevirdi. Bir zadan hava isinəcək,

heyvanları sərdənə aparmaq çətin olacaqdı.

- "Bu Gülzə döymü? "-Qocanın gözləri uzağı da, yaxını da yaxşı görürdü. Gülzə düz yolu qoyub daşlı-kəsəkli yolla az qala qaçır. Bəlkə, heç onu görmür?

-A Gülzə? – Onu səslədi. Gəlin qəfil səsdən diksinən kimi oldu, dayanıb ətrafa boylandı, onu görüb yaylığının ucunu üzünə çəkdi.

-Sən burda neynirsən?

-Görmürsənmi, nobatdayam. Bu gün mənim növbəmin axırıdır. Xeyirdimi?

-Həə.

-Heç özündə deyilsən? Bir şüy olmayıb ki? –Gülzəyə ürəyi yanırdı. Ərini tez itirmişdi. İki uşaqla evin altında qalmışdı.

-Yox. Qurd dərəsinə düşəcəm. Uşaq deyib ki, orda qarağat kolu görüb. Dedim yığım, mürəbbə bişirim. Qışda karımıza gələr.

-Qurd dərəsinin yolu var. Dağnan-daşnan özünü niyə həlak eləyirsən?

-Dedim kəsə gedim, qoyunların sağımına çatım.

-Bəs vedrədən-zaddan niyə götürməmisən? Qarağat torbada xaşıl olacaq.

-Olmaz.Qab tapmadım.

Qoca İbrahim gedən yolu ona göstərdi.

-Bu yol düz ora gedir. Bir atlı da indi o tərəfə gedirdi. Elə atın izi lə getsən, azmazsan-dedi.Gülzə onun göstərdiyi yolla getdi, arada dönüb geri baxdı, sanki, nəsə demək istəyirdi.

Qoca üçüncü giləni yandırdı.

"- İrvaham Qurd dərəsinə getdi. Ceyran axtarır.Dişi ceyran. Ceyranın Qurd dərəsində nə işi var? Bu qız da qarağat yığacaq. Qurd dərəsindən. Axı mən bilən oralarda qarağat kolu yoxdu. Allah sən özün saxla."

Gərməşov ağacını göydə fırlatdı. Qoyunlar ona əhəmiyyət vermədi, Atılan daşdan sonra geri qayıtmağa məcbur oldular. Kənddən gələn yol açıldı. Durduğu yerdən dolaylara dolaşan yolun sarı, boz və qara rəngləri görünürdü. İns-cins yox idi.

Comaya çatanda qarısı süfrəni açırdı. Onu ötəri nəzərlə süzdü, heç nə demədi.O bunu hiss etdi, odur ki, kənddən papirosun (azuqənin də) göndərilib-göndərilmədiyini soruşmadı.

-Səən rahat yeməyini ye, uzan dincini al, mən qoyunları sağım. O Gülzəninkiləri də mən sağacam. Tapşırdı, dedi ki, Sarıdamlara gedəcəm.

“-Bəs Qurd dərəsinə qarağat yığmağa gedirdi? “

Qarıya heç nə demədi.Yeməyə iştahası yox idi. İçi yanır, başı hərlənirdi.

-Bəlkə boxçada-zadda ilişib şey qalır. Sən ehtiyatlı adamsan.

-Yox, Vallah, sən gedəndən axtarıram. Olsa, səndən gizlədərəmmi?

Mütəkkəni başının altına qoyub yuxuya getdi.

***

Heyvanları az qala qovurdu. Ağzı zəhər dadırdı. Dodaqlarındakı çati əli ilə yoxladı. Əsəbi olmuşdu. Sarı qayaya döndü, onun qənşərindəki palıd ağacına tərəf getdi.Ağacın koğuşuna daş qoymuşdu ki, içəri islanmasın.

“ -Nə var sizin üçün eləyirik. Allaha şükür ev tikmişik, dolanışığımız pis deyil. Həyət-bacamız, mal-qaramız var. Neçə ki, əlimiz-ayağımız tutur, işləyəcəyik. Sonrası Allah kərimdir”.

Gəlinin boz sifəti görünürdü.

“-Yaxşı ki, çox şeyiniz yoxdu. Ev-eşiyi, mal-qaranı nə gözümə soxursan hər dəqiqəbaşı. Yeri gələcək sizin ev-eşiyiniz də bizə lazım olmayacaq, iyli mal-qaranız da. Pah, kişinin iki inəyi, on qoyunu var, guya Hindistan padşahıdır.”

- “Bu yaşımızda bizim bunlar var. Bəs sən nəyin sahibisən? Biz olmasaq, nağayrarsan, onu heç kim bilməz.”

Doğrudan, elə idi. Payıza kimi qarısıyla nə qədər yağ, pendir, şor hazırlayırdılar. Çox vaxt Novruzacan yağa, pendirə pul vermirdilər. Ət lazım olanda həyətdəki toyuq-cücədən, toğlulardan kəsirdilər.

-Dayanın görüm!

Qarşıdan iki nəfər iki atın yüyənindən çəkirdi. Atlara cavan ağac zoğları yüklənmişdi. Hərəsinə dörd dənə. Üzü yoxuşa adamlar da, atlar da güclə çıxırdı. Atlar tərləmişdi. Adamlar başlarına yaylıq bağlamışdılar ki, gün döyməsin.

Papiros çəkən kişi üzünü ona tutdu:

-Niyə dayanmalıyıq? Sən kimsən?

Qoca onsuz da əsəbi idi.

-Məni görmürsən kiməm? Sən özündən danış. Cavan ağacları kəsib aparırsan. İcazən- zadın var?

Qoca kişini tanıyırdı. İki il əvvələ kimi Şəkərkənddə qoruqçu işləyirdi. Mallarını aparıb damlayır, pul almasa buraxmırdı. Özgə vaxt olsaydı, o bunu eyninə almaz, comasına dəvət edib sərin ayran, soyuq su, isti çay təklif edərdi. Onun istəyi papiros idi.

-Nə sənəd? Guya siz ağacları qıranda kimdənsə icazə alırsınız?

-Biz cavan ağacları qırmırıq. Siz qırıb-dağıdır, bizim üstümüzə atırsınız. Niyə öz ərazinizdən kəsmirsiniz? Deməli, oğurlayırsınız? Bunun üstündə bilirsən adama neyliyərlər?

-Heç nə də eləməzlər. Nə istəyirsən elə.

-Elə bilirsən eləmiyəcəm. Əvvəla sizi tanıyıram. Şəkər kəndlisən, qoruqçu işləmisən.Meşəbəyinə adını verəcəm. Bir kağız milisə, birini də prokurora yazsam, bəsinizdi.

Kişi ona yaxınlaşdı.

-Sən elə adama oxşamırsan, de görüm istədiyin nədi?

-Hələ bir popiros ver görüm.

-Axırıncını ikimiz çəkmişik, qutusunu da odey ora atmışıq. Papruzmu istəyirsən, axşama on başqa çatdırım. Ayrı nə istəyirsən?

- On yox, bircə başqa da olsa, olar. Ancaq bu yorğunluqla sən gələn döysən. Adam yalan danışmaz. Heç sənin papruzun lazım deyil.

-A kişi, söz danışdıq, məni tanımırsan? Tanıyırsan, gəlməsəm, nə istəyirsən elə.



-Dəh-dəh. – Kişi atın yüyənini çəkib aralandı, dalınca da o birisi.

Qoca bir an fikirləşdi. Ömründə belə iş tutmadığını yəqinləşdirib utandı, yelkənə tərəf gedib gərməşovunu yerə atdı və oturdu. Yarımçıq papurusunu çıxarıb xeyli baxdı. Bundan başqası yox idi. Axşama çox vardı. Ona neçə papiros çatardı? Bəs axşam? Bəs səhər? Dünya kişinin gözündə yarımçıq gilə boyda qısa gəldi. Ömrü boyu qorxduğu ölümün yaxınlıqda olduğunu duydu.

“-Allah, sən saxla. Allah sən saxla. Qələt eləmişəm. Qurban olum sənə, ay Allah!”

O bu sözləri niyə dediyini bilmirdi. Yarımçıq giləni burnuna tutub iylədi, bir də iylədi, sonra tütündən azca ovcuna töküb ağzına atdı, çeynəməyə başladı.

Deyəsən sakitləşdi. O saat da Sarı qayadan əlli metr aşağıdakı palıd ağacına tərəf addımladı.

- Biri o palıddadı, ikisini üstü yazılı fısdıq ağacına qoymuşam, biri çayın qırağındakı xədəngdədi.

Palıdda daşı görməyəndə ürəyi qırıldı. Koğuş da boş idi. Daşı külək sala bilməzdi. Kimsə götürmüşdü. Bəhrəm gözünün qabağına gəldi.

-"Oğraş köpəkoğlu. Yetim, səlvər. Görüm sənin anan mələsin. Məni izləyib, hara qoyduğumu görüb. O birilər də yerində olmayacaq!

Qoca ayaq açmışdı. Fısdıqda, xədəngdə heç nə yox idi. Çayda üzünə su vurdu, dizini yerə qoyub su içdi. Qurd dərəsinə endi.

"- Yaxşı, sən sən ol, mən də mən olum. Kəndə qayıdan kimi sənin dalına bir təpik vurdurmasam, atamın oğlu deyiləm. Day bəsdi. Mənim oğlumla aramı vurmaq, əlimdən almaq istəyirsən? Bakı, Şəki sayıqlayırsan? Bu il də uşağın olmasa, rədd ol dədənin xarabasına. Mənim evim ətlik, kökəltmə idarəsi döy".

Daş Nəcəfin qoyununa dəydi. Heyvan axsaya-axsaya üzüaşağı qaçmağa başladı.

"- Özgə vaxtı qabağını saxlaya bilmirəm, indi elə bil ayaqlarından daş asılıb".

Qoca o yerə tələsirdi. Çayın sahiliydi, yaşıl kollar idi. Bəhram bir ovuc yığmışdı.

"-Bu nədi, ə?"

"-Sən bilməzsən, dayı, bu ayrı cür aləmdi. Adam uçur ey, göylərdə! Əsl kefdi.istəyirsən verim. Ləzzətdi."

"-Ə cəhənəm ol, bu vaxta kimi özümü saxlamışam."

"-Cəhənnəm yox, dayday, cənnətdi. Cənnət!"

***

Əvvəlcə Gülzə qoyunları qabağına qatıb gətirdi. Öləni, itəni olmamışdı.

Sonra İbrahim qocanı atdan yerə endirdi. Qoca qəhqəhə çəkib gülür, şırtıq çalır, oynayırdı...

*1999*

# AZAD QADIN HEYKƏLİ

Gülər həkim peşiman olmuşdu, ancaq geriyə çəkilməyə yol yox idi. Rayonda ən yaxşı qadın həkimi kimi tanındıqdan sonra onu doğum evinə baş həkim qoymuşdular. Xəstələri çox olurdu. Kəndlərdən, hətta qonşu rayonlardan ona müraciət edirdilər.

Əli yüngül hesab olunurdu. İllərlə övlad həsrəti çəkənləri arzusuna çatdırırdı. Bir məsələ vardı ki, doğum evi yerləşən binanın yaşı yüzü keçmişdi. Üstü çökdüyündən yağış içəriyə yağırdı. Taxta qapılar çürümüş, əyilmiş, döşəmə yatmışdı. Ətraf rayon mərkəzinin zibilxanası idi, iydən yaxın getmək mümkün deyildi. Ona görə o, iki ilə yaxın çalışdı, rayonda, Bakıda döyməmədiyi qapı qalmadı, axır ki, qəsəbəyə girəcəkdə, "köhnə avto-vağzal" deyilən yerin arxasında, ən şəfalı yerdə yeni binanın tikintisinə nail oldu. Tikinti başa çatana qədər hər gün yolunu burdan saldı, görülən işlərə nəzarət etdi. Hər daşın üstünə daş qoyulduqca sevindi. Gün o gün oldu ki, doğum evinin binası hazır oldu. Onu raykoma çağırdılar. Şöbə müdiri dedi ki, binanın qabağına Azad qadın heykəlini qoymaq lazımdır. "Niyə" sualına şöbə müdiri izah etdi ki, rayonun hər kolxozuna onun adını daşıyan şəxsin heykəli göndərilib. Bu heykəli səhvən göndəriblər.

- Onda geri qaytarın. Burda nə var ki?

- Qoy ora qoysunlar. Düzgün alınmır, ey. Çünki, doğum evi heç kimin adını daşımır.

Şöbə müdiri dedi ki, biz bunu da müzakirə etmişik.Sonra səsi-sorağı pis çıxar. Deyərlər ki, Azad qadın heykəlinə rayonda bir qarış yer tapılmır. Ən məqsədəuyğun yer elə oradı.

Bir söz demədi. Heykəl qoyuldu, təmtəraqlı açılış oldu. Televiziyaya çəkdilər, radioya müsahibə verdi, partiyaya, hökumətə minnətdarlığını bildirdi ki, ucqar dağ rayonunda yeni müasir tipli doğum ev istifadəyə verildi. Bura müasir tibbi avadanlıqlarla təchiz olunub. Daha xəstələrin mərkəzi şəhərlərə getməsinə ehtiyac qalmayacaq. Biz əməli işimizlə partiyamızın, hökumətimizin etibarını qazanmalı, xalqımıza ləyaqətlə qulluq göstərməli, Hippokrat andına sadiq qalmaqla sovet qadınının rəmzi sayılan sədaqətli Azad qadına ehtiramımızı bildirməliyik!

Bunu jurnalist ağ kağıza yazmışdı və Gülər aktrisa məharəti ilə oxudu. Səs rayonda eşidildi. Onu təbrik edənlər çox oldu, ancaq rayonun itoynadanları ağızlarını avara qoyub nələr danışmadılar? Deməklərini qısaca ifadə etsək bu alınırdı ki, azad qadının adı pis səslənir, onun heykəlini doğum evinin qabağına qoymaq heç yerinə düşmür.

Camaatın ağzı fal imiş, dedikləri kimi də oldu. Təzə, baha paltarlar geyinib bahalı ətirlərdən istifadə edən doğum evinin işçilərinin gözü yollarda qaldı. Gələnlərin ayağından daş asılmışdı. Ağ xalatlı işçilər çay dəmləyir, bəzənir, köhnə-təzə söhbətləri bir-birinə qatır, arada həyətə çıxıb havalarını dəyişirdilər.

- Aaz, adam buralara öyrəşə bilmir heç.Noolsun ki, hər yanı güllü-çiçəkli, otaqları işıqlıdı. Hayıf döyüldü o qaranlıq, uçuq-çökük otaqlar. Biri çıxmamış ikisi gəlirdi. Başımız işə o qədər qarışırdı ki, çay içmək yadımıza da düşmürdü.

Bunu "sestra" Bəsti deyirdi, "mamaça" Yetərin dərdi təzələnirdi, o da başlayırdı köhnə yerin xiffətini çəkməyə. Əlqərəz, günlər bir-birinin üstünə gəldikcə, Gülər həkimin qayğıları artmağa başladı. İlk həyəcan siqnalı baş həkimdən gəldi.

- Təzə köçübsən, lap yaxşı, özünü padşah kimi aparma. Saymışam, düz yüz bir gündü nə mənə salam verirsən, nə də kalam. Belə olmaz. Mən bu boyda gəlib-gedənin qabağında tək dayanammaram. Hamı kimi sən də kömək eləməlisən. Necə ki, eləyirdin.

- Ay Raifə xanım, niyə eləməməliyəm? Eləmişdim, eləməliyəm də. Ancaq olan yerdən də. Təzə tikintiyə qoydum hər şeyimi. İndi gələn yoxdu. Gəl, özün də bax. Gör qeydiyyatdan neçə qadın keçib.

Raifə xanım üzünə tökülən saçını arxaya atıb alovlanırdı.

- Mənə nə dəxli var, gəlirlər, ya gəlmirlər. Guya rayonda doğan qadınlar qəhətə çəkilib. Mənə yox də. Özünüz xəstəni məcbur edirsiniz ki, gəlməyin. Həreniz evinizdə bir doğum evi, məsləhətxana açmısınız. Elə bilirsiniz ki, bilib eləyən yoxdu? Ya camaatın gözü kordu?

Baş həkimə dedi ki, bu dəqiqə getsinlər işçilərin evlərinə, bircə-bircə yoxlasınlar, əgər tapsalar, onda nə eləsə haqqı var.

- Mən milis deyiləm ki, qapıları gəzəm, - Raifə xanım içini arıtladı. –Dedim, qurtardı. Qalanını özün bilərsən.

Raykomda rayon fəallarının iclasında rayon prokuroru ilə milis rəisi onunla üzdən, ötəri salamlaşdılar. Danışıqlarında inciklik o dəqiqə hiss olunurdu.

- Gülər həkim, çox ehtiyatlı olmaq lazımdır Elə hər gələn qadını bıçağın altda qoymaq da düzgün deyil.

- Biz kimi bıçaq altına salmışıq ki? Heç təzə binaya köçəndən xəstəmiz sayılan qədərdir. Qanunsuz iş görmək bizdən tamam uzaqdı.

- Nə deyirik ki? Təki sən deyən olsun. Kor nə istər? İki göz. Biri əyri, biri düz..

Artıq rayonda söz-söhbətlər artmağa başlayırdı. Biri deyirdi ki, səhiyyə şöbəsinin müdiri nazirə məlumat verib, o da tapşırıb rayon prokuroruna. O biri çayxanada söhbət gedirdi ki, milis rəisi ilə prokuror birləşib. Gülər həkimin məsələsini tezliklə həll edəcəklər. Hələ onu da söyləyirdilər ki, raykom katibi də Gülər həkimdən narazıdır.

- Təzə binanın heç bir müdirə düşəri olmayıb. Kim istəyibsə, alınmayıb-ya iraq-iraq, ölüb, ya da işdən çıxardıblar – bunu Qızbəs xala deyirdi. Bir gün onun yanına gəlib xəbərləri çatdırdı, sonra səhərki günə icazə alıb dedi ki, Gəncəyə gedir. Deyirlər, orda bir yaman baxıcı var. Görsün, o nə deyir.

Gülər həkimin məzuniyyətə çıxması söz-söhbətləri daha da təsdiqlədi. Səhiyyə şöbəsinin müdiri danışırdı ki, qoy bir ay da beləcə günlərini ötürsün , sonra görək nə olacaq.



Gülər həkim "Günəşli" sanatoriyasında eşitdi ki, rayonda aləm qarışıb, raykom katibini işdən azad ediblər. Təzə katib rayona gələn kimi geniş iclas keçirib, səhiyyə şöbəsinin işini yarıtmaz hesab edib, Bakıdan komissiya çağırıb. Məcbur olub yarımçıq geri qayıdası oldu.

***

Qızbəs xalanın dalınca sanki, at çapırdılar. Dil boğaza qoymurdu. Danışdıqca da, ətli bədəni qalxıb-enirdi.

- O dediyim baxıcını Azərbaycanda tanımayan yoxdu. Kim-

dən soruşsan, o saat yerini göstərər. Evi şəhərdən qıraqdadı. Elə bir ev tikib ki, gəl görəsən. Hələm-hələm adamların elə evi yoxdu. Qapısının qabağında oturmaq üçün yer ayrıdı, maşınlar üçün yer ayrı. Bulaq suyu çəkdirib. Maa dedilər ki, oçeredi çox olur, ona görə gərək dan üzündən gedib növbə tutasan.Mən bir az naşı oldum, gec qalxdım, avtobusla, sonra da piyada gedib tapdım. Ulduzun sayı vardı, adamların, maşınların yox. Uçret yazdılar. Oturduq kölgəlikdə. Su yanımızda. Bir qulluqçu çay verdi, sonra gilas, alça, ərik gətirdi. Nə başını ağrıdım, saat on ikiyə kimi gözlədim. Biri girir, ikisi çıxır, üçü təzə gəlib növbəyə yazılırdı. Birin yarısında baxıcının köməkçisi çıxıb elan elədi ki, bəs, daha baxa bilmir. Çox yorulub. Gedin, iki gündən sonra gələrsiniz. İki gün mən orda nağayrasıydım? Dedim, nətəri olsa da, girəcəm. İndi bu köməkçiyə nətəri yalvarır, dil tökürəm. Deyirəm ki, mən uzaqdan gəlmişəm, baxıcını deyib gəlmişəm, burda qalmağa yer yoxdu. Gecə çöldə qalmışam. Nəsə, ağzıma gələni dedim. Dedi gözlə.

Gülər arvadın danışığından yoruldu. Bu ara telefon zəng çaldı. Raykomdan idi, xəbər verdilər ki, işdə olsun, katib ora gələcək.

- Dur-dedi Qızbəs xalaya - həyətdəki zibilləri təmizlə, birinci katib gələcək

- Sözüm yarımçıq qaldı.

- Dastan danışmağa vaxt yoxdu. Dur. - Qızbəs arvad könülsüz ayağa durdu. – Hər nə isə - dedi – birtəhər düşdüm Xeyransa xanımın qəbuluna. Qabağı sarı qələmlərlə dolu idi. Bir banka da su vardı. Məni görən kimi əsəbiləşdi. Onlar elədilər: kimi görsələr, cin atına minirlər. Hər nəsə. Oturan kimi dedi ki, sən iki işdən ötrü gəlmisən. Biri qızının işidi. Qaynanasınnan yola getmir. Amma nahaq yerə. Günah sənin qızındadı. Evə qazancı o arvad gətirir. Bir dəfə onun qulluğunda durmur, yeyir, yatır. bu yaxınlarda arvad öləcək, qızının boğazı qurtlayacaq.

-Ay arvad, işə! - Gülər ayağa qalxdı, stolunu qaydaya salmağa başladı

-Qoy onu da deyim, gedirəm. O biri iş böyük idarədəndi. Mən dedi, o idarənin qabağında uzun bir qaya görürəm. O qayanın belində bir ilan qıvrılıb yatır. O ilan ordan uzaqlaşmalıdı. Ondan sonra o idarəyə işıq düşəcək.

***

Süpürgəçi həyətə düşəndən sonra onun sözləri Güləri birtəhər elədi, yenə də heykəl qara kabus kimi durdu gözünün qabağında. İndi rayonun təzə başçısının gəlişində bunu ona demək olmazdı. Desən, nə biləydin ki, necə qarşılayacaq? Hələ bu bir yana qalsın, birinci katibin bura hansı məqsədlə gəlişini heç bilmirdi. Bəlkə rayonun digər işçiləri kimi üstünə qışqıracaq ki, bu dəqiqə ərizəni yaz. Necə ki, Raifəyə yazdırmışdı.

Pəncərədən maşınların gəlişini gördü. Güzgüdə saçını əli ilə düzəldib, pilləkənləri aşağı endi.Katib də “Qaz 24”-ün arxa qapısından düşən kimi kostyumunu düymələyib həyətə göz gəzdirdi. Digər işçilər onun arxasında düzüldülər. Katibə salam verdi, xoş gəldin elədi.

- Neçə ildir müdir işləyirsən?
- Yeddi.
- Bura nə vaxt istifadəyə verilib?
- Yeddi aydır.
- Şərait necədir?

-Narazı deyilik. Müasir avadanlıqlarımız, mütəxəssizlərimiz var.

- Ancaq gələn yoxdu, eləmi?
- Bəli.
- Bilirsən niyə? Bu dağın başına sağlam adam çıxammır, o ki, qala xəstə qadınlar. Kim bura salıb bu binanı?

Keçmiş katibin, rayon icraiyyə komitəsi sədrinin, baş memarın, rayon səhiyyə şöbəsinin müdirinin adları çəkildi.

- Bir özünüz fikirləşin də. Yayın istisində küləyi görürsən? Bura dağ rayonudu, yağışı var, qarı var. Qışda bura maşın çıxacaq? Öldürsən də çıxmaz. Onların başı işləmir, bəs sən hara baxırsan? Niyə fikirləşmirsən?

Katib heykəlin qarşısında dayandı, diqqətlə baxdı.

- Bu nədi?
- Heykəl.
- Kimin heykəlidi?
- Azad qadının.

- Bir buna baxın, yoldaşlar, bu heykəlin üzündən qəm-qüssə, dərd-kədər yağır. Bu heykəli görəndə, adam yaşamağa nifrət edir. Bura elə yerdir ki, hər şey insanda xoş əhval-ruhiyyə yaratmalıdır. Burada gülüstan salınmalıdır, ətraf yamyaşıl olmalıdır. Bir dənə ağac yoxdur. Çünki, qayalıqdı. Həm də bu heykəlin bura heç yeri deyil. Azad qadın nə deməkdir? Partiyamız qadına azadlıqlar bəxş etdi. Azadlıq çox geniş mənalı sözdü. Elə azadlıqlar var ki, onu qadına şamil etmək olmaz. Partiyamızın təlqin etdiyi azadlığı düzgün başa düşməyiblər.

Binanı gözdən keçirib Gülərin otağına keçdilər. Hamı çaş-baş qalmışdı.

- Köhnə doğum evində nə yerləşir?

- Raykopittifaqın bazası, yoldaş Əmircanov.

- Həyat belədi ey, yoldaşlar, itin qabağına ot, atın qabağına ət qoyurlar. Bura elə xolodilnik kimi yerdi. Bazanı köçürün bura, doğum evi az vaxtda əsaslı təmir olunur. Əsaslı ha! Pəncərədən tutmuş şiferə kimi. Bura qayıdır öz köhnə yerinə. O heykəli hələlik parkın arxa hissəsində, görünməyən yerdə qoyun, sonrasına baxarıq.

Gələnlər gəldikləri kimi yox oldular. O, Qızbəs xalanı axtardı. Dedilər ki, evə gedib.

# BORCLU OLMAYASAN

Cabiri görəndə gözlərinə inanmadı. Diqqətlə baxıb yəqin edəndən sonra özünü onun üstünə saldı, qucaqlayıb öpdü. Rayon mərkəzinə girişdə, hamının “köhnə avtovağzal” dediyi yerdə camaat çox idi, bütün kəndlərdən gələn avtobuslar , maşınlar burada dayanır, buradan da qayıdırdılar. Onların həsrətli görüşlərini görənlər ayaq saxlayıb bu görüşü seyr etdilər.

- Qardaş, sən hara, bura hara? Gör neçə ildir ki, səni görmürəm. Heç ağlıma gəlməzdi ki, səni görəm – dedi.

- Niyə axı? Mənə qadağa-zad qoymayıblar ha. İşdən vaxt eləyəmmirəm. Öz rayonumuz deyilmi? Bəlkə mənə icazə vermirsiniz gəlməyə?

Cabirlə orta məktəbi bir sinifdə oxumuşdular. Bir sırada oturmasalar da, sözləri həmişə bir olmuşdu. Ali məktəbi qurtarandan sonra o, rayona qayıtmış, Cabir isə şəhərdə qalmışdı. İndi məsul vəzifədə çalışır.

- Gedək bizə, sən Allah, qonağım ol! Sidqi ürəkdən deyirəm. Həm də bax gör evimin səmti hansı tərəfədir.

Cabir təkidlə bildirdi ki, vaxtı azdı. Bir başqa vaxt gələr, indi onunla çay içə bilər.

Çayxana yaxındaydı. Yolu keçib söyüd ağacının altındakı stolda əyləşdilər. Çayçıya tapşırdı ki, xoruz quyruğu çay dəmləsin. Ordan-burdan, gəlmişdən-keçmişdən danışdılar.

- Həmdulla neynir? - Cabir onu soruşanda əti ürpəşdi. –Bakıdadı, elə döymü? Görən toplayıb çıxmağı bacarırmı?

- Elə toplayıb elə çıxır ki, səndən də, məndən də yaxşı. Heç deməzsən bu o burnu firtıxlı Həmdulla döy. Rayonun başına oyun açır.

- Baa. –Cabir heyrətləndi. –Yəni elə dəyişib?

–Pul gözlərini örtüb. Pul ver, at kimi min çap. Bir işi elə-belə görən döy.

Çayçı stəkanlara çay süzüb limon atdı.

- Şəhərin istisində deyirəm ki, rayonda olam, buz kimi sudan doyunca içəm. Bura gələn kimi adam elə bil dəyişir, su içmək heç yadına düşmür. İndi aşağı arana düşən kimi ciyərlərim yenə susuzlayacaq.

- Havadandı – dedi, Həmdulla gəlib durdu gözünün qabağında, dərdi təzələndi. – Onu deyirdim, axı, uşaq oxuyur Bakıda,

o gün zəng eləyib pul istədi. Bizim maaşlar iki-üç aydır yubanır. Həmdulladan əlli manat borc aldım, dedim ki, maaş alan kimi verəcəm. Üstündən üç ya da dörd gün keçmişdi ki, bacanağımın qardaşı oğlu bərbər işləyir. Aşağıda dəyirman vardı ey ha, onun böyründə, ora gəlmişdim. Boş idi. Uşaq dedi o nə viddi, saçın çox pis qalır, gəl qırxım. Oturdum, uşaq başımı qaydaya saldı. Elə ordan yuxarı çıxırdım ki, maşını yanımda saxladı.

- Hə belə olar də, mənə borclusan, borcu saxlayıb başına maya qoyursan.

And-aman elədim ki, a kişi başımı filankəs müftə qırxıb. Dedi, bilmirəm, borcu qaytar. Nəsə "yaxşı" deyib birtəhər canımı qurtardım. Səhərisi elə burda oturub çay içirdik. Uşaqlardan hansısa mənə bir "Marlboro" siqareti verdi, hələ zarafatla dedi ki, sənin bu "Astra"n əhvalımızı pozur. Dedim ki, nolar, siz deyən olsun. Həmdulla gəlib ora çıxdı, məni görüb nə desə yaxşıdı? Daha mənim pulumnan xarici siqaret çəkirsən? Mənə borclusan, borcunu qaytar.

- Bəs desən ki, borcun vaxtına hələ var? - Cabir əsəbiləşən kimi oldu, papiros yandırdı.

- Deyirəm, fikir vermir ha. Bir də baldızım işləyən ərzaq mağazasından bir kilo pesok, iki dənə çörək alıb evə gedirdim. Tərs kimi qabaqlaşdıq. Maşından düşdü.

- A kişi, evə bazarlıq edirsən? Mənim pulumnan bazarlıq edirsən, borcu qaytarmırsan.

- Bu bazarlıqdı?

- Bə nədi?

- Borca götürmüşəm baldızımdan. İndi deyirsən acından ölək?

- Yox ey, borcu qaytar, ondan sonra nə istəyirsən elə.

Qaldım mat-məttəl. Bir istədim bir kəlmə yağlı söz yapışdıram alnından, yenə "əstafurllah" deyib susdum.

Cabir susmuşdu, papiros tüstülədir, dinib danışmırdı. Həmdullanın hərəkətləri ona pis təsir etmişdi.

- Sən Allah, bu söhbəti qoyaq bir kənara. Hardan gəlib düşdü yadımıza. Eybi yox, borcumu verərəm , qurtarıb gedər. Həmdulladı da, işlərin necədi? Uşaqlar neynir?

- Yaxşıdılar. - Cabir əlini cibinə salıb diri əlli manatlığı ona uzatdı. – Bunu götür, uşağın instituta girməyinə əmisinin şirinliyidi. Borcu ver, canın qurtarsın.Ancaq Həmdullaya denən ki, Cabir səni il yarımdı gözləyir...

# ÖMÜRLÜK XATİRƏLƏRLƏ YAŞAMAQ ƏZABDIR

Sıxıntı içindəydi. Heç nə haqqında düşünmürdü, odur ki, dayanacaqdan evə həmişəkindən tez gəldi. Çörək almaq yadından çıxmışdı. Qonşunun salamını da almamışdı. Darvazanın qapısını açanda gəldiyi yola baxdı-daşlı, çala-çuxur yollara qara asfalt döşənmişdi. Nə yaxşı, daha ayaqqabısının palçığını iş yerində - əlüzyuyanda təmizləməyəcəkdi. Özgə vaxt olsa, sevinərdi. Həyət qaralmışdı. Qəribə, kəskin qoxu burnunu daladı. Əvvəlcə elə bildi ki, bu iy evdən gəlir. Neçə gün idi ki, qab-qacağa əl vurmurdu. Köynəkləri, corabları yumamışdı. İçəriyə doğru addımladıqca qoxu alov kimi şiddətlənirdi. Evdən bu qədər iy gəlməsinə inanmadı. Enişdə - beş-altı yüz metr aralıdakı zavod yadına düşdü.

Zəhərin ağzını indi açıblar. Gecə açsalar nə fərqi? Lap bazar günü eləsinlər. Zəhər-zəhərdi, yatsan da, getsən də havanı udursan.

Göy üzünə baxdı. Göy üzünə də duman gələrmiş. Mavilik ağ buludların arxasından sezilirdi. Neçə illər üzünü göyə tutmuş, yağış damcıları kimi düşən sözləri ağ vərəqlərə köçürmüşdü.

Göy  üzü də boş olarmış!

Ancaq  göy üzünə nə qədər şeir həsr etmişdi, nəğmələr yazmışdı. O qızın gözlərini səmaya bənzətmişdi, saçlarını buludların dalğasına. Sən demə, dənizin dalğaları o qızın gözü ilə eyni coşub-daşırmış. Küləklərin onun üz-gözünü oxşamasını necə qısqanırmış!

Anları saniyələrə, saniyələri saatlara, saatları günlərə, günləri aylara, ayları illərə caladı. Misraları arı bal toplayan təki şanalara yığdı. Qəzetlərdə, jurnallarda, kitablarda oxucuların görüşünə gəldi. Hər misranın arxasında sevgisi, məhəbbəti dururdu. Sevgisi o qız idi-onun üçün əl çatmaz qız. Lap elə sonsuz göylərə çəkilib təkcə xatirələrdə yaşayırdı.

Xatirələr həmişə şirin olmur, necə ki, göy üzü bəzən mavilikdən ağ, qara, boz rənglərə çalır. Ömürlük xatirələrlə  yaşamaq da çətindir. Özün özündən bezə bilərsən, səni yaşadan xatirələrsə, adiləşər. Necə ki, bu gün yazdıqlarında qəribə bir boşluq hiss

etdi, təsadüfən bir nəğməni dinlədikdən sonra düşündü. Çox düşündü ki, yazır, çap olunur, bəyənilir, ancaq sevdiyi bu mahnının sözləri kimi yaza bilmir. Yazdıqları gözündən düşdü.

- Deməli, sevgimin, məhəbbətimin gücü, qüdrəti yox imiş. Bəlkə buna görə sevilməmişəm? Axı, qızlar cəsur oğlanları sevirlər! On illərlə keçirdiyi yuxusuz gecələr kipriklərinə yük olub, gözlərini yumurdu. Tənhalıq onu başqaları kimi şad-xürrəm yaşamaqdan məhrum etmişdi. Ağıla bax, özün bilə- bilə həyatın sənə bəxş etdiyi ləzzətlərdən yan keçir, fikir-zikirlə axşamları səhər, səhərləri axşam edirsən.Nəticəsi nə olur7

Sənin yazdıqların boş şeylərdir, heç kimə gərək deyil. Vay o gündən boşluğu sən özün duyasan! Bu günə qədər boşluq nə olduğunu o bilmirdi, əksinə çoxlarından, lap çoxlarından zənginliyini duyurdu. Ancaq qeyri-ciddi dostlarından birinin sözü, üstəgəl sevdiyi, dönə-dönə dinlədiyi nəğmənin sözləri onu qırx arşın quyunun dibinə yuvarlatdı. Səbrsiz, təmkinsiz çabaladı –bununla quyudan çıxmaqmı olardı?

Allah rəhmət eləsin, nənəsinin sandığı vardı, əlinə saxlanc nə keçirdisə, açarı qoynundan çıxarıb paslanmış qıfılı taqqıldadır, qapağı yuxarı qaldırıb əvvəlcə diqqətlə baxır, sonra təzə əşyanı oraya qoyub qıfılı bağlayır, açarı qoynuna qaytarırdı. Zarafatla, bəzən də uşaq sadəlövhlüyü ilə soruşardılar ki, ay nənə, o sandıqda nəyin var? Nənəsi dünya görmüş adam idi, heç vaxt nəyi olduğunu bildirməzdi.

- Hər nəyim var burdadı. Allah verəndən. Gedin işinizlə məşğul olun! - Bizi özündən uzaqlaşdırardı.

Rəngi bozarmış televizor altına əlyazmalarını, qəzetləri jurnalları yığmışdı. O, nənəsinin sandığına oxşamasa da, hər dəfə gözü sataşanda sandıq gözünün önünə gələrdi.

Qapıları taybatay açdı, üst-üstə səliqə ilə yığdığı vərəqləri, ümumi dəftərləri topalayıb çölə çıxartdı, lazımsız əşyalar kimi yerə atıb od vurdu. Qəfil əsən külək vərəqləri ətrafa dağıtdı. Od tutanlar isə tüstülənirdi. Hərflər yanmış kağızların külündə belə oxunurdu. Deyəsən, qonşuya qəribə gəlmişdi ki, bu nə tüstüdü. Odur ki, hasardan həyətə boylandı. Onu görüb duruxdu .

- Evdəsən, ay qonşu?

- Hə.Görürsən ki!

- Həmişə işdə olurdun. Dedim birdən yanğın olar. Nədi o yandırdıqların?

- Heç. Kağızlardı.

- Boş şeylərdisə, niyə mənə vermirdin? Şey- şüy bükərdim. Özün bilirsən ki, kağızı pulunnan alıram. –Kağızların yandığını, ona gərəksiz olduğunu görüb özünü o yerə qoymadı. –Bir də lazımsız kağız olsa, yandırıb ekologiyanı zəhərləmə. Mənə ver.

Qonşuya əhəmiyyət verməyib, külək aparan kağızları bir-bir yığdı, ovcunda tutub közərməkdə olan ocağa atdı.

Kağızlar əvvəlcə qaraldılar, rəngini ilk dəfə gördüyü tüstü ona tərəf gəldi, sonra od tutub yandı.

Elə bilirdi ki, bununla hər şeyə nöqtə qoyulacaq. Ancaq kağızlardan çıxan tüstünü külək onun üstünə çırpdı. Bu tüstü deyil, nəğmələrdi, özü də saysız-hesabsız. Gözlərini yumdu ki, heç nə olmasın. Nəfəs ala bilmirdi. Havası çatmırdı. Ağzını açıb havanı güclə uddu, ciyərdolusu nəfəs aldı.

Və otağına keçdi...

# POVESTLƏR

# DƏVƏTNAMƏ

## I

***Hörmətli...***

***Sizi iyun ayının 15-də saat 18.00-da oğlum Vəliyullanın kiçik toy məclisinə dəvət edirəm.***

**Ünvan:** Suraxanı, maşınqayırma zavodunun yeməkxanası (Əmircanda).

**Hörmətlə Əliyulla.**

Üstündə qızılgül şəkli olan dəvətnamə bir ay idi ki, Əliyullanın cibində idi və boş dəvətnamələri həvəskar şair, bir şeir kitabının müəllifi olan Əliyulla Əmircanzadə qapısını döydüyü idarə müdirlərinə bir-bir yazıb verirdi və hamısına ayrıca deyirdi ki, toyun tamadası aşıq Gülqayıtdı, toyda məşhur aşıq Əlverdi oxuyacaq – hökmən gəlsinlər. Əliyulla  onu da deyirdi ki, o gözünün ağı-qarası olan oğlu Vəliyullanın toyuna elə-belə, kəndçi-kündçü çağırmayıb. Hamı tanınmış adamlardı və tanınmış adamlar Əliyullaya qəti bildirirdilər ki, toya hökmən gələcəklər.

Əliyulla Əmircandakı stansiyanın yanındakı qəzet köşkündən əvvəlcə əlli, sonra yüz dəvətnamə almışdı və toya az qalmış baxıb görmüşdü ki, dəvətnamələr lap azalıb, odu ki, yenə Canbalanın köşkündən 20 dəvətnamə götürdü, çünki veriləsi adamlar hələ qalmışdı.

Toya çağırılanların siyahısı Əliyullanın cibində saxladığı “can dəftərində” ardıcıllıqla yazılmışdı və Əliyulla tək özü bilirdi ki, kim toya çağrılıb və onlar kimlərdir. İndinin özündə, Vəliyullanın sünnət toyuna bir həftə qalmış Əliyulla Əmircandan zavoda, axşam işdən sonra isə zavoddan avtovağzala gedəndə bir an dilini boğaza qoymur, İranı Turana, Turanı da İsfahana qatır, özünü hamıdan çoxbilmiş göstərməyə çalışırdı. İşdə də beləydi. Zavodun qapısından içəri keçən kimi başlayırdı söhbətə. Əynini dəyişib beli əlinə götürəndə və ağacların dibini yalandan da olsa belləyəndə, öz-özünə danışırdı. Onun xasiyyətinə hamı bələd idi, çoxu salam verib keçirdi. Direktoru gözləyənlər vaxt keçirmək üçün Əliyullanı qurdalayırdılar.

– Necə oldu ki, sən Əmircanzadə təxəllüsünü götürdün? Sən hara, Əmircan hara? Axı ,sən dağlar oğlusan?

Əliyulla başlayırdı dağdan söhbətə. Sonra yollar onu Bakıya gətirirdi.

- O qəzetlərdə yazıb deyirlər ki, insanın vətəni haradır, mən belə düşünürəm ki, insanın günü harda xoş keçirsə, ora vətəndir. Əmircan mənim üçün hər şeydir – həm dağdır, həm arandır. A kişi, mən o dağı, dərəni ildə bir dəfə görmürəm. Günəşi Əmircanda qarşılayır, Əmircanda da batırıram. Mən onda haralı oluram?

- Elə günahın da ondadır ki, o dağları qoyub gəlmisən.

- Mən şairəm.

- Şair olanda nə olar, Əliyulla? Elə şair dağlardan, onun əzəmətindən ilhama gəlib yazmalıdı. Nə var bu buruqların arasında?

- Orda məni qəbul eləmirlər. Elə bilirlər ki, istedadım yoxdur. Hamı paxıllığımı çəkir.

- Şəhər çox adamların eybini örtür. Kənd belədi ki, orda nəyə qadirsən, biruzə verir. burda sənin istedadını kim qiymətləndirir?

- Hamı. Mənim şeirlərim dillərdə gəzir.

- Hansı şeirlərin? Heç mənim dilimdə sənin bir misran da yoxdur.

- Ona görə ki, mənim kitabımı oxumamısan. Burda kimi qurdalasan, məndən deyəcək. İstəyirsən bir kitabımı sənə verim. Bir "şirvana" verirəm.

- Gələn dəfə götürərəm. İndi üstümdə pulum yoxdu.

Əliyulla qurdalanıb şeirini mahnı kimi oxumağa başlayırdı.

– Havası ürəyi sıxır,
Nefti də adamı boğur.
Günəş tezdən burdan çıxır,
Əmircandan, Əmircandan.

Dağdan, arandan keçmişəm,
Kürün suyundan içmişəm,
Sevgilimi burda seçmişəm,
Əmircandan, Əmircandan.

Kənddə igid sayılmaram,
Burda isə söyülmərəm.
Heç bir zaman ayrılmaram,
Əmircandan, Əmircandan.

Bu şeiri o qədər demişdi ki, daha mahnı kimi oxuyurdu və elə bilirdi ki, bütün müğənnilər bu mahnını onun kimi aşıqsayağı oxumağa borcludurlar.

- Mən – deyirdi Əliyulla – yaradıcılığa tənqiddən başlamışam. Tənqidi şeiri camaat çox istəyir. Bir dəfə oxuyan kimi yadlarında qalır. Kolxoza aid şeirimi rayon qəzetinə göndərdim. Qorxularından çap eləmədilər. Çünki kolxozun sədri onlara hax verirdi.

- Nə yazmışdın, şair?

– Kəndi alıb dəli-dülü,
Baş biləni asyol Vəli,
Haramnan bulanıb əli,
Bu kolxozda, bu kolxozda.

Ferma müdiri qoyun yeyir,
Çobanları pendir yeyir,
Şair Əliyulla deyir –
Bu kolxozda, bu kolxozda.

Briqadir Abbas metrələyir,
Metrənin boyunu əyir.
Kolxozçular onu söyür,
Bu kolxozda, bu kolxozda.

Çoxu yeyir, azı tıxır,
Qıraqdadı çoxlu fağır.
Kolxoz sədri hara baxır,
Bu kolxozda, bu kolxozda.

- Düz 57 kuplet şeirdi. Kitabımda var. Yazıf da raykoma, prokurora, nəçənnik milisyəyə göndərmişdim. O saat bir kəmisyə göndərdilər. Gəldilər, sədri bir az tərlədib getdilər.

- Bundan sənə nə oldu?

- Heç nə, nə olmalıydı? Ancaq mən hayfımı aldım. Bəs sən tənqidi şeiri nə bilirsən? Özü də bunu hər adam yaza bilmir. Mən yazdım, kənddə elə bir adam olmadı ki, onu qələmimdən keçirməyim, ona görə məni görən gözləri yoxdu.

Əliyulla arada cib dəftərini çıxarıb siyahıdakı adamların ad-familiyasına baxır, onların tutduğu vəzifəni gözü önündə canlandırır, verəcəkləri pulları, atdıqları şabaşları xəyalında dolandırır, dərindən köks ötürüb fəxr edirdi. Toydan sonra qohumlarına bir-cə-bircə deyəcəkdi ki, bax görürsünüzmü, sizin heç biriniz məni saymırdı, adam yerinə qoymurdu, indi gördünüz ki, mən kiməm? Mən bu xalqın şairiyəm, özü də heç kimə bənzəməyən tənqidçi şairi. Mənim qələmim sizin hər şeyinizdən itidi. Məni vəzifəli adamlar tanıyır, hörmət edir. Gedin, daha bir özünüzdən deyəndə, bir də Əliyulla Əmircanzadədən deyin.

Əliyulla odur ki, toya özünün bir neçə qohumunu, gecə polisində vzvod komandiri olan baş leytenant Səfini, xalası oğlu, Əmircanın uçastkovusu Göyüşü, dayısı oğlu Səfəri və əmisi qızının əri Qafarı çağırmışdı. Çünki toyda oğlan tərəfin qohumlarının adı çəkiləndə kimisə göstərmək lazım idi. Arvad tərəfdən, demək olar ki, hamı sannı qoz kimi dəvət olunmuşdu. Belə də olmalı idi, çünki Əliyullanın arvadı əmircanlı idi. Əliyulla arvadı Gülbənizi çox sevirdi və ən əsası o idi ki, Əliyulla Əmircan camaatına rəğbət bəsləyirdi.

Arada Gülbənizlə könül söhbətində arvadının şübhəsinə son qoyurdu və onu inandırırdı ki, qohum-zad boş şeydi, o özü qohumlarını məclisə rəva bilmir və narahat olmasın, toyda böyük-böyük adamlar iştirak edəcək, hamısı yaxşı xələt yazdıracaq və bu pulla onlar Gülbənizin atası Ağahüseyn kişinin onlara verdiyi torpaqda yaxşı bir ev tikdirib darlıqdan canlarını qurtaracaqlar. Gülbəniz də qonum-qonşunun, qohum-əqrəbanın yanında ağızdolusu danışırdı ki, Vəliyullanın toyunda böyük-böyük adamlar olacaq. Arvadların ağzı açılmışdı Əliyullagilə. Səhərdə, günortada, axşamda qonşular tək-tək, ya da ikibir-üçbir Əliyullagilin taxta qapısını açır, təzə nə xəbərin olduğunu öyrənmək istəyirdilər.

Bunları Əliyulla görmürdü, çünki işdə, işdən sonra isə avtovağzalda kitab satmaqla məşğul olurdu, ancaq axşam Gülbəniz gələnlərin kim olduğunu, nə soruşduğunu, nə cavab verdiyini bitdə-bitdə ona danışırdı. Bu danışıqlar Əliyullanın könlünü açırdı. Əliyullanın yanaqalrı qulaqlarının dibinə kimi qızarırdı.

- Gülçöhrənin ərinin vəziyyəti necədir?

Gülbəniz ani fasilədən sonra qırıq radio kimi işə düşürdü. Başlayırdı sadalamağa. Atamoğlan mağazadan çıxandan sonra başlayıb gül alverinə. Mərdəkandan, Pirşağıdan, Şağandan gül alıb təyyarə ilə Rusetə göndərir. Orda adamları var. Bunlar alıb göndərirlər, onlar satırlar. Bir ara Atamoğlanın əli aşağı idi, indi vəziyyəti düzəlib. "Jiquli"sini satmışdı, təzə "Volqa" alıb.

- Boş şeydi, alverin axırı yoxdu. Bu gündə, sabahda tutub basacaqlar qoduqluğa.

- Gülçöhrə adama yuxarıdan aşağı baxır. Deyirsən, nazir qızıdı. Bir fors satır ki. O gün gəlmişdi bizə. Deyir, bir halda ki, toya böyük adamlar çağırmısınız, niyə toyu obşitelin yeməkxanasında keçirirsiniz. Deyir biz Güloğlanın toyunu təzə "İnturist"də elədik. Şüşəli zaldı, haradı bilmirəm.

- Onun sənə dəxli qalmayıb deynən. Nolsun ki, obşiteldə eləyirik, zato gör bizim toyun tamadası kimdi. Aşıq Gülqayıt nazir balalarının toyundan başqa heç birinə getmir. Atamoğlan gətirsin görüm, Gülqayıtı toyuna gətirə bilərmi? Aşıq Əlvertdi toyda bir zakazı əlli, ya yüz manata oxuyur. Mənim sözlərimdən də oxuyacaqlar, olacaq əla.



- Əliyulla, bir də qonşular bilmək istəyir ki, Vəliyullanın kirvəsi kim olacaq? – Gülbəniz yorğanı Vəliyullanın üstünə çəkdi. Vəliyullanın çılpaq ayaqlarını, belini örtdü.

- Bir dostum var, zavod direktorudu. Vəliyullanı onun qucağına qoyacam.

- Bə toya az qalır, gedib tanış olmalıyıq, ya yox? Özü də paylı-puşdu getməliyk. Dost var, düşmən var. Kirvənin özünə, arvadına, ata-anasına, qardaş-bacısına, uşaqlarına hədiyyə almalıyıq. Onlar da bizə gətirəcəklər də.

Əliyulla bu adət-ənənənin köhnə olduğunu, hətta buna tənqidi şeir də yazdığını bildirdi.

- Mən – dedi – ayrı cür eləyəcəm. Denən nətəri? Toy elədim-mi, sonra nə vaxt ağlım kəssə kirvəni, bir də dəlləyi çağıracam, beş dəqiqəyə işi həll edəcəm, gedəcək işinə. Aparıb-gətirməyi tam ləğv edəcəm. Nə fərqi var, sən ona bir köynək apar, o da sənə birini gətirsin.

- Nə danışırsan, Əliyulla, bir oğlumuz var, gərək kirvəylə can bir qəlbdə olaq. Qonşular nə deyər? Gülçöhrə deyir ki, kirvəliyə nə qədər şirniyyat, nəbilim kirvənin arvadına brilyant üzük, sırğa apa-rıblar. Kirvəgil də qabaq qaytaranda lap qiyamət şeylər gətiriblər.

- Onların kirvəsi alverçidi. – Əliyulla çarpayıya uzandı.

- Yox e, alverçilərin idarəsində böyükdü.

- Bilirəm, o şeir yazmışdım ha.

Qar yağıb Darı düzünə,
Qar düzə ziyandı.
Qızıl taxma üstünə,
Qızıl gözə ziyandı.

Namərd səni satacaq,
Tənbəl evdə yatacaq.
Qarnına şiş batacaq,
Şiş hər şeyə ziyandı.

Göydən asarlar səni,
Ya da kəsərlər səni,
Dama basarlar səni,
Tamah dişə ziyandı.

– Ay Əliyulla, sən elə tənqidin ağzını açıb döşəyirsən, nə dost bilirsən, nə düşmən.

– Ay sağ ol, sən məni başa düşürsən. Tənqid yazmaq hər adamın işi döy. Ona cəsarət lazımdı. Sevgi şeiri yazmağa nə var, nənəm də yazar. Tənqid elə şeydi ki, nə dosta baxır, nə düşmənə.

– Bundan mənə nə, ay Əliyulla? Kimə gərəkdi sənin tənqi-din, ya şeirin. Nolsun ki, Atamoğlan pis adamdı, bir də onun nəyi pisdi – nolsun ki, alver eləyir, ailəsini ki, dolandırır. Özü də xan

kimi. Gülçöhrə gündə bir dəst paltar geyinir, zər-zibanın içindədi. Mən, eləcə ona tamaşa eləyirəm.

Əliyullanın gözləri hədəqədən çıxdı.

– Bu gün qızılın içindədi, səhər qupquru qumun içində olacaq.

– Heç olub eləmiyəcək.

– Tutub dama basılandan sonra görüm neyniyəcək?

– Elə səninki o olsun ki, onu-bunu söznən tutub dama basasan.

– Mən təmiz çörək yeyirəm. Vəliyullaya da təmiz çörək yedirdəcəm. Sən də təmiz çörək yeməlisən.

– Camaata nə olub? Çörəyinin içindən nə çıxır ki? Hamının çörəyi özünə görə təmiz və şirindi. Sən ondan danış ki, atamın evinin bu küncü olmasaydı, indi Allah bilir, harada sülənirdik. Bir otaqlı evi güclə qaralamışıq.

– Vaxt olacaq, bizim ev Əmircanda barmaqla göstərikəcək.

Bu yerdə Gülbəniz həyətə çıxır, ya da atasıgilə gedir, söhbətə son qoyulurdu. Əliyulla misraları bir-birinə qoşurdu.

## II

Kirvə söhbəti Əliyullanı narahat etməyə başlamışdı və o gecə səhərədək o üz-bu üzə çevrilmiş, səhərə yaxın yuxuya getmişdi. Yanında uzanıb arxasını ona çevirən Gülbəniz də tez-tez köks ötürmüş, yerində qurcalanmış, ancaq bir kəlmə də olsun danışmamışdı və Əliyullanın gücü çatmamışdı ki, küncdə yatan Vəliyulladan xəlvəti Gülbənizi qollarının arasına alsın. Adi söz-söhbət birdən-birə məcrasını dəyişib vəziyyəti gərginləşdirmişdi. Yanında, bir döşəkdə uzanmış həyat yoldaşı indi onun üçün uzaq və əlçatmaz idi və o aylı-ulduzlu gecədə gözləri qarşısında tavandan asılmış Gülbənizin uzun dağınıq saçları, mavi gözləri, al yanaqları, ağappaq sinəsi, baldırları, doğrudan gözəl idi və Əliyulla bu gözəlliyi ilk dəfə hiss etdi, birdən-birə fikrindən dəli bir qısqanclıq keçdi. "İndi sən ayrısan, mən isə ayrı" adlı şeir yazmaq istəyən Əliyullaya elə gəldi ki, otağa işıq saçan Gülbənizin silueti iki həyət o yana qonşuları və Əliyullanın ömür boyu xoşu gəlmədiyi Atamoğlana məxsusdur. Çünki Atamoğlan öz arvadı

Gülçöhrədən xəlvəti Gülbənizin çılpaq bədənini xarici ətirləndirib, sonra ona əvvəlcə əli, sonra dodaqları ilə sığal çəkib – bu sığal Gülbənizi bihuş edib, sonra Atamoğlan bahalı xarici paltarları Gülbənizin əyninə keçirib, qulağına, boğazına zinətlər bağlayıb, barmağına brilyant üzüklər keçirib. Çevrilib Gülbənizin açıqda qalan boğazına, qulağına və barmaqlarına baxdı – heç nə görməyib sakit oldu. Lakin bu sakitlik ani oldu və Əliyulla fikirləşdi ki, sübh tezdən zavoda gəlib axşam saat 6-ya qədər işləyən, ordan da avtovağzala gedib kitab satanın nədən xəbəri olsun, nə bilsin ki, Gülbəniz bütün günü evdə olur, ya yox? Atamoğlangilə gedir, ya getmir? Bir də Atamoğlangildə görüşməyəcəklər ha, minəcəklər Atamoğlanın maşınına, çıxacaqlar şəhərə. Qadına nə var, bir toyuğun ağlı qədər ağlı yoxdu, bir balaca şirnikləndirsən, o saat yolunu azacaq.

Əliyulla dəfələrlə özündə inam yaratmışdı ki, onun həyat yoldaşı Gülbəniz çox gözəl olmaqla yanaşı, həm də ağıllıdır və yüz Atamoğlan kimiləri onu yoldan çıxara bilməz. O ki qaldı kirvə məsələsinə, doğrudan da, toyda tamada deyəcək ki, uşağın kirvəsi kimdir, çünki toyda hökmən kirvənin sağlığına içilməlidir. Əliyulla hər şeyi hesablasa da, bunu nəzərdən qaçırmışdı və Gülbənizə ürəyində afərin deyirdi. Kirvə əvvəlcədən danışılmalı, gediş-gəliş olmalıdı. Özü də kirvəlik işlətmək o qədər də asan deyil. O gecə Əliyulla Gülbənizdən sonra bir neçə idarə müdirini gözünün önündə canlandırdı. Əvvəlcə Kanalizasiya İdarəsinin müdiri Əlizadə Qaraxanovu Vəliyullanın kirvəsi kimi təsəvvür etdi və o gecə qəribə iy otağın pəncərəsindən içəri daxil oldu və tükü ürpəşdi. Sonra Sanepidemstansiyanın müdiri Beydulla Qeybullayevin namizədliyini götür-qoy etdi. Əliyulla ona tənqidi şeir yazmamışdı, çünki Beydulla Qeybullayev əmircanlı idi, həm də onun kitabını almışdı. Ancaq, nədənsə, onun nəhəng cəmdəyi Əliyullanın ürəyincə deyildi. Yaxşı adam kimi o Maşınqayırma zavodunun direktoru Daşdəmir Daşdəmirovu Vəliyullaya kirvə tutmağı qərarlaşdırdı.

Gecənin yuxusuzluğu və qatmaqarışıq fikirlər Əliyullanı süst etmişdi və Daşdəmir müəllimin qəbul otağında Əliyulla yorğun

görünürdü. Daşdəmir müəllimi görmək istəyənlər çox idi və onların bəziləri stullarda oturmuşdular. Əliyulla əsnədi, qonşu otağa çıxan katibənin – hündürboy, uzun, sarısaç, qısa yubkalı qızın yerində oturmaq istədi. Ancaq katibə tez də qayıtdı və qayıtmağı ilə ona tərəf çevrilib nəzərlərini üzünə yönəltdi.

– Sizə kim lazımdır?

Qəfil sualdan Əliyulla tutuldu, səsi içindən çıxmadı.

– Sizinləyəm, vətəndaş.

– Daşdəmir müəllim. – Əliyulla handan-hana özünə gəlib kitabçasını bu əlindən o əlinə keçirdi.

– Nə məsələdi?

– Şəxsi məsələdi.

– Şəxsi məsələlər üzrə direktorun qəbulu şənbə günüdü. Saat 15-dən 17-dək. İstəyirsiniz indidən yazım. – Qız əda ilə keçib yerində oturdu. Telefonlardan biri zəng çaldı, qız dəstəyi qaldırıb “bəli” dedi, bir az qulaq asdıqdan sonra kresloya yayxanmış kişiyə içəri keçməyə icazə verdi.

– Qəbul gününə qala bilmərəm, mən indi Daşdəmir müəllimlə görüşməliyəm.

– Hansı təşkilatdan gəlibsiniz?

– Mən bu qonşu zavodda işləyirəm, ancaq Daşdəmir müəllimə deyin ki, Əliyulla Əmircanzadə gəlib.

– Kim? – Qız qələm götürüb onun adını yazmaq istədi.

– Əliyulla Əmircanzadə.

– Şairsiniz, yoxsa jurnalist?



– Hər ikisindən.

– İndi Daşdəmir müəllimə məlumat verərəm. Ancaq inanmıram ki, o sizi qəbul etsin. Çünki yarım saatdan sonra nazirliyə iclasa gedəcək. Görürsünüz nə qədər adam var?

– Eybi yoxdur, mən gözləyərəm. Bu gün onunla hökmən görüşməliyəm.

Araya sükut çökdü. Katibə rəngli televizoru açdı.

– Elə yaxşı oldu – Oturanlardan biri yerini rahatladı. – Dünən toya getmişdim. Mariyaya baxa bilməmişdim.

Rusiya kanalından teleserial başladı. Başqa birisi, nisbətən yaşda böyük kişi etiraz elədi.

– Əşi, bu teleseriallar milləti pis günə qoydu. Hamı xəstələnib. Uşaq da baxır, böyük də. Xəstəlikdi. Elə şeylər göstərirlər ki, az qala mən yoldan çıxam.

– Yaz də şair, qələmi al əlinə, götür belə şeylərdən yaz, yoxsa ağzınıza gələni döşəyirsiniz, nə bilim, bağ belə, bostan belə.

– Qardaş, mən ömrümdə belə şeylər yazmaram. Mənimki tənqidi.

– Tənqid? Tənqidi də şeir olar? – Qız əlindəki jurnala baxa-baxa söhbət edirdi.

– Bəs şeir nə cür olar?

– Şeir sevgidən, məhəbbətdən olar.

– Ha-ha-ha. Sevgi-məhəbbətdən hamı yazır. Tənqidi yazmaq çox çətindi. Hər adam belə şeir yazammır.

– Qardaş, tənqidi məqalə olar, mən ayrı şey bilmirəm. – Arxadan kimsə dilləndi.

– Siz mənim kitablarımı oxusanız, onda belə deməzdiniz. – Əlyiyulla qəsdən "kitablar" dedi ki, qarşısındakını inandırsın.

– Gətirərsən, oxuyarıq, görək nə yazmısan?

Qapı açıldı, içəridən kimsə çıxıb katibəyə sağ ol dedi. Ağbaş kişi Daşdəmir müəllimin otağına keçdi.

– Xanım, mənim cəmi üç dəqiqəlik sözüm var.

– Mən sizi buraxa bilmərəm, tem bolee yazansınız. Birdən Daşdəmir müəllimdən də yazarsınız.

– Yox, Daşdəmir müəllim bizim dostumuzdu. Yeganə adamdı ki, mənim qələmimə tuş gəlməyib.

İçəri uzunboylu, açıq-saçıq geyinmiş bir qız girdi.

– Привет Güliçka! – Öpüşdülər. – Ну как ты?

– Okey.

– Şefin nastroyeniyası?

– Ничево.

– Bu gün adam çoxdu?

– Hə.

– Mən nə vaxt gəlim?

– Nə bilim.

Qız Əliyullaya tanış gəldi. Ancaq harada gördüyünü yadına sala bilmədi.

– Mənə zəng edərsən, yaxşı! Otaqdayam. – Qız çevrilib Əliyulla ilə üzbəüz dayandı. Baxışları üst-üstə düşdü.

– Bağışlayın, mən sizi hardan tanıyıram?

– A-a, Əliyulla dayı, mənəm də. Təriş. Atamoğlanın qızı. - Heyrətləndi ki, Atamoğlanın balaca, arıq qızı nə tez belə böyüyüb. – Tanımadım, dövlətli olacaqsan. Nə tez böyüdün?

Təriş razılıqla gülümsədi.

– İş-gücdən vaxt olur ki? Səhər gedir, axşam gəlirik.

– Nə yaxşı, Əliyulla dayı?

– Daşdəmir müəllimlə bir balaca söhbətim var.

– Yəqin toya dəvətnamə verəcəksiniz?

– Elə bir şeydi.

Təriş geri döndü.

– Gülya, Əliyulla dayı bizim qonşudu. Onu birinci növbə şefin priyomuna salarsan.

– Az, qonşun yazandı e, birdən bizdən yazar.

– Yox. Sən də... Yaxşı?

– Baxaram.

Ağbaş kimi tez çıxdı. Katibə ona “bir dəqiqə” deyib içəri keçdi. Əliyulla əmin oldu ki, Daşdəmir müəllim indicə onu qəbul edəcək. ancaq Atamoğlanın qızı sağ olsun, o tapşırmasaydı, bəlkə çətin olacaqdı.

Gülya çıxıb yerində oturdu, hamı gözləyirdi ki, içəri kimi dəvət edəcək. O üzünü Əliyullaya tutdu.

– Siz baş mühəndisin yanına gedin, o sizi yola salacaq.

– Mənə Daşdəmir müəllimin özü lazımdı. Şəxsi məsələ ilə bağlı.

– O nə lazımdı həll edəcək, narahat olmayın. Daşdəmir müəllim tapşırdı. Solda, 13-cü otaqda sizi gözləyir. – Dəstəyi götürüb nömrə yığdı. – Az Təriş, şef jdyot tebya.

Əliyulla, istəməsə də, baş mühəndisin otağına getdi. Tərişlə koridorda rastlaşdı.

– Görüşdünüz?

– Yox, baş mühəndisin yanına yolladı.

– Niçevo. Onun işlərini baş mühəndis görür. Yaxşı olar.

– Yox e, mən özü ilə görüşmək istəyirdim.
– Fərqi yoxdur. Sağ olun.
Sən demə, baş mühəndisin də qəbulunda gözləmək lazım imiş. Katibə onu görən kimi soruşdu.
– Kimi istəyirsiniz?
– Baş mühəndisi.
– Məşğuldu. Siz kimsiniz?
– Əliyulla Əmircanzadə. Daşdəmir müəllim tapşırıb.
– Yanında adam var. Bir dəqiqə gözləyin. Jurnalistsiniz?
– Hə. Həm də şair.
Qızın içəri keçməyi ilə geri qayıtması bir oldu.
– Buyurun, Əfzələddin müəllim sizi gözləyir.
Əliyulla qoltuğundakı vərəqləri sahmana salıb içəri keçdi.
– Salam.
– Xoş gəlmisiniz. Buyurun, əyləşin.
Əliyulla oturub Əfzələddinə baxdı.
– Mən Əliyulla Əmircanzadəyəm.
– Daşdəmir müəllim dedi. Lap yaxşı. Sizin kimi qələm əhli ilə görüşmək mənə xoşdur.
– Mən ancaq tənqid yazıram.
Əfzələddin özünü itirdi.
– Nə tənqid, Əliyulla müəllim? Siz hörmətli yoldaşsınız, özü də Daşdəmir müəllim göndərib. Bizim işlərimiz əladır. Daşdəmir müəllimin rəhbərliyi ilə aylıq, rüblük, illik planları yerinə yetirmişik. Bakıdakı zavodlar arasında bizim göstəricilər birincidir. Sizi nə maraqlandırır, soruşun, deyim. Hanı o göstəricilər? Bax, budur, götürün, baxın.
– Mənə onlar lazım deyil.
– Bəs nə lazımdı?
– Daşdəmir müəllimlə şəxsi söhbətim var.
– Ay Əliyulla müəllim, Daşdəmir müəllimi neynirsiniz? Mən, ya o, bir fərqi varmı? Sizin hörmətinizdən çıxmaq bizim borcumuzdu. Sizin kimi məşhur qələm ustadının qulluğunda dayanmaq mənə şərəfdi.
– Ay yoldaş...

– Bir dəqiqə, Seda, hanı baş mühasib. Təcili tap. Kompüter otağında olacaq. Göndər mənim yanıma.

– Mənim Daşdəmir müəllimlə işim var. Söz deyəcəm.

– Nə sözün var, mənə de. İnanın, narazı qalmayacaqsınız.

Baş mühasib içəri keçdi.

– Nolub, Əfzələddin müəllim?

– Bu yoldaş bizim hamımızın dostudur. Ona ... gətir ver.

– Jurnalistdi?

– Bəli, özü də məşhurundan.

– Hansı qəzetdə işləyir?

–Nə dəxli var?

– Bilək də! Bəlkə sabah işimiz düşdü. Hansı qəzetdə işləyirsiniz?

Əliyullanın ağlına birinci şeirinin çap olunduğu «Mozalan» qəzeti düşdü və qəzetin adını çəkən kimi baş mühasibin rəngi qaçdı. Əlini qoltuq cibinə aparıb bir dəstə pul çıxartdı və on dənə qırmızı onluğu sayıb Əliyullanın nimdaş kostyumunun cibinə qoydu. Əliyulla pulu çıxarmaq istəyəndə Əfzələddin müəllim onun əlini tutdu.

– Ay kişilər, mənə Daşdəmir müəllim lazımdı.

– Ə, azdı, bir yüz də ver. Kişi o boyda qəzetdən gəlib.

– Verim də, qardaş, niyə acığın tutur?

Daha on dənə qırmızı onluq Əliyullanın cibinə qoyulandan sonra Əliyulla qoltuğundakı kağızların arasından dəvətnamələri çıxarıb stolun üstünə qoydu.

– Mən Daşdəmir müəllimi oğlumun toyuna çağırmaq istəyirəm. Xahiş edirəm ona çatdırarsınız.

– Mübarəkdi, Əliyulla müəllim, mübarəkdi! Xoşbəxt olsun, oğullu, qızlı olsun.

– Sağ olun, ancaq dəvətnaməni hökmən Daşdəmir müəllimə çatdırarsınız.

– Baş üstə, arxayın olun, Əliyulla müəllim. Hökmən çatdırarıq.

Əliyulla istədi ki, kitablardan birini Əfzələddinə versin, ancaq fikrindən vaz keçdi. İyirmi dənə onluq Əliyullanı oyna-

dırdı və koridora çıxanda az qalırdı ki, qol açıb süzsün. Hətta, qarşısından gələnin Təriş olduğunu görmədi və heç ona əhəmiyyət də vermədi.

– Nə oldu, Əliyulla dayı? Görüşə bildinizmi?

– **hə.**

– Əfzələddin yaxşı oğlandı.

– Hə, çox yaxşı oğlandı!

Təriş güldü və özündən razı addımlarla uzaqlaşdı. Əliyulla yüngül idi, çox yüngül. Göyün üzü ona şəffaf gəlirdi, adamların hamısı təbəssümlü, yarpaqların rəngi parıltılı idi. Gülbənizlə dünənki söhbəti elə bil yerli-dibli olmamışdı. Heç bu dünyada Atamoğlan adlı adam yox idi və onun həyat yoldaşı Gülbəniz Atamoğlanı tərifləyib ona misal gətirmirdi – Atamoğlan dünyanın axırıncı adamı olsa belə, onun Gülbənizlə heç bir əlaqəsi olmayıb!..

Suyu küknarın dibinə kəsib belə söykəndi, su ağacın dibində gölməçə əmələ gətirdikcə, Əliyullanın əksi daha aydın və böyük görünürdü və birdən Əliyulla o gölməçədə Tərişin (o da yadına düşdü ki, Tərişin əsl adı Təranədir) şəklini gördü. Bu şəklin yanında Daşdəmir müəllimin əksi canlandı. Təriş suda da gözəl görünürdü və Daşdəmir müəllimin iri əlləri onu özünə çəkib kölgəsində yox edirdi.

Əliyulla pis fikirləri (lap Tərişlə Daşdəmir müəllimin arasında nə münasibət olursa olsun) özündən uzaq eləmək istədi, çünki o saat Atamoğlanla Gülbənizin şəkilləri də eynən fikrində dolanırdı və Əliyulla bütün bunlardan həm bezir, həm də toyun qayğıları ilə məşğul olmaq istəyirdi.

Daşdəmir müəllimin kirvəliyinin baş tutmamasından Əliyulla birtəhər olsa da, iki yüz manat onu sakitləşdirirdi. Bu pul toyun müəyyən xərclərinə sərf olunacaqdı və Əliyulla daha bu gün, hətta toydan bir həftə sonraya qədər avtovağzala getməyəcəyini qətiləşdirdi. Çünki bu gün Daşdəmir müəllimin baş mühəndisindən və baş mühasibindən aldığı pulu az qala bir il kitab satsa, çıxara bilməyəcəkdi. Təbii ki, toydan sonra (bəlkə də qabaq) Əliyulla Daşdəmir müəllim

haqqında (hətta baş mühəndis və baş mühasib haqqında da) şeir yazacaqdı və bu şeirdə tənqid olmayacaqdı.

Axşam işdən evə gedəndə iki yüz manatı Gülbənizə verəcəkdi və bu pul Gülbənizi sevindirəcəkdi. Ancaq kirvə məsələsi işləri korlayırdı.

– «Yenə göylərdədir, şair, xəyalın». – Zavodun işçiləri nahar fasiləsinə çıxmışdı və qaynaqçı Fazil yuyunmağa gəlmişdi. – O şlanqın ucunu bəri tut. Elə bil küknarı sulayırsan, şair, o biri ağaclara da su ver. Quruyub gedir hamısı. Özü də günün qaynar vaxtı ağac sulamazlar. Bunu axşamüstü elə.

– Axşamüstünə işmi qalar? Nə fərqi var, ay Fazil, günorta oldu, ya axşam.

– Səsin ötmür, şair?

– Baş qarışıqdı.

– Hə, toya az qalıb.

– Hər şey yerli–yerindədi. Bircə qalır kirvə məsələsi.

– Ə, qonum–qonşudan birinin qucağına qoy getsin.

– Nə danışırsan, gərək elə bir kirvə tutam ki, barmaqla göstərsinlər.

– Ə, sənin başın işləmir, özünə bab bir adam tap, qurtarsın getsin. Sənin harana yaraşıb?

– Toya gələcəksən, onda baxarsan ki, mən kiməm, kirvə kimdir? Sən hələ sözün qüdrətindən xəbərsizsən.

– Mən sözün qiymətini də bilirəm, qüdrətini də. Gərək əlinə qələm alan bunu düşünsün. Mən svarşik adamam, arada yaxşı şeirlər olanda yazıb özüm üçün götürürəm. Ancaq... Nə isə...

– Ə, svarşiksən, get svarşikliyini elə. Sən nə qanırsan şeir nədi, tənqid nə?

Fazilin uzaqlaşması ilə zavodun direktoru Kazım müəllimin gəlişi bir oldu. Qara «Volqa»dan düşüb ağaclara baxan Kazım müəllimin kefi kök idi.

– Şair, bu ağacları qurutdun.

– Qurumaz, Kazım müəllim.

– Nə qurumaz, bir bax də!? Ağacın budaqları qupqurudu. Heç olmasa, bunu qopar, at.

– Əlim çatmır, Kazım müəllim.

– Əlin çatmır, nərdivan gətir. Nərdivan ki, var? Allaha şükür. Bir də sənin kimi cavan oğlana nə nərdivan, dırmaş ağacın başına, baltala getsin. Nətəri olur, göylərə çıxıb şeir yazırsan, bir ağacın başına çıxa bilmirsən?

– Düz deyirsiz, Kazım müəllim.

– Nəyi düz deyirəm?

– Ağacın başına çıxa bilməməyi.

– Şair, sənin işin bu yaşıllığa xidmət etməkdi. İldə bir dəfə ağacların dibini belləyirsən, qurtarır gedir. Sən də belləməmisən, suyu buraxırsan, o da axıb gedir, ağacın kökünə su çatmır. Burda nə problem var?

– Əkərəm, Kazım müəllim.

– Sən Fazilnən eyni maaş alırsan. O bədbəxt səhərdən axşama dəmirnən, svarkaynan məşğuldu. Özün qəşəng bilirsən. Bu təbiətin qoynunda otur, arada iki bel ağacın dibinə vur.

– Baş üstə.

– İşlər nətəridi?

– Çox sağ olun.

– Toya neçə gün qalır?

– Dörd gün.

– Gələcəyik. Bir çətinliyin varmı?

Əliyulla iki yüz manatın işığında heç nəyi görmürdü.

– Yox, Kazım müəllim, Allah sizi üstümüzdən əskik etməsin. Һər şey hazırdı.

– Aşıqlar gələcək?

– Əlbəttə. Tamada da Gülqayıtdı də, bilirsiniz.

– Bilirəm. Onun çox toylarında olmuşam. Yaxşı şeirlər deyir.

– Onunku da mənim kimi tənqiddi, ona görə məşhur olub. - Birdən hər şey – hətta tənqidi şeir də Əliyullanın yadından çıxdı və Vəliyullaya kirvə məsələsi gəlib durdu Əliyullanın gözünün qabağında. Əliyulla belə düşündü ki, bəlkə kirvə məsələsini elə Kazım müəllimlə həll edə bilər, çünki Kazım müəllimlə Daşdəmir müəllimin nə fərqi var?

– Kazım müəllim, ancaq bir problem var, onu heç cür həll eliyə bilmirəm.

– Nədi, şair?

– Özünüz bilirsiniz ki, mənim var-yox bir oğlum var. Mən onu hər şeydən əziz bilirəm. Nəyim var onunkudu. Mən onu istəyirəm ki, oğluma elə adamı kirvə tutum ki, adnan deyilsin. Elə bir adam da ancaq siz ola bilərsiniz. Mən çoxdan fikirləşmişəm və belə qərara gəlmişəm ki, oğlum Vəliyullanın qanı sizin üstünüzə tökülsün.

Kazım müəllim qəribə baxışlarla Əliyullanı nəzərdən keçirib səmaya boylandı. Bu Əliyullanın gözündən yayınmadı və Əliyullaya elə gəldi ki, Kazım müəllim bu təklifə ürəkdən razıdı.

– Əliyulla, - Kazım müəllim Əliyullanın bu zavodda bağban və qarovulçu işlədiyi neçə illərdə ikinci dəfə onu adla çağırdı – məni saydığına və təklifinə görə sağ ol. Sünnət xalqımızın özünəməxsus adət–ənənələrindən biridir və mən böyük məmnuniyyətlə oğluna kirvə olardım. Sən məni tanıdığın kimi, mən də səni tanıyıram. Sən təmiz, gözəl, zəhmətkeş adamsan. Ancaq bir məsələ var ki, mən qandan qorxuram. İraq bizdən, erməni qandan qorxan kimi, mən də qorxuram. Özün bilirsən ki, mən o qədər də sağlam deyiləm. Ürəyim o söz. Yoxsa, nə danışırsan, böyük məmnuniyyətlə uşağın kirvəsi olardım. Bilmirəm bilirsən, ya yox, ancaq, şair, mən sənin xətrini çox istəyirəm. Deyirəm, səmimi sözümdü a, sən mənim bu zavodda xətrini istədiyim iki-üç adamdan birisən.



Əvvəlcə Daşdəmir müəllim, sonra Kazım müəllim Əliyullanın fikrindən keçdi. Daşdəmir müəllimin iki yüz manatı, Kazım müəllimin xoş sözləri Əliyullanı qanadlandırdı.

– Kazım müəllim, səmimiyyətinizə görə çox sağ olun. Mən də Sizin xətrinizi dünyalar qədər istəyirəm və indiyə kimi hamını tənqid eləmişəm, təkcə sizdən savayı. Elə ona görə sizə ürəyimə yatmışdı ki, Vəliyullanı qucağınıza qoyum.

– Ay şair, qonşularından, ya qohumlarından elə bir adam yoxdumu ki, uşağı onun qucağına qoyasan?

– Var e, Kazım müəllim, ancaq mənim səviyyəmə uyğun

olanı yoxdu. – Əliyulla beli ağaca söykəyib Kazım müəllimə daha yaxınlaşdı. – Bilirsiniz, sözün qədrini həyatda hamı bilmir. Qonşumun biri ticarətçidi, onu ancaq pul maraqlandırır. Üzbəüz oturanda mən sözdən söhbət açacam, o da alverdən, puldan.

– Çox düz deyirsən, şair, bizim idarədə sözün qədrini bilənlər çoxdu. Elə mənim katibəm Roza. Sinədəftərdi.

– Axı, qızı kirvə tutmurlar?

– Niyə, ay şair? Necə olur ki, qız şalvar geyinir, maşın sürür, nə bilim nə eləyir, ancaq kirvə ola bilmir? Sən bilirsənmi, dünyanı həmişə qadınlar idarə edib?

– Sizin sözünüzdə həqiqət çoxdur, Kazım müəllim, ancaq kənddə mənə pis baxarlar.

– O svarşik Fazil necə? O da yaxşı ədəbiyyatçıdı.

– Ancaq yaxşı adam deyil, Kazım müəllim.

– Bax də, şair, hələlik, məni gözləyirlər.

Əliyulla beli götürüb zavodun bazasına tərəf getdi. Soyunub-geyinmə otağında paltarını dəyişib yola çıxdı. Evə tez gedəcəkdi...

## III

Avtovağzal Əliyullanın çox xoşuna gəlirdi. Bunun niyəsini bilməsə də, Əliyulla özünü burada çox rahat hiss edirdi. Yüngülləşir, ağrı–acısı yadından çıxır, yemək–içmək haqqında düşünmürdü. Zavodda bütün günün ağırlığı (hətta Əliyulla əlini gün ərzində ağdan qaraya vurmasa belə) burada qar kimi əriyib yox olurdu. Gəlib-gedənlərin siması gözlərinə həkk olunurdu və Əliyullaya elə gəlirdi ki, o bütün Bakının, hətta rayonların adamlarının hamısını tanıyır. Əliyulla əzbərdən bilirdi ki, axşamüstü hansı rayona avtobus saat neçədə çıxacaq. Düzdü, avtobusların gəlmə vaxtlarını təyin etmək çətin olurdu, çünki yolda avtobuslar gecikir, xarab olurdu. Çox vaxt avtobus gözləyənlər, ya da rayonlara getmək istəyənlər dispetçer otağına getmir, elə qoltuğunda

köhnə papka, əlində kitab tutan Əliyulladan nə lazımsa soruşurdular və Əliyulla onlara yerli–yatağında hər şeyi izah edir, bundan zövq alırdı. Çoxları elə bilirdi ki, Əliyulla elə avtovağzalın ştatnı işçisidi. Vağzal işçiləri də onun xətrini istəyir, görən kimi kef-əhvalını xəbər almaqla yanaşı, kitab bazarının necə olduğunu soruşurdular. Xüsusən avtobus sürücülərinə imkan yaradırdılar ki, yola düşməkdə olan sərnişinlərdən heç olmasa biri Əliyullanın şeirlər kitabından alsın, hətta onlar sərnişinlərə bu kitabı almağı məsləhət də bilirdilər. Bunun müqabilində Əliyulla vəziyyət qarışıq olanda (avtovağzalda həmişə qarışıqlıq olurdu və avtobusların girib çıxmasına xeyli vaxt lazım olurdu) əli ilə sürücülərə maşını ya arxaya, ya sağa-sola döndərməyi göstərərdi.

Gecə avtobuslarının açılması Əliyullanın ürəyincə olmuşdu və ona elə gəlmişdi ki, o burada ikinci iş yerinə qəbul olunub və bu olmasa, görən axırı necə olardı? Açığı, qaynatasının həyətində yaşamaq onun ürəyincə deyildi; Ağahüseyn kişi də, oğlu Əmirhüseyn də onunla soyuq davranırdılar. Qayınanası isə diliacının biri idi. Vəliyulla həyətdə top oynayanda, top ağacın, gülün budaqlarını sındıranda Gülbadam arvadın ağzı açılırdı nə açılırdı. Və bu sözlər ox olub batırdı Əliyullanın ürəyinə. Əliyulla astadan qayınanasının cavabını verəndə Gülbəniz qayıdırdı Əliyullanın üzünə, deyirdi ki, nədi, anam düz deyir də, kişinin evinin qapısı ayrı olar, nə söz eşidər, nə də könlü bulanar.



Əliyulla susurdu və hətta Gülbənizin sözlərini qulaqardına vurub əvvəlcə qayınatasının, sonra qayınanasının haqqında tənqidi şeirlər yazırdı. Qaynı haqqında düşünmürdü. Çünki Əliyulla hələ lap əvvəllərdən Gülbənizi sevməyə başlayanda, onun arxasınca düşəndə çəkindiyi yeganə adam Əmirhüseyn olmuşdu. Əmirhüseyn bir dəfə onun qabağını kəsib bıçağı qarnına dirəyib soruşmuşdu ki, ə, qoduq, nə lotuluq edirsən Əmircanda.

– Məən? Lotuluq eləmirəm.

– Bəs bu mələdə nə ... yeyirsən?

– Heeç nə.

–Elə itilirsən, bir də gözüm səni buralarda görmür.

Əmirhüseynin o hədəsindən sonra Əliyulla Gülbənizin arxasınca axıra qədər gəlmirdi, Gülbənizə deyirdi ki, başqa şey düşünmə, Əmirhüseyndən qorxub eləmir, ancaq o həmişə ya içkili, ya da nəşəli olur, birdən aralarında söz olar. Gülbəniz bunu başa düşdüyündən Əliyulla ilə razılaşırdı. Sonralar – Əliyulla ilə Gülbəniz evlənəndən, Vəliyulla olandan sonra belə aralarında bir kəlmə olmamışdı. Əliyullagil onların evində olanda Əmirhüseyn sakitcə evdən çıxırdı. Ağahüseyn kişi də Əliyulla ilə çox təmasda olmur, ona deyəcəyi sözləri arvadına deyirdi, Gülbadam da əlüstü ötürürdü Gülbənizə.

Əliyulla həmişə Gülbənizə açıqca bildirirdi ki, atasıgil onun istedadına paxıllıq edir. Gözləri götürmür onu. Atan ömrü boyu buruqda işləyib. Anan evdar qadın olub. Qardaşın isə içkidən, nəşə çəkməkdən başı açılmır. Onlar nə bilirlər kitab nədi, söz nədi, tənqid nədi.

Gülbəniz də cavabında qayıdırdı ki, nə olsun ki, atası buruqda işləyir, onun qabiliyyəti, savadı heç kimdən əskik deyil. O, qəzəl deməyə başlayanda qurtarmaq bilmir. Sonrası da Əliyulla əl boyda kitabı ilə öyünməsin. Əgər onun atası, anası, qardaşı olmasaydı, Əliyulla indi, Allah bilir, hansı künc-bucaqda sülənirdi.

Qəzəl adı eşidəndə Əliyulla cin atına minirdi. Və Əliyullanın cin atına minməsinə səbəb o idi ki, doğrudan da, Ağahüseyn kişi Əmircandakı məclislərdə söz deyən adam idi, di gəl bir dəfə də olsun onun şeirlərindən bir yerdə misal gətirməmişdi.

– Nə qəzəl salmısan? İndi qəzəl vaxtı deyil.

– Bəs nə vaxtıdı, Əli?

– Mənim adım Əli deyil, Əliyulladı. Əliyulla bilirsənmi nə deməkdi? Əli yolu.

– Yaxşı, Əliyulla, səndən soruşuram, indi nə vaxtıdı?

– İndi tənqid vaxtıdı, tənqid!

– Əliyulla, bu tənqidlə hansı daşı hansı daşın üstünə qoymusan?

– Sənin acığına, sizinkilərin acığına torpaq yeri alacam, ayrıca, orda kitayski bir ev tikdirəcəm ki, bütün Əmircanda bir dənə olsun.

– Avazın yaxşı gəlir, Əliyulla, oxuduğun Quran olsa.

– Sən görəcəksən.

– Nə deyirəm, təki sən deyən olsun.

Gülbəniz sözünə nöqtə qoyurdu, çünki bilirdi ki, bir az da dərinə getsə, əri açacaq sandığı, tökəcək pambığı və qıraqdan onlara qulaq asan və heç nə deməyən Vəliyulla hər şeyi radio lenti kimi yazacaq.

...Əliyulla orta məktəbi bitirib Bakıya, əmisi oğlu Vahidin yanına gəlmişdi. Onda Vahid (hamı ona Muş deyirdi) Ağahüseynin qardaşı Ağahəsəngildə kirayənişin qalırdı və Əliyullanı da öz yanında saxladı. Vahid də Ağahüseynlə bir mədəndə işləyirdi və ev növbəsində idi. Bu günə-sabaha ev alıb köçəcəkdi. Nə qədər çalışsa da, Əliyullanı mədəndə işə düzəldə bilmədi. Çünki Əliyullanın Bakıya qeydiyyatı yox idi. Əliyulla instituta qəbul imtahanlarından kəsilmişdi və payızda əsgərliyə gedəcəkdi. Rəhmətlik Ağahəsəngilin evi Ağahüseyngildən azca aralı idi və hər səhər olmasa da, hər axşam Gülbəniz işdən qayıdanda (Gülbəniz NQÇİ-də işləyirdi) Əliyulla onu uzun, sarısaç, göygöz bir oğlanın "Jiquli"-sindən düşən görürdü. Gülbəniz o oğlanın nişanlısı idi və onlar ZAQS-a da getmişdilər, yaxınlarda toyları olacaqdı. Vahid danışırdı ki, oğlan idarənin baş mühasibidi, özü də fırıldağın biridi. Heç ağlı kəsmir ki, onlar evlənsinlər.



Bu söz Əliyullanın beyninə batmışdı və inanmışdı ki, o mühasib Gülbənizi almayacaq və Gülbəniz onun olacaq, çünki Gülbəniz çox gözəl idi və ilk baxışdan Əliyulla Gülbənizə vurulmuşdu. Bunu əmisi oğlundan gizlətmirdi. Vahid onun dəli olduğunu bildirirdi.

–Ay kişi, camaatın qızınnan nə işin var? Nişanlı qızdı, axşama kimi kontorda yüz oyundan çıxırlar. Həm də o sənin tayın deyil.

–Niyə, ay Muş, maa nə oluf ki?

–Ə, o qız Atamoğlannan da o söz.

–Atamoğlan kimdi?

–Odey, qonşun. Bütün qəsəbə onun əlindədi, sən öl səni elə itirərlər ki...

–Qələt eliyərlər, bir şeir yazaram.

–Nə şeir, şeir salmısan? Kimdi sənin şeirini hərləyən? Nişanlısı məsələdən agah olub, başlayıb qızı izləməyə. Bir gün görüb ki, Gülbəniz işə gəlməyib. Gəlib evə. Anası deyib ki, nə danışırsan, qız tezdən işə gedib. Nəsə öyrənib, görüb ki, iki dayanacaq o tərəfdən Gülbəniz avtobusdan düşüb minib Atamoğlanın maşınına, gedirlər Razinə. Atamoğlanın orda evi var.

–Muş, o gözəllikdə qız elə iş tutmaz. Yalandan şayiə çıxarırlar. Əgər nişanını qaytarsa, mən o qızla evlənəcəm.

Və həqiqətən əsgərliyə getməmişdən qabaq Əliyulla Gülbənizə dedi ki, mən əsgərliyə gedirəm, əgər nişanlın səni atsa, heç kimə getmə, gələn kimi səninlə evlənəcəm. Bu sözləri eşidəndə Gülbənizin rəngi azca qızarmış, dodaqları qımıldanmışdı və bu Əliyullanı iki il Sibirdə – Koryajma qəsəbəsində tam əmin etdi və Əliyulla bu inamla Bakıya qayıdıb Gülbənizi ata evində gördü...

Ağahəsən kişi rəhmətə getmişdi, evdə oğlu, gəlini və uşaqları qalmışdı. Vahidlə qaldığı köhnə, uçuq bina boş idi və onlar Əliyullanı məmnuniyyətlə qəbul etdilər. Vahid Təzə Günəşlidən ev almışdı, Əliyulla onun yerini bilmirdi, gərək mədənə gedib onu orda tapaydı. Üstəlik onun işə düzəlmə məsələsi də həll olunmalı idi.

Sübh tezdən mədənə gedən avtobusa minən Əliyulla Gülbənizi görmədi, görünür qız işə tezdən getmişdi. Ancaq xalası oğlu Göyüşlə təsadüfən rastlaşdı. Göyüş özünü görməməzliyə vurmaq istəsə də, Əliyulla özünü o yerə qoymadı, üstünü alıcı quş kimi kəsdirdi.

– Salam, xaloğlu.

– Ay salam, Əliyulla. Nətərisən? Əsgərlikdən qayıtdın?

– Hə, srağagün qayıtmışam – dedi Əliyulla. – Yaxşıyam, xaloğlu, sənə işim düşüb. Gərək mənə kömək edəsən.

– Nə kömək, Əliyulla?

– Maa bir az torpaq ver, həm də ev tikməyə icazə.

– Əliyulla, – Göyüş sözünə ara verdi – elə şey deyirsən, bişmiş toyuğun da gülməyi tutur.

– Niyə, xaloğlu?

– Ə, sənin başına at təpib. Bu saat torpaq deyənin qulağını kəsirlər. Sən də düşmüsən ki, torpaq belə getdi, ev belə gəldi.

– Ə, bə bu camaat istədiyi yeri çəpərləyir, sonra da bir gecənin içində ev tikir. Nətəri? Sən oları görmürsən? Nooldu, maa oçeret çatanda hər şey qəhətə çəkilir. Hamı bilir ki, pul alırsınız. Mən də verim də. Bəlkə mənim pulum pul döy?

– Elə ağzını avara qoyub danışırsan, ay Koroğlu. – Göyüş hamıya Koroğlu deyirdi, hətta xalası oğluna da.

– Mən avara deyiləm, avara da danışmıram. Nə var onu deyirəm. Özün də bilirsən ki, mən qələm əhliyəm, elə eləmə ki, səni rəisin qarışıq qələmə alım.

– Al də, almayan heç kişi döy. Alıb nağayracaqsan? Hay... Sənin kimi yazanları çox görmüşük.

– Mənim kimi yazanları görməmisən, nə də rast gəlməmisən. Sənə bu xaloğlun göstərər, sən də baxarsan.

– Sən öl, Əliyulla, səni aparıb basaram qoduqluğa, özün də məəttəl qalarsan. On beş sutkadan sonra cibinə bir qram nəşə atıb basdıraram gedərsən çala-çala.

Əliyulla Göyüşə ona görə daha heç nə demədi ki, artıq onu qələmə alacağına əmin idi. Elə işə çatanacan üç kupleti qoşdu.



Ora-bura hey boylanır,
Günəşdən də tez oyanır.
Sahəsində at oynadır,
Uçastkovu, uçastkovu.

Gözlərinin yaşındadı,
Əmircanın qaşındadı,
Cinayətin başındadı
Uçastkovu, uçastkovu.

Sizi yalandan öyərlər,
İmkan düşsə çox döyərlər,
Adınıza it deyərlər
Uçastkovu, uçastkovu.

Və sonra Əliyulla bu kupletlərin sayını artırıb yüzə çatdırdı və poemanı yazıb bir konvertə qoydu, sonra üz tutdu milis idarəsinə, ancaq Göyüşü tapa bilmədi, qapıçı onu milis rəisinin yanına buraxmadı, çünki növbətçi bildi ki, Əliyulla qələm əhlidi, özü də tənqidi şeirlər yazır, anladı ki, burada nəsə qəliz bir məsələ var, ona görə Əliyullaya dedi ki, rəis nazirlikdə kollegiya iclasındadı, işə də gec gələcək. Naəlac qalan Əliyulla növbətçiyə konverti verib dedi ki, hökmən rəisə çatdırsın, sonra nə ağıl elədisə, poemanı başdan ayağacan ona əzbərdən söylədi. Poema növbətçi milisə ləzzət elədi və ona afərin deyib əmin etdi ki, məktubu bu gün hökmən rəisə çatdıracaq. Çox sonra Əliyulla bildi ki, növbətçi məktubu rəisə çatdırıb, rəis isə poemanı səhər idmanında hamının qabağında elə o növbətçi milisə oxudub xeyli feyziyab olublar və rəis uçastkovulara buna görə bərk təpinib. Göyüş bunu Əliyullaya deyəndə ona ləzzət elədi.

Ancaq Əmircandan torpaq alıb ev tikdirmək Əliyullaya qismət olmadısa, o Göyüşə borclu qalmadı. Həmin söhbətdən az sonra Göyüşün qardaşı Aslanın Əfqanıstandan tabutunu gətirdilər. Onun yas yerində Əliyulla Göyüşlə üz-üzə gəlib soyuq salamlaşdı. Xaloğlunun - Göyüşün qardaşının üçündə, yeddisində, cümə axşamlarında, qırxında Əliyulla elə bil Göyüşü tanımırdı, yad adam kimi üz-üzə gələndə yönünü çevirib yan keçir, tanıdığı adamlarla Əfqanıstan müharibəsindən, sonra isə şeirdən söhbət açırdı. Bütün məclisə gələnlər bilirdilər ki, Əliyulla (onda o Əmircanzadə təxəllüsünü götürməmişdi) Aslanın ölümünə şeir yazıb, bu şeir «Əfqanıstan torpağında» adlanır və bu şeir tənqidi şeirdir.

Taleyin yolları dardı,
Boran, tufan, həm də qardı.
Orda sənin nəyşin vardı –
Əfqanıstan torpağında.

Dodağında vətən andın,
Tale söndü, çox tez yandın.
Sən Aslandan aslan idin
Əfqanıstan torpağında.

Qəhrəman oldu adınız
Yamanları tapmadınız
Özgə torpaq tapdaladız
Əfqanıstan torpağında.

«Əfqanıstan torpağında» şeiri haqqında müxtəlif mülahizələr irəli sürürdülər. Kimi deyirdi ki, poema əladır, kimi deyirdi ki, Aslanın orada apardığı döyüşlər əməlli-başlı əks olunmayıb. Göyüşün fikri isə ayrı cür idi.

– Ayə, ay Koroğlu, sənin siyasətnən nə işin var. «Özgə torpaq tapdaladız» sözünə görə cavab verəcəksən. Bu şeiri orda-burda oxuma, nə də çap elətdirmə.

– Niyə elətdirmirəm? Belə əsər sənin ədəbiyyatında heç yoxdu. Mən tənqid yazıram. Bəyəm Əfqanıstan özgə torpağı deyil? SSRİ hara, Əfqanıstan hara? Hər dövlətin öz sərhədi var. Aslanın Əfqanıstanda nə işi vardı? Cavab ver. Uzaq dağ kəndində anadan olmuş bir adam gedib Əfqanıstan torpağında döyüşür. Özü də kimnən? -Əfqannan. Sənə heç xoş gələr ki, əfqan gəlib sənin yerində sənnən vuruşsun?

– Ay Koroğlu, dərinə getmə.

– Burda dərinlik heç nə yoxdu. Hamıya öz torpağı şirindi.

– Torpaq ayrı, siyasət ayrı. – Əliyulla ilə mübahisə edənlərin sayı artırdı. – Dövlətdi, sənə əmr edir. Sən də gedib vuruşursan.

– Mənə əmr edibmi o dövlət, ya sənə əmr edibmi? Yox. Eləsə də getmərəm, çünki istəmirəm. İstəyənləri aparırlar, onlar da öz cəzalarını alırlar. Təyyarələr eləcə meyit daşıyır. A kişi, əfqan öz yerinin hər qarışını tanıyır. Bizimkiləri toyuq taxılı dənləyən kimi bircə-bircə biçirlər.

– Əliyulla, indi sənin deməyinnən belə çıxır ki, xalan oğlunu düz öldürüblər?

– Ə, bə nə? Yenə deyirəm, sənin Əfqanıstannan nə işin var? Otur öz xarabanda. Heç desən öz torpağını qorumaq lazımdı, getməz.

– Ə, Koroğlu, adam xalası oğlu haqqında, özü də onun yasında belə danışmaz. Göyüş eşitsə, səni birtəhər edər.

– Bilirsiz, mən şairəm, özü də tənqidi şair. İstər xalam oğlu olsun, istər düşmən. Göyüş də lap göyə çıxsın. Mən obyektiv danışacam. Xalam oğlu tamahının oduna düşdü. Orda olara çoxlu pul verirdilər. Bu bədbəxt də tamahının əsiri oldu. İndi yığdığı pulu qoy Göyüş xərcləsin...

Gülbənizlə idarədə görüşdü. Qızlar onu görən kimi Gülbənizə işarə verdilər.

– Aaz, bəxtəvər, şairin gəlib, gör sənə hansı şeiri oxuyacaq?

– Aaz, oxumaqdan keçib, indi vacib məsələlər həll olunmalıdı.

Gülbəniz Əliyulla onu çağırandan sonra çölə çıxdı.

– Nədir, Əliyulla?

– Sağlığın, nə olasıdı ki? Yadındadı, əsgərliyə getməmiş sənə nə demişdim? İndi gəlmişəm...

Qızın yanaqları allandı. Utandığından başını yerə dikdi və Əliyulla ürəyində sevindi ki, Gülbəniz onun ürəyində tutduğu gözəldi və onun haqqında deyilənlər şayiədir.

– Nə deyirsən? Elçi yollayımmı?

Gülbəniz yenə dillənmədi, ancaq razılığı hiss olunurdu. – Mən sözümün üstündə duran adamam. Gərək sən də elə olasan.

– Mən bilmirəm... – O bunu deyib işə qayıtmaq istədi.

– Dayan. – Ancaq ona deyəcəyi sözlər Əliyullanın ağzında qaldı, çünki içəridən qızların səs-küyü onu fikrindən yayındırdı.

– Gülbəniz, şairi incitmə, razı ol. Görüşündən də imtina etmə.

O tələsik qapını örtüb Əliyulla ilə sağollaşmadan içəri keçdi. O axşam Əliyulla Ağahəsən kişinin kirayədə qaldığı evində Gülbənizə bir şeir yazdı, ancaq heç vaxt ona bildirmədi ki, bu misraları ona yazıb.

Əliyulla bu şeiri ümumi dəftərə köçürəndən sonra fikirləşdi

ki, Ağahüseyngilə kimi elçi göndərsin. Çox adamlar o gecə gözünün önündən keçsə də, qəti qərara gəldi ki, ora yalnız Vahidi göndərə bilər və Vahid bu işin öhdəsindən gələ bilər. Çünki Vahid neçə illər onların ailəsinin içində olmuşdu və böyük hörməti vardı.

Vahidi tapmaq çətin olmasa da, onu yola gətirmək olmadı. Vahidin iş yerindəki çayxanada oturub bir saatdan artıq söhbət etdilər. Vahid onun evlənməyinin hələ tez olduğunu bildirdi. Əliyulla hələ əsgərlikdən təzə qayıdıb, Bakıya qeydiyyata düşməli, işə düzəlməli, ev almalı idi. Yoxsa ona çətin olacaqdı.

Əliyulla bunların çətinlik törətməyəcəyini Vahidə inandırsa da, Vahid Ağahüseynin qapısına getməyəcəyini bildirdi:

– Ay Əliyulla, Allaha şükür, atan kəndin ağsaqqalıdı, bir telefon zənginə Bakıdadı, gəlsin, özü hər şeyi həll etsin, bəlkə heç razı olmayacaq, ayrı qız alacaq?

– Ə, sən nə danışırsan, mən kimi istəyirəm, onu da alacam. Atamın nə işi var? Ömrü boyu kənddə yaşayıb, çox şeyləri bilmir.

– Nə qədər bilməsə də, bizdən yaxşı bilər. Sən özün də yaxşı-yaxşı fikirləş. Qız nişanlı olub, özü də neçə il. İdarədə, qəsəbədə bunu bilməyən yoxdu. Nişanını qaytarıb. Bilirsənmi niyə toyları olmadı? Bilmirsən. Qız qonşuları ilə açıqaşkar gəzirmiş. Tələsmə, öyrən, yüz ölç, bir biç.

– Bunların hamısı şayiədi. Mən hər şeyi bilirəm. Gülbəniz kimi qız heç harda yoxdu, ona görə mənə paxıllığınız tutur. Mənim qəbulumdu. Mən onunla evlənəcəm.

– Allah fikrindən özünə xeyir versin. Paxıllıq-zad mənim əlimdən gələn döy. Sənin yaxşılığını istəməyən kor olsun. Ancaq, qardaş, qəmişini məndən uzaq elə. O qız, o da sən. Necə bilirsən, elə də elə.

Əliyulla Ağahəsənin oğlu Ağarəhimi otağına çağırıb məsələni ona danışdı.

– Məni istəyən yoxdu. Nolsun ki, əmindi, mən tərəfdən elçilik elə. Özünlə yoldaşın getsə, bəs edər.

Və o günün səhərisi Ağarəhim arvadı Ağanisəni götürüb əmisigilə elçi getdi...

Ancaq Ağahüseyn Ağarəhimi, onun arvadı Ağanisəni yaxşı qarşılasa da, onlara bir cavab vermədi, çünki Ağahüseyn tədbirli adam idi, vəziyyətdən xəbərdar idi və bu sözlü işdə Əliyullanın ağsaqqallarının iştirakını vacib bilirdi.

– Ağarəhim, sən özgəsi deyilsən, – demişdi Ağahüseyn. – özümünküsən, ancaq bu işdə gərək tələsməyəsən. Mən qız verirəm. Hamı bilir ki, Gülbəniz nişanlı olub, oğlanın adamlarına bunu bildirmək hökmən vacibdi. Çünki əvvəla, ən böyük biclik düzlükdü. Həm də bunu deməsək, onlar elə başa düşəcəklər ki, biz nəsə fırıldaq etmişik. Sən məni başa düşdünmü? Mən bir söz demirəm, ancaq gərək yüz ölçə, bir biçəsən.

Ağarəhim Əliyullanın qəti fikrini əmisinə bildirdi, Ağanisə də Gülbadama pıçıldadı ki, Əliyulla sakit oğlandı, içən döy, çəkən döy və onu yağ içində böyrək kimi saxlayacaq.

– Mən nə deyirəm, ay Ağanisə, təki siz deyən olsun. İntəhası, kişi görək nə deyir. Mənnən olsa, bu dəqiqə verərəm.

Ağarəhimlə Ağanisə həyətə girəndə Əliyullanı darvazanın ağzında gördülər. Ağanisə bir söz deməyib evə keçdi.

– Uşaqların səsi gəlmir – Ağarəhim papiros yandırdı.

– Hə, yatıblar. Mən də siz gələnəcən iki şeir yazmışam. Nə oldu?

– Nə olacaq, Əliyulla, bu işə mən qol qoymuşam, Allahın köməkliyi ilə düzələr. Bir məsələ var, onu əmim düz dedi. Gərək kənddən ağsaqqallar əziyyət çəkib gəlsinlər, çünki, baxma, atadı, anadı, sabah deməsinlər ki, bizi saymadılar. Həm də onların xeyir-duası lazımdı. Yoxsa, əmim qızı vermək istəmir.

– Ə, bu əmin bizim ağzımızı niyə daşa salır? Ay kişi, evlənən mən döyəm, mən sənin qızını sevirəm, qızın da (istədi desin ki, məni sevir) narazı deyil. Bunnan da iş bitir. Bu rəsmiyyətçilik nəyə lazımdı. Gülbəniz mənim ata-anamı harda görəcək? Görsə də, iki-**üç** ildə bir dəfə...

– Sən də düz deyirsən, Əliyulla, ancaq kişi yaxın qoymur.

Nə var e, zəng vur, bir gün gəlsinlər, işi həll edək, getsin. Ancaq əsas məsələni həll elədik. Deyir çətini ilk addımı atmaqdı. Onu biz Ağanisəylə elədik. Ağanisə Gülbadama o qədər təriflədi... Deyirəm bir bunu qeyd eləyək.

– Eləyək də.

– Sizdə zakuskaya bir şey varmı?

– Var.

– Onda bir göy beşlik ver, gedim Mirzəhüseyndən gətirim.

Ağarəhim çox içsə də, özünü sərbəst hiss edirdi, ancaq üst-üstə içdiyi yüz qram Əliyullanı birtəhər etmişdi. Əslində Əliyulla içmək istəmirdi, ancaq Ağarəhimin Gülbəniz, sevgi, məhəbbət haqqında tostları onu özündən çıxartdı və sübh tezdən qalxıb Gülbənizin işə getməsinə baxa bilmədi. Ağanisəni otağında görəndə isə birtəhər oldu, çünki alt köynəyi geyməmişdi, üstünə saldığı ağ mələfə qırış-qırış olmuşdu və ayaqlarının qapqara tükləri görünürdü.

– Bağışla, ey, Əliyulla, sübh tezdən səni narahat etdim, elə bildim otaqda yoxsan. Dedim yəqin Gülbənizin dalınca getmisən.

– Ağarəhimlə içdik, yatıb qalmışam.

– Onunku da eləcə içkidi, işdən qayıdanda hazır gəlir. Bilmirəm nə tapıbsız bu içkidə.

– Mən içən deyiləm, ayda-ildə bir dəfə ola, ya olmaya.

– Gördün də dünən nə etdik?

– Sağ olun, Ağanisə bacı.

– Ağarəhim danışdı?

– Hə.

– Səni bir tərifədim, bir tərifədim, gəl görəsən. Dedim nə olsun ki, qohumuq, biz oğlan tərəfin adamıyıq.

Ağanisə arxasız köhnə stulu onun qənşərinə qoyub oturdu. Ev paltarında idi və döşlərinin yarısı Əliyullanın gözünə tikan kimi batırdı.

– Hə, nə lazımdı elədim.

– İntəhası, bu ağsaqqalları ordan bura gətirtməyə nə ehtiyac var?

–O belə mənim əlimdə.

Əliyulla mələfəyə bürünmüşdü. Heç cür imkan tapıb geyinə bilmirdi.

– Necə, Ağanisə bacı?

– Bacı nədi, Əliyulla? Mərifətli danış.

– Olarmı bir dəqiqəyə çıxasınız, mən geyinim?

Ağanisə qalxıb xalatını əynindən çıxarıb onun üstünə atdı.

–Hara durursan, Əli? Yanına gəlmişəm. Ağarəhim evdə yox, uşaqlar yatır. Sənin açarın mənim əlimdədi. Qızı qoşacam sənə, onnan da qurtarıb gedəcək. Ağarəhimnən araq iyi gəlir, heç adamın belini əməlli-başlı sındıra bilmir.

– Sən Allah, görərlər.

– Kim görəcək, ə? Cavan oğlansan, içmirsən, çəkmirsən, özün də Rusetdən əsgərlikdən gəlmisən. Bu gün-sabah da evlənirsən. Sənə ay parçası kimi qız veririk. Lotareyan «Volqa» udub. Yolu-izi gərək öyrənəsən…

Əliyullanın bədəni biz-biz oldu.

– Ə, qızın yengəsi mən olacam. Sənə öyrətməliyəm ki…

– Ağanisə bacı...

– Bacı sənin anandı.

– Mən onların üzünə necə çıxacam?

– Kimin?

– Elə Ağarəhimin, Gülbənizin.

– Adam balası kimi, sıxılma, özünü sərbəst hiss elə.

Sonra Ağanisə xalatını əyninə keçirdi. Əliyulla da geyindi.

– Sən Allah, bu ikimizin arasında qalsın.

– Ə, sən nə ağciyər adamsan. Evlənənə kimi sənə çox şeyi öyrədəcəm. Sonra sənə asan olacaq. Axşam da bir araq alıb gələrsən bizə. Heç nə olmamış kimi özünü apar. Yarpaq dolması bişirəcəm. Gülbənizin işində az görün.

Əliyulla tutulmuşdu, özü də bilmirdi ki, nə vəziyyətə düşüb və Ağanisə danışdıqca onun sözləri beynində əks-səda verirdi.

– Bilirsən, qızdan nə qədər uzaq dursan, o qədər yaxşıdı. Toyuq küllükdə küllənib özünə bıçaq çıxarar. Mən məsələni özüm həll edəcəm. Elə avtobusaca minib gedəcəksiniz. De görüm, elə bir qohum evi varmı ki, beş-altı günlüyə daldalanasınız?

– Yox, Ağanisə bacı...
– Əliyulla, adımı desən bəsindi. Adımı ki, bilirsən.
– Bilirəm ey.
– Hə, yoxdusa, onda Zabratda mənim xalam qızı var. Evləri böyükdü. Ora gedərsiniz. Sonrası Allah Kərimdi.
O gün Əliyulla bütün günü əzgin oldu, yerində o üz-bu üzə çevrildi, nə qədər istəsə də, iki misranı yan-yana qoşa bilmədi, gah Gülbənizi gözü önündə canlandırdı, gah da Ağanisənin mərmər sinəsini sığalladı. Axşamın düşməsini gözləməyib mağazaya getdi, boğmalı araq, ayın-oyun alıb qayıtdı. Ağanisənin səsi ötmürdü, arada uşaqlar həyətə çıxıb oynayırdılar.
Gözləyəndə vaxt gec gedir, saniyələr tısbağa kimi addımlayır və Əliyulla yuxudan ayılanda burnuna yarpaq dolmasının iyi dəydi. Onda bildi ki, Ağanisə düz deyir, axşam yarpaq dolması yeyəcəklər. Bu dolmanı Ağanisə şəxsən onun üçün bişirir və Ağarəhim də bu dolmadan yeyəcək və onun boğmalı arağını içəcək. Araq içmək Əliyullaya düşmüşdü, araq içəndən sonra Ağanisə ona mehman olmuş, eyni zamanda söz vermişdi ki, Gülbənizin əlini onun əlinə verəcək. Əliyullada böyük bir inam vardı, o inamı yaradan Ağanisə olmuşdu və Ağanisə indi onun üçün hər şey idi, hamı idi. Divin canı şüşədə olduğu kimi, Əliyullanın canı da Ağanisənin əlində idi. Dediyi sözləri neyzənbillah, Quran ayəsi kimi qəbul etməyə baş ladı. Necə də etməyəydi?
Evdə qərar tuta bilməyən Əliyulla əynini geyinib həyətə çıxdı. Ağanisə qonşunun arvadı ilə həyətdə söhbət edirdi.
–Hara uğur olur, Əliyulla qardaş?
– Havamı dəyişəcəm.
– Dedim bəlkə mədənə gedirsən?
– Yox, yox, elə qabaqda gəzişib qayıdacam.
– Lap yaxşı.
Əliyulla mədənə gedə bilərdi, ancaq qorxurdu ki, nəsə səhv edə bilər, qaş düzəltdiyi yerdə vurub gözünü çıxarardı. Həm də hava isti idi, mədənə getməyə həvəsi yox idi. Səhər başına gələnləri gözü önünə gətirdi. Ağanisə iki uşaq anası olsa da,

özünə yaxşı baxmışdı. Bədəni, döşləri daş kimi idi. Deyirdin qız bədənidi. Əliyulla qət etdi ki, Ağarəhim bu cür gözəlliyin qədrini bilmir, arvadının istəyini ödəmir, ancaq o Gülbənizin öhdəsindən layiqincə gələcək. Yaşlı kişilər bir yerə toplaşanda danışırdılar ki, əgər qadın kişinin zəifliyini hiss etdi, hər şey onunla bitəcək. Və Ağanisə ilə səhərki görüşü Əliyullaya qol-qanad verirdi, çünki Ağanisə qalmışdı. Bu imtahan Əliyullanın qəddini düzəltmişdi.

Yol onu bağa apardı, gəlib- gedənlər çox idi və onların əksəriyyəti qadınlar və uşaqlar idi. Əliyullanın buraya gəlişinin məqsədi vardı. O evdə çox əzgin idi və ən əsası o idi ki, o axşam Ağarəhimgilə gedəcəkdi, boğmalı arağı ortaya qoyub vuracaqdılar, onda Əliyulla sağlıq deməli, bu sağlıq Ağanisəyə həsr olunmalı idi. Əliyulla elə bir sağlıq deməli idi ki, Ağarəhimin də, Ağanisənin də ağzı açıla qalmalı idi, özü də sağlıq hökmən şeirlə başa çatmalı idi. Əliyulla o şeiri yaza bilmirdi və axşamın sakitliyində nə isə etməli idi. Əvvəla, Ağanisə ona məlhəm bir adam olmuşdu, (Əliyulla əmin idi ki, Ağanisə onun qapısını yenə xəlvəti döyəcəkdi) Gülbənizlə işləri qaydasına qoyacaqdı və qohum olandan sonra hər yerdə bu barədə danışacaqdı...

Gözəllərin gözəlisən,
Ala gözlü Ağanisə,
Nazlısan, qəmzəlisən,
Ala gözlü Ağanisə.

Eşqin dağlar, daşlar aşar,
Coşğun dağ çayıtək daşar,
Ürəyində sevgi yaşar-
Ala gözlü Ağanisə.

Güllər niyə vaxtsız solar,
Gözəllik nişanə qalar
Könül sənlə rahat olar
Ala gözlü Ağanisə.

Əliyulla, qəlbində rəhm,
Gözlərində zəhər, zəhm
Səni sevər Ağarəhim,
Ala Gözlü Ağanisə...

Əliyulla tostu deyib şeiri oxuyandan sonra Ağarəhim araq stəkanını başına çəkib ayağa qalxdı, səndirləyə-səndirləyə onun boynunu qucaqladı.

– Varam səninlə, ananın südü sənə halal olsun. Sən elə şeir yazmısan ki, heç bir şair bu cür yaza bilməzdi. Kişi adamsan, mənim adımı da poemana salmısan. Sən çox savadlı oğlansan. Əmim bir yesin, beş də nəzir versin ki, sənin kimi gözəl bir oğlan onun qızına evlənmək təklif edir. Heç istedadlı oğlandan da atkaz eləmək olarmı?

– Ona görə də onu Əmircanlı eləmək lazımdı. – Bunu Ağanisə dedi. – Dolma soyuyub, aparım isidim. Ay uşaq, orda səs salmayın. Görmürsünüz evdə qonaq var?

– Mən ölüm əladı. Nə vaxt yazmısan bunu?

– Elə bir-iki saat bundan qabaq.

–Süz araqdan, bu sağlığa ayaqüstü içmək lazımdı. – Ağarəhim Əliyullanı gözləməyib stəkanını ağzınacan doldurdu. – Sağ ol, şair, sənin sağlığına, sənin qələminin sağlığına!

– Yox e, sağlıq Ağanisə xanımındı.

Ağanisə qayıtmışdı.

– Bəs mənim sağlığıma içmədiniz?

– Sizin sağlığınıza nə qədər içsək, yenə də azdı. – Əliyulla boş stəkanına baxdı.

– Ağa, dayan də, elə təkbaşına hörtüldədirsən, qoy Əliyulla qardaş da stəkanını doldursun.

– Şair arağı hörmətdən salır.

– Niyə?

– İçmir.

– Nə deyib içmir? Ağanisə Əliyullanın yanında oturdu. – Ağarəhim, sən yaxşı yoldaşlıq eləmirsən. Qoy mən də özümə stəkan gətirim, gör necə içir.

– Araq qurtarır, hərənizə əlli qram ancaq qalar.
– Bu saat. – Əliyulla yerindən dik atıldı. Ağanisə onun çiynindən basıb oturtdu.
– Sən bilməzsən, Ağarəhim gedəcək.
– Yerini desin, gedim alım.
Ağarəhim:
– Sən pulunu ver, mən gedim alım.
Əliyulla əlini cibinə salıb pul çıxartdı.
– Bu boğmalıdan alarsan.
Ağanisə Ağarəhimi qırağa çəkib nəsə dedi, sonra stəkanı stola qoydu.
– Onda vuraq.
– Ağa, sən iç, get.
Ağarəhim arağı başına çəkib çıxdı.
– Sən, doğrudan da, qabiliyyətli oğlansan, Əliyulla. Mən bu gün onun bir daha şahidi oldum. İçək öz sağlığımıza. Mənim sağlığımdı, ha, hökmən içməlisən.
Ağanisə arağı su kimi başına çəkdi. Əliyulla da içdi.
– Özünü ələ al. Ağarəhim indi Gülbadamla Gülbənizi gətirəcək. Elə-belə söhbət edərik. Ancaq gecə qapını açıq qoyarsan.
– Niyə?
– Gəlib səndən od alacam.
– Birdən...
–Görmürsən, ayaq üstə gücnən durur, o birini də içsə, lap ölü kimi düşəcək.
Əliyullaya otaq isti gəldi. Yanaqları qıpqırmızı olmuşdu, içdiyi araq da içini yandırırdı. İndi Gülbəniz gələcəkdi, geçə Ağanisə... Ürəyinin döyüntüsünü hiss edirdi.
Ağarəhim tez qayıtdı, tərin içində idi. Arağı stolun üstünə qoydu.
– Boğmalı yox idi, bundan aldım. Gülbəniz də gəlmədi.
Ağanisə dolmanı stolun üstünə qoydu.
– Niyə?
– Gülbadam dedi ki, gecədi. Ağahüseyn birdən narazı olar.

– Nolar, gəlmir, gəlməsin, özü öz ayağınnan bəh-bəh deyə-deyə gələcək.

Əliyullanın üstündən dağ götürüldü, nədənsə, Gülbəniz yadından çıxdı...

***

O gecədən sonra Ağanisə az-az görünürdü və görünəndə də Əliyulla ilə soyuq danışırdı. Əliyulla da özlüyündə qət edirdi ki, Ağarəhim məsələdən xəbər tutub. Ağanisənin dərsini verib. Əliyulla bu fikirlərlə özünü şübhəli aparmışdı. İş məsələsini həll etmək üçün çıxarkən həyətdə Ağanisə ilə qarşılaşdı.

– Ağanisə bacı, nətərisən?

– Sağ ol. Sən necəsən?

– İşə düzəlməyə gedirəm.

– İşin avand olsun.

– Birtəhərsən?

– Yox, xəstələnmişəm.

– Soyuq olub?

– Yoox. Aybaşı olmuşam.

– Hə. Elə bildim incimisən.

–Heç səndən incimək olar. Gələcəm. Day mənə şeir-zad yazmırsan?

– İstəyirsən yazım?

– Niyə istəmirəm.

– Yazaram. Lap bu axşam yazaram. Bəs Gülbənizlə işləri necə edək?

– Gülbəniz nə vaxt desən sənindi. Arxayın ola bilərsən. Qoy məhərrəmlik çıxsın, eliyərik. Məsələ həll olunub.

– Axşam şeir yazımmı?

– Sabah yox, birigünə hazırla.

## IV

Gülbənizin axşamüstü qəfil gəlişi Ağanisəni çaşdırdı. Ağanisə əvvəlcə tutulan kimi oldu, fikrində dolaşdırdı ki, Əliyulla aralarındakı yaxınlığı qıza çatdırıb və Gülbəniz

də haqq-hesab çürütməyə gəlib. Ancaq o da ağlına batmadı ki, Əliyulla tutduğu qələti ailə qurmaq istədiyi qıza aça bilər. Odur ki, səbr etməyi üstün tutdu. Gülbəniz həddindən artıq yorğun və süst görünürdü.

– Nə yaxşı gəlmisən? Gün hayandan doğub, ay Gülbəniz? Sən Allah, bir dayan ayağının altına dəmirdən-zaddan atım.

Gülbəniz güclə qımışdı.

– Nə bilim? İşdən-gücdən macal olur ki? Vaxt olmur. Heç siz də biz tərəflərə üz tutmursunuz?

– O gün Əliyullanı evə çağırmışdıq. Çağırmaq deyəndə ki, dolma bükmüşdüm, dedim subay oğlandı, çağır gəlsin. Bir araq da alıb gətirmişdi. Dedim sən də gələsən, söhbətdən-zaddan eliyək. Siz də nə fikirləşirsiniz, bilmirəm, ancaq vaxtın keçir. İşi isti-isti həll eləmək lazımdı, yoxsa kündə küt gedər.

– Nə bilim, Ağanisə, qalmışam belə.

– Nəyi sonalayırsan? Əliyulla kimin keçəl oğlundan əskikdi? Boy onda, buxun onda. Şair oğlandı, üzünə xoş baxacaqsan, şeirdən qoşaçaq sənə. İçmir, nəşə çəkmir. Day nə istəyirsən? Öz aramızdı. Neçə il nişanlı qaldın, məhlədə yüz söz danışırlar...

– Nə danışırlar?

– Olandan-qalandan. Bilmirsən nə danışırlar? Camaat kor deyil ki?

– Ay Ağanisə, danışırlar, qələt eləyirlər.

– Elə döy, bu həngamələrdən sonra sizin qapını döyən olarmı? Allah-təala bunu özü sənə qismət yollayıb. Söhbət etmişik, dərdindən dəli-divanədi. Hər şeyi boynuma götürmüşəm. Məhərrəmlik qurtaran kimi səni qoşacam Əliyullaya. Plan da cızmışıq. Siz də düşübsünüz bu yetimin üstünə ki, ağsaqqalını gətir. Gələcəklər, yüz söz eşidib işi buracaqlar. Bu sənə lazımdı?

– Yoox.

– Onda nə deyirsən? Hazır bu kişinin oğlu kişi kimi deyir ki, ailə quran mən döyəmmi, heç kimə ehtiyac duymuram. – Ağanisə uşaqlara acıqlandı. – Ay qız, Ağabacı, Ağamirzəni də götür, çıx həyətə, görürsən xalanla söhbət edirik.

– Deyirsən yaxşı oğlandı?

– Gülbəniz, bizim həyətdə olmasaydı, tanıyıb eləməsəydim, inanmazdım. Səni elə qələmə vermişəm, heç ağlına da gəlməz. Təmiz, səxavətli, qüvvəli... – Ağanisə səhv elədiyini anladı.– – Bir vedrə suyu elə götürür, deyirsən əlində heç nə yoxdu. İşi var, özü yaxşı, bir evi yoxdu, o da hələ ki, bizim həyətdə qalır. İşdən də ev alar, qurtarar gedər.

– Ağzım sözə qarışdı, qoy bir çay süzüm.

Gülbəniz Ağanisəni qalxmağa qoymadı.

– İndicə içmişəm, iştaham yoxdu.

– Nəsə gözümə birtəhər dəyirsən. Yorğunsan?

– İşdən gəlmişəm.

– İşdən gələndə nə olur ki? Hamı işdən gəlir dayna, gözünün altı da batıb. Olmaya?..

Gülbəniz başını aşağı saldı.

– Az, uşağa qalmısan?

– …

– Sənnən döyəmmi?

–Hə.

– Neçə aylıqdı?

– İki.

– Nə danışırsan? Kimnəndi az?

– Neynirsən?

– Necə neynirəm? Deyirəm kimnəndi? Mühasibdən?

– Yox.

– Atamoğlandan?

Qız başını aşağı saldı.

– Az neynədiyindi. Bilən varmı?

– Təkcə sənə deyirəm.

– Özü bilirmi?

– Yox.

Ağanisə yerini bərkitdi.

– Məhərrəmlik nə vaxt çıxır?

–Hələ var.

– Bu işi yubatmaq olmaz. Ya uşağı saldırmalıyıq, ya da...

Uşağı da saldırsaq, bədbəxt olub gedəcəksən. Sabah işdəsənmi?

– Hə.

– Əliyulla bu gecə növbədədi. Sabah, birigün evdə olacaq. Sən belə elə, üç günlük bir bülleten götür. Sabah elə poliklinikaya get, qayıt bizə. Səni salım gədənin yanına.

– O necə olur? – Gülbənizin səsi güclə çıxırdı.

– Necə nətəri olur? Atamoğlanla nətəri eləmişdiniz, bununla da elə. Yaxınlıq versən, sonra qoşub aparacam bacımgilə. Uşaq da olanda deyərik ki, yarımçıq olub.

– Elə şeymi olar?

– Bəs özgə neyniyəsisən? Mən düzüb qoşacam. Sən bircə mən deyənə qulaq as...

– Birdən alınıb eləməz, biabır olaram.

– Ay qız, alınaçaq deyirəm.

– Onda Ağanisə, sən canın, elə olsun ki, evdəkilərin xəbəri olmasın.

– Sən də daha ora-bura getməyin daşını biryolluq at. Gözünü ordan-burdan yığışdır. Daha ailə yiyəsi olursan. Oldumu? Mənnən olsa, otpuska götürərdin, sonra da vapşe işdən çıxardın. Adamın beş dostu varsa, on beş düşməni var. Tem bole orda hamı səni tanıyır. İşləmək istəyərsən, o qədər yer var ki. Ağahüseyn dayı istəsə, öz idarələrinin birində səni işə düzəldər.

## V

Əliyulla işdən qayıdanda saat 9 olardı. Evə bazarlıq etmişdi. Ev paltarını geyinib yuyunmağa getdi. Hamamın qapısına çatar-çatmaz Ağabacı ilə Ağamirzə onu səslədilər.

– Ey, səni anam çağıyıy. Deyiy bizə gələy.

Əliyullanın könlü coşdu, bildi ki, nəsə bir iş var və bu iş onun xeyrinədi.

– Anana de ki, indi gəlirəm.

Soyuq su bədəninə dəydikcə misralar yan-yana düzülürdü.

Əliyulla quşa dönmüşdü, yuyunub qurulandı və görəcəyi işləri unudub Ağarəhimgilə gəldi. Ağanisə yenə əvvəlki xalatında idi və bu paltar ona çox yaraşırdı.

– İşlərin necədir, Əliyulla?

– Sağ olun, yaxşıdır.

– Day işlərin bir-bir düzəldikcə bizi unudursan?

– Yox, elə deməyin, Ağanisə xanım, mən sizə bütün həyatımı borcluyam. Heç bilmirəm, siz olmasaydınız mən neyniyərdim? Siz mənə ana-bacı əvəzisiniz.

– Heç soruşmursan, saqqala salam vermirsən?

– O gün soruşdum. Xəstə idiniz də. Bu axşam Allah qoysa…

– Görürsən, sənə xeyir eliyənləri nə yaxşı yadında saxlayırsan. Heç qızı soruşmursan?

– Onu siz boynunuza götürmüsünüz. Sizə arxayınam.

Ağanisə qımışdı.

– Demişəm, sözümün də ağasıyam. Sənə nə demişəm, onu da edəcəm.

– Çox sağ olun.

– Heç qızla görüşürsənmi?

– Yox. Lazımdımı?

– Lazımdımı da sözdümü? Gül kimi qız, Əmircanda yox ey, bütün Bakıda tayı-bərabəri olmayan qızı sənə verirəm. Bəlkə belə deyil?

– Belədi.



– Elə bilirsən Gülbənizi təkcə sən istəyirsən?

– Yox.

– Neçəsi istəyir, özü də kalan, varlı-hallı oğlanlardı.

Ancaq mən kişi qızıyam, sözümün də ağası.

– Mən sizi min kişiyə dəyişmərəm.

– Qulaq as, dünən qızla söhbət eləmişəm. Nəm-nüm eləyirdi. Nə bilim deyir evi-eşiyi yox, kasıbdı, maşını yox. Oturmuşam evimdə. Birtəhər razılığını almışam. Ancaq qorxuram.

– Nədən, Ağanisə xanım?

– Nədən olacaq? Demirəmmi, istəyənləri çoxdu. Bir də gördün biri işə gedəndə götürdü qaçdı, onda neyniyərsən?

– Qoymaram.
– Necə qoymayacaqsan?
– Necə lazımdı.
– Əyə, sən də Ağarəhim kimi filfilo danışma. Qıza demişəm getsin bülleten alsın. Üç günlüyə.
– Halal olsun. – Əliyullanın sevincdən alnına tər gəlirdi.
– Hə, bu gün də gəlsin bizə. İndilərdə gələcək. Söhbətləşin, bir-birinizə isnişin.
– Nolar. Bu çoxdan lazımdı.
– Biz uşaqlarnan həyətdə fırlanacağıq. Darvazanın dalını bağlayacam. Gücünü qıza göstər ha.
– Nəyi?
– Gücünü. Başa düşmədin?
– Yox.
– Ə, mənə elədiyindən ona da elə, iş də qurtarsın getsin. Qız olsun nəğd səninki. Sonra da sabahısı qolundan tut apar.
– Birdən razı olmaz?
–Ə, sən kimnən iş tutursan? Nöqtəsinəcən hesablamışam. Sənə demirdim ki, sizin yengəniz mən olacam? Bu gün qıza elə güc göstərməlisən ki, səndən əl çəkməsin.
– Onda gedim gözləyim.
– Get gözlə.
– Elə elə görən olmasın.
– Arxayın ol. Pərdələri çək, otağını qaydaya sal.
Əliyulla saniyələri, dəqiqələri sayırdı.
Sonra darvaza açıldı, Gülbəniz asta-asta həyətə girib Ağanisəgilə getdi.
Fasilə.
Ağanisə ilə Gülbəniz həyətdə göründülər.
Fasilə.
Ağanisə hamama, Gülbəniz də onun otağına tərəf addımladı...
Fasilə...

## VI

Əliyulla nə vaxtdan idi ki, qəsəbəyə belə tez gəlmirdi və indi o elə düşünürdü ki, hansısa başqa bir məmləkətdədi və bu məmləkətdə avtobuslar, sürücülər, sərnişinlər yerli-dibli yoxdu. Bura tamam sakit bir yerdi, adamlar dinməz-söyləməz mağazalara girir, lazım olan ərzağı alır və evlərinə üz tuturlar. Qoltuğundakı papka kitabları ilə dolu idi və ilk dəfə Əliyulla kitabları evə satmamış gəlirdi. Cibindəki iki yüz manat papkanın ağırlığını yox edirdi.

Əliyullanın ürəyindən yaxşı bir bazarlıq etmək keçdi: beş kilo ət, beş kilo sliviçnı yağ, on paçka hind çayı və s. Ancaq Vəliyullanın toyunu fikirləşəndə fikrindən vaz keçdi. Pul ona lazım idi, çünki görüləsi işlərə lazım olacaqdı. Bazardan bir kilo alma aldı, Vəliyulla alma yeyən idi və qonşuların ağaclarına dırmaşıb alma dərəndə ev yiyələri söylənirdilər. Vəliyullaya bir dənə də marojna aldı. Marojna uşağın xoşuna gələcəkdi və onda Əliyulla oğlunu qucağına alıb deyəcəkdi ki, sünnət çox asan bir şeydi. Həsən əmi (Həsən doxdur deyə bilməzdi, onda Vəliyulla qorxa bilərdi, çünki Vəliyullanın doxturla heç arası yox idi) onun lülüsünü əli ilə o yan-bu yana buracaq və yerinə şəkər tozu tökəcəkdi. Bütün oğlanları belə eləyirlər, ona görə gərək Vəliyulla ağlamayaydı, əmiləri incitməyəydi.

– Bəs deyirlər kəsəndə qan çıxır?

– Kim deyir onu?

– Səbuhi. Onu kəsəndə həm qışqırıb, həm də çoxlu qan axıb.

– Oğlum, Səbuhi dəcəl uşaqdı, ona görə qan axıb. Qışqırmasan, qan axmaz. Sən ağıllısan.

Əliyulla çörək mağazasının yanından keçəndə təndir çörəyi almağı qərarlaşdırdı. Gülbəniz təndir çörəyini çox sevirdi.

– Axşamın xeyir, şair? Sən hara, bura hara? Çoxdandı buralara çıxmırsan. Gün haradan doğub?

– İşdən tez gəldim.

– Deyirəm axı. – Qələndər kişi Əliyullanın qonşusu və rayonlusu idi. – Kitabındakı şeirləri oxudum. Fısqırıq şeirlər yazırsan.

– Hamısını oxudunmu?

– Bə nədi.

– Xoşuna gəldimi?

– Ayə, sənin qələmin çox güclüdü. Nə qulluq?

– İki dənə təndir çörəyi ver.

– O da mənim bu qara gözlərim üstə.

Təndir çörəyi isti idi və Əliyulla evə tərəf addımlayırdı ki, Təranəni gördü. Son dəb ilə açıq-saçıq geyimi ona yaraşırdı və qızın gözəlliyi Əliyullanı birtəhər etdi.

– Evə gedirsiz, Əliyulla müəllim?

– Bəli.

– Sizi bu vaxtlar az-az görürəm.

– Hə, elədi. Atan görünmür.

– Riqadadı. Sabah gələsidi. Əliyulla müəllim, sizdən bir şey soruşum, siz hamıya şeir yazırsınız?

– Baxır də. İlham gələndə, hə.

– Məsələn, mənə şeir yaza bilərsiniz?

– Mən həmişə tənqid yazıram.

– Tənqid kimə lazımdı. Kimin tənqiddən xoşu gəlir ki?

– Sən bilməzsən belə şeyləri.

– Qorxudursuz də adamları, ən çox da müdirləri.

– Mən baş katibi də tənqid edə bilərəm.

– Ancaq Əliyulla müəllim, inciməyin. İndi sevgi, məhəbbət şeirlərini çox oxuyurlar.

– Adamına baxır.

– Mənə bir şeir yazın, birini də Daşdəmirə. Ancaq onu tənqid elə. Şeirləri mənə ver, hörməti de nədi, eləyəcəm.

– Mən zakaznan hər vaxt yazmıram. Daşdəmir müəllim mənim dostumdu. Özü də yaxşı adamdı. Adamın əli gəlməz ki, ondan tənqid yaza.

– Sən yaz ver mənə, onsuz çap etdirməyəcəm. Bir işdən ötrü lazımdı.

– Sabaha hazır eləyərəm. Ancaq heç kim bilməsin.

– Onda gözləyəcəm ha...

Qızın gözəlliyi Əliyullanın Atamoğlana olan nifrətini yox elədi və ona elə gəldi ki, Təranə yad bir ölkədən gəlib, Atamoğlanın qızı deyil və təsadüfən Atamoğlanın qapısını açıb içəri girdi. Əliyulla addımlarını yeyinlədib evə çatdı, ancaq nə Gülbənizi, nə də Vəliyullanı görmədi. Qapı bağlanmışdı. Qayınanası Ağanisə ilə eyvanda oturub söhbət edirdi. Elə bil onu maqnit kimi çəkirdilər, qayınatasıgilə tərəf addımladı.

– Necəsən, Əliyulla qardaş? – Ağanisə onu qabaqladı.– Heç görünüb eləmirsən.

– İş-güç başımızı qatıb, Ağanisə bacı. Səhər axırdı, gecə naxır.

– Gülbəniz necədi?

– Yaxşıdı.

– Vəliyyullanın toyuna az qalır ha. Hazırlıq nə yerdədi?

İki yüz manat Əliyullanı dilləndirdi.

– Qaydasındadı. – Üzünü qayınanasına tutdu. – Uşaqlar yoxdu. Görən hara gediblər?

– Bilmədim. Mənə bir söz demədilər. Yəqin ayın-oyun almağa çıxıblar.

– Nə qədər iş olsa da, köhnə vətənini unutma. – Ağanisə ona eyhamla dedi və Əliyulla bu eyhamı göydə tutdu. Aldıqlarını stolun üstünə qoydu.

– Otur, çay iç. – Qayınanası könülsüz danışırdı. – Bu gün nə yaxşı tez gəlmisən?

– Kirvə məsələsini həll etməliyik.

– Doğrudan, ay Əliyulla qardaş, kirvə kimi tutursan?

– Hələ tam həll olmayıb. İstəyirdim Kazım müəllimi tutum, onun da ürəyi xəstədi. Deyir, qan görəndə qorxuram.

– Hə, nəsə həll eləmək lazımdı.

–Həll olunacaq.

– Qonşulardan birinin qucağına qoyun, çıxsın getsin. Nə adam axtarırsan?

– Yox, mənim bir oğlum var, kirvəsi də sayılıb-seçilən adam olmalıdı.

– Özünüz bilən məsləhətdi, ancaq Əliyulla qardaş, bizim qonşulara nə olub? Kimdən əskikdilər?

– Mən bir söz demirəm ki...

– Siz söhbətləşin, mən görüm bunlar harda qaldılar. Şeyləri Vəliyulla gəlib aparar…

Əliyulla qapının ağzındakı stulda oturub Təranənin sifarişi haqqında düşünürdü: o bilirdi ki, Təranə bu şeirləri Daşdəmir müəllim üçün yazdırır və Daşdəmir müəllim şeiri oxuyan kimi biləcəkdi ki, bu sözlərin müəllifi Ə.Əmircanzadədi. Daşdəmir müəllim nə qədər mülayim olsa da, qırmızı adam idi, birbaşa adamın üzünə oxuyardı ki, filan vaxt sənə nə qədərsə pul vermişəm, sənin burnundan gəlsin. Ancaq Təranənin vədi ona güc gəldi. Həm də söz vermişdi. Əgər şeiri sabah əranəyə çatdırmasaydı, qız onun haqqında fikirləşərdi ki, Əliyulla yaza bilmir.

Daşdəmir müəllimin otağındakı silueti gözlərindəki şorgözlük və Təranənin çılpaq kürəyi, sinəsinin yarısı, yumşaq divan kreslolar Əliyullanın gözü önündə canlandı.

Qapının ağzında dururam,
Boynumu da bururam.
Elə səni gözləyirəm -
Məni niyə unutdun?
Mən səni unutmuram.

Eşikdə yağış yağır,
Sellər gurlaşıb axır
Gözün hayana baxır -
Özgə əğyara baxır -
Məni niyə unutdun?
Mən səni unutmuram.

Deyiləm yoldan dönən,
Mənə bir kəlmə denən.
Mənəm sənin bir dənən
Məni niyə unutdun,
Məni unutma yarım,
Mən səni unutmuram.

Əliyullanın şeiri başa çatdırması ilə Gülbənizin gəlişi bir oldu. Vəliyulla anasının əlindən tutmuşdu və Gülbənizin əlində dolu sumka vardı – doğrudan, bazarlıqdan gəldiyi hiss olunurdu.

Əliyulla bir güllə ilə iki dovşan vurmuşdu – bu şeir həm tənqidi, həm də məhəbbət şeirini əvəz edəcəkdi. Şeir, doğrudan da, Əliyullanın ürəyincə idi və ona elə gəlirdi ki, bunun kimi gözəl şeir ədəbiyyatda yoxdur. Bir dəqiqəyə kağıza köçürəcəkdi.

Ancaq Gülbəniz hirsli qayıtmışdı. Vəliyulla ilə hirsli davranırdı.

– Bu nə vaxtın qayıtmağıdı? Hardan gəlirsiniz?

– Bilməmişdik ki, sən belə tez qayıdacaqsan, yoxsa evdə qarovulçu qalardıq.

– Bu nə cür danışıqdı?

– Nə cür danışıq olacaq? Camaat bəxtəvərin kişiləri arvadlarını maşında gəzdirirlər, biz də avtobuslarda, basabasda. Kefdən-damaqdan gəlirik.

– Evə keç, qıraqdan baxan eşidir səsimizi.

– Eşitsinlər də, o yana keçsinlər də. Oğurluğum yox, qəhbəliyim yox.

– Yaxşı, yaxşı. – Əliyulla oğlunun əlindən tutub içəri apardı. Gülbəniz də arxalarınca gəldi.

– Vəliyulla, qaç nənəgildən setkanı gətir.

– Ata, mən maşına mindim.

– Hansı maşına?

– Ədə, ey, get setkanı gətir. – Gülbəniz qapını açıb içəri keçdi. Əliyulla da günah işlətmiş adamlar kimi onu müşayiət edir, könlünü ələ almaq istəyirdi.

– Sən bu uşağa toy eləyirsən, eləmi?

– Bəli, toy eləyirəm.

– Dəvətnamə paylamısan?

– Bəli.

– Uşağına toy eləyən əvvəlcə kirvə tutar, sonra üstündə pulu olar, lazım olan yerə xərcləyər.

– Ala, pul demirsən, bu pul. O ki qaldı kirvəliyə, onu bir dəqiqənin içində həll edəcəm.

– Həll edəcəksən? Nə vaxt? Bir kirvənin evinə getmək lazımdı, ya yox?

– Lazımdı.

– Ora əliboş gedəcəksən?

– Niyə əliboş gedirəm. Noolub mənə?

– O olub ki... – Gülbəniz Əliyullanın ona uzatdığı pulları görüb səsini xırp kəsdi. – Maaşdı?

– Nə maaş? Maaşı o gün almadımmı?

– Nə bilim e? Nə qədərdi? – Gülbəniz pulları saymağa başladı. Əliyulla onun axıracan saymasını gözləmədi.

– İki yüzdü.

– Hə, iki yüzdü. Kitabdan qazandın, ya neçə?

– Yox. İnnən belə pul olacaq.

– Nə bilim, olsun da. Kim istəməz ki, yaxşı dolanmasın, yaxşı evi-eşiyi, dolanışığı olmasın. Qonşuların hamısı maşınlı olub. Adamın yanından yel kimi ötürlər. Qalırsan yana-yana.

– Maşın bekara şeydi. Yaxşısı avtobusdu, pulunu ver, ağa kimi get.

– Bu söhbəti kənara qoy, onsuz da səni başa salmaq mümkün deyil. Kor tutduğunu buraxmayan kimi, sən də dediyini deyirsən. Nə oldu kirvə? Daşdəmirlə görüşə bildinmi?

– Görüşdüm, ancaq nəsə razı olmadı.

– Bəs Kazım?

– O razı olmağına razıdı, ancaq dedi ki, ürəyi xəstədi, qan görəndə qorxur...

– Qələt eləyir, başını da daşa döyür. Öküz kimi canı var. Prosto ikisi də sənə atıb. Mədəni surətdə.

– Nə danışırsan, Gülbəniz, elə şeymi olar? Kazım müəllimin mənə böyük hörməti var.

– Gördüm hörmətini. Bilirsən, Əliyulla, axırda mən deyənə gələcəksən. Qonşulardan birini uşağı kirvə tutaq, qurtarsın getsin.

– Dedim ki, olmaz.

– Sənin rəislərin, nə bilim kimlərin razı olmur. Neyniyəcəksən?

– Sən kimi istəyirsən?

– Qardaşımı.

– O uşağın dayısıdı, həm də nəşəxorun biridi.

– Mənim qardaşım haqqında axırıncı dəfə olur ki, belə danışırsan. O yüz sənin kimisinə dəyər.

– Dəysin e, intəhası o olmaz.

– O olmasın, Ağarəhim olmasın, bəs kim olsun?

– Deyəcəm.

– Əliyulla, məni infarkt eləmə. Əgər sabah kirvə məsələsi həll olunmasa, özüm bilirəm kimi kirvə tutacam.

– Kimliyini mən həll edəcəm.

– Sənə deyirəm, əgər sabah da bir şey həll etməsən, uşağı qoyacam Atamoğlanın qucağına. Ölsən də elə eliyəcəm. Sən özün kimsən, Əliyulla, adicə bir fəhlə. Sən niyə başqasını bəyənmirsən? Məsələn, Atamoğlanı.

Təranə gəlib durdu gözünün qabağında. Şeir hazır idi, səhər ona çatdıracaqdı.

– Atamoğlanın evi səninkindən yaxşı, pulu, imkanı da eləcə. Sənin gözün niyə onu götürmür? Niyə paxıllıq edirsən?

– Mən Atamoğlanın paxıllığını heç vaxt eləmərəm. Mən şairəm və mənim mənəvi dünyam Atamoğlanın milyonlardan qat-qat qiymətlidi.

– Ə, qurtar, sən Allah, deyəsən Ağanisə bizə gəlir.



***

Taksi onları Zabrata tez çatdırdı. Sən demə, o qədər də uzaq yol deyilmiş. Üçü idi - Əliyulla, Gülbəniz, Ağanisə. Yolboyu bircə kəlmə də danışmadılar və yaşlı sürücü ancaq yoldan, bir də hökumətdən şikayət edirdi.

Ağanisənin bacısı Ağabacı evdə tək idi. Dedilər ki, guya əri Neft Daşlarında işləyir, 15 gün işdə olur, 15 gün evdə.

Əliyulla həyətdə var-gəl elədi, qızlar içəri keçdilər və az keçməmiş Ağanisə tək onun yanına qayıtdı.

– İndi sən külli-ixtiyar sahibisən. Allaha şükür, işini görmüsən. Ancaq… Ağabacı şəhərə gedəcək. Mən də tez qayıtmalıyam. Ancaq adətnən sizi gözləməliyəm. Axı, yengəyəm?!

Əliyulla, doğrudan utandı və Ağanisədən xahiş etdi ki, onlar getsinlər, hər şey qaydasında olacaq.

– Ə, bu saat nə kişiyə, nə arvada etibar var. Mən xalxın gül kimi qızını risk eləyib götürüb gətirmişəm. Birdən, Allah eləməmiş, bir şey olar, qalaram arada.

– Onda...

– Onda biz Ağabacıynan mağazaya dəyib qayıdırıq. Ə, nə utanan olmusan, gündə zəhləmi tökmürdün ki, belə sevirəm, nə bilim nə. İndi o qız, o da sən...

– Gülbəniz, mən səni sevirəm.

– Bilirəm, nə olsun?

– Bəs sən necə?

– Bilmirəm.

– Bizi gözləyirlər?

– Kim gözləyir?

– Ağanisəgil.

– Qoy gözləsinlər.

– Soyun hazırlaş, mən də gəlirəm...

– Hara gedirsən?

– Su başına.

– Su başına getməyin indiyəmi qalmışdı?

– Həyəcanlıyam. Səndəmi?

– Görmürsən, əsirəm. Atamnan qardaşım məni də, səni də birtəhər edəcək.

– Qorxma, heç nə eləməzlər…

Ağabacı çay süzüb gətirdi, Gülbənizdən ağızdolusu danışdı. Ağanisə Gülbənizə şirin çay içirdirdi. Qızın qanaxması başlamışdı deyirdi. Əliyullanın bədəni suyun içində idi. Bir azdan Ağanisə göründü.

– Əyə, zalım oğlu, qıza nə zor gəlmisən? Belə zərif gülü də incidərlər?

– Mən neynədim ki?

– Day bundan artıq neyniyəcəksən? Qan aparırdı qızı. Bir az şərbət içirmişəm.

– Onda sonra olub. Əvvəl heç nə yoxuydu.

– Əliyulla, bilmirsən ki, qız uşağı həyəcanlı olur. Belədi ki, özünü bərk sıxır, sonra saxlaya bilmir. Qanaxma elə srazı olmur ki... Bu axşam daha qıza əl dəymə. Özün də qapını heç kimə açma... Vaxtlı-vaxtında işinə get. Soruşsalar, denən ki, heç nədən xəbərin yoxdu...

***

Əliyulla sübh tezdən Dəşdəmir müəllimin zavoduna gəldi, həm şeiri Təranəyə verəcəkdi, həm də Daşdəmir müəllimlə görüşə bir də can atacaqdı, çünki dünən Əliyulla onunla üzbəüz görüşməmişdi.

Qapıda onu saxladılar, bu Əliyullaya pis təsir etdi.

– Mən Daşdəmir müəllimin dostuyam.

– Daşdəmir müəllimlə dost olanların sayı-hesabı yoxdu.

– Məni özü çağırıb. Mən dünən də gəlmişdim.

– Əcəb eləmişdin. Bu gün o heç kimi çağırmayıb.

– Mən yalan danışıram?

– Bəli, çünki Daşdəmir müəllim indi iclasdadı. Özü də bu gün olmayacaq.

Əliyulla kənara çəkilib təzəcə dayanmışdı ki, dünənki mühasibi gördü. Ancaq mühasib özünü görməməzliyə vurdu.

– Salam, qardaş.

Mühasib ona baxdı.

– Tanımadınmı? Dünən gəlmişdim.

– Hə. «Mozalan»dan? İndi xeyir ola? Təzə getmədin? Ə, bu jurnalist tayfası nə abırsız olurmuş.

– Qardaş, məni içəri buraxdır.

– Zəng elə, ümumi şöbəyə, kağız göndərsinlər. Mənim icazəm yoxdu.

Qara «Volqa» darvazanın ağzında siqnal verdi. Qapıçı divardakı düyməni basdı, qapılar səs sala-sala açıldı, maşın keçəndən sonra bağlandı. Əliyulla Əfzələddin müəllimi gördü, ancaq o üzünü o biri yana tutmuşdu.

– Qardaş, Əfzələddin müəllim də məni tanıyır.
– Tanıyır, deyəydi ki, burax gəlsin. Bir söz demədi ki?
Əliyulla başa düşdü ki, o içəri keçə bilməyəcək, şeiri ona vermək istədi.
– Təranə gəlibmi?
– Hələ gəlməyib. Ay kişi, sən nə istəyirsən? Burdan uzaq ol, sən Allah, məni işə salma. Qoy bir tikə çörəyimi qazanım.
– Neynirəm ki?
– İçəri keçmək istəyirsən. Təranə xanımın adından içəri keçib müdirin yanına gedəcəksən, o da məni işdən qovacaq.
– Mən elə şey eləmərəm.
– Siz jurnalistləri yaxşı tanıyıram.
Atamoğlanın maşını dayandı, Təranə arxa qapıdan düşdü, atasına əl eləyib keçidə gəldi.
– Salam.
– Əliyulla müəllim, sabahınız xeyir. Gəlmisiniz?
– Hə. Məni içəri buraxmırlar.
– Gözləyin, icazə kağızı göndərim.
Təranənin icazə kağızı gəlib çıxmırdı. Əliyulla yenə qapıçıya yaxınlaşdı.
– Təranə kağız göndərəcəkdi, gəlmədi.
– Sən məni lap boğaza yığdın. Gəlsə, görərdin də.
– Ona necə deyim ki, kağız nooldu?
– Ordan zəng elə 3-00-a.
Əliyulla köhnəlmiş boz telefonun dəstəyini götürüb nömrəni yığdı.
– Alo? – O başdan incə səs Əliyullanın hirsini yox elədi.
– Təranə xanım, mənəm. Əliyulla müəllimdi.
– Hə, Əliyulla müəllim, demişəm, bəs kağızı göndərməyiblər? Bu dəqiqə.
Kağız gəlmədi. Sonra telefon zəng çaldı. Təranə qapıçıya dedi ki, onu buraxsın.
Qapıçı ona dönə-dönə tapşırdı ki, təkcə Təranənin yanına getsin.
Otaq başdan-ayağa gül-çiçəklə dolu idi. Divardan artistlərin böyük şəkilləri asılmışdı. Otaq fransız ətrinə bürünmüşdü. Təranənin özü də az vaxtın içində dəyişmişdi.

– Bağışlayın, Əliyulla müəllim, sizi xeyli gözlətdim. Burda buraxılış çox ciddidi. Bu gəlib-gedənlərin əlindən durmaq olmur. Xüsusən də jurnalistlərin.

– Sən burda nə işləyirsən?

– Mən Daşdəmir müəllimin otdel kadrıyam.

– Özü bu gün deyəsən olmayacaq.

– Hə, Lenin sarayında qurultaydadı. Obeddə gəlib qayıdacaq. Nooldu, şeiri yazmısan?

– Srazı. Axşamnan hazırdı. Özü də bir şeir yazmışam, həm sevgidi, həm də tənqid.

– Baxım. – Qız vərəqi Əliyullanın əlindən qapdı, birnəfəsə oxudu. – Afərin, Əliyulla müəllim, ürəyimdən xəbər vermisən, halal olsun, sən əsl xalq şairisən. Bir dəqiqə gözlə. – Təranə otaqdan çıxdı, deyəsən şeiri kiməsə oxumağa aparırdı.

Qayıdıb harasa zəng etdi.

– Aaz, Fira, çayın var. Şokoladıynan? Tez gətir, qonağım var. Hə, gözləyirəm. Sonra deyərəm.

– Əliyulla müəllim, bundan bir dənə də yazarsan. Ancaq bir az başqa cür olsun. Bax yaz ki, belə gözələm, sən məni iyləyib ata bilməzsən. Mənim ətrimi heç bir gözəldən, hətta arvadından da ala bilməzsən. Özün ki, bilirsən, sizə nə demək lazımdı. – Sumkasını qurdalayıb iki dənə əlliliyi ona uzatdı.

– Təranə, mən pulnan yazmıram, xahiş elədin, mən də elədim. Ayıbdı, biz qonşuyuq.

– Bunu sənə elə-belə verirəm. – Fira çay gətirdi. – Şair budu?



– Hə, Fira.

– Nə paxıllıqdı, ver biz də oxuyaq.

– Deyiləm yoldan dönən,  
Mənə bir kəlmə denən,  
Mənəm sənin bir dənən  
Məni niyə unutdun,  
Məni unutma, yarım,  
Mən səni unutmuram.

Təranə bu bəndi əzbərdən deyirdi.

– Nə gözəl nəğmədi.
– Hə, Təriş, birtəhər olacaq oxuyanda.
– Olsun da, hələ bu harasıdı? – Hələlik, cana, çaya görə sağ ol, - Əliyulla iki əlliliyi cibinə qoyub durmaq istədi.
– Sabah şeiri gözləyirəm, Əliyulla müəllim. Çayını iç.
– Ançaq elə elə ki, qapıda çox gözləməyim.
– Nə danışırsan, lap papa ilə evdən çıxanda bir gələrik.
– Elə olarmı?
– Niyə olmur, Əliyulla müəllim? Biz qonşuyuq, hələ desən qohumuq.
– Atamoğlanın bir yana səfəri-zadı yoxdu ki?
– Noolub ki?
– Lazımdı.
– Yox. Papa evdə, işdə. Niyə soruşdun?
– Heç, bu gündə, sabahda bir sizə gələcəyik.
– Xeyir ola, Əliyulla müəllim? Xeyir işmi var? – Qızın rəngi bozarıb-qızardı.
– Xeyirdi, əlbəttə ki?
– Nə məsələdi, ürəyimi çəkdiniz.
– Kirvə məsələsinə görə. İstəyirəm Vəliyullanı papanın qucağına qoyam.
– Oyy!! Mən də dedim görən nə olub. Əla, papaya deyərəm, atkaz eləməz.
Əlliliklər Əliyullanı coşdurmuşdu. Dünən iki yüz, bu gün yüz. Bir yüz də olsaydı, yaxşı olardı. Vağzalda kitab satmağa ehtiyac olmazdı. Elə şeiri yazıb satsan lap əla olar.
– O qız nədi, Fira, o da şeir istəyir?
– Yox əşi?
– İstəyir, yazım gətirim.
– Lazım deyil, Əliyulla müəllim. Qoy gedib işləri ilə məşğul olsunlar.
Əliyulla zavoddan çıxanda qapıçı ona həsədlə baxırdı.
– Görürsən, sümüyü şırt vurur. Bir diri yüzdüyü varıdı. – Əliyulla fikirli olduğundan ona əhəmiyyət vermədi. Əslində onun kefi kök idi, ancaq süst düşmüşdü və elə bil dünyanın

ağırlığı Əliyullanın çiynінə hopmuşdu. Dayanacağa qədər bir az yol vardı və bu yolda Əliyulla qəti qərara gəldi ki, oğluna kirvə elə Atamoğlanı tutacaq, çünki Atamoğlan onun yaxşı sandığı Daşdəmir müəllimdən, Kazım müəllimdən qat-qat yaxşı idi: bu yaxşılığın nədən ibarət olduğunu Əliyulla ayırd edə bilməsə də, hər halda belə idi. Əliyulla hər yanda Daşdəmir müəllimin də, Kazım müəllimin də kişi adam olduğunu, onlar haqqında tənqid yazmayacağını, onların buna layiq olmadıqlarını bildirirdi. Əfsus. Bu səhər, Gülbənizin ona verdiyi son vaxtın ərəfəsində Əliyulla səhv etdiyini başa düşdü və qəti qərara gəldi ki, elə bu andan başlayaraq onların ikisi haqqında ən kəskin tənqidi şeirlər yazacaq. Kirvə məsələsini də həll etmiş kimidilər. Gülbəniz işləri yoluna qoyacaq. Onsuz da Təriş atasına axşamüstü çatdıracaq.

İşə çatan kimi əynini dəyişməmiş suyun ağzını açıb şlanqı tutun dibinə qoydu. İdarəyə getdi. Kazım müəllimin qəbul otağına yığışıb qurultayın gedişinə baxanların sayı çox idi.

– Kazım müəllim ortada oturub, göstərəcəklər.

– Gərək axıracan baxasan ki, görə biləsən.

Deməli, Kazım müəllim də, Daşdəmir müəllim kimi qurultaydadılar.

– Şair, yaz ey, belə şeylərdən yaz.

– Mən belə şeylərdən yazmıram. Mənimki tənqiddi, bir də...

– Bir də nə? – Kazım müəllimin katibəsi ondan soruşdu.

– Bir də məhəbbət.

– A, Əliyulla müəllim məhəbbətə keçib.

Əliyulla evə tez getmək istədi. İşdə az adam vardı və zavodda iş ahəngi yox idi. Fazil papiros çəkirdi.

– Şair, xoş gəlmisən. Qurultaydan de, danış.

– Qurultaydan, yoxsa qurultudan?

– Elə ikisindən də.

– Fazil, bir papiros ver.

– Ə, sən çəkən döysən, axı?

– İndi ürəyimə düşdü. Birini yandıracam.

Papiros yandırdı.
– Kirvə məsələsi noldu?
– Düzəldi.
–Hansı müdirin boynuna qoydun?
– Qonşulardan biri olaaq.
– Ə, mən bilirəm dana. O gün dedim. Ən yaxşısını eləmisən.
– Evə getmək istəyirəm, Fazil, onsuz işdə az adam var. Olanı da televizora baxır.
– Getmiyəndə nağayracaqsan. Suyun ağzını da bu tərəfə sal. Bəsdi Kazım müəllimin ağaclarını suladığın.
Əliyulla şlanqın istiqamətini dəyişdi. Su quruluqdan cadar-cadar olmuş yerlə aşağı axırdı. Ağacların arasında asılmış lövhələr təzə idi. Böyük hərflərlə yazılmış «Sov.İKP-yə eşq olsun» lövhəsinin yanında dayandı. Suyun axını bura idi.
– Sula partiyanı, onun şüarlarını.
– Partiya da susuz qalmayacaq ki.
O da Əliyullanın ürəyinə damdı ki, papkasındakı kitabların arasında beş-on dəvətnamə qalıb və onun payladığı dəvətnamələrin çoxu boş çıxacaq.
Əliyullanın bədənini isti tər basdı. Birdən toy günü toyxanada yerlər boş qalardı və onda tanış-biliş onu lağa qoyub deyəcəkdi ki, gördün, Əliyulla, yekə-yekə danışırdın, deyirdin nə bilim hansı nazir, idarə müdirləri gələcək. Burdan-bura qapının ağzında gor qonşularını çağırmadın. Onda gərək Əmircanda gözə dəyməyəydi.
Suyu axa-axa qoyub Əzizbəyov metrosuna tələsdi.

## Toydan sonra

Şəki doxturu çağırmışdılar. Uşağı Atamoğlanın qucağındakı ağa oturtdular. Şəki doxtur Vəliyullanın artıq ətinə keyləşdirici dərman vurdu, sonra Vəliyullaya ordan-burdan suallar verdi, sonra ülgücü işə saldı. Vəliyulla bircə dəfə «oy» dedi.
Elə bil daha heç nə olmayacaqdı.

Şəki doxtur uşağı rahatlayıb yerə uzadandan sonra bir vedrə su gətirtdi, Əliyulla ilə Atamoğlanın əlini birləşdirib kirvəliklərinin qayım-qədim olmasını arzuladı.

Stol arxasında oturdular.

Kamandar müəllimnən Ağahüseyn başda oturmuşdular. Kamandar müəllim yenə tamadalıq edirdi və onun tamadalığı qudasının çox xoşuna gəlirdi.

Deyilənə görə, guya Aşıq Gülqayıtla aşıq Əlverdi Lənkərana toya gediblərmiş.

Əmircan qəsəbə Mədəniyyət evinin «Əmircan» ansamblının uşaqları toyu çox yaxşı yola verdilər. Gülbənizin bənizləri çiçəklənmişdi. Əliyulla toyda əmin oldu ki, Gülbəniz dünyada bir dənədi, daha onun dediyi ilə oturub-duracaq.

Atamoğlan, sən demə, yaxşı oğlan, yaxşı qonşu imiş, – Daşdəmir müəllimdən də, Kazım müəllimdən də.

Dəftərdəki siyahıda Vahidin, Qafarın, Göyüşün, Səfinin də adları vardı.

Əliyulla möhkəm içmişdi, son neçə ildə belə içdiyi yadına gəlmirdi və onun sərxoşluğu Gülbənizin acığına getmirdi. Bağdagülgildən aldığı Kostroma inəyinin qatığına su töküb içirirdi. Əliyulla qatıqdan içib rahatlandıqca ürəyində deyirdi:

– Əlvida, ağaclar!

– Əlvida, dağlar!

– Əlvida...

*1986– 1988*

# EYFEL QÜLLƏSİNDƏ “TƏRƏKƏMƏ”

## I

...O nə yuxuydu dünən görmüşdü? İlahi, elə də yuxumu olardı? Qırıq-qırıq, qatmaqarışıq. Köhnəlmiş kino lentləri kimi. Şəhərdə olduğu beş ildə çox yuxular görmüşdü. Bu özgə bir aləm idi, gəlib girmişdi yuxusuna. “Zaman” xəbərlər proqramına güclə qulaq asmışdı. Estrada proqramı olacaqdı sonra. Özgə vaxt olsaydı, sona qədər qulaq asardı. Yatmaq istəyirdi. Yatmaq. Yuxu gözündən tökülürdü.

Otaqda tək idi. Yoldaşları gecə növbəsinə getmişdilər. Stolun üstündə yuyulmamış qab-qacaq, ağzına qədər dolu külqabı dəftər-kitablara qarışmışdı. Divardan jurnallardan kəsilmiş şəkillər asılmışdı. Pəncərənin qabağına radionu qoymuşdular. Xarab olmuşdu. Bir həftə olardı ki, oxumurdu.

Yerini açıb uzandı. Həmişə yatmamışdan qabaq əlinə kitab alıb oxuyardı və kitab oxuya-oxuya yuxuya gedərdi. Son vaxtlar hamının rəğbətini qazanmış bir müəllifin axırıncı kitabını götürüb həvəssiz baxdı. Qətilə (onunla bir qrupda oxuyurdu) hər gün soruşurdu ki, nə oldu, kitabı oxuyub qurtardınsa, ver biz də oxuyaq. Həmişə bir bəhanə gətirirdi. Deyirdi ki, vaxtı olmayıb, bir-iki günə oxuyub qurtarar, sonra gətirib verər. Ancaq söz idi deyirdi. Sonuncu kursda elə bil oxumaqdan bezmişdi. Adi bir qəzet məqaləsini sonadək oxumağa həvəsi çatmırdı.

İndi kitaba  baxanda ona elə gəldi ki, kitabdakı hərflərin hər biri ayrılıqda bir adamın fotoşəklidi və hər birinin ayrılıqda ürəyi, başı, gözü, qulaqları, ağzı, burnu, əlləri, ayaqları var. Hər bir hərf adam kimi danışa, gülə, yeyib-içə bilir. Hər bir hərf biri o birindən seçilir: biri böyükdür, biri kiçik...

Kitabı stolun üstünə qoyub hərflər və adamlar haqqında fikirləşdi. Hiss etdi ki, yaman acıb. Qarnı tez-tez quruldayırdı. Bu gün çörək yeyibmi? Gündüz saat 12-də oyanıb. Özünü Rəfael müəllimin mühazirəsinə güclə çatdırıb. Birinci qoşa saatda oturub, o birisindən qaçıb. Sonra? Sonra Cavanşiri görüb. Jenyanın

bufetində oturub çay içiblər. Gəlmişdən-keçmişdən söhbət ediblər. Saat dördün yarısında iki dənə sosiska yeyib. Bütün günü cəmi iki sosiska. Sosiskayla adammı dolanar? Durub qazanı yaxaladı. Arabir yemək bişirirdilər. Dünəndən bişirilmiş kartof soyutması qalmışdı. Qabda yarımçıq çörək vardı. Şkafın gözünə baxdı. Elə öyrənmişdi ki, supu da soğanla yeyirdi. Heç nə tapmadı. Şkafın qapısını örtəndə qapının üstündəki siyahıya gözü sataşdı. Siyahıda üçünün adı yazılmışdı. Onun və otaq yoldaşlarının. Yuxarıdan ayın tarixi qeyd olunmuşdu. Sol tərəfdən isə kim hansı işi görəcək, o yazılmışdı. "B" - yəni bazarlıq. Deməli, bu gün o, bazarlıq etməli imiş. Allah qoysa, eləyəcəkdi. Ora-bura getməkdən halı yox idi. Bu filan kinodu. Bu filankəslə görüşdü. Bu filan festivaldı. Özünü danladı. Söz verdi ki, daha atacaq ora-bura qaçmağın daşını. Başlayacaq adam kimi yaşamağa. Adam olacaq.

Birinci loxmanı içəri ötürəndən sonra mədəsinin üşüdüyünü, eyni zamanda nəyinsə bağırsaqlarını bıçaq kimi kəsdiyini duydu.

–"Birinci dəfə ha döy. Beş ildi belə dolanıram. Heç bir şey olmaz. Tələbənin, bir də əsgərin canı it canıdı. Daşdan yumşaq nə olsa, əridər. Nə çox mənim kimilər" – yeyə-yeyə beynində götür-qoy etdi. Və özündə nə isə bir boşluq hiss etdi. Bu boşluq otaqdakı bütün əşyalara – stola, stullara, yuyulmamış boşqablara, oxunmamış kitablara keçdi...

Heç kim haqqında, heç nə haqqında düşünmürdü. Güzgünün qabağına keçdi. Özünə baxdı. Saçları dağınıq idi. Neçə gün idi ki, daraq dəymirdi. Qızlar danlamaqdan yorulmuşdu. Deyirdilər ki, cavan oğlansan, niyə özünə fikir vermirsən? Niyə daramırsan saçını? Darağın yoxdursa, daraq verək. Ayişə sumkasından daraq çıxarıb vermişdi. Demişdi ki, bir də saçını dağınıq görsəm, yolub tökəcəm. Nə olsun, qızın deməyi özünə qalırdı.

Gözləri qıpqırmızı idi və ürəyindəki boşluq, ümidsizlik gözlərindən yağırdı. Bənizi azca saralmışdı. Adətən, ölən adamlar ölümdən qabaq təxminən belə vəziyyətə düşürdülər. Ancaq ölən adamlar ölümdən qabaq gözəl olurlar. Hədsiz dərəcədə. O isə özündə sən deyən gözəllik görmürdü. Bircə şeyi duyurdu – ümidsizliyi. Həyatda bundan betər nə ola bilər?

Ürəyindən çay içmək keçdi. Çaynikdə su az idi. beşinci mərtəbəyə də su ömründə gəlməmişdi. Görən gələcəkdimi? “Qardaş, bu gün-sabah XXI əsrdi. Kosmos əsri. Camaat ürəyi istəyəndə bilet alıb gedib kosmosda çay içir. Biz beşinci mərtəbəyə su çıxara bilmirik”.

Şikayət etmədikləri yer qalmamışdı. Fakültənin dekanlığına, universitetin rektorluğuna, JEK-ə, nə bilim daha haralara. Arada “Kirpi”yə də yazmışdılar. Xeyri olmamışdı. Beşinci mərtəbəyə su qaldırmaq məsələsi problemə dönmüşdü.

Allaha şükür ki, evdə nə qənd vardı, nə də çay. Qonşulardan da, o qədər istəmişdi ki, heç kimə ağız açmağa üzü gəlmirdi. Aşağı kursun uşaqlarından kimə desəydi, ona çay hazırlayardı. Ancaq istəmədi.

–Təzə gəliblər. Həvəslidirlər oxumağa. Qoy oxusunlar. Ancaq axırda mənə oxşamasınlar. - Yatmaq istəyirdi. Yuxusu gözündən tökülürdü. Kitabı təzədən götürüb oxumaq istədi. Qeyd etdiyi səhifəni açdı. O saat da örtüb stolun üstünə qoydu. İşığı söndürüb yerinə uzandı. Pəncərənin örtüyünün arasından Ayın və ulduzların işığı bir xətt boyunca divara düşürdü. Maşınların hay-küyünün içindən oyun havaları eşidilirdi. Hardasa toy çalınırdı. Yataqxananın 50-60 metrliyində “Ovçular evi”, ona bitişik isə mehmanxana və böyük restoran vardı. Bu restoranda hər axşam toy olurdu. Çox güman ki, bu səs oradan gəlirdi.

– “Toy eləmək də yaxşı şeydi. Evlənirsən, səhər əməlli-başlı hazır yemək yeyirsən. səni işə yola salırlar. Axşam saat altı oldumu, kimsə qapının ağzında bənövşə kimi bitir, yolunu gözləyir. Yemək stolun üstündə hazır olur. Bir xoş təbəssüm görən kimi bütün yorğunluğun çıxır bədənindən. Yemək şirin dadır ağzında. Ancaq... Ancaq evlənmək də asan iş deyil”.

Gözünün qabağına gətirdi ki, budur, onun toyudur. Məclis-filan öz yerində. Çalğıçılar Bakıdan gəlib. Oxuyan da respublikanın ən gözəl müğənnisidir. Atası, anası, qohum-qardaşı, tanış-bilişi oturublar. O özü isə başdadır. Yanında da Süsən. Ən yaxşı paltarını geyinib. Amerkanski cins, finski ayaqqabı, qalstuk... Şəhla isə tam ağ geyimdədir. Qar qıza oxşayır. Fransız ətrinin iyi

bütün məclisi bürüyüb. Təkcə saçı qısadı. Gərək kəsdirməyəydi. Saç nə saç idi. üstünə gün düşəndə göy qurşağı kimi yeddi rəngə çalırdı. İki göz istəyirdi duraydı tamaşasına. Elə saç bir də heç kimdə olmayacaqdı. Deyir ki, saçımı elə saxlayıram, elə bil ki, muzeydədi. Bir dənəsi də yerə düşməyib. Nə olsun? Kim biləcək, kim görəcək sənin büküb saxladığın o saçı? Kimin nəyinə gərəkdi? Yumdu gözlərini. Hər şeyi unutdu. Dənizi gətirdi xəyalına. Rəqəmləri saymağa başladı. Bir, iki, üç... otuz altı, otuz yeddi... doxsan doqquz, yüz... Qurtardı rəqəmlər. Təzədən birdən başladı və bilmədi ki, neçəni sayanda yuxuya gedib.

Elə bil ki, bütün bunların hamısı o yuxu üçün idi. Aclıq da, toy da, ümidsizlik də. Bütün hər şey. Və bütün bunlar olmasaydı, o yuxunu görməyəcəkdi. Yuxu nə yuxuydu, ilahi? Kimlər yox idi o yuxuda? Nələr yox idi o yuxuda? Onun tanıdığı və tanımadığı adamlar. Gəzdiyi və görmədiyi yerlər. Dünyanın müxtəlif ölkələri, şəhərləri. Ziyafətlər. Paris. Eyfel qülləsi... Hamısı gəlib girmişdi onun yuxusuna.

Əziz müəllim fəlsəfədən mühazirə oxuyanda yuxu haqqında çox danışmışdı. Demişdi ki, insanın beynində çoxlu sinirlər var. İnsan yatanda sinirlərdən bəzisi oyaq qalır və bunun nəticəsində insan yuxu görür.

Sinirlər, fikirlər, yuxu.

Və Mina nənəsi də deyirdi ki, ürəyi saya adamların sabah nə olacaqsa, gəlib girir yuxusuna. Adama agah olur ki, başına nələr gələcək, yazıdı da, yazılıb insanın alnına.

İndi ona qəribə gəlirdi ki, yuxu haqqında, yuxunun olub-olmaması haqqında fəlsəfə müəllimi də danışırdı, nənəsi də. Fərq onda idi ki, fəlsəfə müəllimi fikirdən, sinirdən çox danışırdı. Nənəsi isə bu haqda düşünmürdü də heç. Savadsız idi, hərfləri tanımırdı.

İndi gördüyü yuxunu hər ikisinə də danışsaydı. Əziz müəllim zoğallayacaq, nənəsi isə deyəcəkdi ki, bala, Allah axırını xeyirə calasın. Yaman qatmaqarışıq yuxudu. Qaç, suya danış.

Ancaq tamam özgə aləm idi bu yuxu...

## II

Əvvəl-əvvəl dünya öz adiliyində idi. dağlar, dərələr, çaylar, yollar, daşlar bomboz idi. göyün üzü tərtəmiz idi. bir parça da olsun bulud yox idi və göy dənizə oxşayırdı.

Birdən qılınc kimi iti küləklər əsdi və bu külək yolları toza qərq elədi. Çayların sürəti azaldı, rəngi bulandı. Ağaclar öz yerində rəqs etməyə başladılar. Dağlar-daşlar lərzəyə gəlib uğultulu səslər çıxardılar. Göyün üzünü qaranlıq bürüdü. Günəşin şüaları yoxa çəkildi. Elə bil dünyanı işıqlandıran, hamıya eyni gözlə baxan, hamıya eyni dərəcədə işıq, azadlıq bəxş edən Günəş heç yerli-dibli yox idi. Yağışlar yağmağa başladı. Hər damcısı bir vedrə boyda. Bir azdan qırmızı rəngə çaldı damcılar. Qan kimi qıpqırmızı idi. Dağlar, onun dalınca dərələr, çaylar, yollar qızardı. Yollardan qırmızı sel axdı. Qızartı onların həyatini qızartdı. İnsanlar da qırmızı idi - əlləri, ayaqları, başları, gözləri, kostyumları, köynəkləri, ayaqqabıları, corabları... Dünya qırmızı olanda elə gözəldir ki...

Şüşəbənddə uzun stol açılmışdı. Stola sadə yeməklər düzülmüşdü. Duz, çörək, pendir, yağ, bal, göyərti. Başda o özü oturmuşdu. Yanında bir stul da vardı. Lakin o stul boş idi və o stul Süsənin idi. Süsən onun nişanlısı idi. Universitetdə bir oxuyurdular. Eyni fakültədə, eyni qrupda. Orda tanış olmuşdular. Dördüncü kursda nişanları olmuşdu. Hələ gəlib çıxmamışdı. Bəlkə də yol gəlirdi və nə vaxtsa gəlib çıxacaqdı. Darıxırdı onun üçün. Yaman darıxırdı. Gözü elə yolda idi. İstəyirdi ki, Süsən tez gəlsin və onun yanında otursun. Axı, insanın ömründə bircə dəfə toyu olur. İndi bu toyda da Süsən olmasın, tək-tənha otursun, gözləri yolda qalsın, daha onun nə əhəmiyyəti. Yan tərəfdən atası İslam kişi, anası Aliyəyə yer saxlamışdı. Onlarla üzbəüz əmiləri, dayıları, qonşuları oturmuşdu. Bir azdan anası gəldi. Qırmızı don geyinmişdi. Boynuna taxdığı qızıl boyunbağını, qızıl üzüyü, qızıl saatı da qıpqırmızı idi.

Stola Şəhla qulluq edirdi. O, hardan gəlib çıxmışdı bura?

Onun buralarda nə işi vardı?

Şəhla sadəcə olaraq tələbə idi. Atası müharibədə yaralanmış, beş-on il yaşayandan sonra ölmüşdü. İki bacısı, bir qardaşı vardı. Özgə heç nə bilmir onun haqqında. Yox, bir şeyi gizlətdi hamıdan. Onu təkcə özü və bir də Şəhla bilirdi. Bir ildən artıq idi ki, onların arasındakı münasibətlər yoldaşlıq, hətta dostluq çərçivəsindən çox-çox kənara çıxmışdı. Əvvəl-əvvəl tində-bucaqda görüşürdülər. Və o elə ilk vaxtlardan Şəhlanın görüşünə nə isə ürəksiz gedirdi. Onunla hər gün görüşürdü. Əslində, o qədər də pis qız deyildi Şəhla. Ürəyinə yatmırdı nəsə. sonra Şəhlagildə görüşürdülər. Gecələr qız onu buraxmır, zəli kimi yapışırdı.

Sükutu Məmməd əmisi pozdu.

–Deyəsən, gələsi olmadı – Süsəni deyirdi. – Gözləməyimiz əbəsdir. Şəhərə gedəndə görər. İşimizə başlayaq.

Bu sözə bənd imiş Şəhla. İri padnosda, armudu stəkanlarda çay gətirdi. İki rəngli stəkanı nəlbəiyə qoydu. Qaşığı çayın içinə salıb onun qabağına gətirdi.

Adətən belə şeyləri toyda edərlər. Bəy üçün rəngli çay. İndi bildi ki, Şəhla nə üçün gəlibmiş onlara. O Şəhla ki, onun nişanlısını görməyə gözü yox idi. O, ikinci stəkanı də boş stulun qabağına qoydu.

–Zəhmət olmasa, bəy şirin çayın nəmərini versin.

Hamı ona baxır, nə edəcəyini gözləyirdi. Əlini cibinə atıb iki qırmızı onluq çıxartdı. Şəhlaya tərəf uzatdı. Şəhla pulu alıb təzim etdi. Sonra növbə ilə hamıya çay verdi. Əlini önlüyünə silib çıxdı.



Özünü tamam itirmişdi. Niyə stolun başında oturub? Bu məclis nə üçündür? Toyu niyə belə maraqsız keçir? Bəlkə Süsən yoxdu, ona görə? Çalğıçılar niyə çalmır? Çağırmayıblar, ona görə də nə gəlirlər, nə də çalırlar. Bəs bacısı, qardaşı niyə yoxdur toyda? Axı, bir az qabaq bacısının yanında idi – Bakıda. Niyə ona deməyib? Bacısı lap dərsini atmaq idisə gələcəkdi. Qardaşına da gərək teleqram vuraydı. Odessada idi. O da hökmən gələcəkdi. Necə də gəlməyəydi? Ailənin ilk xeyir işi idi. onların yoxluğu ilə əmisi arvadlarının yoxluğu üst-üstə düşürdü. Məmməd əmisinin də, Ziyad əmisinin də gözlərindən bir narahatlıq

yağırdı. Söhbətin ucundan-qulağından eşitmişdi ki, iş nə yerdədir. Narazılıq vardı aralarında.

Çayı içib qurtardılar. Bəzilərininki isə soyuyub qaldı stəkanında. Bir müddət səssizlik bürüdü məclisi. Hərə öz aləmində fikirləşirdi. Nə fikirləşirdilər, təkcə onların özləri, bir də Allahları bilirdi. Atası stulda qurcalanıb səssizliyi pozdu.

–Hə, nə durubsunuz, soyutmayın yeməkləri.

Ömründə cəmi-cümlətanı bir toyu olacaqdı. O toy da belə? Nəsə, birtəhər keçir. Hamı ancaq öz aləmindədi. Nə çalan var, nə oxuyan, nə oynayan. Tamada da görünüb eləmir. Vəli müəllim gəlib çıxmamışdı. O basalaqda nə qədər böyük, kiçik məclis olurdu, oraya ya atası, ya da Vəli müəllim tamada olurdu. Ən çox da atası. Ancaq bugünkü məclisdə atasının tamada olması yaxşı çıxmazdı və atası bunu heç istəməzdi də. O qədər işi var. Qonaq-qaranı qarşılamaq, onları yerləşdirmək. ev işlərinə, yeməyə nəzarət etmək. Vəli müəllimin yeriydi. O da, Allah bilir, harda gecikib. Gəlib çıxacaqdı. Bir az geci-tezi vardı.

## III

Deyəısən, rahat yatdı bir az.

## IV

Diqqət!

Diqqət!

Diqqət! Kamera və mikrafonlarımız Lenin adına mərkəzi stadiondadır. Hörmətli radio və televiziya tamaşaçıları, bu gün burada dünya çempionatının final oyununda SSRİ-nin və Braziliyanın yığma komandaları görüşür. Komandaların heyəti ilə tanış olun. Qonaqlar Braziliya futbolçularıdı. Bir nömrəli oyunçu... iki nömrəli oyunçu... on bir nömrəli oyunçu...

SSRİ-nin yığma komandası dünənki heyətdə çıxış edir.

Danışan Nikolay Ozerov idi, ürəkdən, özü də çox şirin, fasiləsiz danışırdı. Elə bil, kimsə dalınca düşmüşdü.

...SSRİ-nin yığma komandası ilk dəfədir ki, final görüşünə çıxıb. Mütəxəssislərin fikrincə, onlar rəqiblərindən həm texniki, həm də fiziki cəhətdən çox güclüdürlər. Görək oyunun axırı necə qurtaracaq? Budur, sovet futbolçuları hücuma keçirlər. Banişevski topla bir neçə müdafiəçini aldadıb cərimə meydançasına daxil olur. Qapıçını da aldadır. Qapı boşdur. Vurmaq lazımdır. Bu nə oyundur? O topu ayağının altında saxlayıb oynadır. Bizə qol hava, su kimi lazımdır. Qapıçı yenidən onun ayaqları altına yıxılır. Hücumçumuz onu bir də aldadıb vurur. Qool! Qool! 1:0. “Neftçi” komandası bu oyunda qalib gəlsə, güclülər dəstəsində öz yerini saxlayacaq. Bizə qələbə lazımdır. Ancaq qələbə! Belə olarsa, güclülər dəstəsini Yerevanın “Ararat” komandası tərk edəcək. Onlar bu gün son turda Moskva dinamoçularına uduzmuşlar.

...Taxta dirəklər basdırılmış və dirəklərə dəmir torlar bərkidilmişdi. Top tez-tez tora dəyib onu silkələyirdi. Hörümçəyə oxşayırdı top. Torun içində çabalayır, meydançaya qayıtmaq istəyirdi.

## V

Elə həmin o meydançada kiçik bir mağar qurmuşdular. Mağarın başında bir stol qoyulmuşdu. Stolun üstü cürbəcür güllərlə dolu idi. Bu onların stolu idi. Bəylə gəlin onlar üçün bəzədilmişdi. Xalçanın üstünə pambıqla “Toyunuz mübarək olsun!” sözləri yazılmışdı. Onu ora dəvət etdilər. Yoldaşlarından ayrılıb getdi stola tərəf.



– “Yenə də tək-tənha oturmalıyam – Süsənsiz. Harda qaldı görən? Niyə gəlib çıxmadı? Yoxsa yolda başına bir iş gəlib? Allah eləməmiş, birdən qəza-zad olar. Yox, Allah qoysa, heç nə olub eləməz, gələcək. nə vaxtsa gələcək”.

Keçib oturdu stolun arxasında. Məclisdə oturanlar qohum-tanışları idi, onlardan gizlənmək istəyirdi. Odur ki, başını güllərin arasına soxurdu.

Stolların üstünə kələm dolması və bozartma qoymuşdular. İçki yox idi. Onun əvəzinə xırda cürdəklərdə bulaq suyu vardı. Yüz qramlıq stəkanlara həmin sudan tökülür və sağlıq deyilirdi.

Vəli müəllim qızışmışdı. Coşub-daşırdı. Sağlıq-sağlığın ardınca deyilirdi. Olanlar, olmayanlar haqqında sağlıqlar bir-birini əvəz edirdi. Arada şuluqluq eləyənlər də olurdu ki, onu da Vəli müəllim cərimələyirdi. Aşıq Ədalət oxuyur, dastan danışırdı.

Qardaşı, bacısı gəlmişdi. Arada atasını, anasını, qardaş-bacısını çıxarıb oynadırdılar. Gah "Vağzalı" çalınırdı, gah da "Tərəkəmə". Əmisi arvadları gəlməmişdilər. Atası uşaq yollamışdı. Zor ha deyildi. İstəmirlər, gəlmirər.

Mehdi ilə Kitay içib piyan olmuşdular. Oynamaqdan doymurdular. Elə aşığa sifariş verib səndirləyə-səndirləyə yalandan da olsa, əl-qol atırdılar. Birdən Mehdi əlini qaldırıb dedi ki, daha bəsdir, bu havaları çaldığı.

–Aşıq, ağrını allam, indi də bir "Ayrım" havası çal.

Aşıq bilirdi ki, belə bir hava yerli-dibli yoxdu. Mehdi içib piyan olub. Odur ki, ağlına gələn bir hava çaldı. Mehdi də bir az əl-qol oynadıb dayandı.

–Aşıq, bu "Ruhani"di. Mən sənə dedim ki, "Ayrım" havası çal, "Ayrım" havası.

Aşıq bu dəfə "Dilqəm"i çaldı.

–Ə, yekə kişisən, sarıma bizi. Guya biz "Dilqəm"nən "Ayrım" havasını ayıra bilmirik. "Ayrım" havası çal görüm.

Aşıq dedi ki, elə hava yoxdu.

–Var, aşıq, var! Necə yəni, mən öz havamı bilmirəm? Çal "Ayrım" havası.

Vəli müəllim Mehdini yanına çağırdı. Mehdi getmədi. Vəli müəllim qarabaşlara əmr etdi ki, onu hüzuruna gətirsinlər. Ayı Temirnən Kosa Mansır Mehdini quş kimi caynaqlarına alıb gətirdilər.

–Ə, Mehdi, bu nə oyundu çıxarırsan?

–Nağayrıram, ağrın alım?

–Şuluqluq salırsan.

–Ə, Vəli müəllim, mən uşağam, nəyəm, şuluqluq salam. Dərs-zad ha döy. Deyirəm havamı çal, oynayım. Ayrı nə iş tutmuşam?

–Ə, Mehdi, "Ayrım" havası yoxdu.

–Müəllim, ayıbdı. Ali təhsilin var. Mən şoferliyi oxumuşam. Qıraqdan baxan nə deyər? Bu da bizim oxumuşumuz. – Əlini Vəli müəllimə uzatdı.

–On manat ştraf!

–Niyə verirəm, ə? On manatı çöldən ha tapmamışam.

–On manat!

–Çalsın oynuyum.

Vəli müəllim bu dəfə üzünü Ayı Temirə tutdu. –Ə, Temir, onun cibindən çıxart on manat at çamadana.

Qarışıqlıq düşdü. Kitay dostunun köməyinə gəldi. Süpürüşdülər. Birdən Mehdi əli ilə kostyumunun düymələrini açıb: - Ə, dəymə, qoy axtarsınlar, görək cibimdən nə tapacaqlar. Nə var ki, nə tapsınlar. Siçanlar oynaşır, - dedi.

Temir axtardı bütün ciblərini Mehdinin. Ancaq, doğrudan bir qəpik də tapmadı.

Sonra Gümüş oynadı. Bütün hamı əl çalırdı Gümüşə. Hamı həsədlə baxırdı. O, özü də istəyirdi ki, tutub yesin Gümüşü və Gümüş kimi bir oğlu olsun. Hamı şabaş verdi. Gümüşün əllərinə sığışmadı onluqlar, iyirmibeşliklər Axır, anası qucağına alıb çıxardı Gümüşü ortalıqdan.

Vəli müəllim son sağlıq dedi. Toy qurtardı. Aşıq bir "Vağzalı" çaldı. "Volqa" onların qapısına sürüldü. Arxadan yengələr düşüb gəlinin qolundan tutdular. Gəlin donunun arxası yer süpürürdü. Bilinmirdi ki, kimdi bu. Ziyad əmisi qoyun kəsdi gəlinin ayağının altında. Bacısı bir sini şokalad atdı gəlinin başına. Balaca uşaqlar konfet yığmağa başladılar. Bacısı qab qoydu ayağının altına. Qab qırılmadı. İkinci dəfə vurdu. Bu dəfə parça-parça oldu. gəlini evə apardılar.

... Oyunçular bir-birinə sarılmışdılar. Bir-birini uzun illərin həsrətlisi kimi öpür, duz kimi yalayırdılar. Valid Sənaninin səsi bütün hər yana yayılırdı.

–Bəli, Azərbaycanın yığma komandası ilk dəfə olaraq dünya çempionu adını qazandı. Bu münasibətlə sizi təbrik edirəm. Bununla da Lenin adına respublika stadionundan verilişimiz sona çatır. Sağ olun. Gələn görüşlərədək.

## VI

Yağış yağırdı. Qırmızı yağış. İsti yağış ara vermədən yağırdı. Heç kəs gözə görünmürdü. Arada şimşək çaxırdı.

## VII

Bir adaya yığışmışdılar. Adı dilinin ucundadı. Ən yaxın qohumları idi. – nənəsi, ata-anası, dayıları. Onları yola salırdılar. Təyyarəylə. Təyyarə dənizin içində hazır dayanmışdı. Sürücü mühərrikləri işə salıb qıraqda papiros çəkirdi.

–Yaman qorxuram. Allah özü yaman gözdən saxlasın. – bunu anası deyirdi. Aliyə xanım. Nənəsi qüvvət verdi anasının sözünə.

–Hə, a bala. Qıraqdan baxan bəxtəvərlik verir. Üstlərində muncuqdan-zaddan bir şey varmı barı?

–Hardan olacaq, ay ana. Əllərim qurumuş hardaydı, tikib asaydım. Nə bilirəm elə şeyləri bir də.

–Onu biz bilmərik bala. Qaynanam ölmüş mənə öyrətmişdi ki, mən də sənə öyrədim? Ağzı otlu malıq. Cadu bilmərik, piti bilmərik. Elə şeyləri Gülü qudan yaxşı bilir. Uşaqlarının alt paltarlarınacan gözmuncuğudu.

Atası oğluna nəsihət verdi. Nəsə çox gizli danışırdılar. Bacısı Gümüşü oynadırdı.

Getmək vaxtı idi.

–Qurban olum, ay bala, ölmədim nəvə toyu da gördüm. Daha dərdim yoxdu. Görüm qoşa qarıyasınız. Belə mənim ağzımnan gəlinimin üzündən öpərsən. deyərsən ki, köpəyin qızı, səni gözləməkdən gözümüzün kökü saraldı. İşini-gücünü atıb gəlsin.

–Yaxşı, nənə ,deyərəm.

Nənəsi alnından öpdü. Anası boynunu qucaqladı. Dayısı əlini sıxdı. Hamı ilə öpüşüb ayrıldılar. Gümüş anasının qucağından düşüb onların dalınca qaçdı.

–Əmi, səni öppədim.

Gümüşü qucağına alıb göyə atdı. Tutub üzündən öpdü. Gümüş onun sağ üzündən öpdü. Sonra əli ilə göstərib sol tərəfdən öpdü. İstədi onu yerə qoysun.

–Əmi, buya qaydı. Buydan da öpüm. – Əlini dodağına qoydu. Öpdü onu dodağından.

–Gəl, əmini yorma.

Pilləkənləri qalxıb təyyarəyə mindilər. Qapı örtüldü. İndi onlar hamını pəncərədən görürdülər. Hamısının bir əli göydə qalmışdı. Təyyarə uğuldayıb göyə qalxdı. Qardaşı solunda, bacısı sağında oturmuşdu. Səssiz danışır, səssiz gülürdülər. Sonra qardaşı lətifə danışmağa başladı.

Güldülər. Üçü də. Bacısı da ara vermirdi gülməyə. Qardaşının qolundan tutub deyirdi ki, danış, sən Allah, heç olmasa,birini də. Qardaşı danışırdı. O isə Süsəni fikirləşirdi. Danışırdı öz-özünə onunla.

Təyyarə Odessada dayandı. Qardaşı diplomat portfelini götürüb görüşdü onlarla və gülə-gülə ayrıldı. Yenidən səmaya qalxdı təyyarə. Bacısı söylədi ki, onların fakültəsində təzə bir fənn də keçirlər. Bu ildən. Şeir fənni. Gərək filologiya fakültəsində oxuyanların hamısı şeir yazsın, şair olsun.

–Bu şərt deyil, - dedi.

–Bilmirəm. Ancaq keçirlər. Yaman çətindi, imtahanından qorxuram.

–Kim keçir onu?

–Şair Dağlı.

–Bir şey öyrədirmi?

–Nə bilir ki, nə öyrətsin? Əlli yaşı var. Bir balaca kitabçası çıxıb.



–Ona deyin ki, hamının şair olması vacib deyil.

–Deyirik. Nə olsun. Sağ qulağından alıb, soldan da o yana ötürür.

–Ona deyin ki, vətəndaş olmaq lazımdı. əsil vətəndaş. Cızma-qaradan bir şey çıxmaz.

Bacısıgilə çatdılar. Bacısının çamadanını, sumkasını götürüb düşdü. Təyyarənin içi uzanıb böyük düzənlik oldu. Aeroport idi deyəsən bura. Axır ki, çatmışdılar. Burda çoxlu təyyarələr vardı. Biri qalxır, biri enirdi. Adları da yazılırdı təyyarələrin üstünə. “Bakı-Moskva”, “Bakı-Leninqrad”, “Bakı-Kiyev”, “Bakı-Simfe-

ropol”. Ey, nə qədər istəsən doludur təyyarə. Adamlar da qarışqa kimiydi. Əllərində, bellərində dolu çamadanlar, səbətlər, bağlamalar. Kimi aparırdı, kimi gətirirdi. Nə aparıb-gətirdiyini isə özləri, öz Allahları bilirdi.

Aeroportdan həyətə çıxdı. Ətrafa göz gəzdirdi. “Turist” mehmanxanası yerindəydi. Balkonlarda çılpaq adamlar oturub çay içirdilər. Çayxananın qabağı dolu maşın idi. Üç-dörd “İkarus” da vardı. Qalan ağaclar, qəzet köşkü, oyuncaq mağazası hamısı öz yerində idi. Ciyərdolusu nəfəs aldı. Təyyarədə ürəyi bir az xarab olmuşdu. Təyyarə elədi də. Allah versin qatara. Taqqataq. Gecə uzanıb rahatca yatırsan. Qəzet oxuyursan, çay içirsən. Qatarda çay içmək bilirsən necə ləzzətlidi? Bir də onu görürsən ki, mənzil başına çatıbsan. Çayxanada əcnəbilər dəyirmi stolun başına yığışmışdılar. İstədi gedib pivə içsin. Sərinləsin bir az. Qəfil səsdən diksindi.

–Salam. – Qırx beş-əlli yaşlarında bir kişi onun qabağında təzim etdi.

–Salam, - dedi astadan. Nə qədər fikirləşdisə, yadına sala bilmədi bu adamı.

–Siz Bəktaşov yoldaşın kürəkəni deyilsiniz?

–Bəli. Siz məni hardan tanıyırsınız?

–Süsən xanım bütün əlamətlərinizi elə verib ki, görən kimi tanıdım. Üzünüzdəki yara nə qədər kiçik olsa da, mən onu uzaqdan gördüm.

Doğrudan da, üzündə nöqtədən azca böyük yara vardı. Süsəni evə ötürəndə qabağını kəsmişdilər. Filarmoniyanın yanında. Oradakı davadan yadigar qalmışdı.

–Mən, Bəktaşov yoldaşın şoferiyəm. İndi tələsirik, vaxtımıza az qalıb. Bizi limanda gözləyirlər. Gecikməyin. Yolda sizə hər şeyi danışaram. Bəs sizin çamadanınız hanı? Hə, budur. Siz zəhmət çəkməyin. Nə danışırsınız? Bəktaşov yoldaş görsə, eşitsə, nə deyər? Üstümüzdə onun ağır zəhməti var. Allah kölgəsini əksik eləməsin üstümüzdən.

–Niyə üstümüzdən? Üstümüzdən deyəndə belə çıxır ki, mənim də. Axı, hələ Bəktaşovun kölgəsi mənim üstümə düşməyib?

Nə olsun, Süsənin atasıdır? Mənə borclu deyil ki? Deyər, qızımı istəmisən, vermişəm. Allah sizi xoşbəxt eləsin. Di gedin, dolanın. Saxlayın başınızı. Daha özünüz bilərsiniz? "Yox, o, özü istəməyəcək heç nəyi. Ona Süsən lazımdır dünyada. Özgə heç bir şey. Bəktaşovun kölgəsi düşməsə yaxşıdır üstünə. Lazım gəlsə, o özü kölgə salar. Ola bilər ki, zaman dəyişə və o özü də dəyişə. Bax, onda heç nə deyə bilməz. Deyə bilməz. Çünki bu dünya yaman şeydir. Nə istəsən, ola bilər. Bilərmi? Yox, iradə lazımdır insana. İnsan iradəsi. Bax, onda dünya qələt eləyər insana güc göstərdiyinə".

Başqa üsullar da var. İnsanın ürəyini, beynini çıxarırlar, yenisi ilə əvəz edirlər. Onda hər şey mümkündür. Ürəkdəki arzular, beynindəki fikirlər də özününkü olmur. Bəktaşov da bildiyini edir. Çətin heç nə yoxdur. Beyin salmağa, ürək dəyişməyə nə var ki? Amerika alimlərinin əlində su içmək kimi bir şeydi. O qədər salıblar ki. O qədər adamın ürəyi, beyni, danışıqları, gülüşləri, hərəkətləri sünidir ki...

## VIII

Sağ üzü üstə yatmışdı deyəsən. Ürəyində ağrı hiss etdi. Elə yuxusuna Nazim Hikmət gəldi. Görüşüb hal-əhval tutdu. Çox nəsihət verdi ona. Dedi ki, oğlum, arkadaşım, mən demişəm ki, ürəyim ağrıyanda, hiss edirəm ki, yaşayıram. Ürəyinin qədrini bil. Ürəyi sonra tapmaq olmur. Yaşamaq lazım olanda, ürək tapılmır.



..........................

Oturub şeir yazırdı.

Sənin qismətini az eyləmişəm,
Sevinci yarıya böləndə, ürək.
Bir ötüb gəlmişik çınqıllı yolu,
Gec olur qədrini biləndə, ürək...

Üstünə çoxlu cihaz yığılmışdı. Saqqallı və keçəl alimlər yığışıb söhbət etdilər və sonra dağılışdılar. Uzun saqqallı əlinə bıçaq

alıb qarnını yardı. Ürəyini çıxardı. Kauçukdan qayrılmış ürəyə oxşar bir şeyi çıxartdığı ürəyin yerinə qoyub üstünü örtdü. O qədər ağrı hiss etmədi. Sonra həmin qayda ilə beynini dəyişdilər. Saqqallı alim Bəktaşovun qabağına gəldi və raport verdi ki, əməliyyat çox ağır keçsə də, nəticəsi yaxşı olub...

## IX

...Sürücü ara vermədən danışırdı.

–Bəktaşov kimi adamlar az-az gəlir dünyaya. El yolunda can qoyur. Qədrini bilmirlər. Bir ordendən, medaldan vermirlər. Gündə yüzünün döşünə taxırlar. Birini Bəktaşov yoldaşa vermirlər. Deyirəm, şəhərin mərkəzində heykəini qoyalar. Bilirsən necə gözəl olar?

O, danışdıqca özünü danlayırdı ki, niyə bayaq Bəktaşovun kölgəsinə etiraz edib?

Bax, budur yoldaş Bəktaşovun kölgəsi. Gecə saat 4-dən sürücü gəlib kəsdirib aeroportu. İndi limana gedirlər. Ordan da xaricə. Mindiyi maşın da yağın içində. Yağ kimi gedir. Nömrəsi də qırmızı yazılıb. Ancaq qıraqdan oxunur. "00-00". Belə nömrəni QAİ işçiləri heç kimə verməz. Sağlıq olsun, onlar xaricdən qayıdandan sonra bu maşını o özü sürəcək. qırmızı köynək geyinəcək, qırmızı qalstuk taxacaq. Qırmızı kostyum, qırmızı eynək. Eynəyi Bəktaşov Afrikadan gətirib. Bax, ha, Afrikadan. Süsən tapşırmışdı atasına. Demişdi ki, gözü qızarır isti olanda...

Sonra hamı ona həsəd aparacaq, paxıllıq edəcək. Etibar, Nazir... Özlərini çox öyürdülər. Yuxarıdan baxırdılar adama. Nədi, nədi hərəsinin bir maşını var. Hələ Etibarın maşını "Zaporojest" idi, tısbağaya oxşayırdı. İndi onun "Volqa"sı var. Yağın içində. Qıpqırmızı. Süsən onların heç birini adam yerinə qoymur. Arada Elxangil elçi yollamışdı. Şəfiqə xanım qapıdan qovub qaytarmışdı onları. Biabır eləmişdi qonşuların yanında. Şəfiqə xanım da Şəfiqə xanımdı ha. Onun sözü əsas olmalıydı. Qanun kimi! Onu heç Bəktaşov da poza bilməzdi. Çünki Şəfiqə xanım Şəfiqə xanım idi. Hə, qırmızı "Volqa"nı sürəcəkdi evlərinə. Süsən də yanında.

## X

Dəniz dalğa-dalğa sahilə yaxınlaşırdı. Bir az keçəcəkdi, müəyyən bir dövrdə gəlib qurunu tutacaqdı, şəhər dənizin altında qalacaqdı. Amma, hələ dəniz qəzetlərin yazdığına, radionun dediyinə görə geri çəkilirdi. Geri çəkilmək məcburiyyət demək deyil. Qabaqda hücum var. Əks-hücum. O lap dəhşətli olur. O hücumun qabağını kəsmək olmur. Çünki bütün gücünü, bütün varlığını qoyursan o hücuma. Nəyə həyatda qabilsən, onunla keçirsən hücuma. Qalib gəlməlisən, hökmən! Əgər, qalib gəlməsən, məhv olmalısan.

Dəniz də qırmızı görünürdü. Göy dəniz vardı, yaşıl dəniz vardı, boz dəniz vardı, qırmızı dəniz vardı. Bu nə qəribəlik idi? Hər şey qızarırdı. Dəli sevər qırmızını. Dəli olmuşdu? Bilinmirdi. Ancaq fikirləşdi ki, dünyada Qırmızı dəniz var, əslində. Ola bilər ki, o dənizin üzü, gözü qırmızı olmasın, ancaq adı qırmızıdır. Vəssalam. Dəli-zad olub eləməyib.

Qırmızı rəngli dəniz müdafiəyə keçmişdi. Nə vaxt hücuma keçəcəyini heç kəs bilmirdi.

## XI

... Dənizin qırağında böyük bir canlanma vardı. Adamlar bir-birinə qarışmışdı. İynə atsaydın, yerə düşməzdi. Liman, gəmilər belə görünmürdü. Hündür qüllənin üstündə “VOZDUX”, “VETER” sözləri, havanın temperaturu bir-birini əvəz edirdi.

Maşını lap kənarda saxladılar. İçəri girməyə imkan yox idi. Sürücü çamadanları əlinə alıb qabağa keçdi və camaatı itələyə-itələyə irəlilədi. Zorla yeriyirdi. Çoxunun ayağını ayaqlayır. Bu izdihamdan tez keçmək, Süsənə çatmaq, onu görmək istəyirdi. Özü də lap tez. Ortaya çatanda sürücü yoruldu. Çamadanları yerə qoydu. Dərindən nəfəs alıb alnının tərini əlinin arxası ilə sildi.

–Yaman ağırdı bu çamadanlar. Bilmirəm, içinə nə doldurubsunuz. Lap əldən düşdüm.

Özünü zor-bəla ilə ona çatdırdı.

–Getmək olmur. Heç cürə getmək olmur. Mümkün deyil camaatdan.

Sürücü elə bil ki, bir himə bənd imiş. Üzünü camaata tərəf tutdu:

–Ay camaat, yol verin, yol verin. Belə olmaz axı? Bəktaşov yoldaşın kürəkəni şikayət edir sizdən. İmkan verin rahat getsin.

Hamı geri çəkildi. Yollar açıldı. İndi sakitcə gedirdi. Limana çatmamış gözlərinə inanmadı. Əsgərlər hərbi qaydada düzülüb "farağat" komandasında durmuşdular. Bəktaşov, Şəfiqə xanım, onların arxasınca isə nümayəndə heyəti ona tərəf gəlirdi. Gözləri Süsəni axtardı. Görə bilmədi onu.

–Görəsən, haradadı bu? Niyə görünmür, axı? – Yanındakı sürücü bir anın içində yox oldu və bir an keçməmiş həmin adam (polkovnik rütbəsində idi) hərbi addımlarla Bəktaşov və Şəfiqə xanıma tərəf gedirdi. Onlara beş metr qalmış polkovnik əlini qulağının dibinə aparıb raport verdi. Aydınca eşidirdi səsi...

–Yoldaş Bəktaşov, ... sağ-salamat gəlib çıxdı. – Onun adını deyirdi polkovnik.

"Azad" komandası verildi. Polkovnik yanında idi. Çama-danları götürmüşdü.

Bəktaşova çatıb dayandı. Salam verdi. Bəktaşov onun salamını aldı və əlini görüşmək üçün irəli uzatdı. Şəfiqə xanım onun hərəkətlərinə göz qoyurdu. Baxırdı görsün ki, o, necə aparır özünü. Mədəniyyəti, dünyagörüşü necədir. Onların ailəsinə yaraşan oğlandımı? Şəfiqə xanıma tərəf döndü. Başı ilə salam verdi. Şəfiqə xanımın gözləri qaynayırdı. Qəribə mənzərələr gizlənmişdi onun gözlərində. Sonra arxadan gələn nümayəndə heyəti ilə görüşdü.

Bir az keçmiş Süsən göründü. Dümappaq. Qar qıza oxşayırdı. Toy paltarı necə də gözəl yaraşırdı ona. Başına ağdan qotaz hörmüşdü. Ağ ayaqqabıları, uzun donu yelləndikcə görünürdü. Barmağında cürbəcür üzüklər, qolunda qızıl saat, qolbənd, qulağında iri sırğalar, boynunda boyunbağı, əlində gül dəstəsi vardı. Asta addımlarla Bəktaşova yaxınlaşıb onu, sonra Şəfiqə xanımı öpüb dayandı. Özünü itirmişdi, nə edəcəyini bilmirdi. Qəfildən yadına düşdü ki, bu gəlin onların evinə gələn gəlinə oxşayır. Bir almadı yarı bölünmüşdü. Himn çalındı. Kimsə Bəktaşova raport verdi.

Hamı onlara uğurlu yol arzuladı. Gəmi sahildən uzaqlaşdı. Sahildə duranlara əl elədilər və kayuta getdilər.

Daha heç kim görünmürdü. Bəktaşov, Şəfiqə xanım, əsgərlər, nümayəndə heyətinin üvləri, sürücü, kütlə...

Süsənlə üzbəüz oturmuşdu. Gözləri ilə yeyirdi. Min ilin həsrətlisi kimi. Doymurdu ondan. Süsən isə utanırdı. Başını sinəsinə əymişdi.

–Səni çox gözlədik, əzizim.

–Biz də gözlədik. Elə darıxırdım sənsiz. Tək-tənha oturmuşdum. Elə deyirdim, bu saat gələcəksən.

–Hamı səni görmək istəyirdi.

–Səni soruşurdular. Nişanlının adı nədir, niyə gəlməyib, boyu-boxunu necədir?..

–Toyunuz necə keçdi?

–Əla. O qədər qonaqlarımız vardı ki!

–Bizdə də pis olmadı.

–Ququş oxuyurdu. Papam zəmg vurub çağırmışdı.

–Bizdə Aşıq Ədalət idi.

–"Uzun gecə"ni oxudu. Sənin mahnını!

................................

Sonra sözləri qurtardı. Süsənin əlini əlinə aldı. Üşümüşdü əlləri, isitdi. Sonra öpdü.

–Neynirsən?

–Mənim əzizim, həyatım!

Birdən-birə qırmızı bir külək əsdi. Və bu külək Süsənin ağ qotazını, ağ donunu, ağ ayaqqabısını, qızıllarını atdı bir kənara. Süsən sağ üzü üstə çevrilib onun qucağına uzandı. Bədəni tir-tir əsirdi. Saçını oxşadı. Gözlərini sığalladı.

Süsən məst olmuşdu.

O tərəf bu tərəfə çevrildi...

Gecənin səssizliyini ikisi pozurdu.

Sonra hər şey susdu.

O da.

Süsən də.

Dəniz də.

Gecə də...

# XII

Yadına güclə gəlir. Hansı okeanları üzüb keçdilər, hansı dövlətlərdə, hansı şəhərlərdə oldular. Hamısında da hörmət və ehtiram. Böyük-böyük adamlar qarşılayırdı onları. Ziyafətlər saysız-hesabsız idi. Xatırlaya bilmirdi hamısını. Qırıq-qırıq görürdü hər şeyi. Okeanların, şəhərlərin, adamların arasından qırıq-qırıq xətlər keçirdi.

Və o yadındadır ki, təyyarələri Eyfel qülləsində dayandı. Onlar rahatca pilləkənləri düşdülər. Təyyarə yox oldu.

–“Görəsən, hara getdi bu təyyarə? Axı, bizə sonra da lazım olacaq. Deyirdilər ki, təyyarələrin gedəcəyi sonuncu nöqtə yoxdur. Yalan deyib kimsə. Lap göyün yeddinci qatına çatsalar da, təyyarələrin gedəcəyi sonuncu bir nöqtə var. Sonsuz heç nə yoxdur. Fəlsəfə. Və bu son nöqtədən o tərəfə heç nə görünmür. Nəsə, boşluqdu. Bermud uçbucağıdı. Çəkir və yox edir. Şəhərlərdə, qəsəbələrdə, kəndlərdə, yollarda dayanacaqlar var ki, maşınlar, qatarlar, təyyarələr bu dayanacaqlarda dincəlib yorğunluğunu alırlar. Lap adamlar kimi. Kim deyir ki, maşınlar, qatarlar, təyyarələr yorulmur. Elə yorulurlar ki... Adamdan da betər yorulurlar”.

Eyfel qülləsi haqqında çox oxumuşdu. Bilirdi ki, Eyfel qülləsi 1889-cu ildə tikilib. Bastiliya qalasının alınmasının 100 illiyi münasibəti ilə. Yeddi yüz layihə verilib bu qülləni tikmək üçün və Eyfelin (adı Küstel idi) layihəsi bəyənilib. Martın 31-də tikilib qurtarıb. Hündürlüyü 319 metrdir. Bir şair vardı. Eyfel qülləsinə şeir yazmışdı. Fikirləri qarışıqdı Eyfel qülləsində. Çox qarışıq idi.

– “Bəlkə Eyfel qülləsindəyəm, dünyanın ən uca nöqtəsindəyəm. Ona görə yadıma düşmür. Yerə enəndə xatırlayaram. Eh, insanın bilib unutduğu o qədər şey var ki! İnsan çox unudur. Çox tez”.

Süsəni yanında görmədi. O da təyyarə kimi yoxa çəkilmişdi.

–“Yoxsa çaşmışam, nədir? Eyfel qülləsində arvadım yoxa çıxıb? Bu nə biabırçılıqdır”.

–Nədir? Yoxsa məni görmürsən? Gözlərin ağrıyır? Lap üzbəüz durmuşuq. Bir düz bax mənə.

–Görmürəm.

–Bu gün ayın neçəsidir?

–Martın 31-i.

–Bir sual verəcəm. Bilsən, gözlərini açacam.

–De görüm.

–Martın 31-də hansı hadisələr olub?

–Deyim. Ancaq aç gözlərimi. Qoy Eyfel qülləsindən dünyanı görüm. Bəlkə bir də yolumuz düşmədi.

–De, de, sonra.

–Martın 31-də Eyfel qülləsi tikilib qurtarıb. O gün bizim toyumuz olub. Və biz Eyfel qülləsinə gəlmişik.

–Hardan bilirsən?

–Oxumuşam, bilirəm.

–Qoy öpüm gözlərindən. açılsın gözlərin.

Öpdü onun hər iki gözündən. Açıldı gözləri.

Süsəni sinəsinə sıxdı.

–Gəl, baxaq dünyaya, insanlara, heyvanlara. Bilirsən burdan necə aydın görünür?

–Bilirəm və görürəm. Ancaq...

–Nə ancaq?

–Elə bilmə ki, Eyfel qülləsi ən uca nöqtədir. Ondan hündür Ostankinodur. Moskvada. 534 metrdir hündürlüyü.

–Elmi-texniki tərəqqi, kosmos əsri.

–Gəl, bu elmi söhbətlərimizi qoyaq bir yana. Bir bax, o bizə yaxın dağı görürsənmi? O Comolunqmadır. İlan kimi qıvrılıb axan Nil çayıdır. O Niaqara şəlaləsidir. – İnsanlara bax, Süsən! Görürsənmi, heç heyvanlardan seçilmir? Rəngləri, addımları, danışıqları...

– Hə. Gəl qalaq burada. Düşməyək yerə. Xəbər göndərək ki, gəmimizin mühərriki xarab olub. O adamların yanına qayıtmayaq. İstəmirəm.

–Bəs ata-anamız, qohum-qardaşlarımız?

–Papamnan mamam gələcəklər.

–Bəs mənim?

Susdu Süsən. Və o da susdu. Yerə baxdı. Doğrudan da, adamların rəngi Eyfel qülləsindən çox aydın seçilirdi. Danışıqları da müxtəlif idi.

– Mən Parisi televizorda görmüşəm. İndiki kimi gözəl idi. küçələri, maşınları, binaları... – Süsən qoluna girib danışırdı.

–Mən də televizorda görmüşəm.

–Eyfel qülləsi haqqında isə papamnan-mamam danışıblar. Onlar keçən il burada istirahət ediblər.

–Eyfel qülləsinə putyovka var?

–Bəs necə? Dünyanın elə bir nöqtəsi yoxdur ki, oraya putyovka olmasın. Gələn il deyəcəyəm bizə də düzəltsinlər.

Fikrində tutmuşdu ki, yayda kəndə gedərlər. Evlərinə. İstirahət edərlər. Ata-anasını görərlər. Gəlinlərini görmək istəyirlər. Süsən heç toya da getməmişdi. Özü də Süsən onların birinci gəlinidir. Birinci şirin olur. Qohumları, qonşuları görər onu.

–Niyə fikirlisən?

–Heç. Elə-belə.

–Doğrudan. Bəlkə xəstələnibsən? Həkim çağırımmı?

–Yox. Nə danışırsan? Heç burada adam xəstələnər?

–Gül görüm! - dedi.

– Bəlkə heç gülmək istəmirəm?

–Yox, güləcəksən, özü də indi. – Güldü. Ürəkdən yox, zorla güldü. Və heç bilmədi ki, niyə güldü.

–"Deməli gələn yay yenə Parisdəyik. Nə olar? Eybi yox. Qoy belə olsun."

## XIII

Həmişə dünyanın Eyfel qülləsində dayanmaq olmaz. Bir gün düşəcəksən. – geci-tez var. Həm də hər şeyin qədəri olmalıdır. O qədəri keçdimi, ağı çıxır, adiləşir. Gözündən düşür adamın. Özün də bezirsən. lap sadəcə. Misal üçün, Eyfel qülləsini götürək. Bu qüllə bir vaxtlar onun üçün kəşf olunmamış qitə idi. Söz vermişdi ki, kəşf edəcək o qitəni. Mütləq kəşf etməli idi. Nəyin bahasına olursa olsun. Çünki söz vermişdi. Söz verdinmi, gərək əməl edəsən.

Birdən-birə yadına Şəhla düşdü. Görəsən o indi haradadır? Nə işlə məşğul olur? Bəlkə də oturub nə haqdasa fikirləşir. İstədi ki, Şəhla kənardan baxaydı onlara. Görəydi ki, nə cah-cəlalı var. Və birdən də istədi ki, yox, lazım deyil, Şəhlanın onları görməyi. Nə olsun ki, qəlbini qırıb. Cavandır. Beyni qanla doludur. Səhv edib.

Bezdi Eyfel qülləsindən baxmaqdan. Az qaldı ki, gözlərini yumsun. Ancaq Süsən yanındaydı. Deyərdi ki, dəli olmusan, nədir? Gözünü niyə yumursan?

–Gedəkmi Süsən?

–Adam heç getmək istəmir e...

–Gedək, onsuz yenə də gələcəyik.

Süsənin ipək əllərindən tutdu. Eyfel qülləsi yavaş-yavaş yerə doğru hərəkət etdi və bir azdan sonra yox oldu. Yerə düşmüşdülər. Sevindi. İndi ayağını yerə möhkəm vura bilərdi.

Qıraqda onları qırmızı rəngli maşın gözləyirdi. Belə maşını ömründə görməmişdi. Onun arxasınca isə cürbəcür maşınlar. Birinci maşında oturdular. Onların maşını hərəkətə gəldi.

Toyları olub qurtarmışdı, axı! İndi xaricdə bu nə həngamə idi?

–"Hə, bura xaricdi. Burda da bizə toy edirlər. Nə olar, qoy necə olur-olsun. Yəqin Bəktaşova görədi. Yoxsa kim idi xaricdə onu saya alan, hörmət edən. Xaricdə lazımsız daş parçası kimi şeydi adam. Daha sözüm yoxdu. Kişinin xaricdə də hörməti var. Hörmət də sərhəd tanıyıb eləmir. Zəncir kimi uzanıb gedir".

Süsən qoluna toxundu. Gözləriylə onu başdan ayağa süzüb gülümsədi.



–Yenə gəmilərin batıb, hə?

–Yox, niyə elə düşünürsən? Sevinirəm.

–Adam da öz toyunda qəmli olarmı?

–Hıı...

–Deyirəm ki...

–Yox. Əlbəttə olmaz.; - "Deməli, bu gün də toyumuzdu. Yoxsa, elə biləcəkdim ki, məni qara basır. Yaxşı, bəs bu toy nə toydu? İnsana ömründə bircə dəfə toy olur. Bircə dəfə. O adam iki dəfə toy edir ki, ya arvadı ölüb, ya da arvadını boşayıb. Allaha şükür ki, bunların heç biri onun başına gəlməyib. Arvadı yanında oturub. Yanında yox, ürəyinin başında. O, arvadını çox se-

vir. Lakin bu sevgini tez-tez açıb söyləmir. Ürəyində saxlayır. Və arvadı da bunu hiss eləyir. Sevincini gah büruzə verir, gah da ürəyində saxlayır. Süsəni boşamaq isə heç xəyalına belə gəlmir. Bu toy isə narahat edir adamı. Bəlkə də eksperimentdi. Yəqin ki, sonralar çoxları belə edəcək,. yəni dəb salacaqlar iki dəfə ərə getməyi. Toy qurtaran gecəsi xaricə gedəcəklər. Gedəcəklər, görəcəklər. Onlarla oturub ziyafətlər keçirəcəklər. Yox, bunu deyəsən, hamı bacarmaz. Hamı Bəktaşov olmaz ki? Tək-tək adamlar olar. Özü də tək xaricə getmək yox, çox şey mümkündür. Və həyatda da hər şeyin bir əlacı var. Təkcə ölümə çarə yoxdu.

Hamı o olmaz ki. Bəktaşov kimi bir adamın qızı ilə evlənə. O da bir iş idi oldu. Cavanları bir yerə toplayıb şahlıq quşu uçurublar. Quş da gəlib qonub onun başına, olub Bəktaşovun kürəkəni. Çıxıb Eyfel qülləsinin başına. Eyfel qülləsindən baxmaq hər oğulun işi deyil.

–"Necə istəməyəsən, axı? Süsən kimi gözəli heç sevməmək olar? Heç oxşamamaq olar? Yox, olmaz. Heç cürə olmaz. Bir də Süsən heç o biri arvadların tayıdırmı?"

Nəsillərinin kişiləri boylu-buxunlu, görməli olublar. Əsil kişi olublar. Yolkəsən, evyıxan, alçaq olmayıblar. Odur ki, qadınların xoşu gəlirdi onlardan.

...Toy davam edirdi. Başda ikisi oturmuşdu. Kimsə sağlıq deyirdi. Onun tanımadığı tək, kök, keçəl, qara bığlı bir kişi qədəhi ovcunda tutub sağlıq deyirdi.

–Bu Almaniyanın premyer ministridir. Papamla bir oxuyublar. Bizdə çox olub. – Süsən astadan danışırdı ki, səsi çox da maneçilik törətməsin. – Bir oğlu, bir qızı var. Oğlu yurfakı qurtarıb bu il. Müstəntiq işləyir. Adı Namiqdi. Arıq, balacaboy, qıvrımsaç oğlandı. Qızı orta məktəbi mənimlə paralel oxuyub. Mən azsektorda, o russkidə. Lalanı deyirəm. Konservatoriyada oxuyur.

Ona həvəssiz qulaq asırdı. Süsən isə elə danışırdı.

–Namiqnən Lalanın toyu bir gündə oldu. Namiq Səfər Əsədullayeviçin qızını aldı. Medinstitutda oxuyur. Beşdə. Səfər Əsədullayeviç də bilirsən kimdi? Əsli talışdır. Ptiçninin zaveduşisidir. Lalanın əri passaj bazarının direktorunun oğludur. Zarik.

Sol qulağı Süsəndə, sağ qulağı sağlıq deyəndə idi. Səsi qulağını qıdıqlayırdı.

–...Bəktaşovun başından bir tük əskik olmasın... – “Qəribədir, Premyer ministr də Bəktaşovun sürücüsü deyəni deyirdi. Daha onların nə fərqi oldu?”

–Onun sağındakı Mərkəzi univermağın direktorudur. Qardaşı respublika prokurorudur. Qızı Asya məndən bir il qabaq oxuyub məktəbdə. Narxozu qurtarıb. Nişanını qaytardı keçən il...

–“Bəktaşov yoldaş bizim ağsaqqalımızdı, başımızın böyüyüdü...”

Əlinə böyük stəkan dolu araq almışdı. Növbəti sağlıq deyiləndən sonra içəcəkdi. Süsən qolundan tutdu:

–Sən çox içmə, əzizim. Ziyandı gözünə. Həkimlər tapşırıb ki, içməyəsən. müalicənin nə xeyri olacaq onda.

Ətrafda səssizlik idi, heç kim görünmürdü. Ziyafətdən əsər-əlamət qalmamışdı.

–Darıxıram, yaman darıxıram.

–Bir az döz Süsən. az qalıb getməyimizə.

–Eeh... Hələ çox var. Mən istəyirəm ki, indi gedək.

–İndi buraxmazlar axı?

–Papama zəng edərəm, tapşırar.

–Zəng çatmaz Bakıya.

–Sən elə danışırsan, elə bil heç Eyfel qülləsinə çıxmayıbsan.

–Sən mənim bir dənəmsən. sən mənim...

Bu an onun üçün dünyanın ən gözəl anı idi. Ən gözəl anı! Dünya gözəl görünürdü və dünyada gözəllikdən başqa görməli heç nə yox idi.

“- Elə həmişə, bax, beləcə qalaydıq. Dünyanın sonuna kimi. Yanımızda heç kim olmayaydı. Nə Bəktaşov, nə Şəfiqə xanım, nə də heç kim. İkimiz olaydıq. Süsən beləcə yataydı və mən onun xoş rayihəsini duyaydım...”

## XIV

Dəniz uğuldayırdı. Yağış yağmışdı. Bulanıq idi dalğalar. Sahildə qırmızı çiçəklər açmışdı və bu qırmızı çiçəklər adamın, torpağın üzünə baxıb gülümsəyirdi. Dəniz sahilə hücuma gələcəkdi...

## XV

Cəngəlliklərlə irəliləyirdilər. Ətraf əcaib, adı ensiklopediyalarda çəkilməyən, haqqında məlumat verilməyən heyvanlarla dolu idi. Biri başçı idi. Gözlə, qaşla əmrlər verirdi.

Getmək mümkün deyildi. Tikanlı ağaclar paltarlarına keçir, dartıb cırırdı. Gah düz yeriyir, gah da ağzı üstə uzanıb sürünürdülər. Nəhayət, dəridən düzəldilmiş bir qapının qabağında dayandılar. Başçı əmr verdi. Bütün heyvanlar bir göz qırpımında yox oldu. Sonra ona yaxınlaşdı.

–Zəhmət olmasa, üst-başınızı qaydaya salın.

Pencəyi tamam abırdan çıxmışdı. Köynəyinin düymələri qırılmışdı. Sinəsinin qara tükü görünürdü. Əli ilə yaxasını örtdü.

–İndi buyurun içəriyə.

Süsəni qabağa salmaq istədi. Səsə geri döndü.

–Tək gedin. O bayırda gözləsin.

–Niyə axı? Mən onunla getmək istəyirəm. O mənim... – Sözü yarımçıq kəsildi.

–Bilirəm. Ancaq olmaz. Gərək çöldə qalsın.

–Xeyir, o mənimlə gedəcək.

–Dedim ki, olmaz.

Başçıya yaxınlaşdı. Onu kənara çəkdi. Bir az söhbət etdi. Astadan danışırdı ki, Süsən eşitməsin.

–Axı, o, qorxur.

–Kimdən?

–Heyvanlardan. İtdən də qorxur.

–Qorxmaz. Burda qorxulu adam yoxdur. Bir də hər şey onun özündən asılıdır. Elə oturub durmalıdır ki...

–Bilirsən o kimdir?

–Mən heç kimi tanımıram. İçəriyə ancaq kişilər keçir.

– Axı...

–İçəriyə cinsi kişi olanlar girir. - Başını bulaya-bulaya Süsənin yanına qayıtdı. Dedi ki, ona icazə vermirlər. Gərək çöldə qala. Rəngi qızardı Süsənin. Dedi ki, eybi yoxdur, gözləyər, ancaq ondan nigaran qalacaq. Bir az ehtiyatlı olsun.

Dərini qaldırb içəri keçdi. Gözlərinə inanmadı. Bir özgə aləmə gəlib düşmüşdü. Parket döşəmənin üstünə xalı sərilmişdi. Müxtəlif ölçülü, cürbəcür bəzəkli. İki göz istəyirdi çıxaydı tamaşasına. Üstündə ceyran, qızılgül, bənövşə, dünya gözəli qızlar şəkli. Xalçaların üstü ilə yeriməyə adamın heyfi gəlirdi. Divar qırmızı rənglə boyanmışdı. Stollar, stullar Günəş kimi parıldayıb işıq saçırdı. Masaya gül qoyulmuşdu. Başda şir oturmuşdu. Tez-tez əlini saqqalına çəkirdi. Bir cərgədə bayaq onları müşayiət edən heyvanlar yan-yana düzülmüşdülər. Hamısının əlində qələm, qabaqlarında kağız vardı. Birinci ayı oturmuşdu. Sonra sıra ilə canavar, çaqqal, tülkü, dovşan, it, pişik, siçan. O birisi cərgədə dəvə, at, eşşək, qoyun, keçi, sərçə, beçə əyləşmişdi. Şirlə üzbəüz ayaq tərəfdə onun yeri idi. şir əlini saqqalına sürtüb: - gəlsin, - dedi. Stola yaxınlşaıb salam verdi. Salamını alan da oldu, almayan da.

–Deməli, gəlmisən, hə? – Şir pəncərəyə baxıb soruşdu.

–Bəli, gəlmişəm.

–Filankəsov Filankəs Filankəs oğlu?

–Bəli.

–Təvəllüdün – 1959?

–Bəli.

–Neçə yaşın olur?

–22.

–İyirmi iki. Hıı. Deməli belə. Bəs neçə yaşında keçməliydin bizim sıramıza?

–On yaşdan etibarən.

–Düzdür, düzdür. On yaşında keçməliydin. İndi isə iyirmi iki yaşın var. Deməli, on il keçib. Bəs niyə bu qədər gecikibsən?

–Oxuyurdum.

–Niyə işləmirdin?

–İşləyirdim də.

–Məni sarımısan?

–Həm oxuyurdum, həm də işləyirdim.

–O nə olan şeydir? Həm oxuyurdun, həm də işləyirdin?

–Gündüz oxuyurdum, gecə işləyirdim.

–Hı. Deməli, indiyə kimi səni layiq bilməyiblər. Bizim nə günahımız var? İndi biz də keçirə bilmərik. Çünki səni layiq bilməyiblər.

–Necə yəni layiq bilməyiblər? Mən birinci dəfədir ki, bura keçmək üçün ərizə yazmışam.

–Gecikibsən.

–Niyə gecikmişəm?

–Ona gecikibsən ki, bala, daha sənin vaxtın keçib. Özün-özünü gecikdiribsən. Bizə cavan kadrlar lazımdır.

–Siz nə danışırsınız?

–Qışqırma. Burada hörmətli yoldaşlar oturub. – Əlini başda ayı oturan cərgəyə yönəltdi. Öz növbəsində onlar hamısı başını bir neçə dəfə aşağı əyib təsdiqlədilər onun fikrini.

–Yaxşı, nə deyirsiniz, bu yoldaşın işini nə yerdə qoyaq?

Tülkü söz alıb danışmağa başladı.

–Belədi ki, yoldaşlar, yoldaş Şir məllim çox gözəl dedi. Nə lazımsa hamısını. Bizə gənc kadrlar lazımdır. Gənc kadrlar. Eşşək bu yerdə dözmədi. Əl qaldırıb söz istədi. Şir əli ilə onu sakitləşdirib bildirdi ki, tülkü müəllimin sözünü kəsməsin. Etikanı gözləsin. Tülkü bir ucdan danışırdı.

–Yoldaş Şir müəllimin dediyi kimi, bu yoldaşın yaşı ötüb. Odur ki, mən bu yoldaşın əleyhinə səs verirəm. – Üzünü şirə tutub: - Oturmaq olarmı yoldaş Şir müəllim?" - soruşdu. Şir başını tərpətdi. – Eşşək sözə başladı.

–Mən bu yoldaşa zəmanət vermişəm ki, bizim sıramıza keçsin. Çikini də bilirəm, bikini də. Nəyi var obyektiv yazmışam. Yaşı da çox keçməyib. İyirmi iki yaş nədir ki?

–Necə nədir, ə? Qeyd etdik ki, yaşı ötüb. – İt yoldaşı Tülkünün səsinə səs verdi.

–Yaxşı belə isə, onda bir şeyi də nəzərə alaq ki. Canavar otuzunda keçib sıramıza. – Canavar yerində qurdalandı.

–Eey, məni araya qatmayın. Söhbət bu yoldaşdan gedir.

–Mən belə təklif edirəm ki, bu yoldaşı keçirək sıramıza. Layiqli yoldaşdır.

Arada mübahisə düşdü. Bu dedi, o eşitdi, o dedi, bu eşitdi. Şir əlini stola döydü. Telefon zəng çaldı. Şir dəstəyi götürdü. Yüksək tonda "Alo!" – dedi və danışanın kim olduğunu biləndən sonra ikiqat əyildi.

–Yoldaş Bəktaşov, siz nə danışırsınız? Buralar cəngəllikdir. Odur ki, rəva bilmədim. Yaxşı, görməli yerlər var. Ora apararam. Baş üstə, baş üstə - Nil çayına? Baş üstə. Kim? Yox, yoxdur. – Kişinin rəngi ağardı. – Bir dəqiqə, yoldaş Bəktaşov.

–Bəli. Səhərdən ayaq üstədir. Gözləyir bu yoldaşı.

–Bəs niyə onu çöldə saxlayıbsan? – Şir qışqırdı.

–Siz özünüz dediniz, axı.

–Kəs səsini. Tez ol, keçir onu buraya.

Süsən qapını açıb içəri girdi, şir stoldan durub onun qabağına gəldi.

–Xanım, bağışlayın. Sən Allah, bir səhv eləmişəm. Sizi çöldə gözlətmişəm. Üzr istəyirəm. Elə indicə Bəktaşov yoldaş zəng etmişdi. Hər şey hazırdı. Gedə bilərsiniz. Bir gedin bizim Nil çayını da görün. Ancaq ehtiyatlı olun, siz Allah. Maşın aşağıda sizi gözləyir.

## XVI

Üzü aşağı Nil çayı ilə üzürdülər. Çay atıb tuturdu onları. Süsən qorxusundan qucağına sıxılmışdı. Yıxılmasın deyə bir əli ilə ondan sarılmışdı. Yadına saldı ki, Nil  çayı Afrika qitəsinin düz ortasından axır. Yarıya bölür Afrikanı.

Çay çaydı. Dəniz deyil ki? Çay yuyub aparır. Ancaq dəniz yox. Çəkib saxlayır dərinliklərdə. Çay dəniz deyil...

## XVII

Şəhla ağlayırdı. Onun göz yaşını silmək istədi. Əlləri çatmadı. Aralarındakı məsafə çox idi.

# XVIII

...Stolun arxasında oturmuşdular. Qarşıda isə eynəkli, saqqallı, zahirən cavan görünən bir nəfər oturmuşdu. Əlində üzü bəzəkli dəftərçə, qələm tutmuşdu.

–Mən yerli qəzetin müxbiriyəm, cənablar, - dedi. Bir azdan sizinlə aparacağım müsahibəni televiziya və radio dalğalarında səsləndirəcəklər. Xahiş edirəm ki, sıxılmayasınız və bizimlə səmimi söhbət edəsiniz.

Hər ikisi razılığını bildirdi. Süsən onun qalstukunu düzəltdi, saçını daradı, kostyumunun boynunu təmizlədi.

– Hazır olun, başladıq, - dedi müxbir. – hörmətli cənablar, əvvəla, icazə verin adamızın sakinləri adından sizi təbrik edim, sizə xoşbəxtlik, səadət arzulayım və onların, həm də öz adımdan deyim ki, bizim adaya xoş gəlibsiniz.

–Sağ olun, - dedilər bir ağızdan.

–Xahiş edirik ki, bildikləriniz, özünüz haqqında açıq danışın. Nəzərinizə çatdırım ki, bizim üçün vaxt əsas ölçü deyil. Bizi nəticə maraqlandırır. Onu demək istəyirəm ki, ən kiçik, əhəmiyyətsiz hadisələri belə danışmaqdan çəkinməyin. İndi birinci məsələni elə szidən başlayaq. Özünüzü təqdim edin. O:

–Bu mənim həyat yoldaşımdır. Süsən xanım universitetin sonuncu kurs tələbəsidir. Biz birlikdə təhsil alırıq. İnstitutda oxuyanda bir-birimizlə tanış olmuşuq və evlənmişik.

Müxbir:

–Bəs uşaqlığınız? Siz uşaq vaxtı bir-birinizi görməmisiniz?

O:

–Xeyr. Süsən şəhərdə böyüyüb, mən isə kənddə.

Müxbir:

–Başqa mühitdə böyüməyiniz sizin ailə münasibətlərinizə mane olmur ki?

O:

–Qətiyyən yox. Süsənin atası professordur. Anası da həmçinin. Mən isə kəndli ailəsində böyümüşəm. Atam da, anam da kolxozçudur. Lakin bizim aramızda fərqi mən hiss etmirəm.

Müxbir:

–Bəs siz, madam?

Süsən:

–Professor qızı olsam da, həyat yoldaşımın fikrini təsdiq edirəm. Dinləyicilərin nəzərinə çatdırırıq ki, mənim atam Bəktaşov da vaxtı ilə kənddə böyüyüb. Anamla şəhərdə - təhsil illərində tanış olub. Deməyim odur ki, belə hallar bizdə çox adidir.

Müxbir:

–Madam, bağışlayın, siz Bəktaşovun adını çəkdiniz, səhv etmirəmsə. Bəs sizin familiyanız...

Süsən:

–Mən ərimin familiyasını daşıyıram. Adətən, bizdə toydan qabaq nigah mərasimi olur və arvad gələcək ərinin familiyasını qəbul edir.

Müxbir:

– Əziz dinləyicilər, mən bir şeydə az qala yanılmışdım. Sizin və hamımızın sevimlisi Bəktaşov yoldaşın qızının və kürəkininin adamızda olması bizimçün ikiqat bayramdır. Cənab Bəktaşovun bizim ada üçün nələr etdiyini, nə kimi işlər gördüyünü sadalasaq da qurtarmaz. Siz ekranlarda və radio dalğalarında cənab Bəktaşovun qızı və kürəkəni ilə müsahibəmizi dinləyirsiniz.

–“Yenə də Bəktaşov! Aman Allah, bu kişi Allahdı, peyğəmbərdi, nədi? Dünyanın hansı nöqtəsinə baş vurursan, Bəktaşovdan danışırlar. Göyə də çıxdıq Bəktaşovun adından yaxamızı qurtara bilmədik. Bu nə sirrdir, görəsən? Bəlkə, məndən gizlədirlər Bəktaşovun Allah olmağını. Nə desən, olar həyatda. Olanda da olar, vallah...”



–Neçə gündür ki, siz bizim adanı gəzirsiniz. Hansı cəhətlər xoşunuza gəlir, xoşunuza gəlməyən cəhətlər varmı?

–Adanız gözəldir. Həddindən artıq gözəldir. Biz valeh olduq gözəlliyə. Xüsusən, yaşıllıq işləri yaxşı aparılıb. Yollar qəşəng düzəlib. Genişdir, ikimərtəbəlidir. Avtomobillər rahat hərəkət edə bilirlər. Mağazalarda satıcılar özlərini nəzakətli aparırdılar. Bazar meydanında körpələrin, yaşlıların dilənçilik etmələri yaxşıdır. Bəzi ictimai yerlərdə oğlanların qızları öpmələri, qızların papiros çəkmələri bizim xoşumuza gəlmir.

Müxbir:

–Çox sağ olun. Bəs siz, madam, nə deyə bilərsiniz? Buyurun, xahiş edirəm.

Süsən:

–Mən də təxminən həyat yoldaşımın dedikləriylə razıyam. Lakin bir neçə cəhəti də demək istəyirəm.

–Buyurun, buyurun, xahiş edirəm.

Süsən:

–Qızların papiros çəkməyini dedik. Buraya spirtli içkiləri də əlavə etsək, yaxşı olardı. Çünki qızlar spirtli içkilər içəndə də, papiros çəkəndə də bilməlidirlər ki, bu onların şikəst və zəif olmasına səbəb olur. Bir də sizin adanın sakinləri çox ərköyündürlər. Bir narazılıqları olan kimi nümayişə çıxırlar. Biz bunun bir neçə dəfə şahidi olduq.

Müxbir:

–Siz xoşbəxtliyi nədə görürsünüz?

O:

–Azadlıqda.

Süsən:

–Çətin sualdır. İnsan qəlbi arzularla, özü də saysız-hesabsız arzularla doludur. Əgər o arzuların müəyyən qismi həyata keçirsə, onun özü bir növ xoşbəxtlikdir.

Müxbir:

–Siz özünüzü xoşbəxt sayırsınızmı?

O və Süsən:

–Bəli. Xoşbəxt olmağa bizim haqqımız var.

Müxbir:

– Sizin xoşunuza gələn rəng və ad?

O:

–Yaşıl. Orxan.

Süsən:

–Qırmızı. Vəfa.

Müxbir:

–Sevdiyiniz fəsil, ay. Hansı hadisəni unutmayacaqsınız?

O:

–Qış fəsli. Dekabr ayı. Eyfel qülləsinə çıxdığım günü.

Süsən:

–Bahar fəslini sevirəm. Ən çox sevdiyim ay mart ayıdır. Toyumuz olan günü unutmayacağam.

Müxbir:

–Boş vaxtlarınızda nəylə məşğul olursunuz:

...............................

Süsən:

– Boş vaxtımda ərimin saçını darayıram.

Müxbir:

– Sonuncu sual. Adamızın sakinlərinə nə arzu edərsiniz?

O:

– Azadlıq və bərabərlik.

Süsən:

– Qadınlara xoşbəxtlik, səadət.

.................................

## XIX

Dünyaya bir qızartı çökmüşdü və bu qızartı işıqlandırır, isidirdi hər yanı. Xoş bahar ətri duyulurdu. Qırmızı yağış başlandı sonra. Elə bil ki, qınına çəkilmiş dənizin ciyərləri yanırdı – onu sərinlətmək üçün yağırdı bu yağış.

## XX



.....................................

## XXI

...Biri varmış, biri yoxmuş...

Kimsə nağıl deyirdi. Yox, Pəri nənə deyildi. Radioları xarab olub. İşləmir. Bəlkə düzəltdiriblər? Yox əşi, yoldaşları hələ gecə növbəsində işdədirlər. Dan üzü gələcəklər.

Mina nənəsi də deyildi. Mina nənəsi harda, o harda? Bu dünyanın bir başında, nənəsi isə o biri başında. Aralarındakı məsafə o qədər uzaq idi ki, nənəsinin səsi gəlib çatmazdı.

Şəhla da deyildi. Gözləri yaşlı idi onun. Nağıl söyləməyə halı qalmamışdı...

Süsənin səsi eşidildi.

– Mənə yaxın otur. Yox, lap dizimin dibində otur, başını da dizimin üstünə qoy. Qulaq as mənə. sənə nağıl danışacağm. Xoruz səsi eşitməmiş nağıl.

– Nə nağıldı elə?

– Qırmızı nağıl.

– Adını soruşuram.

– Sən o nağılı oxumamısan. – Əli ilə ərinin saçını sığalladı – Hə. O nağılı sən bilməyirsən. çünki heç bir kitabda yazılmayıb o nağıl. O, mənim nağılımdı. Mənim özümün. Qulaq as danışım.

– Danış, - dedi.

– Biri varmış, biri yoxmuş...

................................

## XXII

Süsən danışırdı.

## XXIII

Sonra Süsən yenə danışırdı. Lakin, daha onun səsini eşitmirdi. (Çünki Bəktaşovdan, anasından tilsimli sözlər danışırdı). Süsən dodaqlarını açıb-yumanda təxminən bilirdi ki, qız nə deyir.

## XXIV

Anası bayatı deyirdi:

–Əzizim Vətən yaxşı,
–Geyməyə kətan yaxşı.
–Qürbət isti olsa da,
–Yenə öz elin yaxşı.

## XXV

Şəhla bənövşə olmuşdu...
Eyfel qülləsində bənövşə. “Tərəkəmə” havası... Qohum-əqraba qol götürüb oynayır...

## XXVI

Qırmızı bir gecə idi.
Hamı yatmışdı.
Dənizin dalğaları sahilləri aşıb şəhəri bürüdü. Küçələri, ağacları yudu. Gecə qarovulçularının xəbəri olmadı bundan. Dalğalar ara vermirdi.

## XXVII

Dan üzü ağarırdı.

## XXVIII

...................................

*İsmayıllı-Bakı*
*1977-1978*

# QIZIL ÇUBUQ

– Biləndər müəllim! Ay Biləndər müəllim!

Səs darvazanın ağzından gəlir və bəyaz gecənin işığında hər yana əks-səda verirdi. Qadın səsi idi, həyətdə oturub quzu kababı ilə cecə arağı vuran Qələndər müəllimin ailəsi bu səsə diksinmədilər, əvvəla ona görə ki, Qələndər müəllimin Bakıdakı oğlu Səməndər, Gəncədəki qızı Cəmilə və öz kəndlərində olan Səlimə ailələri ilə ata ocağına yığışmışdılar – Qələndər müəllimin nəvələrinin səsi ətrafı başına almışdı. Araq süzən Biləndər üzünü uşaqlara tutdu.

–Görün kimdi gələn, içəri çağırın.

Uşaqlar hay-küylə darvazaya qaçdılar, az keçməmiş iki qadın içəri girdi. Qələndər müəllim eynəyi gözünə taxsa da, gələnlərin kim olduğunu ayırd edə bilmədi, qadın olduğunu biləndə «onlar Zərnişanlıqdı» – dedi.

– Kimsiniz, ay bala? – Zərnişan həkim yerindən durub qapıya tərəf getdi.

– Bizik, ay Zərnişan doxtur.

– Tanıyammıram. Gəlin, çörək üstə gəlmisiniz.

– Sağ olun.

– Nədi? Xəstə-zad yoxdu ki?

– Yox, doxtur.

– Bəs xeyir ola, bu gecə vaxtı?

– Xeyir olmamış nə olacaq. Ay doxtur, biz Zoğallıdan gəlmişik.

Qadın bir neçə izahat verəndən sonra Zərnişan həkim xatırladı, gəlinlərə təzə boşqab gətirməyi tapşırdı. Qələndər müəllim Biləndərdən nə məsələ olduğunu soruşdu.

– Bilmirəm – dedi Biləndər, sümüyü boşqaba atıb ayağa qalxdı. – Bəri gəlin, nə məsələdi? – Gələnlər oturdular, Qələndər müəllimin kefini soruşdular.

– Vallah, düz qırx ildi ki, Zoğallıdan çıxmışam, ona görə tanımadım.

– Mənə ingilis dili dərsi demisiniz. Çoban Sarının qızıyam.

– Hə, lap xoş gəlmisiniz. Bəs Biləndər nəyinizə lazımdı?

Qadın susdu, deyəsən, nə demək haqqında düşünürdü. Adamın çoxluğu onu çaşdırmışdı.

– Heç, bir balaca işimiz var.

– Nə lazımdı, xala? – Biləndərin gələnləri tanımadığı açıq-aydın hiss olunurdu.

– Ay Biləndər müəllim, başına dönüm, bütün elə-obaya əl uzadırsan, hamının qapısını döyürsən, hərəyə bir yol göstərirsən, ancaq biz tərəflərə yönünü salmırsan? Nolar, adam kasıb olanda.

– Kasıblığın bura nə dəxli var, ay xala. – Biləndər qımışdı.

– Nə dəxli olmursa, bə niyə gəlmirsən?

– Ay bacı, – Qələndər müəllim ayağa qalxdı. – Gəl otur stulda, qalanını Biləndər həll eləyər, gəlməyibsə, gələr.

– Papa, mən daha o işlə məşğul olmuram.

– Noldu, qadan ürəyimə. Mənə çatanda o işlə məşğul olmursan?

– Vallah, xala, mən o işin daşını biryolluq atmışam.

– İnanan daşa dönsün, o gün «Villis»nən gəldiniz bizim qonşuya, qızılın yerini göstərdiniz. Onlar da iki gündü başlayıblar qazmağa.

Biləndər and-aman etdi ki, o olmayıb.

– Qadan ürəyimə, o çubuğunu da götür, bu gündə, sabahda yönünü bizə sal, bir yer göstər, başlayım qazmağa. Bəlkə Allah özü kömək oldu.

Söhbətə Səməndər qarışdı.

– Ay xala, Biləndər sizə gəlməyinə gələr, ancaq onun çubuğu-zadı yoxdu.

– Nətəri yoxdu ki, bu basalaqda hamı qızıl axtaran olub. Hamı qazır. Bax, kolxoz sədri Əsəd arandakı çastdan iyirmi əsgər gətirdib gecə-gündüz işlədir. Yazıqlar Fərhad kimi dağa külüng çalırlar. Cahan kişinin Bakıdakı oğlu yerqazan maşın gətirdib. Hasını deyim. Bir bizdən başqa hamı qazır.

– Qazmağına qazsınlar. Tapan yoxdu, ey. Bəlkə tapan olub? – Səməndər soruşdu.

– Niyə yoxdu, dərdin ürəyimə. Odey, Qasımın Qəzənfəri. Acından ölənin biriydi. İki küpə tapıb. Görürsən nə imarət tikdirir? Sağlığına qismət. Qızını medinstituta qoydu. Oğlu puxaltırlıq oxuyur. Maşın aldı yağın içində. Şəhərdə ev alıb. Sonra deyirlər Kar Söyünün Mehmanı da tapıb.

– Xala, Biləndərdəki çubuq iqruşqadı – oyuncaq. Geoloq dostu var, o verib.

– İqruşkadı, hər nəmənədi, dərdin ürəyimə, gəl bizim tərəfə də, gör haranı göstərirsən?

– İştahla çörək yeyin. Onlar boş şeylərdi. – Qələndər müəllim Biləndəri onlardan aralamaq istədi.

– Boş-zad deyil, müəllim. Boş olsaydı, bu qədər camaatın hamısı qazmaqla məşğul olmazdı.

– Nə axtarırlar e, papa? – Cəmilə uşağı qucağında rahatlayıb maraqla soruşdu.

– Nə bilim, a bala.

– Qızıl axtarırlar. – Səlimə dilləndi.

– Qızıl? – Cəmilənin gözləri bərəldi. – Hardadı qızıl? Heç tapırlar?

– Tapan da olur.

– Adam elə ikicə küpə tapa, ləzzətli olar. Evi kapitalnı remont elətdirərsən, şəhərdən bir ev alarsan. Bir dənə də «Mersedes». Hə, Həmid?– Cəmilə ərinə tərəf döndü.

– Ac toyuq yuxusunda darı görər.

– Niyə ey, Biləndər tapsa, bircə ovuc bəsimizdi.

– Narahat olmayın, tapan kimi hərənizə bir «Mersedes» alacam.

– Dayı, bizə «Cip» alarsan.

– Yaxşı, sizə «Cip» alacam.

– Biləndər müəllim, sabah nə vaxt gəlirsən? Sizi nə vaxt gözləyim?

Qadın getməyə hazırlaşırdı.

–Səhərə söz vermirəm. Haça qayaya gedəcəyik.

– Allah nəzirinizi qəbul eləsin. Nolar, onda birisi gün gələrsən.

– Söz vermirəm. – dedi Biləndər. – Avtobus işləmir, piyada da getmək olmur.

– Maşına nə gəlib ki, piyada gəlirsən. Sən vaxtını denən.

– Birisigün axşam saat 9 yaxşıdı. Qonşular da görməzlər.

– Birisigün maşın sizi düz qapıdan aparıb qaytaracaq.

– Bəs orda yeyib-içmək olmur? – Səməndər Biləndərə söz atdı.

– Niyə olmur?

– Mən də onu deyirəm də, həm dəfinənin yerini göstərərsən, həm də...

– Xalası ona hinduşka qızartması bişirəcək. Qalanları da öz yerində.

- Adamın getməyi gəlir.

– Sən də gəl, başına dönüm, nolajaq. Belə gözümüz üstündə yeriniz var.

## II

Biləndərin həyatı uşaqlıqdan möcüzələrlə dolu olmuşdu. Hələ məktəbə getməmişdən qabaq, beş-altı yaşları olanda evdəkiləri qeyri-adi hərəkətləri ilə bezdirmişdi. Toyuğun bir budunu kəsib təmizləmiş, ocaqda kabab çəkmişdi. Quzunu arxa ayaqlarından asardı. Qonşu uşaqların ağız-burnu qanla dolar, dişləri «seyrələrdi». Bu və onlarla başqa hərəkətlər, sözə baxmamazlıq onsuz da səbirsiz olan anası Zərnişanı boğaza yığmışdı. Məktəb direktoru olan əri Qələndərlə razılaşandan sonra qərara aldılar ki, Biləndəri qonşu rus kəndində bir babulyaya versinlər və Biləndər rusca təhsil alsın, bəlkə bundan sonra onun ağlı yerinə gələr.



Elə də elədilər və məktəb başlamazdan bir həftə qabaq Slavyan kəndinə gəlib Marusya Petrovnanı tapdılar. Uzun müddət məktəbdə coğrafiya müəllimi işləyən Marusya Petrovna təqaüddə idi və öyrəndilər ki, onun uşaqları Çelyabinskdə qohumlarını tapıb, oraya gediblər. Ali təhsil aldıqdan sonra uşaqlar Slavyan kəndinə qayıtmır, analarını ora dəvət

edirdilər, ancaq Marusya Petrovna Slavyan kəndini tərk edib Çelyabinskə getmədi, eyni zamanda uşaqlarının (iki oğlunun, bir qızının) sərbəst qərar çıxarmalarına mane olmadı. Biləndər və onunla qalan daha üç nəfər (o uşaqlar rayon mərkəzindən gəlmişdilər, rayonun rəhbər işçilərinin uşaqları idilər) tot Marusyadan soruşanda ki, niyə qohumlarının yanına, doğma torpaqlarına getmir, danışırdı ki, Slavyan kəndində yaşayan ruslar keçən əsrin ortalarından buraya sürgün olunublar. 30-cu illərdə azərbaycanlılar Sibirə sürgün edilən kimi. Marusyanın babaları, qohumları nəsilliklə Slavyan kəndinə gəliblər. Marusya uşaqlara danışırdı ki, ana babası bir qohumları ilə bu rayona gəlib, bir neçə kəndin torpağından nümunə götürüblər. Ən yaxşı torpaq Slavyan kəndində olub və onlar bu ərazidə məskunlaşmağı qərara alıblar. Marusya Petrovnanın ulu babasının adı Vladislav olub, hamı ona Slava dayı deyirmiş. Ancaq o öz adının bu kəndə qoyulmasını istəməyib, deyib ki, biz slavyanlarıq, müsəlman ölkəsində, müsəlman kəndlərinin arasında «Slavyan» sözü yaxşı səslənir, həm də tarix yaddan çıxmır. Slava 1849-cu ildən gələnlərin ad-familini, təvəllüdünü, anadan olduqları yeri, kimin kimlə necə qohum olmasını yazıb. O öləndə bu kitabı oğlu Mixailə verib. Beləliklə, onların tarixi yazılıb və indi o kitab Marusya Petrovnadadır. Marusya Petrovna ənənəni davam etdirsə də, bundan sonra kitabı verməyə bir adam tapmır, çünki elə həmin kitabdan baba ocağının ünvanını götürənlər bir-bir yerlərinə qayıtmağa başladılar. Marusya Petrovna qayıdanları da qeyd etməyi unutmur, məsələn, Vladimir orta məktəbi bitirib Çelyabinskə (ya harasa) gedir və qohumlarından kimisə tapırsa, Slavyana məktub yazır, qohumları haqqında məlumat verirdi. Marusya Petrovna əhvalatdan hali olduqdan sonra kitabçada qeydlər aparırdı. Beləcə, Slavyan kəndinin gəncləri, sonra da yaşlıları yavaş- yavaş kəndi tərk etməyə başladılar.

Marusya Petrovna Konıgina uşaqlara öz həyat yolundan danışır, misallar çəkirdi. Uşaqlığı ağır müharibə illərinə təsa-

düf edib. Atası müharibəyə gedib qayıtmayıb. Qardaşı Vasili ilə Marusya anasına kömək olublar. Vasili «İliç yolu» kolxozunda kombaynçı olub. Pis dolanmayıblar. Hər üçünün əməkgünü bəsləri olub. Marusyanı çox tez partiyaya keçiriblər. Rayon Partiya Komitəsində çıxışları həmişə alqışlarla qarşılanıb. Slavyan kəndində mədəniyyət evinin tikintisi onun iclasda beynəlmiləlçilik mövzusunda çıxışından sonra başlayıb.

– Yoldaşlar, biz on beş qardaş respublikadan birində, günəşli Azərbaycanda yaşayırıq. Slavyan kəndinin tarixi hamımıza bəllidir. Biz deportasiya olunmuşuq. Lakin bu bizi incitmir, biz özümüzü azərbaycanlıların əhatəsində rahat hiss edirik, demək olar ki, qaynayıb-qarışmışıq. Nəzərinizə çatdırım ki, kəndin 95 faizini ruslar təşkil edir. Rus xalqı özünün iqtisadi gücü, ən çox mədəniyyəti ilə dünyada birincidir. Lakin təəssüflə qeyd etməliyik ki, bizim kəndimizdə mədəniyyət evinin adı belə yoxdur. Biz rayon Partiya Komitəsinin rəhbərlərindən xahiş edirik, – bu bütün slavyanlıların arzusu və istəyidir – bizim kənddə binanın tikintisinə yer ayırmaqda və tikməkdə kömək etsin. Onu bəri başdan qeyd edim ki, bu tikintidə bütün kənd camaatı iştirak edəcək, iməciliklər keçirəcək.

Rayon Partiya Komitəsinin birinci katibi Zülfüqar İsgəndərzadə Marusyanın təklifini çox bəyəndi, iclasdan sonra onu qəbuluna çağırdı.

– Bizə sənin kimi təşəbbüskarlar lazımdı. Rus kəndi ola, onun tansploşadkası olmaya. Adama gülərlər. Günü sabah Mərkəzi Komitəyə, Nazirlər Kabinetinə bu haqda məlumat verəcəm. Səni isə raykoma gətirirəm. Hələlik komsomolda işləyərsən.

Zülfüqar İsgəndərzadə öyrənmişdi ki, Marusya yetim qızdır, kolxozçudur və hələlik ərə getməyib.

– Mənim ali təhsilim yoxdur, yoldaş katib.

– Qiyabi oxuyarsan. Büronun bir qərarıdı, onun canıdı. Əsas odur ki, sən işləyən qızsan, təşəbbüskar kommunistsən. Bəs nə yaxşı sənin kimi gözəl qıza eşq elan edən yoxdur, yoxsa biz bilmirik?

Marusya hələ ailə qurmaq haqqında fikirləşmədiyini bildirdi.

– Eybi yoxdur, bəlkə də düz fikirləşirsən. Çox tez evlənmək də bir şey deyil, xüsusən də qız uşağı üçün. Nə var e, ərə gedirsən, sonra uşaq-filan. Nəsə, bizim əlimiz bala batmayıb ha...

Marusya Petrovna katiblə bağlı ayrı şeylər danışmırdı, ancaq Biləndər də, uşaqlar da onun katiblə yaxın olduğunu hiss edirdilər. Belə olmasaydı, O, göndərişlə universitetin tarix fakültəsinə qəbul olunmazdı, raykomun büro üzvü, rayon sovetinin deputatı seçilməzdi. Az vaxt içərisində Marusya təkcə Slavyan kəndinin yox, bütün rayonun tanınmış adamına çevrilir. «İliç yolu» kolxozunun sədri, partiya təşkilatının katibi o qədər nüfuza malik deyildi. Hamı Marusyaya ağız açır, ondan xahiş edirdi və Marusya bu xahişləri məmnuniyyətlə yerinə yetirirdi. İş o yerə çatmışdı ki, sədr Lenyoşin Marusyaya yaltaqlanırdı, belə olmasaydı, Marusya katibə ikicə gəlmə söz deyər, onu vəzifəsindən uzaqlaşdırardı. Lenyoşinin bu hərəkəti kənd camaatı tərəfindən pis qarşılansa da, o bunun fərqinə varmırdı. Kənddə, rayonda o söhbət də gəzirdi ki, Marusya katiblə çox yaxınlıq edir: katibin sürücüsü onu axşamlar (bəzən gecələr) kəndə gətirir, mərkəzdəki iclaslara İskəndərzadə ilə Marusya bir gedir.

Marusya Vasya ilə evlənməklərini həyatının ən böyük səhvi adlandırırdı. Qardaşı ilə birgə kolxozda traktorçu işləyən Vasya evlənmək təklif edəndə Marusya xeyli fikirləşməli olmuşdu. Axırda belə qərara gəlmişdi ki, ərə getməyi məsləhətdi, çünki onun hər addımı haqqında söz-söhbət rayonu başına götürürdü və Marusyaya elə gəlirdi ki, bundan sonra rahat nəfəs ala bilər. Bəlkə də bu izdivaca şəxsən İsgəndərzadənin özü razılıq vermişdi. Marusya Vasyagilin evinə köçsə də, əvvəlki kimi rayon mərkəzinə işə gedir, evə çox gec qayıdır və qayınanasının, qaynı arvadının, Vasyanın suallarına «iclasdaydım», *«büro idi»,* «mərkəzdən qonaqlarlaydım» cavablarını verirdi. Daha onun gec gələcəyinə adət etmişdilər

və sorğu-sual aparmırdılar. Qonşular soruşanda Nataşa deyirdi ki, gəlinim böyük adamdır, rayonun başçıları ilə oturubdurur, avam camaat isə ağlına gələni uydurur.

– Vasya, Marusya evə saat neçədə gəlir? – Yoldaşları içəndən sonra soruşurdular.

– Neçədə? İşini qurtaran kimi.

– Marusya gecə kiminlə yatır?

– O nə deməkdir? Əlbəttə ki, mənimlə.

– Sən qırxıncı yuxuda olanda gəlirsə, sən bədbəxt onun üzünü harda görürsən? Bu kolxoz quranın atabaatasına lənət. Hər şeyi kolxoz eləyiblər.

– Səy-səy danışmayın, kolxoz olmasa, indi kiminsə nökəriydiniz.

– Sağ ol Vasya, arvadın təbliğatı sənə də keçib. Guya indi nökərçilik eləmirik. Bəlkə ağa kimi dolanırıq? Səni bilmirik, ancaq bizim üçün fərqi yoxdur. Ya Nikolaya nökərçilik etdik, ya da...

## III

Slavyan kəndində hər cür adam vardı və hər kəsin də özünəməxsus ayaması vardı. Azərbaycanlıların yaşadığı Qaraşəhərdə – kəndin şimalında hamını ayama ilə çağırırdılar: İbrahimə Petka, Həziyə Tülkü, Səfiyə Volk, Əlişə İt Əliş, Kamala donuz Kamal, Səlimə Əyriqılça, Mustafaya Yevrey, Kərəmə Qatır, Cavada Pəşdan, Qaraya buruq Qara, İsaya Pereqon, Məhərrəmə Düzbarmaq, Frişə Lotu deyirdilər.



Marusya Petrovnanın gəl-gəl deyən vaxtlarında Friş kənddə yox idi, daha doğrusu 6 il həbs cəzası ilə Binədə yatırdı. «Narzan» restoranının yanında svarşik Vitalinin evində qumar oynayanda Frişin gözü onlara çay gətirən Maşanı tutur. Maşa da nişanlı imiş. Üstündən iki gün keç**miş** Friş qıza brilyant üzük bağışlayır. Sonra onlar gecə görüşməyə başlayırlar. Qız yatdığı otağın pəncərəsini açıq qoyur, Friş oradan içəri düşürmüş. Dörd aylıq hamilə olan Maşa

birdən-birə kökəlir, ağırlaşır. Friş xəbər tutan kimi uşağı abort elətdirmək istəyir, lakin Maşa buna razı olmur. Qızın nişanlısı ilə Frişin sözü düşür. Friş bıçağı onun qarnına soxur. Oğlanı Kirovabada - 3 nömrəli xəstəxanaya çatdırırlar. Şikayət olmasa da, Frişin xeyli xərci çıxdı – Kirovabaddakı həkimə, oğlanın ailəsinə, rayonun milisinə, prokuroruna, məhkəməsinə xeyli pul verdi. Maşa hamiləliyini Frişin Bakıdakı evində keçirib bir oğlan uşağı doğdu. Qəribə burası oldu ki, Krupskaya xəstəxanasında azad olandan bir neçə gün sonra Maşa qoşulub qaçdı. Küçəyə atılan uşağı internata verdilər.

Friş kəndə qayıdandan bir həftə sonra «Volqa»sını Vasyagilə sürdü. Vasyanın anası onu qarşıladı.

– Sən qayıtdın, Friş?

– Hə, tot Nataşa.

– İndi nə edəcəksən?

–Hələ bilmirəm.

– Allah özü saxlasın.

– Amin. Vasya evdədi?

– Yox.

– Bəs hardadı?

– Nə bilim hansı cəhənnəmdədi? Hardasa içirlər yəqin.

– Mənə lazım idi. Bəs Marusya Petrovna evdədi?

– Hə.

– Elə ona deyərəm. – Friş onların otağına keçdi. O, uzanmışdı. Frişi görəndə könülsüz ayağa qalxdı.

– Niyə qalxırsan, uzan, Mariya. Sən nə gözəlləşmisən. Dünən arıq cücə kimiydin.

– Vasyanı istəyirsən?

– Neynirəm Vasyanı, səninlə görüşmək istəyirdim. Necəsən?

– Yaxşıyam.

– Sənin kimi gözəl həmişə yaxşı olmalıdı, heç nədən korluq çəkməməlidi. İnsan dünyaya bir dəfə gəlir, onu da ürəyi istədiyi kimi yaşamalıdı.

– Sağ ol, Friş, getsən yaxşıdı.

– Hara gedirəm. İndi gəlməmişəm? Dur bir çaydan-zaddan gətir.

– Yox bir.

– Nədi?

– Çayımız yoxdu. Gecə vaxtı hardan alım?

Friş stulunu ona yaxınlaşdırdı.

– Qulaq as, eşitmişəm ki, rayonun katibi ilə çox yaxınsan, ancaq İsgəndərzadə çox yaşlaşıb. Səni təmin eliyə bilmir. Sən də sürücüynən o məsələ... Qulağını aç, yaxşı-yaxşı eşit. Bu günnən sən ancaq mənnən olmalısan. Mən, bilirsən də, lotu Frişəm.

– Qələt eləyir onu deyən. Mən heç kimnən olub eləmirəm. Ərim, ailəm...

– Ərinin boyunu yerə soxum. – Bu an həyətdən Vasyanın səsi gəldi, sərxoş idi və oxuya-oxuya gəlirdi.

– Dur çıx burdan, kişi gəlir. – Friş qalxıb Marusyanı qucaqladı, üzündən öpüb yerində oturdu.

– Otur, sənin işin yoxdu.

– Ay, ay, gör bizə kim gəlib. Friş! Gecə vaxtı bizdə neynirsən?

– Gördüm sən dostunu görməyə gəlmirsən, mən gəldim. Dağ Məhəmmədə yaxın getməyəndə, Məhəmməd dağa tərəf gedər.

– Aha, dağ, Məhəmməd, bu gəlməyəndə o gələr. Yaxşıdı.

– Vasya. – Friş cibindən bir iyirmi beşlik çıxartdı. - Get Tolikdən şampanski al, iki dənə: Qalanı da qalsın sənə.

– Mənə? Kişi araq içər, şampan arvadlar üçündü.

– Ə, Marusya da içəcək, ona alıram.

– Marusya qələt eləyir, biz araq içirik, o da araq içməlidi.

– Get, tez elə, bir azdan gec olacaq.

Vasya səndirləyə-səndirləyə çölə çıxdı.

– Marusya, pul məndə, güç məndə. Rayondakıların hamısı mənim əlimə baxır. Mən pazvalyat eləmərəm ki, mən dura-dura kimsə sənin kimi ceyranı ələ keçirsin. Oldumu?

– Yox.

– Sənə söz dedim. İcazədən-zaddan al, minək «Volqa»ya, gedək Bakıya.

– Bakıda nə var? Məni də Maşanın gününə salmaq istəyirsən?

– Maşaya pis oldu? Kefini çəkdi, üstü poxlu bir kəndçiyə gedəsiydi, getdi oldu bakılı. İndi xanım-xatın olub.

– Qurtar, Friş, pəncərədən görürlər.

– Görsünlər də...

– Onda evdə yox. Sonra görüşərik.

İki gün sonra Marusya Bakıya getməli oldu. Universitetdə kəsiri qalmışdı...

Marusya Petrovna Biləndərgilə qarşı çox tələbkar və ciddi idi. Otağa cədvəl asmışdı. Bu gündəlik görüləcək işlər idi.

7.00 – yuxudan oyanmaq
7.05 – idman
7.20 – səhər yeməyi
7.30 – məktəbə getmək
12.00 – həyətyanı sahədə iş
12.30 – 12.45 – şəxsi vaxt
13.00 – günorta naharı
13.30– 14.30 – yatmaq
14.30 – 16.00 – dərslərlə məşğul olmaq
16.00 – 16.30 – həyətyanı sahədə iş
16.30 – 17.30 – qiraət
17.30– 19.00 – dərslərin hesabatı
19.00 – 19.30 – axşam naharı
19.30 – 21.00 – şəxsi vaxt
21.00 – yatmaq.

Bu cədvəldə olanları Marusya Petrovna Biləndərə, onun yoldaşları Sayada, Əzizə və Mübarizə başa saldı və bir həftə nəzarət elədi. Uşaqlar yuxudan oyanan kimi yataq yerlərini cəld və səliqəli yığmalı, həyətdəki bulaqda yuyunmalı idilər. Yuyunmaq elə-belə deyildi, göbəkdən yuxarı soyuq suyun altında qalmalı, dişlər pasta ilə təmizlənməliydi. Hərənin özünün dəsmalı vardı. Elə həyətdə idman olunmalı idi. Burada hər cür şərait vardı – uşaqlar turnikdə çəkinir, yellənir, uzununa hoppanır, ağır daşları qaldırırdılar. Onlar qayıdana

kimi Marusya Petrovna onlara çay, bəzən süd, kakao hazırlayır, stola şəkər tozu, yağ, pendir, çörək, peçenye qoyurdu. Yeməyə özü şəxsən nəzarət edirdi.

– Sayad, çörəyi az-az dişlə.

– Əziz, bıçağı düz tut, yağı qaydasında götür.

– Biləndər, yemək yeyəndə danışma. – Dərslərdə diqqətli olun, şuluq salmayın. Bir müəllimdən bir pis söz eşitsəm, cərimələnəcəksiniz.

Uşaqlar cərimənin nə olduğunu sonra bildilər. Mal tövləsi 1 sutka təmizlənməli, heyvanlar suya açılmalı, ot verilməliydi. Onsuz da bu işləri uşaqlar görürdü, ancaq cərimə olan bunları təkbaşına etməli idi. Rayon maliyyə idarəsinin rəisi Xıdır müəllimin oğlu Mübariz, ümumiyyətlə, tövləyə getmək istəmirdi.

– Marusya Petrovna, atam sizə pul verir ki, mənə tövlə təmizlədəsiniz?

Nazik gərməşov Mübarizin əllərinin, sonra yumşaq ətinin üstünə iz saldı.

– Atama deyəcəm.

– Deyərsən. Onda ikiqat cərimə alacaqsan. Sizi mən xahiş eləyib gətirməmişəm. Valideynləriniz özləri xahiş ediblər və sizi mənə etibar ediblər. Mən nə istəsəm, onu eləmək hüququna malikəm.

Yemək yeyilən kimi hər kəs öz qab-qacağını mətbəxə aparmalı idi. Stolun üstü təmizləndikdən sonra uşaqlar məktəb paltarlarını geyinib dərsə yollanırdılar. Geyimə xüsusilə fikir verilməli idi. Köynək şalvarın içinə düz keçirilməli, düymələrlə şalvarın ortası bir xətt üzərində olmalıydı. Ayaqqabılar axşamdan təmizlənirdi, üstü bərabər vəziyyətdə saxlanırdı. Marusya Petrovnanın dərsləri gündüz olurdu və o məktəbdə də uşaqları izləyirdi. Müəllimlər Biləndərgilə «sənin uşaqların» deyir və demək olar ki, Marusya Petrovnaya gündəlik məlumat verirdilər.

Uşaqlar dərsdən çıxan kimi evə gəlir, üst-başlarını dəyişir və sahəyə gedirdilər. Sentyabrda kartof çıxarıldıqdan sonra çuğundur və kök sulanırdı. Uşaqlar qıraq uzunu əkilmiş gü-

nəbaxanlardan, alma, armud, gavalıdan qopara bilməzdilər. İş qurtardıqdan sonra Mariya Petrovna yuyulmuş meyvələri stola qoyurdu.

– Ə, ağzımızın suyunu tökdü bu əclafın qızı. Yezitdən betərdi.

– Biləndər, axşam oğurlayarıq.

– Buna bax, meyvəni də sayla qoyub. Hərəmizə bir dənədi.

Şəxsi vaxtda Marusya Petrovna uşaqlara əlavə ədəbiyyat verirdi, uşaqlar istədiyi nağılı, hekayə, yaxud povesti oxuyur, axşam Marusya Petrovnaya neçə səhifə oxuduqlarını və məzmununu məlumat verirdilər.

Günorta naharında hər bir uşaq hökmən borş yeməliydi. Uşaqlar borşdan ilk günlər imtina etsələr də, sonra adət etdilər.

– Sizin istəyinizlə deyil. Hamı gündə sulu yemək yeməlidi, yoxsa mədəniz xarab olacaq.

Biləndərə ilk çubuq yatmaq zamanı dəydi. Saat birdə yerə uzanan uşaqlar gördülər ki, Marusya Petrovna tapşırıq verib dərsə getməyə hazırlaşır. Biləndər dedi ki, yalandan uzanıb özümüzü yuxuluğa vuraq, o gedən kimi sahədən meyvə oğurlayaq.

Marusya Petrovna qapıdan çıxanda uşaqlardan soruşdu.

– Yatdınız? Mənim bir saat dərsim var, indi gəlirəm. – Darvaza qapısı örtülən kimi Biləndər şalvarı əyninə keçirib həyətə cumdu. Uşaqlar yatmasalar da, yerlərindən qalxmamışdılar. Qapı birdən-birə açıldı və Marusya Petrovna Biləndəri geri çağırdı.

– Niyə yatmamısan?

– …

– Həyətdə nə ölümün vardı? Oğurluq etmək istəyirdin?

Biləndər cavab vermirdi, çünki Mariya Petrovna onlara yalan danışmağı və oğurluğu qadağan etmişdi. Onun dillənmədiyini görən Marusya Petrovna çubuğu işə saldı.

– Müsəlman köpəkoğlu, deməmişəm oğurluq etmə? – «Köpəkoğlu» sözü Biləndərə pis təsir etdi, dillənmək istəyəndə, ikinci çubuq belini yandırdı.

– İki sutka cərimə.

– Mən oğru deyiləm!

– Bəs nəsən? Bağa niyə düşmüşdün? – O əyilib Biləndərlə göz-gözə dayandı.

– Bağdan iki alma götürmək oğurluq sayılır? Ağzımızın suyu tökülürdü.

– Sən nəfsinin oğrususan.

– Mən oğru deyiləm. O ağaclara biz qulluq etmirik? Neujeli, ondan birini qopara bilmərik?

Marusya Petrovna sakitləşdi.

– Başla işləri görməyə. İki gün.

– Siz faşistsiniz, Marusya Petrovna, özü də yevrey qarışıq.

– Artıq-əskik danışma. Sizə belə lazımdı. Yoxsa... səni biryolluq itirərəm...

Biləndərin əlacı olsaydı, Marusya Petrovnanı tikə-tikə doğrayardı və pəncərədən həyətdəki alma, armud və gavalı ağaclarını görəndə yadına kəndlərindəki ağaclar düşdü: orada heç kim Biləndərə qadağa qoymurdu, xətrinə dəyən yox idi ki, filan meyvənin başına niyə çıxmısan. Kəndləri çox da uzaqda deyildi, dağın o biri üzündə idi və Slavyan kəndindən onlara on doqquz kilometr yol vardı. Biləndər bu yolu payi-piyada gedə bilərdi, ancaq mərkəzdən onların kəndinə maşınlar gedirdi. O qət etdi ki, bu gün hökmən qaçacaq, iki günlük çərimə gedəcək iş-gücünün dalınca.

Biləndərə o da təsir edirdi ki, yoldaşları o döyüləndə **xısın**-xısın gülürdülər, halbuki onlar da Biləndərin gətirdiyi meyvələrdən basacaqdılar.

– Çubuq necə vıyıldayırdı? Gördün? – Mübariz heyrətlə danışırdı.

– O dəyəndə mən elə bildim ki, qışqıracaq.

– Heç səsi çıxmadı.

– Həm də söydü.

– Sizə qalmayıb. Gördüm sizin kişiliyinizi.

– Neyləməliydik ki? – Sayad cavab qaytardı.

– Bir rus... - qəhbəsi demək istədi, ancaq dayandı – qarısı qoyun yerinə qoyub bizi. Siz kişi olsaydınız, ağzınızı açardınız.

– Sənə görə biz niyə pis olmalıyıq. Öz cəzandır.

Biləndər əvvəl istədi ki, Mübarizin ağzını qana boyasın, ancaq dayandı, çünki onlar üç nəfər idilər, Biləndər üçünə cavab verə bilməyəcəkdi, tək olsaydılar, bir-bir dərslərini verərdi, həm də səs-küy salmaq istəmədi, yoxsa evə qaça bilməzdi. Burdan biryolluq qaçıb getsə və bir də Marusya Petrovnanın evinə qayıtmasaydı da, Biləndər o uşaqlardan heç olmasa birini, ən çox da Mübarizi şil-küt etməli idi.

Ancaq qaçmaq Biləndərə çətin gəlirdi: uşaqlar otaqda idilər, Biləndər paltarlarını sumkaya yığmalı, Mərkəzə kimi aparmalı idi. Elə uşaqlar görən kimi Marusya Petrovnaya xəbər verəcəkdilər. Bəlkə hər şeyi qoyub elə-belə gedəydi? Kəndə gedən kimi onu hoydu-hoyduya götürəcəkdilər, yoldaşları deyəcəkdi ki, Biləndər oxuya bilməyib qayıtdı. Biləndər ata-anasının, qohum– əqrabasının danlağından çox yoldaşlarının tənəsindən çəkinirdi, çünki onun yaşıdları arasında böyük hörməti vardı; o rus dilində – böyük Lenin dilində oxuyurdu. Bu dildə sərbəst danışırdı, halbuki uşaqlar netlə yesi bilmirdilər. Və yoldaşları elə düşünürdü ki, Biləndər öz kəndlərindən on doqquz kilometr aralıda yox, Moskvada, Leninin muzeyinin yanında yaşayır və oxuyur. Mədəniyyət evindəki rəqs meydançasından danışanda uşaqların ağzı açıla qalırdı və Biləndərin söhbətləri onlar üçün şirin olurdu.

Bir dəfə Biləndər kəndlərindəki cavan ədəbiyyat müəllimi ilə mübahisə elədi. Sakit müəllim rusca təhsil alanların xarakterindəki xüsusiyyətləri açıqlayır, bunun mənfi cəhətlərini sübut etmək istəyirdi.

– Bir var Nizamini, Füzulini, Sabiri oxuyasan, bir də var Puşkini, Lermontovu oxuyasan. Hansı yaxşıdı?

– Əlbəttə, Puşkin böyük şairdi. – Biləndər Sakit müəllimə cavab verdi.

– A kişi, Nizami hara, Puşkin hara? Elə bil filnən milçəyi müqayisə edirsən. «Xəmsə»ni oxusan bəsindi. Orada riyaziyyat, fizika, kimya, astronomiya, fəlsəfə, nə bilim, nə istəyirsən tapa bilərsən. Ancaq Puşkin nə yazıb?

– Bilmirsən Puşkin nə yazıb? Ona görə mübahisəyə dəyməz.

– Puşkin yazır ki, «Qafqaz altımdadır, ən müdhiş zirvədə mən». Baxın, görün nə yazır. «Qafqaz altımdadır». İfadəyə fikir ver. Başdan-ayağa milləti, xalqı təhqir etməkdir. Qafqaz səninçün qızdı, qadındı, nədi? Bir milli heysiyyatınız olsun.

– Mənim heysiyyatım var. Nə yazıb e, Nizami? Qəzəl-məzəl, skazka, nə bilim İsgəndərnamə...

– Puşkin də Salavat Yulayevdən, Boris Qodunovdan yazıb. Kimdi Salavat Yulayev? Əclafın biri.

– Narodnıy geroydu.

– A kişi, saxla geroyluğunu. Bəs İsgəndər kimdi? Heç bilirsən?

– Zülmkar, qəddar sərkərdə... Dünyanı qana qəltan edən bir padşah. Yadında saxla ki, Rusiya dünyanın ən nəhəng dövlətidir və rus mədəniyyəti sənin mədəniyyətindən qat-qat yüksəkdi.

Sakit müəllim papiros yandırdı. Kibritin dənəsini söndürüb dişi ilə yarı böldü və dişlərini qurtdaladı.

– Ə, Biləndər, rusun mədəniyyətini əlində bayraq eləyib gözümüzə soxma. Nə mədəniyyəti var, ə, rusun? Kişiləri alkaş, arvadları ordan-burdan xoruz tapan. Fahişəlik mədəniyyət deyil, ən qədim və pis peşələrdən biridi.

– Olar fahişəlik eləmirlər, ay Sakit müəllim, günlərini düzgün bölməyi, istirahət etməyi bacarırlar.

– Onun-bunun qucağında.

– Nəsə, sən bir bax – azərbaycanlılar fikirləşir ki, beş gün işləyəndən sonra ev işlərini şənbə-bazar günləri görsünlər. Bir dəqiqə yumşaq ətlərini yerə qoyub istirahət etmək haqqında düşünmürlər. Nə qədər işləmək olar? Ancaq rus şənbə-bazar günləri ancaq istirahət etməlidi. İstəyirsən nə olur-olsun, həmin vaxt əllərini ağdan-qaraya vurmazlar. Ona görə ki, çort poberi, bilirlər ki, iş qurtaran deyil. Orqanizm heydən düşür. İnsanla eşşəyə bir fərq olmalıdı, ya yox?

Qıraqdakılara elə gəldi ki, Sakit müəllimin sözü qurtarıb. Onun qəfil sualı Biləndərin özünü çaşdırdı.

– Elə mədəniyyət, mədəniyyət deyirsən, gəl bir rus, bir müsəlman tualetə getsin, görək hansı təmiz çıxacaq?
– Bunun mətləbə nə dəxli var?
– Nətəri nə dəxli var? Rus tualetdə kağızla təmizlənir, ancaq müsəlman su ilə yuyunur.
– Əşşi, səninki olmadı, Sakit müəllim.
– Niyə olmur ki. Düzü deyəndə niyə acığın tutur? Həqiqət belədi.

Söhbətin belə başa çatması çoxlarına qəribə gəldi və belə hesab edildi ki, Biləndər Sakit müəllimi üstələyib, çünki Rusiya çox böyükdü, hətta xəritədə o dünyanın bütün ölkələrindən iri görünür, onun Moskva kimi paytaxtı var və Azərbaycan o nəhəng Rusiyanın bir ovuc hissəsidi – və bu mübahisə kənd uşaqlarını düşünməyə məcbur edirdi; çünki onlar danışanlara matdım-matdım qulaq asırdılar – rus görsələr də, onları yaxından tanımır, adət-ənənələrini bilmirdilər.

Onların xəyallarında kitab və dəftərlərinə yapışdırdıqları nakleykalar canlanırdı və elə bilirdilər ki, qızlar Slavyan kəndinin Nataşaları, İraları, Marinaları, Olyalarıdı. Biləndərin əmisi oğlu Şahid bir dəfə ondan xahiş etdi ki, onu da babulyasıgilə aparsın. Biləndər onda qəti etiraz etdi və Şahidi başa saldı ki, onun evində qaldığı Marusya Petrovna o biri babulyalardan deyil, evə heç Zərnişan həkimi, Qələndər müəllimi də buraxmır.
– Olarda qız varmı? – Şahid soruşdu.
– Yox, evdə yoxdu, ancaq nəvəsi Çelyabinskdədi, hər yaydan-yaya nənəsinin yanına gəlir. Adı Alladı. Özü də onlarla yaşıddı. Dünya gözəlidi.
– Biləndər, onu mənə düzəldə bilərsənmi?
– Necə düzəldim, çort poberi?
– Ə, yayda gəlim Slavyana, orda görüşdür bizi. Nə qədər istəsən pul da gətirərəm.
– O qız sizin dildə danışa bilmir ha. Gərək rusca danışasan.
– Sən tərcümə eliyərsən dana.

Şahid, doğrudan da, yayda əlli manat götürüb gəlmişdi

Slavyana, Biləndəri axtarıb tapmışdısa da, bir xeyri olmamışdı, çünki Alla Slavyana gəlməmişdi. Əlli manat Biləndəri şirnikdirmişdi, ona görə Şahidi şirnikdirdi.

– Ə, Alla ayda, ildə bir gəlir. Gəlsənə Tanyanı düzəldim. həm qonşudu, həm də mənimlə arası lap sazdı. Az-maz da Azərbaycanca qırıldadır.

Elə bu vaxt Tanya əlində vedrə darvazanın ağzında göründü.

– Salam, Tanya, necəsən?

– Sağ ol.

– Su gətirməyə gedirsən?

– Görürsən ki?

–Sabah rəqsə gələcəksən?

– Neynirsən?

– Maraqlanıram. Sən gəlsən, biz də gələrik.

– Biz, yəni kimlər?

– Mən, bir də əmim oğlu.

– O da sənin ağlındadır?

– Yox, əşşi, sakit uşaqdır, elə sənin babındır.

–Görürəm, çaxır çəlləyinə oxşayır.

– Onnan eybi yoxdu. Sənin ən çox nədən xoşun gəlir?

– Abırsız oğlanlarla danışmamaqdan.

– Fransız ətri istəyirsənmi?

– Aparıb nənənin başına tökərsən.

– Səni burda qoyub nənəmi niyə axtarmalıyam?

Tanya uzaqlaşdı. Onlar heykəl kimi dayanmışdılar.

– Kontakt var. Deyir çox köksən. Düzəldərik. O mənim boynuma. Ancaq hədiyyə hökmən lazımdı. Bir fransız ətrinə razı olacaq.

– Alaq də.

– Əldə bilirsən neçəyədi?

– Neçəyə olur-olsun.

– İyirmi beş manatadı. Sonra gərək bir şənbə axşamı bura gələsən. Tansda həm oynayarsınız, həm də görüşərsiniz. – Biləndər iyirmi beş manatı alıb Şahidi avtobus dayanacağına

qədər ötürdü. – Babulya məni gözləyəcək, geciksəm, birtəhər edər. Sağ ol, şənbə günü günorta avtobusu ilə gəl. Ona kimi hər şeyi qaydasına salaram.

O şənbə günü Şahidlə Əmirxanın Narzandakı pitixanasında oturub içdilər. Rəqs meydançası adamla dolu idi. Tanyanı qıraqda tutdular.

– Tanya, əmim oğlu səninlə rəqs etmək istəyir.

– İstəyir, istəsin.

– Az, qoy səninlə medlennı oynasın, canın üçün yenə hədiyyə alacaq.

Mahnı təzələnən kimi Şahidi dümsüklədi. O, özünü qızın üstünə saldı və qucağına sıxdı.

– Bir az yavaş.

– Xoroş, xoroş. – Tanyanın nəfəsi kəsilirdi.

– Elə olmaz, düz tut. – Şahid heç nə başa düşmürdü.

– Xoroş, xoroş.

Biləndər onlara yaxınlaşıb Şahidə göstəriş verdi. Ancaq o, qızın ayağını tapdalayanda qışqırtı səsi meydana yayıldı.

– Sərxoş vəhşi, ehtiyatlı ol. - Şahiddən aralanmaq istədi, bu vaxt cavan oğlanlardan biri onlara yaxınlaşdı.

– Bu kimdir?

– Adi vətəndaş, sənin kimi cavan oğlan.

– O buradan rədd olmalıdır, sən də onunla birgə.

– Rədd olmaq lazımdısa, birinci sən başla.

Oğlan Biləndəri qaranlığa çəkdi.

– Nə şeflik eləyirsən burda? Bura sənə haradır?

– Bura bizim torpaqdı. Başqa sözün var?

Oğlan qəfil yumruq atmaq istədi, ancaq Biləndər başını qaçırtdı və sol əli ilə onun çənəsini yerindən oynatdı.

– Buna bax, ə, qoduq, sən mənə əl qaldırırsan? – Söz tamam olmamış ikinci zərbə oğlanı yerə yıxdı, Biləndər meydançaya qayıdıb Şahidi aradan çıxarmaq istədi.

– Tez elə, sakitcə aradan çıxdıq.

– Məən... – Şahid Tanyadan əl çəkmək istəmirdi və görünür başına nə gələcəyindən xəbərsiz idi.

– Onda özün bil. – Biləndər özünü Marusya Petrovnagilə çatdırıb yerinə uzandı.

Şahidi arakəsməyə salıb yaxşıca əzişdirmişdilər.

Tanya danışırdı ki, Şahidi döyəndən sonra meydançada qarmaqarışıqlıq düşüb, musiqi kəsilib, hər şey də onunla bitib.

O gecə Şahiddən xəbəri **olan** olmayıb-harada qalıb, kəndə necə gedib bilinməyib.

Marusya Petrovna uşaqlardan narazılığını bildirdi.

– Başa düşə bilmirəm ki, siz nə ilə məşğul olursunuz. Çətin də bir şey yoxdu. Lermontov dahidi, klassikdi. «Zəmanəmizin qəhrəmanları» elə bir əsərdir ki, sizə çox lazım olacaq – onuncunu bitirəndə də, institutda da. İndidən onu elə öyrənməlisiniz ki, sonradan çətinliyə düşməyəsiniz. Nağıl kimi oxuyubsunuz. Bu əsərdə xarakterlər var: Maksimıç, Bela... Əsəri diqqətlə oxumalısınız ki, təhlil zamanı çətinlik çəkməyəsiniz.

– Biz yaxşı oxumuşuq, Marusya Petrovna, – Mübarizin səsi idi.

– Yalan danışma, dördünüz də pis hazırlaşmısınız. Təkrar oxuyacaq və cavab verəcəksiniz. Gözəl əsərdir, heç Azərbaycan ədəbiyyatında belə əsərə rast gəlməzsiniz.

- Düz deyirsiniz, Marusya Petrovna... – Marusya Petrovna Sayadın təsdiqindən xoşhal oldu.

– Təhkiyə çox güclüdü. Əsər sizin mentalitetinizə yaxındı. Lermontovun üstünlüyü ondadı ki, əsərin dili rəvan və səlis, poetikdir. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatının Nizami, Füzuli zirvəsi Puşkin və Lermontov zirvəsindən çox aşağıda dayanır. Sizinkilərin əsərləri rus dilinə tərcümə olunub, lakin istənilən rəğbəti qazanmayıb. Puşkin Puşkindir, Lermontov da eləcə.

– Marusya Petrovna, – Biləndərə elə gəlmişdi ki, o, fikrini yekunlaşdırıb. – Puşkinin ərəb mənşəli olması nə cür həqiqətə uyğundur?

Marusya Petrovnanı od götürdü.

– Bu sənin hardan ağlına gəldi?

- Prosto soruşuram.

– Prosto soruşmursan, kimsə sənin başını xarab eləyib. Puşkin rusdur və rus xalqanın dahi şair oğludur. O heç cürə müsəlmanla, tem bole ərəblə qohum ola bilməz. Biləndər, inoqda durnıe mısli poyavlyaetsya v qolove. Bu sənin ağlına hardan gəlib? Kim deyib sənə bunu?

Biləndər onu deyənin kim olduğunu bilsə də, bunu koridorda kimlərinsə söhbətində eşitdiyini dedi.

– Sən kimə kələk gəlirsən? Siz bunu əməlli-başlıca müzakirə etmisiniz. Ancaq onu deyim ki, bu yanlış fikirdi. Puşkin rus xalqının və dünyanın korifey şairidir. O heç kimlə müqayisə olunmaz. Siz hələ uşaqsınız, böyüyəndə bilərsiniz ki, kim kimdir.

Bu söhbət bununla bitmədi və uşaqlar söz salmasalar da, Marusya Petrovna həmişə bu mövzuya qayıdır və sübut etmək istəyirdi ki, Puşkin, Lermontov dahidirlər. Biləndər bununla razılaşsa da, ona qəribə gələn o idi ki, tutaq Puşkin, ya Lermontov elə doğrudan da, qeyri millətdəndirlər, bunun Marusya Petrovnaya nə dəxli var? Puşkin də, Lermontov da böyük şairdilər, lakin başqa şairlər də var ki, onlar da dünya ədəbiyyatının korifeylərindəndirlər. Heç bir əsərini oxumasa da, Biləndər bilirdi ki, Nizami də, Füzuli də, Sabir də böyük şairdirlər və Marusya Petrovna bunu əlinin içi kimi bilir, ancaq kürəyini yerə vurmur. Bu Slavyan kəndində elə bir kitabxana yox idi ki, Biləndər Nizaminin bir kitabını alıb oxusun, bilsin ki, Nizami nədən yazıb, necə yazıb və Marusya Petrovna bu mövzuda diskussiya açanda onun cavabını versin. Bunu o öz kəndlərində uşaqlardan öyrənə bilərdi, ancaq onun yoldaşları oxuyan deyildilər, bəlkə də Biləndər bu haqda onlardan daha çox bilirdi. Sakit müəllimlə sözləri düz gəlmir, həmişə mübahisə edirdilər, odur ki, ondan nəsə soruşmaq düzgün çıxmazdı – sonra Sakit onu uşaqların yanında hörmətdən sala bilər, dolayardı.

– Sizdə Nizaminin, ya Füzulinin əsərlərindən varmı? –Bu sual Marusya Petrovnanı diksindirdi.

– Yoxdur. Nədi, oxumaq istəyirsən?

– Olsa, oxuyardım. Marusya Petrovna, siz onun əsərlərindən oxumusunuzmu?

– Məlumatım var. Rus dilinə tərcümə olunmayıb ki, oxuyum. Həm də, mənim elə əsərləri oxumağa səbrim yoxdu.

– Bəs nə bilirsiniz ki, Nizaminin əsərləri «bezdarnı»dı?

– Bilirəm, bilməsəm demərəm. – Biləndər qəti əmin oldu ki, Marusya Petrovna bu sözləri paxıllıqdan deyir, özünün məqsədi də onu əsəbiləşdirməkdi. Söhbət bununla bitirdi.

Bu söhbətlər Biləndərin yoldaşları üçün maraqlı deyildi, onlar qıraqdan qulaq asır və gözləyirdilər ki, görəsən Marusya Petrovna Biləndərə nə cəza verəcək. Həm də Biləndər yoldaşlarının gizli söhbətlərindən və münasibətlərindən hiss etmişdi ki, Mübarizin atasının vəzifəsini başqa rayona dəyişirlər və yaxın günlərdə o da çıxıb gedəcək.

– Əşşi, bu rayon hara, o rayon hara! Ora həm böyük, imkanlı, ən əsası da Bakıya yaxın. – Əziz Sayadın sözünə əlavə edirdi.

– Biz də qərara almışıq ki, Bakıya köçək. Papa burda qalacaq, biz köçəcəyik. Mama da, bacılarım da burda darıxırlar, nə var e, burda? Çox çansıxıcıdır. Bəzi adamlar kimi Tanyaya vurulmayacağıq ki...

...Bundan gözəl fürsət ələ düşməzdi və Biləndər bu fürsəti buraxmamağı qərara aldı. Ağ mələfəni və balışüzünü qatlayıb qarnına soxdu və kəndin qəbiristanlığında gizləndi. Əziz, Sayad, Mübariz ad günündən qayıdan Marusya Petrovnanı müşayiət edirdilər. Əhval-ruhiyyələri yüksək idi. Xüsusən də Marusya Petrovnanın. Onlar qəbiristanlığa yaxınlaşırdılar. Biləndər balışüzünü başına, mələfəni isə belinə keçirdi. Külək mələfəni yellətdikcə kənardan vahiməli bir vəziyyət yaranırdı.

– Ora bax, o nədir elə? – Mübariz Marusya Petrovnaya yaxınlaşdı.

– Aa...a, doğrudan nədir elə, ağappaqdır.

– Mama, mən qorxuram!

Marusya Petrovnadan səs çıxmırdı. Dördü də bir yerə toplaşıb dayandılar. Uşaqlar qışqırır, analarını çağırırdılar.

Biləndər qorxdu ki, səs-küyə camaat yığışa bilər. Odur ki, əcaib səslər çıxarmağa başladı.

– Ay mama, ay mamama...

– Kömək edin. – Marusya Petrovna da haraylamağa başladı. Biləndər sürətlə qəbiristanlığın çəpərindən hoppanıb onlara tərəf cumdu. Dördü də yerə uzanmışdı. Mübarizə və Marusya Petrovnaya bir təpik vurub əks istiqamətə qaçmağa başladı. Biləndər gözdən uzaqlaşan kimi ağları qatlayıb əvvəlki yerinə qoydu və qonşu məhællədən həyətə keçib otağa girdi...

Marusya Petrovna və uşaqları bir saat sonra qonşular gətirdilər. Vəziyyətləri pis idi. Onlara kömür suyu içirtdilər. Marusya Petrovna üstəlik validol da içdi.

Sən demə, onlar qəbiristanlıqda xortdan görüblərmiş...

## IV

Mübarizin getməyi vəziyyəti tamam dəyişdirdi: Sayad və Əziz əkiz bacılar kimi bir-birləriylə daha çox yaxın olmuşdular. Onlar Biləndərlə danışmamaqla yanaşı, o evdə olanda özləri də danışmırdılar. Bu, əvvəlcə Biləndərə təsir edirdi – Biləndər istəyirdi ki, olub-keçənləri unutsun və uşaqlarla mehriban olsun, ancaq uşaqlar bunu istəmirdilər. Və bu halda Biləndər özünü otaqda tam sərbəst aparır, yeri gələndə uşaqlara söz atırdı. Nə Əziz, nə də Sayad bir kəlmə dillənmir, ağızlarına su alıb susurdular, yaxşı bilirdilər ki, davaya qalsa, Biləndər onların ikisini də baş-ayaq edər. Bunu Biləndər də bilirdi və hər an onların ikisi ilə davaya hazırlaşırdı. Marusya Petrovna bu vəziyyəti bilsə də, heç bir tədbir görmürdü və Biləndər aydınlaşdırmışdı ki, uşaqların valideynləri Marusya Petrovna ilə məxsusi danışıb vəziyyətə nəzarət etməyi tapşırıblar. Biləndər Əzizin də, Sayadın da ata-anasını görmüşdü və onlar elə ilk baxışdan Biləndərdə ikrah hissi oyatmışdılar. Kişilərin ikisi də kök idi, qarınlarında sanki üç uşaq dolaşdırırdılar. Əzizin anası lap küyçü, deyingən idi.

– Bu arvada bir anbar pul veririk, azz, sən canın uşağın prostinasına bax, deyirsən, bir ildi su dəymir. Bəs mən gəlib yumalıyam?

Əslində otaq da, çarpayılar da səliqəli idi və arvadın (özünü qız uşağı kimi aparırdı) belə səs-küy salmasına ehtiyac yox idi. Marusya Petrovna deyilənləri başa düşürdü.

– Sən nə danışırsan, ay qız, heç sənin evində belə təmizlik var? Bir də, əgər, ürəyincə deyilsə, uşağını da götür... – Sözünün dalını demədi. Əzizin atası söhbətə qoşuldu.

– Nədi, ay Səryə, (Əzizin anasının adı Səriyyə imiş) nə olub?

– Görmürsən, deyirəm uşağın prostinası çirklidi, dımbılına dəyir.

Marusya Petrovna bilirdi ki, Səriyyə rus dilində netlə yesi ayıra bilmir, özü də təzəcə imkanlı olmağa başlasa da, kəndçiliyini itirməyib. Səriyyənin hərəkətləri ət ürpəşdirirdi... Və Marusya Petrovna ilk dəfə Azərbaycan dilində danışdı:

– Sən bilirsən nə var, tısbağa çanaq çıxır, çanaq bəyənmir. Sən ondansan.

Söhbət uzanır, səslər hündürdən çıxırdı, Biləndər bircə onu gördü ki, valideynləri – əvvəlcə atalar, sonra da analar növbə ilə uşaqlara pul verirlər. Biləndərin ürəyindən o pulları ələ keçirmək hissi keçsə də, nifrəti güc gəldi, çünki Biləndərin ata-anası (ən çox da anası) onların yanına gələndə, ilk öncə o uşaqlarla görüşür, gətirdiklərindən onlara verirdi. Düzdü, Biləndərə o qədər pul vermirdilər və Biləndər də heç zaman deməzdi ki, ona pul lazımdı. Pul lazım olurdu, ancaq o pullar Tanyaya, ya da İraya xərclənirdi...

– Səndən incimişəm. – Bunu Tanya dərsdən çıxıb evə gələndə Biləndərə deyirdi.

– Niyə?

– Guya bilmirsən?

– Bilmirəm. Bilsəm heç mən imkan yaradaram ki, sənin kimi ağ maya məndən incisin? De görüm, nə olub?

– O dəfəki oğlan vardı ey, nəydi adı?

– Hə. Nə olsun ki?

– Məni ona «satmaqda» məqsədin nə idi?

– Az, heç nə. Mən də deyirəm görən nə olub. Kənd uşağıdı, eşşəkdən başqa heç nə göərməyib. Dedim tanış edərəm sənnən, baxar görər dünyada nə var, nə yox. Yazıq neylədi ki? Bir dəfə qolundan tutub oynadı, onda da o ki var döyüldü.

– Sən elə danışırsan, guya sən gündə bir qızla gəzirsən. İnandırım hələ bir qıza bir çırtma vurmamısan.

– Hardan bilirsən?

– Bilirəm də. Görmürəm?

– Mən təmiz uşağam.

– Təmizləri bulağa aparıblar yumağa, hələ kirini yuyub qurtara bilməyiblər.

– Voobşe, Tanya, sən gözəl qızsan.

– Yaxşı görək.

– Vallah. Qonşuyuq, hər gün bir-birimizi görürük, ona görə səndəki gözəlliyi hiss etmirəm. O gecə sənin haqqında düşünürdüm. Gördüm ki, gözəlsən.

– Sən düşünə də bilirsən?

– Niyə düşünə bilmirəm?

– Elə bildim bilmirsən. Heç İra haqqında da düşünürsən?

– Yox əşşi, sən olan yerdə İra kimdi? Bilirsən, yaxşı qəlbi var, ancaq şəxsən məni özünə cəlb edə bilmir.

– Cəlb etmir, hə? Mənim haqqımda nə düşünürsən?

– Çox şey – Biləndər qıza yaxınlaşdı.

– Məsələn nə?

– Məsələn, fikirləşirdim ki, gözümün qabağında niyə səni görmürəm, sənin gözəlliyini niyə qiymətləndirmirəm? Ürəyimi Danko kimi məşəl edib niyə gecələr sənin yuxunu qarışdırmıram? Niyə gecələr hamıdan gizli üz-üzə, göz-gözə dayanmırıq? – Biləndər ara verib nəfəsini dərdi. – Çort poberi, söz də tapa bilmirəm. Bu gün, gəlsənə, görüşək.

– Nə görüş?

–Görüş bilmirsən nədi?

– Yox.

– Gecə saat 1-də tövlələrin yanında ol, onda başa salaram.
– Yox.
– Gözləyəcəyəm!
– Gözlə, gəlməyəcəm!
– Gəlməsən, düz çıxıb eyvanınızdan çağıracam.
– Atam səni döyər.
– Döyüb-zad eləməz. Bir də döysün, deyəcəm ki, qızını sevirəm.
– Heç tövlənin yanında görüş olar?
– Bəs harda görüşək? Tansploşadkaya hələ gedəmmərəm.
– Orda nə işimiz var? O adla çıxarıq, gedərik Alyonagilə. Qız evdə tək olur.
– Tək olur? Nə yaxşı. Sənə bir şey gətirim?
– Nə gətirmək istəyirsən?
– Sən nə istəsən.
– Doğrudan?
– Əlbəttə.
– Yenə o oğlanın pulu ilə alacaqsan?
– Çort poberi. Sən nə danışırsan? Rədd olsun cəhənnəmə. Qurtardıq bu söhbəti. Nə istəyirsən?
– O duxidən birini də. Bir dənə də şampan.
Biləndərin uçmağa qanadı yox idi, sevincindən sümükləri oynayırdı, mahnı oxuyurdu. Əzizlə Sayad bir-birinin üzünə baxırdılar. Marusya Petrovna bu dəyişkənliyi o saat hiss etdi.
– Biləndər, nə olub?
– Niçevo, Marusya Petrovna.
– Dərslərə hazırlığı zəiflətmisən.
– Çalışaram ki, düzəldəm.
Nahar yeməyi zamanı Biləndərin yadına düşdü ki, şənbə günü axşam Tanya ilə görüşəçək, o vaxta kimi ən azı on beş manat tapmalıdı. Cəmi 3 manat pulla heç nə etmək olmazdı. Fransız ətrini borca götürə bilərdi, andaq onu neçə qaytaracaqdı? Atasından yox, anasından o qədər pulu neçə istəyəcəkdi?
Tanyanın əksi Biləndərin gözündən çəkilmirdi. Biləndər tez-tez pəncərədən küçəyə boylanırdı, ya da kitabı əlinə götürüb yola

çıxırdı ki, onu görsün. Sən demə, Tanyanın sarışın saçları, mavi gözləri, təbəssümü ilahi imiş, Biləndər bunları görmürmüş və ağılsızlıq edib bu cür gözəl bir qızı Şahidə düzəldirmiş. Elə olurdu ki, səhərlər Biləndər onunla məktəbə qədər yolu bir gedirdi. İndiyədək Biləndər bir dəfə də olsun ona başqa gözlə baxmamış, "sabahın xeyir"dən başqa söz deməmişdi. İndi qərara aldı ki, sabah yolda onu gözləyəcək, məktəbə bir gedəcəklər.

–Biləndər, fikrin hardadı? Son günlər hamınızda gerilik hiss olunur. Elə bil hər şeydən soyumusunuz. Belə olmaz. Mübarizin gedişi sizə pis təsir göstərib. Bu gün bir saat gec yatacaqsınız. Dərsləri iki dəfə oxumalısınız. Gedin növbə ilə soyuq suda yuyunun, ayaqlarınızı sabunlayın. Hamama paltar sabunu qoymuşam. Yoxsa yenə mamalarınız deyəcək ki, prostina çirklidir?

## V

İşıq yanırdı və üçü də əllərində kitab guya ki, oxuyurdular. Biləndər Tanya ilə görüşü haqda düşünürdül. Qıza Puşkinin, Yeseninin şeirlərindən deyəcəkdi. Əllərini əlinə alacaqdı. Gözlərinə baxacaqdı. Saçlarını sığallayacaqdı. Sonra... Biləndər qızın üzündən öpəcək. O, bunu zorla da olsa edəcəkdi. Kinolardakı kimi.

Hirslə kitabı qaylayıb sumkasına qoydu.

–Çort poberi, yuxum gözümdən tökülür. Mən yatdım.

Əzizlə Sayad da yatmağa bir bəhanə axtarırdılar.

–Bəlkə biz də yataq.

–Yata bilmirəm, Sayad. Yuxum gəlmir. Bəlkə kart oynayaq?

–Həvəs yoxdu.

Biləndərin kart adı gələndə yuxusu qaçdı, yerində qurcalandı, Əzizlə Sayada verilən pullar və Tanyaya alacağı fransız ətrinin pulu gözünün qabağında durdu.

– Payla, «duraki» oynayaq. – Əziz Sayada döndü.

– Al sən payla. Bitaya gedək kartları bura yığaq ki, birdəн tot Marusya gəlib üstümüzə çıxar.

Biləndər dözməyib yerindən qalxdı.

– Mən də oynamaq istəyirəm.

– Oyunu qurtarmamışıq. Həm də, səninlə oynayan yoxdu.

– Ə, ikiniz də uşaqsınız. Adınızı kişi qoyubsunuz. Bir söz olan kimi küsürsünüz. Hər şeyi ataq bir kənara, dost olmasaq da, yoldaş olaq.

– Bizimlə səninki tutmaz. – Əzizlə Sayad ona məhəl qoymadan oynayırdılar.

– Gəlin pulunnan «poker» oynayaq. Ya siz udarsınız, ya da mən. İkiniz bir ələ oynayın. Yoxsa «duraki»dən bir şey çıxmaz.

– Biz qumar oynamırıq.

– Qumar oynamırıq ki. Elə-belə vaxt öldürürük. Kim udar udsun, uzağı əlli qəpik, ya bir manat. Nədi ki?

Uşaqlar əvvəlcə narazılıq etsələr də, sonra əmin oldular ki, ikisi birlikdə Biləndəri udacaqlar. Odur ki, oyun başlandı. Yeri 5 qəpikdən qoydular. Bir neçə dəfə dalbadal uşaqlar yeri götürdülər. Biləndərin əlinə xal gəlmişdi. Gediş on qəpiyə qalxdı və beş-altı dəfə dövrə vurdu. Biləndər iyirmi qəpik deyəndə Əziz cibindən göy üçlüyü çıxarıb atdı və Sayadla baxışdı. Sayad «pas» getdi.

– Açılırsanmı? – Biləndər Əzizi oyuna sürükləyirdi.

– Xeyir.

Biləndərin pulu qurtarmaqda idi. Sonuncu sarı manatı çıxarıb atdı.

– Nə qədər çıxır? – Əziz inamla danışırdı.



– Xodu nə qədər edə bilərəm?

– Nə qədər istəsən.

– Biləndərin otuz bir xalı vardı və birdən anladı ki, Əzizin də xalı ondan çox olar, ancaq düşünməyə və geri çəkilməyə vaxt yox idi.

– Manatdan iyirmi də çıxır.

– Əlli qəpik.

– Əlli qaldı. – Biləndər yerdən on qəpiyi götürdü.

– Yerlə raşot.

– Gəl açılaq.

– Açılmıram. Bir əlli də getdim.
– Onda mən borca oynayacam.
– Borc söhbəti yoxdu.
– Necə yoxdu? Hesabı öyrənirik, uduzsam, ikiqat ödəyəcəm.
– Olmaz.
– Onda... – Biləndər qolundakı saatı açdı. – «Salyut»du. İyirmi manata almışam. Yarı qiymətinə hesablayaq.
Razılaşdılar. Ən axırda əllər açılanda aydın oldu ki, Əziz otuz xala oynayır. Biləndər pulları saat qarışıq qabağına çəkdi. Əzizlə Sayad tutulmuş, sifətləri pazı kimi qızarmışdı.
– Oynayaq?
Uşaqlardan səs çıxmadı.
–Özünüz bilin, mən neçə dəfə dedim ki, açılaq, özünüz istəmədiniz.
Sayad Əzizə tərəf döndü.
– Nə qədər uduzduq?
– On beş manat.
– Doğrudan?
– Hə. – Əziz cibindəki pulları çıxarıb saydı. – On beş manat.
– Qaytar bizim pulları?
– Nə pul?
– Udduğun pulları.
– Niyə?
– Qaytar deyirəm.
– Onu ağlına belə gətirmə.
– Bizi məcbur eləyib oynatdın, biz də elə-belə oynadıq.
– Nəyə məcbur elədim? Deyəcəm ki, gedin özünüzü qayadan atın, atacaqsınız?
– Ə, pulları bəri qaytar, yoxsa sənə pis olar.
– Neyniyəssiniz mənə? Sizdən çəkinən, nə də qorxan var. Harda istəyirsiniz görüşə bilərik. Mən ikinizlə də söhbət eləməyə hazıram.
Sayad Əzizi yana çəkdi.

– Dayan, e, Marusya Petrovnaya deyərik ki, bu qumarbazın biridi, bizi məcbur eləyib oynatdı, pullarımızı uddu.

– Deməyən heç kişi deyil. Kart sizindi. Sonrası da, mən sizi necə məcbur eləyə bilərəm?

– Heç onu demiyəcəyik. Deyəcəyik ki, pulumuzu oğurlamısan.

– Oğru sizin atanızdı.

– Sənin atandı.

– Mənim atam müəllimdi, aylıq maaşdan başqa heç nə almır. Ancaq sizinkilər dövlətin, xalqın qanını zəli kimi sorurlar. Yeyib-içdiyiniz hamısı haramdı.

– Julik oğlu, julik.

Biləndər daha özünu saxlaya bilməyib uşaqların üstünə cumdu. İlk zərbə Əzizin çənəsini tutdu. Sonra Sayadın boynunu ələ keçirib burdu və döşəmənin üstünə yıxdı, üzünə, qarnına zərbələr endirməyə başladı. Əziz qışqıra-qışqıra həyətə çıxdı.

– Marusya Petrovna, Marusya Petrovna!

Marusja Petrovna mətbəxdən hövlnak çıxdı.

– Nə olub, Əziz?

– Marusya Petrovna, Biləndər Sayadı... – Əli ilə ikinci mərtəbəni göstərdi.

– Nə olub?

Marusya Petrovna cəld ikinci mərtəbəyə qalxdı. Otağı açıb içəri girəndə Biləndər hələ Sayadı əzişdirirdi. O, Biləndərin boynundan tutub qaldırdı.

– Neyləyirsən, əclaf!

Biləndər üst-başını qaydaya saldı. Sayadın qalxmağa halı yox idi.

– Səninləyəm, əclaf oğlu, camaatın uşağını nə hala salmısan? Qalx, Sayad, dur ayağa. Nə olub? Niyə dalaşırsınız?

– Marusya Petrovna, o bizim pulumuzu oğurlamışdı, istədik, vermədi. Sonra da bizi döydü.

– Nə qədər pul oğurlayıb?

– On beş manat.

– Oğurlamısan?

– Xeyr. «Poker» oynadıq, uduzdular. İndi məndən pul istəyirlər, mən də vermirəm. – Biləndər cibindəki qəpikləri, əzik manatlıqları çıxartdı – Bax, bu pullardır.

– İkinizin buna tək gücünüz çatmır? Nə qumarda, nə də davada. Deməli, siz oturub qumar oynayırsınız. Mən də elə bilirəm ki, dərs oxuyursunuz.

– Marusya Petrovna, biz dərs oxuyurduq, bu bizi məcbur elədi.

– Necə məcbur elədi? Siz istəməsəniz, oynamazdınız. Qumarın axırı bilirsiniz necə olur? Frişi eşidibsinizmi? Onun üstündə vurub öldürdülər. Ayıb olsun sizə. Mən sizin əlinizdən cana doymuşam. Biləndər, artıq sənin bu evdə qalmağın qeyri-mümkündü. Elə bu dəqiqədən hara istəyirsən, get. Mən sənə cavabdeh deyiləm. Siz də, valideynləriniz gələnə kimi qalın. Görüm onlar sizi buraya qumar oynamağa göndəriblər, yoxsa oxumağa.

Biləndər dəftər-kitabını sumkaya yığıb sağollaşmadan çıxdı.

– Qoy atam gəlsin, onun dərsini verdirmək borc olsun. – Bu Sayadın səsi idi. Biləndər bu sözlərin fərqinə varmadı.

## VI

Qara rəngli «Volqa» torpaq yolda toz qopara-qopara kəndin mərkəzində dayandı. Eyvanda papiros tüsdülədən Qələndər müəllim gələnlərin yad adam olduğunu bilib Səməndəri səslədi.

–Gör o maşındakılar kimi axtarırlar? Nabələd adama oxşayırlar. Denən ki, atam sizi çağırır.

Səməndər gözdən itdi və az sonra maşının işığı onların həyətinə düşdü. Qələndər müəllim qaranlıqda gələnlərin kim olduğunu ayırd edə bilmədi.

– Səməndər, qonaqları içəri gətir. – Ay uşaq, çay hazırlayın.

Səməndər gəldi ki, qonaqlar onlara gəlib, ancaq içəri keçmirlər. Nəsə, səninlə işləri var. Gözləyirlər.

– Ayə, denən içəri gəlsinlər.

– Bəri çıx, ay müəllim, bir-iki kəlmə sözümüz var.

Qələndər müəllim çölə çıxıb darvazanın ağzında duranlara yaxınlaşdı. Maliyyə şöbəsinin müdiri Salmanı və selpo sədri Fazili görəndə sevindi.

– Ay qardaş, gün haradan doğub, siz hara, buralar hara? Burda niyə dayanıbsızın? İçəri keçin.

– Yox, müəllim, içəri keçmiyəcəyik.

– Elə şey yoxdu. Sizi hara buraxıram? Bir stəkan çay içəcəyik.

– Qələndər müəllim, bilirsinizmi niyə gəlmişik?

– Xoş gəlib, səfa gətiribsiniz. Yolun ortasında qonağı sorğu-suala tutmaq mənim adətim deyil. Evə gedək, həkim çay dəmləyir. Orda söhbət edərik.

– Evlik məsələ deyil. – Fazil sözə başladı. – Sənin oğlun evdədimi?

– Biləndərmi?

**– Hə.**

– Yox.

– Yalan danışma. Uşağı harda gizlətmisiniz?

– Nə uşaq, nə gizlətmək? Allahsızlar, gəlin içəri, görüm nə olub?

– Sənin evinə girməyəcəyik?

– Niyə?

– Niyəsini biləcəksən, Dünən gecə sənin oğlun bizim uşaqları döyüb.

– Ayə, a Fazil, uşaq olmayıbsanmı? Yəqin nəsə aralarında söhbət olub, cavanlıq eləyiblər. Bundan ötrü narahatlığa dəyməz. İntəhası, bir yerdə qalırlar, niyə dalaşıblar? Marusya hara baxırmış?

– Oğlun pozğunun biridi. Uşaqlardan oğurluq edib.

– Fazil, mənim oğlum dəcəl ola bilər, ancaq pozğunluq bizim ailəyə yaddı. O cümlədən də oğurluq Mənim oğlum dün-

ya malına tamah salan uşaq deyil. Yəqin, nəyisə düz anlamayıbsınız.

–Nə anlamağı olacaq? O gün uşaqların yanına getmişdik, bilib ki, onlara pul vermişik. Uşaqları yuxuya verib ciblərinə girib.

–Nə qədər pul götürüb?

–Nə dəxli var, lap bir manat olsun.

–Bunun üstündə də dalaşıblar?

–Vurub uşaqları şil-küt edib. Mənim oğlumun dişi sınıb, Fazilin oğlunun beyni silkələnib.

–Bura gəlməkdə məqsədiniz nədi?

–Uşağı milisə verəcəyik.

–Uşaq Marusyanın yanında yoxdumu?

–Yox, o gecə aradan çıxıb. Yəni deyirsən evdə yoxdu?

Qələndər müəllim Səməndəri səslədi.

–Ayə, maşını işə sal, Slavyana gedəcəyik.

–Salman, gedək Marusyagilə, orda aydınlaşdırarıq. Nəsə ağlım bir şey kəsmədi. Uşaq dalaşıb, bəs Marusya onu hara buraxıb?

Zərnişan həkim qapıya yaxınlaşdı.

–Nolub?

–Heç. Slavyana dəyib qayıdıram.

–Nədi, bir şey olubmu?

–Yox.

–Yalan demə. Gələnlər kimdi, niyə içəri keçmirlər? Çay hazırlamışam.

–Gəlmək istəmirlər. – Zərnişan həkim çölə çıxdı.

–Nə olub? Məndən nəyisə gizlədirsiniz? Biləndərə nəsə olubmu?

Qələndər müəllim yoldaşını sakitləşdirmək istədi.

–Mən də gedəcəm. Qorxulu bir şey olubmu?

–Yox, deyəsən. sən qal, mən Səməndərlə indi gələcəm.

–Mən də gedəcəm.

Maşının işıqları gecəni yara-yara Slavyana doğru üz tutdu.

## VII

Marusya Petrovna qonaqları soyuqqanlıqla qarşıladı.

– Son vaxtlar uşaqların dərsə hazırlığı bir az zəifləsə də, münasibətləri sakit idi. Xüsusən də Mübariz gedəndən sonra. Mən onlara tapşırıq verib həyətə düşdüm. Bir-iki yuyulası paltarım vardı. Səs-küy deyilən şey yox idi. Bir də gördüm Əziz qaça-qaça gəlir ki, Biləndər Sayadı öldürür. Tez otağa qalxdım.

– Bəs Biləndər hardadı? – Zərnişan həkim onun evdə olmadığını bilsə də, soruşdu.

– Dəftər-kitabını götürüb dünən gecə evdən çıxdı. Daha doğrusu, mən onu qovdum.

– Ay Marusya, sənə uşaq etibar eləmişik, sən də onu gecəyarısı evdən qovursan. Bəs demirsənmi, başına bir iş gələr?

– Heç nə olmaz. Sənin oğlun o qədər də əfəl deyil. Uşaqları şil-küt edib, aradan çıxıb. Ara sakitləşəndən sonra üzə çıxacaq.

– Sən uşaqdakı fərasətə bax, indidən banditlik eləyir. - Selpo sədri papirosuna dərin qüllab vurdu.

Qələndər müəllim bircə onu fikirləşirdi ki, görəsən indi Biləndər hardadı. Zərnişanın isə qayğısı tək bu deyildi, o iki rayon rəhbərinin cavabını verməli idi.

– Bandit nəyə deyirsiniz?

– Həkim, guya bilmirsən? Uşaqların pulunu oğurlayıb.

Qələndər müəllim dözmədi:

– Salman, bu rayonda səni də, Fazili də tanımayan yoxdu. Şükür Allaha, heç kim nə kordu, nə keçəl. Mən sizə yenə deyirəm. Mənim oğlum ömründə oğurluq eləməz.

– Məllim, çox uverennı danışırsan, guya təmiz adamsınız.

– Buna heç şəkki-şübhən olmasın. Mən uşaqlarıma haram tikə yedirtmərəm. – Qələndər müəllim «sizin kimi» demək istəsə də, demədi.

– Kim haram tikə yedirdir ki?

– Əşi, niyə məcbur edirsiniz ki, hər şeyi açıq deyək. – Qələndər müəllim qızışdı. - Belə haram tikə yedirdən sizsiniz. Bir kağıza pulsuz qol çəkmirsən. Halal maaşımızı alanda nə

qədər istəyirsən? İyirmi beş manat. Bunsuz məktəbə pul buraxırsan? - Əlbəttə ki, yox. Rayonda neçə məktəb var? Yüzdən çox. Vur iyirmi beşə. Neçə xəstəxana var. Nə qədər idarə, nə bilim nə. Bu rayonda baş oğruların yekəsi sənsən. Adını mənim uşağıma qoyma.

– Mən sənə göstərərəm oğru olduğumu.

– Mənə göstərmək lazım deyil, mən də, hamı da bilir. Nə ehtiyac var? Sonrası da, mənə xox gəlmə. Mən heç kimin yanında gözü kölgəli deyiləm.

– Müsəlmana yaxşılıq yoxdu, Salman. İndi gördün?

– Mənə nə yaxşılıq edibsiniz? Barmağını say, Fazil.

Fazil çaşdı, ancaq özünü itirməməyə çalışdı.

– Hansı birini deyim?

– Hansı var ki? Əyə, sən bizim bufetçiyə köhnəlmiş peçenye, vafli sırıyırsan. Hər karobkada neçə manat alırsan? Dörd manat. Allahın «Avrora»sının hər paçkasının üstünə iki qəpik qoyursan. İki qəpik. Onu uşaq yerdə görəndə götürmür. Ancaq sən gör nəyə tamah salırsan. O haram pulları da verirsiniz uşaqlarınıza, onlar da istədiklərini eləyirlər.

– On prav.–dedi Marusya Petrovna. – Məsələ belə olub. Uşaqlar gecə «poker» oynayıblar. Əzizlə Sayad bir olub, Biləndər tək. Uşaqlar pulları qumarda uduzublar. Çünki Biləndər pulları göstərdi. Qəpiklər, manatlıqlar, üçlük vardı. Düzdü, mən onu qovdum, ancaq burada oğurluq olmayıb. Zərnişin, bu uşaqları bir yerdə saxlamaq olmayacaq. Cavandılar, beyinləri qandı. Ona görə uşağına ayrı yer tap.

– A Marusya, eləydisə, bu uşaqları qovardın.

– Belə getsə, onları da qovacam. Oxumurlar, işləmirlər. Atalarına da demişəm. Mənə tənbəllər lazım deyil. Gündəlik qrafik yazıb qoymuşam. Əməl eləmirlər. Elə bilirlər ki, pul oldu, hər şey olacaq. Daha anlamırlar ki, bəzən pul adamın köməyinə çatmır. Mən onlara hər şeyi öyrənməyi aşılaya bilmirəm.

– Biləndər hardadı?

– Dünən məktəbə gedib. Ancaq harda qaldığını deyə bilmərəm. Yəqin kiminsə evində qalır.

– Mən onu hardan axtarıb tapım? Uşaq ac-susuz qaldı.

– Siz tapmasanız da, məcbur olub sizi tapacaq. Narahat olmağa dəyməz.

– Əlbəttə, daha bundan sonra mən sənə uşaq etibar edərəm? Bu həngamədən sonra bu uşaqların yanında mən it küçüyümü də saxlamaram. Ancaq, Marusya, düzgün eləmədin. Neçə ilin tanışlığının üstündən xətt çəkdin. Bu ay hələ təzə başlayıb. Beş günün pulu on manat eləyir. Ala pulunu götür. – Zərnişan sumkadan qırmızı onluğu çıxarıb stolun üstünə atdı. – Uşaqların uduzduğu pulu da verərdim. Ancaq ağılları olub oynamayaydılar. Özləri də hara şikayət eləyirlər, eləsinlər. Uşağıma çırtma vuranın başına daş yağdıraram.– Bunu deyib Qələndər müəllimlə maşına tərəf gəldilər.

– Uşağı kimdən soruşaq? – Qələndər müəllim ondan soruşdu.

– Kimdən soruşacağıq? Soruşulası adam bilmir. Yəqin yoldaşlarından birigildə qalır. Özü gizlənir. Ancaq əllərinin qadasın alım, elə bivec uşaqları haqqına çırpıb. Görsən, bir kəlmə də demirsən. Əclaflar...

...Biləndəri maşında oturan gördülər. Səməndər maşını qabağa sürdü.

– Dayan görüm, hara gedirik? – Qabaqda oturan Qələndər müəllim soruşdu.

– Onlar hələ getməyiblər. Görməsələr, yaxşıdı.

– Bir də görsünlər. Ay oğul, belə iş var, niyə evə gəlmirdin? Harda qalırsan?



Biləndər çcavab vermədi.

– Səni buraya qumar oynamağa göndərmişik? Niyə o uşaqlarla qumar oynamısan? Qumarbazsan? Gəlmisən, başını aşağı sal, dərsini oxu, adam ol. – Qələndər müəllim papiros yandırdı. – Mən yetim oğlan, Bakının yolunu tanımırdım. Rəhmətlik anam pensiyasını vermişdi. Yük qatarında oturmağa yer yox idi, yuxu gözümdən tökülə-tökülə getmişəm. Gecə parkda skamyanın üstündə yatırdım. Bir qarnı ac, bir qarnı tox oxudum. Universiteti fərqlənmə diplomu ilə qurtardım. Anamın dərdi olmasaydı, indi professor idim. Allaha

şükür, nəyin əskikdi? Adam gərək hər şeyi fikirləşə, düşünə. Sən məktəbi bitirirsən, ancaq elə bil körpə uşaqsan. O uşaqların ataları ilə duz-çörək kəsmişik. Rayonun tanınmış adamlarıdı. Münasibətlərimizi niyə korlayırsan?

– Papa, mən səhv eləməyinə eləmişəm, ancaq orda qalmıyacam.

– Niyə?

– İstəmirəm. Yer tapmışam. Traktorist Vasyagildə qalacam. Qızı ilə bir sinifdə oxuyuruq. Mənə yaxşıdı. Marusya Petrovnagilnən qurtardım. Prosto yorğan-döşəyi oradan götürmək lazımdı.

– Hansıdı o Vasyanın evi?

– Budu bax. – Marusyanın evi ilə üzbəüz evi göstərdi.

– Bura Marusyanın evinə yaxındır. – Zərnişan narahatlığını bildirdi.

– Nə olsun ki?

– İstəmirəm ki, o uşaqlara yaxın olasan. Həm də sənin oxumağın necə olacaq? Vasya traktorist adamdı.

Biləndər etiraz etdi.

– Guya Marusya Petrovna mənə nə kömək edirdi? Şovinistin biridi. Mən müstəqil adamam, özüm də dərslərə hazırlaşıram. Vasya ilə mənim nə işim var? Bir otaqdı, öz əlimbaşım.

– Qızı da səninlə bir sinifdədi? – Qələndər müəllim papirosunu tüstülətdi.

– Hə.

– Lap yaxşı. Oxuyandımı?

– Zəif oxuyur.

– Dost ola bilsəniz, birlikdə nəsə edə bilərsiniz.

– Sən də... – Zərnişan ərini məzəmmətlədi. – Özü oxusun, qızın oxumağı əsas deyil. Bir də elə etmə ki, bir skandal olsun. – Ərini tələsdirdi. – Dur gedək, gecə keçir, danışaq.

– Ma, nə danışacaqsınız, özüm həll etmişəm. Ayda otuz manat verəcəksiniz. Bircə Marusyagildən yorğan-döşəyi götürmək lazımdı...

## VIII

O gecə Biləndər özünü çox yüngül hiss edirdi. Marusya Petrovnanın qaranlıq otağının əvəzinə Vasyanın ikinci mərtəbədə yenicə hazırladığı geniş otaqda nəfəs almaq çox rahat idi. Sayadla Əzizin yoxluğu, münaqişənin aradan qalxması Biləndərin ürəyincə idi. Ancaq Biləndər qət eləmişdi ki, ara bir az sakitləşəndən sonra onların, ən çox da Marusya Petrovnanın dərsini verəcək. Sayadla Əzizə vurduğu zərbələri közünün önünə gətirdi və yumruğunu düyünlədi. Marusya Petrovnanı isə qorxudub dəli edəcəkdi - Marusya Petrovna Slavyanın ortasına çıxıb öz-özünə danışacaq, tum çıtlaya-çıtlaya gününü keçirəcəkdi.

Bu rahatlığın qarşısında Biləndərin gözünə yuxu getmirdi. Birinci mərtəbədə, Biləndərin on-on beş addımlığında, bir damın altında Tanya uzanmışdı. Səs-küyün olmadığından Biləndər hiss edirdi ki, hamı yatıb. Tanya mışıl-mışıl nəfəs alır. İsti yorğanın altında hansısa qəribə yuxu görür. Məktəbə getdiyi paltarı soyunub, alt paltarındadır. Qolunun, boynunun ətini yorğanda gizlədib. Biləndərin ürəyindən keçdi ki, bu dəqiqə aşağı düşüb qızı qucağına alsın, otağına çıxartsın, balışının altında gizlətdiyi fransız ətrini onun bədəninə töksün, sonra ətrini qoxlasın.

Vasya xorxaxorla yatır. Səs aydın eşidilirdi.

Arvadı da eləcə.

Tanyanı onların yanından oğurlamaq təhlükəlidi. Əslində burada qorxulu heç nə yoxdu, ancaq Biləndər risk eləmək istəmirdi. Dava-dalaşdan təzəcə yaxa qurtarıb. İstəmirdi ki, bu gün gəldiyi yerdə nəsə problem yaransın və ata-anası yenidən işə qarışsınlar.

Sabah Tanya ilə görüşəcəkdi. Məktəbə gedəndə aydınlaşdırmalı idi, evdə görüşsünlər, yoxsa Alyonagildə. Əgər evdə heç kim olmayacaqdısa, Alyonagilə getməyə nə ehtiyac vardı?

Biləndər onu bilirdi ki, Tanyanın atası «İliç yolu» kolxozunda traktorist işləyir. Göy rəngli «Belorus»un lafetində

tövlələrə silos, ot, küləş daşıyır. Anası kənddəki ATS-də telefonçudu. Qardaşı əsgərlikdədi. Onun qayıdıb gələcəyinə söz olmazdı, amma Slavyanda qalacaqdımı, o bəlli deyildi.

Səhər yuxudan qalxıb Tanya ilə məktəbə bir gedəcəkdi. Dərslərə hazırlaşmışdı. Ədəbiyyatı oxumuş, riyaziyyatdan misalları yazmış, tarixi, biologiyanı öyrənmişdi. Qəribə orası idi ki, dərsləri bir dəfə oxumuşdu və hər şeyi qavramışdı. Ancaq ayrı vaxt Biləndər üç dəfə dalbadal oxusa da, yadında heç nə qalmırdı.

O bunun səbəbini azadlıqda görürdü. Hər şeyi eləməyə hazır idi, bircə doyunca yuxu yata biləydi.

O saat kimi qurulmağı sevmirdi: Marusya Petrovna bir şeiri əzbərləmək üçün az qala on beş-iyirmi dəqiqə vaxt qoyurdu və o vaxtda Biləndər şeir əzbərləmək yox, yatmaq istəyirdi. Biləndər Slavyanın qırağındakı stadionda futbol oynamaq istəyirdi, ancaq bu ona qəti qadağan edilmişdi. Bəzən uşaqlara deyirdi ki, valideynləri guya onlara yaxşılıq edib, əslində onlar uşaqlarını türməyə salıblar.

Ən əsası o idi ki, Marusya Petrovna onların beyninə yeridirdi ki, (yeritmişdi də!) rus mədəniyyəti dünyanın ən yüksək mədəniyyətidir.

Biləndər divardan asdığı cədvəli gözünün önünə gətirdi və elə xəyalında bəzi dəyişikliklər elədi. Tövləyə gediş, günorta yatmaq və s. silindi, Sayadın, Əzizin, Marusya Petrovnanın ürək bulandıran baxışları və hərəkətləri çəpərin o üzündə qaldı və Biləndərə qəribə gəlirdi ki, o üfunəti, tövlədən yola atılan inəyin peyininin iyini hiss etmirdi və o qoxunu elə bil ömrü boyu qoxulamamışdı. Alapaça inəyin peyinini tövlənin kiçik pəncərəsindən yola atırdılar və heç kim bunu Marusya Petrovnaya qəbahət saymırdı, çünki o dul bir qadın və Slavyan kəndinin tarixini yazan müəllimə idi.

Tanyagildə isə vəziyyət başqa idi; əvvəla onların üç inəyi vardı və tövlə təmizləndikdən sonra daşka (əl arabası) ilə məhəlləyə aparılıb tökülürdü. Ağır daşkanı Tanya özü sürüb aparırdı və əgər Biləndərin əlağı olsaydı, o qoymazdı ki, qız bu işi görsün.

Gecəyə ağırlıq çökmüşdü.
Hava ulduzlu idi.
Külək əsmirdi.
Ancaq soyuq idi.
Onun yuxusu ərşə çəkilmişdi.
Qalxıb yerində oturdu.
Elə bil dəyişib başqa adam olmuşdu.
Gecələr qərib olduğu kimi özünü tənha və qərib saydı.
Qəriblik məhəbbət rəmzidi.

Puşkinin seçilmiş əsərlərini götürüb vərəqlədi və birdən ürəyindən keçdi ki, bu qaranlıq və qərib gecədə Tanyaya ürək sözlərini yazsın. Bu sözlər ona adi gəldi, istədi ki, nəsə qeyri-adi bir iş görsün.

Dəftərini götürüb yazmağa başladı.

«Əzizim Tatyana! Bu məktubu sənə tənha gecədə sənsizlikdən bezib yazıram. Biz bir damın altında olsaq da, mənə elə gəlir ki, səndən çox-çox uzaqlardayam. Ürəyimdən elə hisslər keçir ki, mən onu səninlə bir olanda ala bilərəm».

Bu sözləri yazıb qurtarandan sonra Biləndər onu təzədən oxudu, oxuduqca hiss etdi ki, bu sözlər Tanyaya yaxşı təsir bağışlamayacaq. Odur ki, vərəqi dörd qatlayıb cırdı, dəftərindən əlavə ağ vərəq çıxartdı.

« – Əzizim, Tanya!

Ürəyimdə bəslədiyim qızılgül ətirli salamları sənə çatdırmağı özümə borc bilirəm ki, Səni sevəcəyim haqda sözləri sənə nə vaxtsa çatdırmalıyam. Tanya, mən səni Yevgeni Onegin məhəbbəti ilə sevirəm. Bu sevgi müqəddəs olduğu qədər təmiz və safdır».

Biləndər bu yerdə qələmi yerə qoydu və yadına rəqs meydançasında olan hadisə düşdü: o qızı əmisi oğlu Şahidə düzəltmək istəyirdi və Tanya ilə Şahid rəqs meydançasında «medlennı» oynayırdılar. Şahidin ağzı sulanırdı, sulandıqca qızı özünə daha çox çəkirdi. Sözlərdən soyudu və Biləndərə elə gəldi ki, bu işdən sonra Tanyaya bu sözləri yazmaq, sevmək onun üçün deyil.

Həm də onların arasında ünsiyyət var. Hətta Biləndər hiss edirdi ki, Tanya onu dərin məhəbbətlə sevir. Sabah harda olsa görüşəcəklər. Odur ki, kağızı büküb zibil yeşiyinə atdı. Puşkinin seçilmiş əsərlərini açıb vərəqlədi və rastına çıxan ilk sevgi şeirini oxudu.

– Mən sizi sevirdim: bəlkə məhəbbət
Könlümün evində sönməmiş hələ.
Qoy eşqim verməsin sənə əziyyət
Kədərli olma sən
bircə an belə.
Ümidsiz və sakit sizi sevirdim
Məni incidirdi qısqanclıq, təlaş.
Eşqimi, hissimi, ah, sizə verdim
Mənim tək sevəydi başqası da kaş.

Şeir Biləndəri tutdu, qayıdıb bir də oxudu və özlüyündə Tanyanın bu şeiri oxuyanda hansı hisslər keçirəcəyini duydu. Bəlkə başqası da var? Səksən beşinci səhifədə balaca bir şeir xoşuna gəldi. Ancaq şeir Yelenaya həsr olunmuşdu və Biləndər Yelena sözünü Tatyana ilə əvəz etdi.

– De, neçin Tatyana, sən belə ürkək,
Qısqanc baxışlarla məni güdürsən?
Bir an da arxandan əl çəkməyərək
Hər bir addımımı, hərəkətimi
Görürsən, gözündən qaçırmayıb sən?

Biləndər bu şeiri riyaziyyat dəftərindən cırdığı vərəqə köçürüb gündəliyinin arasına qoydu.

Sabah bu məktub Tanyaya veriləcəkdi.

Tanya bu şeiri oxuyub əzbərləyəcəkdi, əzbərləməsə də, onun qəlbində xoş duyğular oyanacaqdı.

O xoş duyğular indi Biləndərin ürəyini dolaşırdı.

Onun yuxusu qaçmışdı.

Misralar onu sərxoş etsə də, Biləndər qaranlıqda ulduzları belə görmürdü.

# IX

Səməndər maşını ensiz kənd yolu ilə ehtiyatla sürürdü və ona görə yoldan toz qalxmırdı. Maşında üçü idi – Şahid də onlarla birgə qızılaxtarma əməliyyatına gedirdi.

– Bu Biləndər camaatı xəstələndirib. Onların axırına çıxacaq - Şahid siqaretinin külünü pəncərədən çölə atdı.

– Mən niyə xəstələndirirəm? Məndən qabaq bu işə başlayıblar. Onda mən heç anadan olmamışdım. Yadınızda döymü, rəhmətlik Bayram kişi Qazançıdakı qəbiristanlığı qazmağa başladı. Nə qədər daş çıxdı. Üstündə alban yazıları. Akademiyaya teleqram vurdular, alimlər gəldilər, dedilər ki, bu daşları məhv eləyin, guya ermənilərin daşlarıdı. Bayram kişi havalanmadımı?

Səməndər söhbətə qoşuldu:

– Deyir o vaxtlar (50-60-cı illərdə) bizimkilərdən kimsə olub – deyəsən Allahyar kişi olub – qatarla Bakıya gedirmiş. Kupedə bir ağbirçək, nurani qadın olub. Allahyarın haralı olduğunu biləndə kəndin bütün yerlərini adbaad sadalayıb. Deyib ki, Suqovuşanda külli miqdarda qızıl var. Allahyar kişi də qayıdıb ki, kənddə iyirmidən çox suqovuşan var, hansını deyirsən? Arvad heç nə deməyib. Allahyar kişi iki suqovuşanı əvvəlcə əlnən, sonra buldozernən dağıtdırdı, bir şey tapmadı. Birini Cəlil, birini də Bayram kişi qazdı. Sonra bu iş bir ara dayandı.

– Nə dayandı? – Şahid hırıldayıb qarnını qaşıdı. – Arada çoxları suqovuşanları goreşən kimi qazmağa başladı. İndi kənddə qazmayan yoxdu. Sədr Əsəd fəhləyə kimi tutub işlədir. Kənddəki məhlələrdə abır qalmayıb. Elə qayalıqlara lağım atırlar ki, onu ES-nən dağıtmaq olmaz.

– Bunun hamısı işsizlikdən, bir də müftəxorluqdan irəli gəlir. Hanı arvadgilin evləri?

– Hələ qabaqdadı. Mən də tanımıram. Gərək soruşaq. –dedi Biləndər. – Elə danışırsınız ki. Kim istəməz ki, varı-dövləti olmasın. Ömür insana bir dəfə verilir. İkinci bir ömür yaşamayacaqsan ki? Ona görə də hamı ömrünü mənalı keçirmək istəyir.

–Əksinlər, becərsinlər, qazansınlar.

Səməndər kəndin ortasına çatdığını hiss edib söhbəti yekunlaşdırmaq isətədi.

–Əkib becərməklə nə qazansınlar? Nə məhsul olur ki? Heç çəkdiyin əziyyətə dəymir. Ancaq nəsə camaat bir ucdan əkir. Ələmdardan o gün çayxanada soruşuram ki, keçən il nə qədər məhsul alıbsan, deyir cəmi 1 ton yarım. Deyirəm, a bədbaxt, yazbaşından arvad-uşaqla sahədəsən, bu qazancın heç papiros, araq pulunu ödəmir, özünü həlak eləyirsən?

–Ələmdarın bir çətən külfəti var, bəs neyləsin? Əlacsız qalır, başlayır o birilər kimi yer qazmağa. O da ki, bəxtə şah Abbas.

–Ancaq Nəriman tapdı. – Şahid yerində qurcalandı. – Deyir iki qab tapıb. O da elə oldu ki, arvadınnan ayrıldı. Deyir, möhkəm davaları olub. Zərəngiz deyib ki, verməsən, gedib prokurora, milisə xəbər verəcəm. O da yarı bölüb.

–Qızıl adamı havalandırır. Nəriman da havalanıb. Aldığı maşını elə sürür, lap dəli kimi.

Qarşıdan eşşəyin üstündə uşaq gəlirdi. Səməndər maşını saxlayıb ondan Səlbi arvadın evini soruşdu. Oğlan başı ilə qarşıdakı binanı göstərdi.

–Hinduşka indi qızarıb. – Bunu Səməndər dedi.

–İyi gəlmir. – Şahid ağzının suyunu yığdı.- Heç ağlım kəsmir.

–Gedərik, görərsiniz. – Biləndər özündən razı halda dilləndi.

Maşın qapının ağzında dayananda balaca uşaq qışqıra-qışqıra evə qaçdı.

–Ay nənə, ay nənə, gəldilər!

Arvad əlini silə-silə onlara tərəf gəldi.

–Axır ki, gəldiniz. Elə gözümün biri yoldaйdı. Xoş gəlib, səfa gətirmisiniz. Keçin, keçin, içəri.

–Qızartmısanmı, xala?

–Həlbəttə, qadan alım, hər şey hazırdı, hələ o ağzıxamırlı da.

Arvadın oğlu onlarla görüşdü.

–Onda, birbaşa işə keçək. Yeri müəyyənləşdirək. Sonra xala deyər ki, içdilər, yeri düz göstərmədilər.

Biləndər elə qapının ağzından başladı. Göstərici tərpənmirdi. O bir az irəli getdi. Əqrəb günbatana yönəlmişdi.

– Görünür. – dedi Biləndər.

– Həə... – Arvad sevindi. – Qadan alım, gör nağayrırsan! Biləndər, onun dalınca Şahid, Səməndər, arvad, oğlu irəlilədilər. Biləndər dayandı.

– Evə düşür.

– Hə? Hara düşür? – Arvad cavab gözləyirdi.

– Deyirəm şkala evi göstərir.

– Düz bax. – Şahid gözünü əqrəbə dikdi.

– Görmürsən? Al bax. Evə düşür.

Arvad içini arıtladı.

– Nağayraq, düşür düşsün. Noolacaq.

Əvvəlcə balkona, oradan içəri otağa keçdilər. Əqrəbin ucu evin küncünə yönəlib dayandı.

– Bu künçdədir.

– Yəqini?

– *Hə,* xala. Düz küncdяn başlayacaqsınız.

– Evi sökək? – Oğlan anasına baxdı.

– Sökməyib nağayrasıyıq.

– Polu təzə vurmuşuq.

– Eybi yoxdu. Təki bir şey tapaq, onu təzdən də vura bilərik. Hə, ağrınız alım, gəlin eşikdə stol açıb, gəlin oturun.

Biləndər də, Səməndər də, Şahid də səliqə-səhmanı ilə seçilən və təzəcə təmiri başa çatan bu evə bir də baxdılar və bir də ürəklərindən keçdi ki, bir azdan bu evdən əsər-əlamət qalmayacaq – təzə taxçalar çıxarılacaq, divara çəkilmiş kağızlar cırılacaq, hər yan – hətta, aynabənd də toz-torpaq olacaq.



### X

...Məktub Tanyanın xoşuna gəlmişdi. Deyəsən, birinci tənəffüsdə qız açıb oxumuşdu. Növbəti riyaziyyat dərsində Biləndər gözünü ondan çəkmirdi və cəmi bircə dəfə Tanya dönüb ona baxanda baxışları üst-üstə düşmüşdü. Qriqori Terexov lövhədə misal yazırdı, geri dönəndə Biləndərə üz tutdu:

– Fikrin hardadı?

Yuxudan ayılan kimi oldu.
– Dərsdə.
– Misalın davamını həll edə bilərsənmi?
Hamının nəzəri ona dikilmişdi.
– Əlbəttə. – Biləndər elə bildi ki, müəllim onu lövhəyə çağıracaq.
– Otur, dərsə fikir ver.
Terexov Biləndəri təsadüfi lövhəyə çağırmadı. O bilirdi ki, Biləndər riyaziyyatı başqa yoldaşlarından yaxşı bilir. Güman etdi ki, indi yeni dərsin izahında Biləndər misalın gedişini düzgün edər.
Zəng vurulanda otaqdan çıxdılar. Növbəti fizika dərsi kabinetdə keçiləcəkdi. Tanyaya çatdı.
– O şeirləri hardan tapmısan?
– Oxudun?
– Elə-belə baxdım.
– Elə-belə niyə?
– Kim yazıb?
– Kim yaza bilər?
– Hər halda sən deyilsən?
– Niyə elə fikirləşirsən? Bəyəm mən elə istedadsızam.
– Hər halda elə istedadlı da deyilsən.
– Şeir xoşuna gəldimi?
– Belə də. Baxmaq olar.
– Biz bu gün görüşməliyik.
– Görüşməyə də bilərik.
– Elə niyə?
– Belə də.
– Zarafatı boşla. Mən bu görüşü gözləyirəm.
– Nə olsun?
– Necə yəni nə olsun? Sənin başına hava gəlib?
– Yox.
– Bəs onda bu nə söhbətdi?
– Elə-belə.
– De görüm, harda görüşək? – Biləndər qızı tutub saxlamaq istədi.

– Baxırlar. Əlini çək.

– Mənim vecimə deyil.

Tanyanın qolu möhkəm və qüvvətli idi. Nə qədər çırpınsa da, Biləndərdən yaxa qurtara bilmədi. Baxışları üst-üstə düşdü.

– Nə istəyirsən?

– Bilmirsən?

– Mən istəmirəm.

– Mən isə istəyirəm. Görüşəcəyik, vəssalam.

Arxadan bir əl Biləndərin çiynində dayandı. Biləndər əvvəl ona fikir vermək istəmədi, əl bir neçə dəfə onu döyəclədi.

– Dayan görüm, neyləyirsən? – Biləndər çevriləndə Marusya Petrovnanı gördü. Az qaldı ki, söysün, ancaq qızın qolunu buraxıb yana çəkildi.

– Tanya, bu səndən nə istəyir?

– Heç, Marusya Petrovna.

– Necə yəni heç? Mən görmürdüm? O sənin qolundan yapışmışdı.

– Gücümüzü sınayırdıq. – Qız ondan ayrılmaq istəyirdi.

– Hansınız güclü çıxdı? – Marusya Petrovna heç birindən cavab almayıb üzünü Biləndərə tutdu.

– Səninlə söhbətim var. – dedi. Tanya kabinetə keçdi. – Arada maraqlanıram. Vasyagilə gedəndən yaxşı oxuyursan. Bu nədəndi?

Biləndər başını aşağı saldı.

– Mən elə sizdə də belə oxuyurdum.

– Yox, məni aldada bilməzsən. Yəqin Tanyanın eşqi vurub sənin başına. Ayrı cür mümkün deyil. Yaxşı, orada işlərin necə gedir?

– Qaydasında.

– Geri qayıtmaq istəməzsən?

Qəfil sual Biləndəri çaşdırdı.

–Haraya?

–Bizə.

–Qətiyyən yox!

–Yəqin uşaqlara görə qayıtmazsan?

–Elə həm uşaqlara görə...

–Onlar getdilər. Daha mən tək qalmışam. Səninçün дə yaxşı olar. Sənə mane olan olmaz. Mən də səninlə geninə-boluna məşğul olaram. Tem bolee, məktəbi bitirirsən. ali məktəbə indidən hazırlaşmaq lazımdı.

–Sağ olun. Mən müstəqil olmağı xoşlayıram, elmlə də özüm məşğul oluram. Heç kimə ehtiyacım yoxdu.

Biləndər sinfə keçmək istəyirdi: Tanya sumkasını oturduğu sıraya qoyub qızlara söhbət edirdi. Onun təbəssümlü sifəti və naz etməsi Biləndəri yandırıb yaxırdı.

–Müstəqillik yaxşı şeydi, ancaq sizdə bir atalar sözü var: qızı özbaşına buraxsan ya halvaçıya gedər, ya zurnaçıya. İndi sən də... Bir Allah bilir ki, axırın hara gedəcək. Rayonda Zərnişanı gördüm, dedim qaytaracam Biləndəri. Bir söz demədi.

–Getdim. – İçəri girib Tanyagilin dəstəsinə qoşuldu. – Nə pıçpıç edirsiniz? Bilmirsiniz, pıçpıç Nikolayın evini yıxdı?

–Sən burda dura-dura Nikolayı neynirik? – Bunu Anjelika dedi.

–Siznən mənim nə işim var. Olsa-olsa Tanya olar.

–Nə fərqi var, biz olduq, ya Tanya.

–Mən sizi sevirdim:
    bəlkə məhəbbət
Könlümün evində
    sönməmiş hələ
Qoy eşqim verməsin
    sənə əziyyət
Kədərli olma sən
    bircə an belə...

–Nə gözəl şeirdir?

–Bunu kim yazıb?

–Yəqin hardansa köçürmüsən. Dalını da de.

–Yox əşi, özü yazmış olar. – Qızlar onu «atəşə» tutdular. Tanya qızarmışdı.

Ümidsiz və sakit
sizi sevirdim,

Məni incidirdi
qısqanclıq, təlaş.
Eşqimi, hissimi,
ah, sizə verdim,
Mənim tək sevəydi
o da məni kaş...

– Sağ ol, Biləndər, nə gözəldi, nolar onu yaz mənə ver. Xatirə dəftərinə yazacam.

– Az, Puşkinin seçilmiş əsərlərini götür, oradadır.

Fizika müəllimi sinfə girmişdi.

## XI

Evə tez gəldi. Həyətdə heç kim yox idi. Əsəbi idi, özü də bilmirdi ki, hara, niyə gedir. Sumkasını stolun üstünə qoyub əynini dəyişdi. həyətə düşüb əl-üzünü yudu. Tanyanın gələcəyini gözləyirdi. Təkrar otağına çıxıb yerinə uzandı, olub-keçənləri götür-qoy elədi, Tanyanın ona qarşı laeydliyinin səbəbini araşdırmağa çalışdı. Əvvəllər səmimi salamları vardı, qonşu idilər. Düzdü, Biləndərin Tanyaya qarşı elə pis münasibəti olmamışdı.

Hər şey Şahidin gəlişindən sonra başladı. Tanyaya elə gəlirdi ki, Biləndər onu dostuna keçi qiymətinə satıb, ancaq burada pis nə vardı ki? Rəqs meydançasında hamı rəqs edir və Şahid də Tanya ilə rəqs  edib. İstəməsəydi, Şahid qızı zorla meydançaya çıxartmayacaqdı.



Biləndər özünü günahkar saydı. Bir damın altında ola-ola qızın könlünü ələ ala bilmir. Demək olar ki, evdə onlara mane olan yoxdur. Vasya bütün günü sahələrdədir, evə gələndə sərxoş olur. Marqo (Tanyanın anasının adı Marqarita idi, hamı ona Marqo deyirdi) gecə saat 12-də işini qurtarıb evə gəlir, səhərlər yuxudan geç oyanır və bəzənib yenidən işə gedirdi. İndi Biləndər necə olursa-olsun hədiyyəni qıza verəcək, onun dodaqlarından zorla da olsa, öpüş götürəcəkdi.

Həyət qapısı açılanda Biləndər ayağa qalxıb pəncərənin ağzına gəldi. Tanya rəfiqəsi Alyona ilə gəlmişdi.

– Çort poberi. Qızı özü ilə qəsdən gətirib.

Qızlar mətbəxə keçdilər. Əhvalları yaxşı idi, danışıb-gülürdülər və Biləndərə elə gəldi ki, qızlar onun haqqında nəsə deyirlər.

Mətbəxə düşdü, onsuz da ac idi və nə isə yeməli idi.

– Xoş gəlmisən, Alyona. Sən hara, bura hara?

– Sağ ol, Puşkin, mən həmişə bu evə gəlirəm.

– Mən Biləndərəm. Puşkin babandı.

Alyona güldü. Tanya dodaqaltı qımışırdı.

– Xətrinə dəydi? Bilirəm ki, Biləndərsən. Şeir yazdığına görə belə dedim.

– Mən şeiri sevgililər üçün elə-belə yazıram.

– Vsyo-taki.

– Yazdığın kiməsə təsir etməyəcəksə, mənası yoxdu. Daş ürəkli insanlar nə çoxdu. Özləri ilə müdafiəçi götürməkdən başqa işləri yoxdu.

– Qəliz danışırsan. Kimi nəzərdə tutursan?

– Tanyanı.

Tanya çayı isidirdi.

– Priçem zdes ya.

– Necə yəni priçom?

– Biləndər, gəl söhbəti hələlik saxlayaq. Biz indi gedəcəyik.

– Niyə saxlayaq? Tanya, axı, biz elə Alyonagildə görüşməli idik. Düzdü? Bəs indi nə problem var?

– Söhbət edərik.

– Yeməyə nə var?

– Heç nə. – Tanya stəkanları hazırlayırdı.

– Elə çay içəcəyik?

– Səni bilmirəm, biz çay içib gedəcəyik. Sən bax gör, pendirdən-zaddan nə yeyirsən. Kartof da bişirə bilərsən.

– Hövsələ qoymusan ki, yemək bişirim?

– Özün bilərsən. Alka, iç getdik. Gecikirik.

– Hara gedirsiniz? Buraxmıram.

– Get işinnən məşğul ol. Sənin mənim daxili işlərimə qarışmağa ixtiyarın yoxdu.

– Mən başa düşə bilmirəm ki, sənə nə olub? – Biləndər qapının ağzına keçdi.

– Görüş qurtardı sənnən. Görüşməliydik, görüşməyəcəyik.

– Niyə? Hədiyyə almışam.

– Nə hədiyyə almısan? Duxi? Saxla özünə.

– Onu istəmişdin, almışam.

– O daha məni qane eləmir. Mənə ayrı şeylər lazımdı.

– Nə məsələn?

– O şeylər ki, sən onu ömrün boyu ala bilməyəcəksən.

– Niyə belə fikirləşirsən? Alaram, o yana da keçərəm.

– Yox əşşi. Elə görünür. – Tanya üzünü Alyonaya tərəf tutdu. – Davay, getdik.

Tanya Alyonanı qabağa vermək istədi.

– Hara? - Biləndər onun sinəsindən geri itələdi.

– Hara istəyirəm ora. Görüşə gedirəm, çəkil yoldan.

Biləndərin silləsi Tanyanın qolundan tutdu... Həyət qapısı qəfildən açıldı. Tanyanın anası Marqaritanın gəlişi aradakı gərginliyi yox etdi. Biləndər bura köçdüyü gündən ilk dəfə idi ki, onu günorta evə gələn görürdü. Biləndərə elə gəlirdi ki, Marqo elə ömrünün sonuna kimi Slavyan kəndindəki poçtda oturub «alo», «bəli», «danışın» sözləri deyəcək, kosmonavt papağına oxşar papağı başından çıxarmayacaq. Biləndər çaşdı. Onun Tanyaya bənzər cizgiləri azca fərq etsə də, təravəti hiss edilirdi. Və Biləndər ani olaraq düşündü ki, Rafiq (Frişin qardaşı) az aşın duzu deyil, ağzının ləzzətini bilir.



– Qızlar, yubanırsınız. Nə məsələdi?

– Heç, ma, elə indi çıxırdıq.

– Biləndər acdı. – Bunu Alyona dedi.

– Mən bir şey təşkil edərəm. Siz gedin.

Biləndər ürəklənən kimi oldu.

– Tot Marqo, bu uşaqları hara göndərirsiniz?

– Uşaqları ha! – Güldü. – Onların harası uşaqdı. Day, maşallah, yekə qızdılar. Görüb-götürən vaxtlarıdı. Deyirəm Kirovabada getsinlər, bir az gəzsinlər. Gözləri açılsın. Ay səni, Biləndər, məzən olsun. Sən də özünü uşaq sayırsan? Ə, sən yekə kişisən. Bilirsən, sənin tay-tuşların nələr edir? Bilmirsən?

– Yoox.

– Bilərsən. Yaxşı, qızlar, sizə yaxşı yol. Mən Biləndəri yemlərəm.

Biləndər həyətə çıxdı.

– Sən hara?

– Bir azdan gələcəm.

– Uzaq getmə. Yemək hazırlayıram. Gəl nahar elə.

Kəndarası yolla Bakı trassının üstünə çıxdı. Bağa keçib ağacların arasında oturdu. Az keçməmiş Rafiqin maşınını sürətlə keçən gördü. Tanya da, Alyona da arxada oturmuşdular.

## XII

...Biləndər müəllim VIII[a] sinfində dərs keçirdi. Qapı açıq idi. O uşaqlara Puşkinin duelə çağırılmasını danışırdı. Uşaqların bütün diqqəti onda idi. Məktəbin həyətinə iki milisin gəlişi bu sükutu pozdu. Qələndər müəllim də onlarla idi. Milislər dayandılar. Qələndər müəllim onu əli ilə yanına çağırdı. Biləndər qapını örtüb söhbətini davam etdi.

Zəng vurulandan sonra müəllimlər otağına gəldi. Milislər direktorun otağında oturmuşdular. Onlara əhəmiyyət vermədən atasına üz tutdu.

– Dərsi niyə pozdunuz?

– Səni istəyirlər.

– İstəyirlər, lap yaxşı. On dəqiqə gözləyə bilməzdilər?

– Yol gəliblər.

– Yaxşı eləyiblər. Ancaq bu o demək deyil ki, dərsi pozasan. İndi eşidirəm.

Milislərdən boyca uça olanı əlindəki vərəqi ona uzatdı.

– Nədi bu?

– Səni rəis çağırır.

– Rəis kimdi?

– Bizim milis rəisi də.

– Mənim rəislə nə işim var?

– Sənin yoxdu, ancaq rəisin səninlə işi var.

– Nə məsələdi? – Biləndər az qala hirslənəcəkdi.

– Sabah saat 10-da gələrsən, orda bilərsən. Biz nə bilək. Kağızı verdi, dedi ki, sizə çatdırım.

– Mən ora gəlməyəcəm.

– Özün bilərsən. – Kök milis yerindən qalxmaq istədi. Qələndər müəllim onu yerində oturtdu.

– Biləndər sabah saat 10-da orada olacaq.

– Mənim yerimə danışma.

– Sən qulaq as. Siz bizim kəndə gəlibsiniz. Bunun məsələyə heç bir dəxli yoxdu, mənim qonağımsınız. Bir stəkan çay içəcəyik, sonra gedəcəksiniz.

***

Səhərisi gün Biləndər müəllim avtobusla rayon mərkəzinə gəldi. Milis idarəsi Mis çayın kənarında yerləşirdi. Dayanacaqdan ora qədər xeyli yol olsa da, Biləndər piyada getməyi qərarlaşdırdı, çünki hələ saat 9-a 15 dəqiqə qalırdı və çağırış vərəqəsində saat 10 göstərilirdi. Biləndər bütün gecəni fikirləşsə də, milis idarəsinə çağırılmasının səbəblərini aydınlaşdıra bilmirdi. Müəllim babadı, sübh tezdən məktəbə gedir, axşam çıxır. Bir kəslə də işi yoxdu. Son vaxtlar kimsəylə sözü düşməyib. Bəs milisə nə üçün çağırırlar? Əgər ciddi bir iş ortaya çıxmasa (Biləndər buna tam əmin idi) milislərə, hətta onun rəisinə də dişinin dibindən çıxanı deyəcəkdi.

Milis idarəsinin darvazasında onu yuxudan kal oyanmış, avtomatı çiyninə tərsinə keçirmiş serjant qarşıladı.

– Hara, ay yoldaş?

– Sabahın xeyir.

– Sabahın xeyir, beş də artıq. Nə olub, sübhün gözü açılmamışdan alıcı quş kimi başımızın üstünü kəsdirmisiniz. Nə olub? Kim və nə lazımdı?

– Rəisiniz.

– Ay başına dönüm, nooldu, elə gələn-gələn rəisin yanına gedir. Bir biz yetimləri saya salan yoxdu.

– Nə istəyirsən?

– Nə istəyəcəm? Bir zaftrak pulu. Xaşın iyini hiss etmirsən? Şişmişəm ey, qardaş.

– Qoy rəisnən məsələni çürüdüm, sənə xaş qonaqlığı verərəm.

– Ay-hay. Nisyə, girməz kisəyə. Sən rəisin yanına girib çıxası, məsələ çürüdəsi, sonra mənə qonaqlıq verəsi? Ə, bu nağıldı. Rəis saat 12-yə gələ, ya gəlməyə. Sən onun yanına girəsən, girmiyəsən. Qardaş, milisə papiros yandırmağa gələn 5 ildən sonra geri qayıdar.

– İndi nə deyirsən?

– Bir göy beşlik ver, gedim əlli-əlli sənin sağlığına vurum. Allaha da xoş gedər.

– Ə, indi sənə pul versəm, postu boş qoyub gedə bilərsən?

– Gedərəm, lap canını da alaram.

– Çox istəyirsən.

– Nəyi çoxdu ki? İki yüz qram araq, bir xaş, göyü-göyərtisi ancaq eləyir.

– Mən müəllim adamam, o qədər verə bilmərəm,

– Bəs nə qədər verərsən?

– Bir manat.

– Cəhənnəmə, ver gəlsin, Allah işini avand eləsin.

Biləndər sarı manatlığı çıxarıb milisə uzatdı. O pulu qapıb cibinə qoydu.

– Allah canını sağ eləsin, qardaş, çox sağ ol. Səhər siftəsidi. – Serjant pulu ovcunda sıxıb yerində var-gəl etməyə başladı.

Milis şöbəsi yerləşən bina aralıda idi. Qapıya çatar-çatmaz başqa bir serjant onu qabaqladı. Biləndər müəllimə elə gəldi ki, bu o biri milisin əmisi oğludu.

« – Bu milislər bir-birinə necə də oxşayırlar».

– Kimi istəyirsən, ə?

– Sabahın xeyir.

– Beş də artıq. Kim lazımdı?

– Rəis.

– Neynirsən, ə, rəisi?

– Çağırtdırıb.

– Özü?

– Hə.

– Nə məsələdi?

– Bilmirəm.

– Onda çıx qapıdan o yanda dur. Rəis gələndə, gələrsən.

– Necə yəni rəis gələndə gələrsən? Buraya yazıb ki, saat 10.00-da şöbədə olum. Mən də qol çəkib kağızı götürmüşəm. Saat ona 5 dəqiqə qalır.

– Ay rəhmətliyin oğlu, indi yanı deyirsən ki, o boyda rəis sənnən ötrü saat 9-dan buranı kəsdirməlidi? Get işinnən məşğul ol. – Serjant üzünü içəridəki yoldaşına tutdu. – Ayə, Qasım, çay nooldu, dəmləndimi?

Biləndər papiros çıxarıb yandırdı. Saat 10 tamam olana qədər gözləyəcəkdi. Eybi yox, 10-15 dəqiqə də artıq gözləyər. Əgər bir şey alınmazsa, onda onu dəvət edənləri axtarıb tapacaqdı. Yekəqarın milis işçisi maşından düşüb qapıya yaxınlaşdı. Çiynində dörd ulduz vardı. Serjantlar qapının ağzına çıxdılar, biri əlini qulağının dibinə apardı. Kapitan başını astaca tərpədib ona baxdı, laqeydcəsinə keçib getdi.

– Bu rəisdi?

–Hansı rəis?

– Necə yəni hansı rəis? Sizin neçə rəisiniz var?

– Nə bilim, ay sağ olmuş, hərə özü üçün bir rəisdi. Bu cinayət-axtarış şöbəsinin rəisi kapitan Məmmədxanovdu. Sənə Sayadov yoldaş lazımdı. Onun gəlməyinə hələ çox var.



Kapitanın xarici görünüşü Biləndərin ürəyini bulandırdı. Gəldiyi tərəfə baxdı. Serjant görünmürdü, yəqin indi hansısa xaşxanada əlli-əlli vurur. Özünü qınadı ki, nəyə görə onunla yeyib-içməyə getmədi. Onunla oturmaq Biləndər üçün maraqlı olardı.

Vaxt gec keçirdi, elə bil əqrəblərin üstündən daş asılmışdı. Biləndər özündə də bir süstlük hiss edirdi. Elə bil dünyanın yükü onun çiyninə qonmuşdu. Ancaq dərsdə o bu vəziyyətə düşmürdü. İndi məktəbdə olsaydı, ikinci dərsi yekunlaşdırırdı. Onuncularda yoxlama imla yazdırmalı idi.

Heç, olmasa sahə müvəkkillərinə rast gəlsəydi, yaxşı olardı. Saat 11-in yarısı idi. Biləndər növbətçi hissəyə yaxınlaşdı.

– Rəis gəlmədi?

Serjantlar ona fikir vermədilər.

– Sizinləyəm, rəis gəlmədi?

– Görürsən ki, gəlməyib.

– Onda qeyd edin ki, mən göstərilən vaxtda şöbədə olmuşam.

– Nə qeyd edəcəm, ə? Sən nə danışdığını bilirsənmi?

– Lap yaxşı bilirəm. Saat 10-da şöbədə olmalıyam, olmuşam. Məni ya qəbul etsinlər, ya da çıxıb gedirəm.

– Qazlı-qazlı danışma. Rəis gələcək.

– Nə vaxt gələcək?

– Nə vaxt istəsə, onda. Get burdan, qıraqda gözlə. Sən səhərdən bizə mane olursan.

– Nəyinə mane oluram. Bu nə anarxiyadı?

– Ə, çox o yan-bu yan eləmə. Dilini də qatla qoy yerinə. Sən öl, bu saat səni basaram içəri.

– Sən məni basdırarsan? Basdır görüm, necə basdırırsan? - Biləndər içəriyə – serjantların oturduğu yerə keçmək istədi. Bu vaxt sahə müvəkkili (məktubu ona verən) gəldi. Səs-küyü eşidib ona tərəf gəldi.

– Gəlmisən? Bilirsən, rəis özü səninlə görüşəcək. O da hələ gəlməyib.

– Nə vaxt gələcək?

– Bir saata kimi gələr.

– Onda mən getdim. Deyərsiniz ki, gəldi, gözlədi, getdi.

– Elə şey olar?

– Niyə olmur?

– Gərək bir də sənin dalınca kəndə gəlim. Sən də bir gün avara qalıb bura gələsən. Yaxşısı budu gözlə.

Biləndər onu həyətə çəkdi.

– Qardaş, nə məsələdi? Rəis hara, mən hara? Bəlkə ucundan-qulağından bir şey bilirsən?

– Vallah heç nə bilmirəm. Bircə onu bilirəm ki, səninlə özü söhbət etmək istəyir.

Biləndər papiros yandırdı...

## XIII

Tanya tamam dəyişmişdi. Qızın əvvəlki şuxluğundan, deyib-gülməyindən əsər-əlamət qalmamışdı. Sinifdə, koridorda, məktəbin idman meydançasında atılıb-düşən, az qala oğlanların belinə minən Tanya sakitləşmişdi, çox vaxt tənəffüsdə oturduğu yerdən qalxmırdı, rəfiqələri onu çağıranda «eh, həvəsim yoxdu» deyirdi. Biləndər bunu aydınca hiss sedir və bilirdi ki, onların Rafiqlə Kirovabad səfəri Tanyanın həyatında dəyişiklik edib.

– Tanya, sənə nə olub? –Sinif yoldaşlarından Vidadi qızın yanında oturub onu söhbətə tuturdu.

– Heç nə.

– Necə heç nə? Dünən axı, sən başqa cür idin.

– Soyuq olub. Ürəyim bulanır. Ayrı nə ola bilər ki... Qız evdə də məktəbdəki kimi idi. Deyəsən, bütün günü yatırdı. Tək bir dəfə Alyona onun yanına gəldi, Tanyanın otağında xeyli söhbət etdilər və Tanya onu yola salanda Biləndər söhbəti eşitdi.

– Keçib gedəcək. Narahat olma. Mən də elə olmuşdum Şənbə gününə kimi düzələcəksən.

– Görək də.

– Hə, indi daha yaxşı olacaq.

Marqonun kefi isə yüz vururdu. Səsi daha ucadan çıxır, sevinci hiss olunurdu.

– Ay qız, Tanya, dur, nə qədər yatmaq olar. Bir evə-eşiyə, həyət-bacaya əl gəzdir. Yemək də bişirmirsən. Dur, işlədikcə açılacaqsan.

Biləndər onunla danışmırdı, ancaq hiss edirdi ki, qız onunla üz-üzə gələndə utanır. Baxışlarını yerə dikir və bu baxışlarda Biləndər çox şeylər oxuyurdu.

Hər şey ötüşdü. Biləndərin özündə də qəribə bir süstlük var idi. Bir yerdə qərar tutmayan Biləndər evdən bayıra çıxmır, dərslərə müntəzəm, ciddi hazırlaşırdı. Yemək-içməyi də otağına salmışdı. Sayı stəkanda qaynadırdı. Zərnişan həkim

ona kipitilnik almışdı. Hazır yeməkləri qazanda bişirib gətirirdi. Balondakı pendir Biləndərin sevimli yeməyinə çevrilmişdi. Oğlunun bu cür dəyişkənliyi, dərslərə ciddi hazırlaşmağı ananı sevindirirdi.

Vasyagil qəribə vəziyyətə düşmüşdü. Bəzən Biləndərin üzünü günlərlə görmürdülər. Axşamüstü işdən qayıdan Vasya Tanyadan onu soruşdu.

– Bütün günü nə işlə məşğuldu?

– Nə bilim? – Tanya cavab verdi.

– Necə nə bilim? Bəs nə yeyib-içir?

– Get bax gör də. - Əslində Tanya üçün də bu maraqlı idi.

Vasya qapını döyüb içəri girdi.

– Axşamın xeyir.

– Salam, Vasya dayı.

– Çoxdandı görünmürsən. Darıxdım, dedim görüm neylirsən.

– Sağ olun, hazırlaşıram. – Əli ilə kitabları göstərdi.

– Oxuyursan? Afərin. Yaxşı iş görürsən. Mən oxumamışam, ona görə də eşşək kimi zibilin içində fırlanıram. Vaxtında oxusaydım, indi mən də bir adam idim.

–Oxumuyan acından ölmür ki? Nə olub sənə? Qazanırsan, yeyirsən, içirsən.

–Orası elədi. Ancaq gərək adam kimi yaşayasan. Bəlkə aşağı düşək? Arağım da var. Tək içə bilmirəm.

– Mən içən deyiləm, Vasya dayı. Sənə də məsləhət görmürəm.

– Ağıllı sözə nə deyəsən? – Vasya bir az fikirləşib soruşdu. – Oxuyub nəçi olmaq istəyirsən?

– Nə bilim, hələ ki, oxuyuram, heç özüm də bilmirəm.

– Nə olursan ol, adam ol. Qalanı boş şeydi. Bəs sən nə yeyib içirsən? Mətbəxdə az-az görünursən.

– Ac qalmıram. Acanda düşürəm. Heç bir narazılığım yoxdu.

– Təki elə olsun. – Vasya ağır addımlarla otağı tərk etdi.

## XIV

Qəbul otağında yarım saatdan çox idi ki, dayanmışdı. Köhnə saatın əqrəbləri arada tıqqıldayırdı. Səhərdən bəri olub-keçənlər Biləndərin yaddaşından silinmişdi: sanki səhər indicə açılmışdı – o, nə sübh tezdən kənd avtobusu ilə taraq-qataraq rayon mərkəzinə gəlmişdi, nə yuxulu milisə bir sarı manatlıq vermişdi, nə də növbətçi hissədəkilərlə mübahisə etmişdi. Ac olmağına baxmayaraq, hətta, o yuxulu milislə xaş yeməyinə getmək həvəsi ağzını sulandırmırdı. Katibə zəng səsindən sonra qapını açıb içəri keçdi, üç-dörd dəqiqədən sonra stəkan-nəlbəki ilə geri qayıtdı. Aşağıda, gözəgörünməz yerdə, plitkanın üstündə qaynayan çaynikdən çay süzüb təkrar geri qayıtmaq istəyərkən Biləndər onun nə vaxt içəri keçəcəyini soruşdu.

– Nə səbirsiz adamsan, ay yoldaş, dedim ki, nazir müavini ilə danışır. Qurtaran kimi səni qəbul edəcək. Arxayın ol, demişəm.

– Zamministrlə çay içə-içə danışır? – Katibə başını bulaya-bulaya qapını açar-açmaz Biləndər özünü içəri verdi və az qala katibə ilə bərabər içəri keçdi. Rəis kresloya yayımlanıb fırlanırdı.

– Dayan, çıx çölə. – Katibə ona toxundu, stəkandakı çay töküldü. – Özünü hara soxursan?

– Nə olub orda? – Rəisin yoğun səsi gəldi.

– Yoldaş rəis, görürsüz basıb keçir içəri.

– Gözləyə bilmir?

– Yox e...

Biləndər rəisə yaxınlaşdı.

– Məni saat ona çağırtdırıbsınız. Nəyə çağırıldığımı bilmirəm. Altı saatdır ki, sizin işçilər mənim başına oyun açırlar.

– Yox əşşi...

Eni az qala uzununa çatan rəis Biləndərə tanış gəldi, ancaq onun kimliyini yəqin edə bilmədi.

– Mən müəllim adamam. Gündə on saat dərs deyirəm. İndi hamısı qaldı boş-boşuna.

– Əsəbləşmə, məllim. İndi Naznaz xanım sənə bir çay verər, hirsin soyuyar. Əsəbləşmə. Hirsli başda ağıl olmaz. – Üzünü katibəyə tutdu. – Məllimə bir südlü çay...

– İçmirəm.

– Burda hər adam çay içmir ha, məllim. Özü də bilməmiş olmazsan, heç kim bundan straxovka olunmur. Otur.

Biləndər rəis göstərən yerdə oturdu.

– Məni çağırmaqda məqsədiniz nədi?

Rəis yerində bir-iki dəfə fırlandı.

– Günahsız adamlar bura gəlmirlər.

– Mənim nə günahım var?

– Dahilərdən hansısa deyib ki, insan anadan olandan günah içindədir. Sən də o cümlədən.

– Onda belə çıxır ki, siz də...

- Poçti, hə. Ancaq nisbətdə götürəndə mən səndən o söz... Deməli, məktəbdə müəllim işləyirsən? – Rəis qarnını qaşıyıb söhbətin istiqamətini dəyişdirdi. Biləndər bir anlığa fikrə getdi, çünki səs, üstəlik baxışlar ona tanış gəlirdi və bu tanışlıq ona çox yaxın idi. Bakıda keçirdiyi tələbəlik illərini xatırladı. Tanıdığı, adını bilməyib üzünün cizgilərini yadında saxladığı uşaqları göz önünə gətirsə də, bir şey alınmadı və odur ki, sualı eşitmədi.

– Sənnənəm? Müəllim işləyirsən?

– Bəli.

– Ailə üzvlərin?

– Bir oğlum var.

– Nə qədər maaş alırsan?

– Direktorun verdiyi qədər.

– Atan yenə direktordu?

Biləndər birdən-birə yerindən tərpəndi və bu gombul rəisi tanıdı. - Sayad idi.

– Hə, Sayad, atam direktordu, anam da baş həkimdi.

– Tanıdın?

– Güclə.

– Ancaq mən səni o saat tanıdım. Heç dəyişib eləməmisən.

– Müəllimin olsa-olsa qalstuku dəyişər. Ancaq səni tanımaq mümkün deyil. Elə bil nasosla üfürmüsən. İdmannan-zaddan məşğul olsan, belə hala düşməzsən. Artıq çəki nəyə lazımdı?

– Onnan döy.

– Necə yəni onnan döy? Bütün günü oturursan kresloda. Yeyirsən, içirsən. ancaq bir kərəntini əlinə alıb fırlatsan, piyin elə əriyər ki... Nə isə. Məni neynirsən? Dalımca iki it yollayıbsan. Incimə, sənə demirəm, onlara deyirəm ha. Yoxsa?.. – İstədi desin ki, bəlkə şillənin əvəzini çıxmaq istəyirsən?

– Bilirsən, Biləndər, aramızda nə olub, qaldı o vaxtlarda. Bir otaqda qalmışıq, çörək kəsmişik. Yəqin sən də o vaxtları unutmamısan? Rayona gələndən ha ölçdüm, ha biçdim ki, necə görüşək, hamımız bir yerə yığışaq. Ha çalışdım, bir şey əldə olmadı. Əziz, Mübariz Bakıdadırlar. Buralara yaydan-yaya gəlirlər. Danışmışam, bu yay gəlib bir-iki günlük qalacaqlar. Ona qədər dözəmmədim, dedim bir oturaq dərdləşək.

Biləndər ötənləri göz önündən bir də o otaqda, qarnı qabağa çıxmış rəisin – keçmiş otaq yoldaşı Sayadın qənşərində keçirdi, ürəyində pis hisslər oyandı, indinin özündə Sayadın sözlərində qeyri-səmimilik duydu, çünki o bilirdi ki, Sayad qurdlu bir adamdı və keçən münaqişəni yadından ömründə çıxartmaz. Rəis isə danışırdı – olub-keçənlərdən, olmuşlardan, o olmuşlardan ki, onların hamısı ikisinin arasındakı ziddiyyətli günlərlə bağlı idi. Biləndər Sayadın böyük adam olacağına inanırdı, ancaq bu vəzifəni tutacağına inanmırdı. Sayad hara – milis rəisi hara?



– Neçə uşağın var?

– Mənimki ikidi.

– Oğlandılar, yoxsa qız?

– İkisi də qızdı. – Sayad elə bil iki qızının olmasından utanırdı.

– Allah verən paydı. Nə oğul, nə qız?

– Bəs nə iş görürsən? Elə müəllimsən?

– Hə. Ayrı nə iş tutasıyam ki?

– Ə, məllimliknən ailə saxlamaq olar? Qoyun-quzudan nəyin var?

– Heç nəyim.

Rəisin gözləri bərələ qaldı.

– Doğrudan? Bəs nəynən dolanırsan?

– Nəynən dolanacam - maaşnan.

– Yox əşşi. Səninki olmadı. Ə, indi maaşnan da ailəmi dolanar?

– Niyə dolanmır. Hesab et ki, dolanır. Biri də mən. Özüm işləyirəm, yoldaşım işləyir. Bir az da həyətdə göy-göyərti, kartof əkirik. Meyvə ağaclarımız var.

– Deyirlər o tərəflərdə araq da çəkirlər?

– Niyə çəkmirlər? Həyətin, meşənin alma-armududu, zoğalıdı, gavalısıdı – yerə tökülür – boçkaya doldurub çəkirlər.

– Aparatın varmı?

– Mənim yox, ümumiyyətlə, kənddə heç kimin yoxudu. Erməniləri gətirirlər, onlar çəkir.

– Əşşi, bunlar heç nədi. Sən əsas məsələyə keç.

– Nə məsələyə? – Biləndər söhbətin yetişdiyini hiss edirdi.

– Özünü bicliyə vurma. Ömründə inanmaram ki, sən maaşla ailə dolandırasan. Səni tanıyıram.

– İnanmasan da olar. Özün bil. Qumar-zad oynamıram. Məktəbnən tutmur.

– Əşşi, qumar boş şeydi. Bir də görürsən ayda, ildə bir dəfə azarın tutdu - oturdun oynamağa. Deyirlər, kəndinizdə bir qrup banda yaranıb? Özü də başçısı sənsən?

– Nə banda?

– Biləndər, mən sənnən köhnə bir dost kimi, çox səmimi söhbət edirəm. Xətrini istəyirəm. İstəsəm, bu dəqiqə üstünə nəşəni atıb basdıraram dama. Ancaq mən elə adam döyəm. Sən gəl, qızıl bandasının işindən danış. Bizim bu haqda məlumatımız var. Prosto, istəyirəm ki, özün danışasan.

Biləndər bir az tutulan kimi olsa da, məsələnin nə yerdə olduğunu anladı. Marusya Petrovnanın əl damından götürdüyü dəmirlər onun canına üşütmə salsa da, qorxusu ötdü –

Sayadla danışa bilərdi, çünki indinin özündə də o özünü Sayaddan qat-qat güclü sayırdı və indinin özündə də o, Sayadı silləsinin altına sala bilərdi.

– Bu məlumat hardandı sizdə?

Sayad yerində fırlanıb dodaqlarını qımıldatdı.

– Biz beləyik də. Bizim yanımızdan heç nə ötüb-keçə bilməz. Tak-çto, işini bil.

– Dom-Feyzulla bombarabatay. O kinonu görmüsən? Səninki onun günündədi.

– Nə Feyzulla? Nə bomba?

– Dom Feyzulla. – Biləndər hekayəni ona danışdı. Sayadın rəngi qızardı.

– Bəs o meşəbəyinin əhvalatı yalandı?

– Ölümü yalan döy. Öldürüblər. Ancaq o qızılın üstündə öldürülməyib. Görüb ki, ağacı kəsirlər. Onlar 4 nəfər olublar. İkisi də rusetdən gəlmişdi. Həm içkili, həm də nəşəli olublar. Sözləri düşüb. Əvvəlcədən də düşmənçilikləri varmış. Ağaca sarıyıblar, ağac yıxılıb, o da altında qalıb. İşçiləriniz yaxşı bilir. Müstəntiq uşaqların pullarını alıb buraxdı. Günahı da yıxdı təbiətin üstünə.

– Ay qardaş, o iki küpə qızıl tapıbmış. Birini arvadı oğurlayıb aradan çıxıb. O birinin üstündə dava düşüb.

– Yalan məlumatdı. Gedən arvad meşəbəyinin ikinci arvadıdı. Ərinin ölümündən sonra qayıtdı atası evinə. Qalıb neyniyəcəkdi ki? Sonrası da, kənddə qızıl bandası-zadı yoxdu. Bəzi qazıntılar var, onu da qazanlar öz həyətlərində qazırlar.



– Sən mənə nağıl oxuma. Özün bilirsən. Hamı sənin o çubuğunun istiqamətində qazır.

– Düzdü, məndə çubuq var, o çubuqdan səndə də ola bilər, Əlidə də, Vəlidə də. İki dəmiri bir-birinə svarkalayırlar, çıxıb gedir işinə. Sonrası da, camaat dəli döy ki, mən göstərən yeri qazsın. Çubuqla iş bitsəydi, indi mən milyarder olardım ki.

– Bəlkə sən elə milyardersən?

– Kim sübut edə bilər? Elə sən milis rəisi. Yoldaş Sayadov! O mənim evim-eşiyim, o da siz. İt gətirin, qurd götürün, aparat gətirin. Bir çöp tapsanız, mənə də verərsiniz.

– Ə, mən sənə inanıram e. Bilirəm ki, hələ tapmamısan. Ancaq onu demək istəyirəm ki, iş gedir. Bu gün, sabah-nə vaxtsa, kimsə bir şey tapacaq. Onda mənə xəbər ver. Mən bu boyda rayonun milis rəisiyəm. Bilməliyəm ki, kim harada nə işlə məşğul olur. Tem bolee, qızıl söhbəti ola. Bu tapılanda müəyyən qaydalar var də - tapana nə düşür, dövlətə nə qədər keçir. Onlar çotki olmalıdı. Qızıl sənə zarafat gəlməsin. Özün də hər həftə bir mənə dəy. Həm oturub bir stəkan çay içərik, həm də sizin tərəflərdən söhbət edərik. Orda kimnən xoşun gəlmir, de, tutub basım dama.

– Elə də şey olar? Camaatı durduğu yerdə nətəri dama basırsan?

– Sən mənim uşaqlıq dostumsan. Sənə hər şey mojnadı.

– Mənə sözün qurtardımı? Axşamdı. Biz tərəfə maşın getmir. Gərək bir şey fikirləşəsən.

– Bu saat. – Sayad stulda çevrilib düyməni basdı.

– Ayə, taksimotornıdan bir maşın alın. Mənim qonağımı kəndə aparsın. Denən ki, mən demişəm.

– Oldu? Səni gözləyəcəm. Aşağıda növbətçi ilə əlaqə saxla. Sənə maşın təşkil edəcək.

Biləndər ayağa qalxdı.

– Sayad, sən məni hələ yaxşı tanımayıbsan. Mənim nəslimdə, nə də məndə sukalıq ömründə olmayıb. Sizlər yaralı barmağa su tökən deyilsiniz. Acanda biz tərəflərə gəlin. Gözləyəcəm...

## XV

Kənddə yas məclisiydi. Biləndər Həsən müəllimlə bir qıraqda söhbətləşirdi. Onlara tərəf gələni Biləndər üzdən tanıdı.

– Nə bilim, adamın adı yadda qalmır.

– Hansı birini yadda saxlasın. – Həsən müəllim ona söz atdı.

– Yataq otağını söküb qazdıq. Yeddi metr qazmışdıq ki, evin arxası çökdü. Mənə elə gəlir ki, qızıl o evlə o biri otağın

arasındadı. İndi ortanı söküb ordan qazacağıq... Ola bilməz ki, çubuq səhv göstərsin. Nəsə, yuxu da görmüşəm, bir şey tapacam.

– Ev uçub, bəs harda qalırsınız?

– Mal-qaranın dalınnan dəymişəm, tövlədə oluruq.

***

Biləndər evə çatanda şər qarışmışdı. Birbaşa ikinci mərtəbəyə qalxıb çubuğu götürdü və birbaşa ayaqyoluna üz tutdu, çubuğu ayaqyolunun səkkizəbənzər deşiyindən aşağı tulladı.

*1990-1995. Bakı*

# BİRDƏN-BİRƏ

## I

...Naibə tamam dəyişmişdi və bu dəyişkənlik hamıdan çox onu heyrətləndirmişdi. İki il qabaq sentyabrın 1-də ilk dəfə əlinə jurnal alıb 9A sinfinə girəndə onun diqqətini o qədər də cəlb etməyən bu qızcığaz ikinci sırada, qıraqda otururdu və ağappaq sifətinə baxanda adama elə gəlirdi ki, burnunun suyu axıb üst dodağında qurumuş və yeri qalmışdı.

Uzun saçları həmişə başında topalanardı. Sakitliyi, dinməzliyi və təmkini vardı. Dindirməsən, bütöv dərsdə bir kəlmə danışmaz və qımıldanmazdı. Hər rübdə bir, ya iki dəfə dərs danışmağa çıxar, «3»-nü alıb oturardı.

Sinifdə gözəl qızlar çox idi və onlar Naibəni kölgədə qoyurdular. Bu qız başqaları kimi onu demək olar ki, maraqlandırmırdı.

Onu adı ilə çağırmazdı, familiyasını deyərdi. Ağzından "Cərullayeva" çıxan kimi qız qıraqdan sakitcə ayar üstə qalxar, ona baxıb ağır addımlarla lövhəyə çıxardı. 5-6 dəqiqə ərzində o gah danışar, sual veriləndə dayanar, müəllimin sözlərini aramla təkrar edərdi. «Dərsi niyə yaxşı öyrənməmisən?» sualına o sükutu ilə cavab verərdi. Və bu an ağ yanaqları lalə kimi qazarardı. Qiymət vermək üçün ona əlavə, asan suallar verərdi. Amerikanın paytaxtını soruşar, xəritədə Almaniyanın yerini göstərməyi tapşırardı. O isə xəritədə Avstraliyadan başlayıb «Almaniya» sözünü bütün xəritə boyu gəzərdi. Bir dəfə dedi ki, dərsin sonuna qədər axtar, bu ölkəni tap. Naibə tapa bilmədi.

- Yəni deyirsən, bu xəritədə Almaniya düşməyib?

Başı ilə təsdiqlədi. Sinfə gülüşmə düşdü. Uşaqların gülüşünü kəsmək üçün dedi ki, düz deyir də, Almaniya xəritədə yoxdur. İndi Həsrət gəlsin tapsın, görək necə tapır.

Həsrət «Almaniya»nın axtarışına Amerikadan başladı. Vüsalə Afrikadan başlasa da, bir şey əldə edə bilmədi. Sinfin yarısı lövhənin qarşısına çıxıb xəritəyə boylanır, Almani-

yanı kimin neçə tapacağını gözləyirdi. Sinif nümayəndəsi E'tibar «FRQ» yazılmış palıdı yeri göstərəndə uşaqlar xorla;

- Fırıqıdı bura, Almaniya döy,–dedilər.

Bu sinif riyaziyyat ixtisası üzrə təşkil olunduğundan qeyri, xüsusən humanitar fənlərə o qədər də fikir vermirdilər. Ancaq o ilk gündən bütün elmlərə həvəs göstərməyi uşaqlara aşılayır, tarix dərslərinin maraqlı olduğunu bildirirdi. Buna misal da çəkirdi ki, məsələn avtobusla Bakıya gedirsiniz, yanınızda yaşlı bir adam oturub. Yol boyu susmayacaqsınız ki? Yəqin nədənsə danışacaqsınız. Yol yoldaşınız üçün riyaziyyat, həndəsə teoremləri, yaxud fizikanın qanunları maraqlı olar, yoxsa hansısa bir hadisənin şərhi? İnsanın dünyagörüşünün geniş olması üçün ədəbiyyat, qəzetlərdəki maraqlı məqalələr, dünyada baş verən əhvalatlar əsas rol oynayır.

Müəllim kimi şagirdlərinin hörmətini qazanmış, dərs dediyi fənni uşaqlara sevdirə bilmişdi. Onun dərsində sakitlik olmalı idi. Bu əsas idi. Kim istəyirsə, onun icazəsi ilə dərsdən azad ola bilərdi. Dərsi əzbərləmək, qiymət xatirinə oxumaq ona lazım deyildi. Tələb o idi ki, maraqlananlar onun dərsində tarixə aid istədikləri mövzunu soruşsunlar. O, bu sual üçün beş dəqiqə vaxt ayırıb izah edirdi.

Dərs dediyi birinci ilin may ayında doqquzuncuların sinif rəhbəri Sahib müəllim uşaqları Şuşaya aparmağı təklif etdi. O, nə qədər çalışsa da, yaxasını qırağa çəkə bilmədi. Avtobus alındı, uşaqlar yolda yemək üçün pul yığdılar və mayın 9-da – Qələbə günü sübh tezdən yola düşdülər. Yolda uşaqlar tamam başqa olmuşdular. Onları tanımaq mümkün deyildi. Mahnı oxuyan kim, şeir deyən kim. Maqnitofon götürmüşdülər. Ən son kasetlər oxunurdu. Avtobus gedə-gedə ortada oynayanlar da tapıldı.

Şuşada yağış onları tutdu. Cıdır düzünə doyunca baxa bilməyib, avtobusa qayıtdılar. İsa bulağındakı restoranda yeyib-içdilər. O, Sahib müəllimlə yarım litrin axırına çıxdı. Uşaqlarla şəkil çəkdirdilər. Naibə onun sol böyründə dayanmışdı.

Tək bircə dəfə məktəbin yeməkxanasında çay içən zaman idman müəllimi Fazil ona dedi ki, Naibə onun qardaşı qızıdı,

ondan çox razılıq edir. İmkansa, ona bir bal yüksək yazsın. Fazil müəllimə gülə-gülə cavab vermişdi ki, Naibə sakit, ağıllı qızdı, ancaq biliyi iki səviyyəsindədi, o isə qıza «4» yazır. Bir halda ki, sən deyirsən ə'la yazaram.

Fazil müəllim bilmirmiş ki, qızın rüblükləri 4-dür, odur ki, peşimançılıq keçirmiş kimi «elə dörd yaxşı qiymətdi, özü də artıqlaması ilə bəsidi» – demişdi.

...Məktəbin birinci mərtəbəsində görüşdülər. Əvvəlcə tanımadı. Ancaq Naibə birbaşa onun yanına gələndə diqqətlə baxıb gözlərindən tanıdı. Saçlarını kəsdirmiş, xına rənginə saldırmışdı. Elə o rəngdə paltosu ona çox yaraşırdı. Boyu uzanmış, qaməti düzəlmişdi.

– Salam, müəllim. – Əl uzatdı, ona elə gəldi ki, bu an qız qollarını açıb onu bağrına basacaq. – Necəsiniz, müəllim?

– Sağ ol, Cərullayeva. Sən necəsən?

– Yaxşıyam, müəllim. Heç dəyişməmisiz?

– Ancaq sən çox dəyişmisən. Az qala tanımayacaqdım.

– Doğrudan?

– Doğrudan. Tamam dəyişmisən. 3 saylı məktəbin $X^A$ sinif şagirdi Cərullayevadan əsər-əlamət qalmayıb.

Naibə yüngül və özündən razı təbəssümlə gülümsədi.
– Dərslərin necədir? Sessiyanı necə başa vurdun?

– Yaxşı.

– Kəsrin qalmadı?

– Yox, ay müəllim.

– Sən harda oxuyursan?

– Bir nömrəli medtexnikumda.

– Hə, lap yaxşı, həkimlik gözəl peşədir. İxtisasın nədir?

– Akuşerkalıq.

– Çox gözəl. Çox sevindim. Tarix keçirsinizmi?

– Bəli.

– Çətin deyil?

– Yox, ay müəllim. Dörd aldım.

– Gərək beş alaydın. Axı, mən sənə ə'la yazmışam!

– Mən beşə layiq deyildim. Siz hörmət etmişdiniz. Siz çox gözəl müəllimsiniz.

– Sağ ol, Naibə – ilk dəfə onun adını dedi.

– Gəldim həm əmimlə, həm də müəllimlərimlə görüşüm. Bizim uşaqlardan görməmisiniz?

– Niyə? Gəlmişdilər, görüşdük. E'tibarla tez-tez rastlaşırıq.

– Bizdə ən savadlı o idi, ancaq çətin yerə iş vermişdi, qəbul ola bilmədi. Müəllim, siz elə bizim rayonda qalacaqsınız?

– İstəmirsənsə, çıxım gedim.

– Yox, elə-belə soruşuram. Heç Bakıya yönünüz düşmür?

– Az.

– Bakıya gəlsəniz, uşaqları tapıb görüşərdik.

– Mən gələ bilərəm. Nə vaxt istəsəniz.

– Onda mən telefon nömrəsi verim. Ancaq söz verin ki, hökmən zəng edəcəksiniz.

– Sənin sözündən heç çıxmaq olar. Söz verirəm ki, sənə zəng çalacam. Nə vaxt gedirsən?

– Bazar günü.

– Onda ikinci gün zəngimi gözlə.

Məktəbin direktoru Fərman müəllim otağından çıxdı. Naibə ona əl uzadıb görüşdü. Bir an yerində donub qaldı. Gözü Naibənin boyuna pərçimlənmişdi. Ömründə, xatirəsində iz salmamış qız birdən-birə onu özündən çıxarmışdı. Heç nə düşünə bilmirdi və qəribə hisslər keçirirdi. Bu qəribə hisslər onu növbəti dərsləri neçə keçirdiyini bildirmədi. Uşaqlar da müəllimin tutulduğunu gördülər. Və bunun səbəbini araşdırmağa çalışdılar. Doqquzuncuların sinifkomu Dəmirova imkan tapıb ondan nə baş verdiyini soruşdu. «heç nə» – desə də qız ondan əl çəkmədi.



–Hələ sizi belə vəziyyətdə görməmişik.

– Sizə elə gəlir.

– Xeyr, müəllim, siz tamam dəyişmisiniz.

Bu dəyişkənlik ondan sonra da əl çəkmədi. Üçünçü mərtəbədəki tarix otağı, Naibənin kənarda oturuşu, dərsə cavab verməsi, yanaqlarının qazarması, yanaşı durduqları şəkil...

Otağa qayıdıb yuyundu. Daha dərsi yox idi. Uzanıb yatmaq istədi. Ancaq yadına düşdü ki, «Ağ ev»ə getməli, Hüseynlə görüşməlidi. Bu gün Nazimin 40 yaşı tamam olur. Bazarlıq işlərinə də kömək etməli idi.

«Ağ ev» rayon mərkəzinin kənarındakı üzümlüyün arasında tikilmişdi və onun qaldığı yerdən çox da uzaqda deyildi. Əvvəllər bu bina üzümçülərin istirahəti üçün tikilsə də, sonradan raykomun birinci katibi bu binanı rayona gələn gənc mütəxəssislərə vermişdi. 8 otaqdan ibarət birmərtəbəli binanın xarici görünüşü «Ağ ev»ə oxşadığından onu belə də adlandırmışdılar. Burada əsasən kolxoz və sovxozlarda işləyən 10-dan artıq gənc mütəxəssis qalırdı. Ad günü keçirəcəkləri Nazim «Moskva» sovxozunun şərabçısı idi. Onu rayonda tanımayan yox idi. Səliqəli geyinməyi çox sevən, qara, qıvrım saçlarını arxaya darayan Nazimi görən onunla salamlaşmağı, hətta zarafat etməyi əldən vermirdi. Və bu görüşün arxasında hökmən bir xahiş dururdu:

– Nazim, beş litr spirt lazımdı, yaxud konyakınız ə'ladır. – Zalım oğlu «baş üstə» kəlməsindən başqa söz bilmirdi. Ondan içki istəyənlər bir şey əldə edə bilməsələr də, narazı qalmırdılar.

Hüseyn həyətdə idi, maşınını təmizləyirdi. Onu görən kimi «dəli adamlardan xoşum gəlir» – dedi. Görüşüb hal-əhval tutdular.

– Əclaf belədi də, həmişə aradan çıxır. İş də qalır bizim boynumuzda.

– Mən boşam, nə lazımdı edərəm. Sənin işin varsa, get.

– Yox əşi, zarafat edirəm. Mənim də sən deyən elə vacib işim yoxdu. Yekə bir siyahı yazmışıq. Maşınsız olmaz.

– Nə siyahıdı elə?

– Bazara getməliyik. Ordan sovxoza dəyəsiyik - Nazim spes araq düzəltdirib, onu götürəcəyik. Ağabalaya kabab sifariş vermişəm. Təndir çörəyi alacağıq. Hansını deyim. Sən ac deyilsən ki?

– Yox, nahar etmişəm.

– İstəsən soyuducuda kolbasa, pendir var. İçki də doludu. Get bir çappa vur.

İçmək istəyirdi. Otağında həvəsi olmasa da, qalın stəkanı doldurub başına çəkdi. Çörəyi əli ilə kəsib dişlədi. Stəkanı ikinçi dəfə doldurdu.

Burdan rayon mərkəzi ovucun içi kimi görünürdü.

Şəhər yaşıl, güllü-çiçəkli bir don geyinmişdi.

Göy üzünün maviliyi, batmaqda olan Günəşin zərrin şəfəqləri onu daha da gözəlləşdirirdi.

Naibə indi evlərində idi – görəsən, nə işlə məşğuldu?

Həyat gözəl idi.

Bu gözəllik onun qəlbini genişləndirir, özünü rahat edirdi.

## II

Bakıya gedən avtobus sübh tezdən – saat 7-də mədəniyyət evinin qabağından yola düşürdü. Gərək bir saat əvvəl yuxudan durub piyada mərkəzə gələydi, Naibənin kiminlə getdiyini, kimin yola saldığını, harada oturduğunu görmək istəyirdi. Məktəbdəki görüşlərindən keçən vaxt ərzində demək olar ki, ancaq Naibə haqqında düşünmüşdü. Xəyalında qız nə qədər yaxın olsa da, onu görmək, hətta danışmaq üçün bundan yaxşı fürsət ola bilməzdi. Tələbə yoldaşı, indi kənddə müəllim işləyən dostu Məhərrəm nə qədər təkid etsə də, onunla kəndə yeyib-içməyə getməkdən vaz keçmişdi.

Şənbə axşamı «Ağ ev»ə də getmədi. Onsuz evdə içməyə bir şey tapacaqdı. Bazardan çörək, göyərti, pendir aldı. Evdə yumurta, kartof vardı. Nə vaxtdan qayğanaq yemirdi. Həm də bu yeməyi bişirmək tənbəl işi idi.

Balondakı arağı çay stəkanına töküb birbaşa içmək istədi. Adətən, çox vaxt astadan nəsə bir sağlıq deyib içərdi. İndi söz tapmadı, Naibəni gözü önünə gətirib stəkanı birnəfəsə başına çəkdi. Otaqda lal bir sükut vardı və bu sükut onun ürəyincə idi. O, indi düşündüyü vəziyyəti götür-qoy edə bilirdi. Yaşı iyirmi beşin içində idi. Təyinatla işləyirdi. Gələn il müddəti başa çatacaqdı. Qaldığı otaq yataqxana idi və raykomun katibi kömək etməsəydi, onu burada qalmağa heç kim qoymazdı. Burada, uşaqlar üçün internat binada qalmaq onun üçün də çətin idi. Pəncərə, çarpayı, stol, stul, qapı, hətta açar onun deyildi – məktəbin zavxozu Əsəd istədiyi vaxtda ondan ala bilərdi. O özü tezliklə paslanmış açarı Əsədin üstünə tullamaq istəyirdi – bilirdi ki, Əsəd onun burada qalmasını istə-

mir və bir neçə dəfə Fərman müəllimə şikayət etmişdi ki, uşaqların çoxuna yer yoxdu, bir otaqda 4 nəfər qalır. Guya yataqxanada hamı tək qalmalı imiş.

Müəllim yoldaşlarının bəzilərinin evində olmuşdu. Kimya müəllimi Qədir ikimərtəbəli ev tikdirib, üstünü bağlamışdı. Otaqlardan biri təmir olmuşdu və ailəsi o otaqda yaşayırdı. Həbib müəllim atasının evində qalırdı. Onun ev problemi yox idi. Qoca atasının evi ona qalacaqdı. Nəriman hökumət evinin birinci mərtəbəsindən ev almışdı. Onun da evi olmalı idi, ancaq harada və necə? O bu haqda indiyədək düşünməmişdi, sən demə, düşünmək lazım imiş. Yaş ötüb keçir, o isə...

İkinci stəkanı da başına çəkib çarpayıya uzandı. Naibənin sözləri beynində əks-səda verirdi.

«Bakıya gəlsəniz, görüşərdik».

«Söz verin ki, hökmən zəng edəcəksiniz».

Elə bildi ki, bu an poçt şöbəsindədi, Naibə ilə telefonda danışır. Onun səsini təkcə rayonda yox, Bakıda da eşidirlər. Astadan danışır ki, heç kim eşitməsin. Axı, divarların da qulağı var. Sonra hamı biləcək ki, müəllim keçmiş şagirdi ilə yarım saat danışıb. Deyəsən, torbada pişik var...

Onsuz da bu söhbət gec-tez üzə çıxaçaqdı, bu onu qorxutmayacaqdı.

« – İndi Naibə evlərindədi. Bəlkə də yatır. Ancaq hələ yatmaz, çünki səhər Bakıya gedir. Yəqin ki, oturub söhbət edirlər. Yol sumkası hazırdır. Anası ona yağ, pendir, bal qoyub. Yola da toyuq qazartması, kotlet götürüb. Kürdəmirdə avtobus dayananda yeyəcək. Elə avtobusdaca. Ola da bilər ki, o, indi şirin yuxudadır. Axı, səhər o başdan qalxmalı, yol getməlidi. Kaş, onunla gedəydi, yol yoldaşı olaydı. Bakıya kimi yanaşı oturar, doyunca söhbət edərdi. Görəsən, söhbətləri Bakıyacan qurtarardımı?

...Yuxudan oyananda hava qaranlıq idi. Qolundakı saata baxdı – yeddiyə on dəqiqə işləyirdi. İlan vuran kimi yerindən qalxıb əynini geyindi. Başında yüngülcə ağırlıq hiss edirdi. Yaxşı ki, çox içməmişdi. Əl-üzünü yuyub darandı, özünü səliqəyə salıb avtobus ayağına yollandı. Hava soyuq və təmiz idi,

şəhər yuxuda idi. Bəzi evlərin həyət işıqları yanırdı. Məktəbin yanından keçdi. Naibəni xatırlamaq istəsə də, onu görmək həvəsi güc gəlirdi. Addımlarını yeyinlətdiyindən papirosu atmışdı.

Sürücülər avtobusa yük yığırdılar. Gedənlərin çoxu oturmuşdu. Yerdə papiros çəkənlər də vardı.

– Sabahınız xeyir, müəllim! – şagirdinin atası idi, adını unutmuşdu.

– Sabahınız xeyir.

– Siz də Bakıya gedirsiniz?

– Yox.

– Bəs nə yaxşı?

– Bir söz ismarlayacam.

– Mən də Sabirə bir az ayın-oyun göndərirəm.

– Lap yaxşı eləyirsiniz. Lazımdı.

– Tanış varmı? Yoxdursa, Sabirə zəng edim.

– Yox, əziyyət çəkməyin. O qədər də vacib deyil.

Taksi dayandı və Naibə ilə yaşlı qadın düşdü. Anası idi. Ürəyi guppuldadı. Peçenye karobkasını avtobusun yanına qoyub sürücünü axtarmaq üçün boylandılar. Aralarında üç metr məsafə olsa da, Naibənin arxası ona tərəf idi. Yol yeməyi götürməmişdi. Çiynindən ağ sumka asılmışdı.

Anası ona məsləhət verirdi. Ac qalmasın, dərslərinə fikir versin, əmisinin evindən muğayat olsun, heç kimi evə gətirməsin, qapını heç kimə açmasın...



Sürücü yükü baqaja qoydu. Naibə anasını öpüb avtobusun salonuna qalxdı. Yeri birinci sırada, şüşəbəndin yanında idi.

Pərdəni çəkib anasına əl edəndə onu gördü. Üzünə təbəssüm qondu, ancaq onun gözlədiyinin əksinə olaraq yerə düşmədi.

– Sən neynəyirsən? – şagirdinin atası onu xəyaldan ayırdı.

– İndi bir şey fikirləşərik. – Qələmini çıxarıb qatı cırılmaqda olan gündəliyinin orta vərəqinə yazmağa başladı.

«Naibə, salam! Yolun uğurlu olsun. Bu axşam sənə zəng çalacağam, gözləyərsən. Sənsiz çox darıxıram».

Vərəqa dörd qatlayıb avtobusa qalxdı.

– Naibə, sənsən? – guya onu indi görürdü. – Necəsən?
– Sağ olun. Siz necəsiniz?
– Yaxşıyam. Bakıya gedirsən?
– Bəli.
– Səndən bir xahiş edim. Avtobusun qabağına mənim əmim qızı çıxacaq – Könül adında. Mütləq ona çatdırarsan. O, vərəqi götürüb, sumkasına qoydu.
– Baş üstə, müəllim, arxayın olun.
Yerə düşüb papiros yandırdı. Əvvəlcə istədi ki, avtobusun yola düşməsini gözləsin. Fikrindən vaz keçib qabaqda Əli kişinin çayxanasına tərəf addımladı.
Arxasınca Naibənin baxışlarını hiss etdi. Saat 1-ə Naibə Bakıya çatacaqdı. Hardasa saat 3-də ona zəng çalmaq lazım idi.
Əli kişi boş stəkanı və çayniki özü onun qabağına qoydu.
– Sabahın xeyir, müəllim.
– Sabahın xeyir, Əli dayı. Nə yaxşı uşaqlar yoxdu.
– Cavanlar yatıb qalıblar. Səhərlər mən gəlirəm. Sən xeyir ola səhər-səhər?
– Əmiqızına məktub göndərirdim.
– Göndərə bildinmi?
– Verdim, çatdıracaqlar. – Stəkana çay süzdü, içinə bir qənd atdı.
Fikirləşdi ki, Naibəyə haradan zəng etsin. Danışıqları uzun çəkəcəkdi və ola bilsin ki, başqa məcraya yönələcəkdi. Bu qədər müddətdə poçtdan danışmaq mümkün olmayacaqdı. Həm də poçtdan sifariş verib danışsaydı, ürəyincə söhbət edə bilməyəcəkdi. Deyiləsi gizli mətləblər çox idi.
O saat yadına yol idarəsinin gözətçisi Mətləb kişi düşdü. Onun qaldığı yerdən çox da uzaqda olmayan idarənin bağlı-bağatlı həyətində Mətləb kişi ilə çox dərdləşmiş, ona «Prima» almış, arada yüngülvari içki məclisi təşkil etmişdi. Bu bazar günü, özü də axşama yaxın idarədə heç kim olmazdı və o rahat danışa bilərdi.
Nəlbəkiyə əlli qəpik atıb durdu. Yuxusuz idi. Gedib yatacaqdı.

## III

Mətləb kişi idarənin girəcəyində, sol tərəfdəki otaqda köhnə divanda uzanmışdı. Çaynik plitkanın üstündə qaynayırdı və pəncərənin ağzına qoyulmuş köhnə radioda xoş mahnı ahəstə ilə otağa yayılırdı.

Siz ey ilk eşqimin
    şahidi dağlar,
Ətirli bağçalar,
    çiçəkli bağlar
Deyin hardadır, o üzü dönmüş,
Sevən ürəyim
    onu soraqlar.

Mətləb kişi bu mahnıya qulaq asmırdı, heç eyninə də almırdı, çünki onun nə düşündüyünü bir Allah bilirdi.

Kişi onu körən kimi üstündəki yapınçını qırağa atıb durdu.

– Xoş gəlmisən, ay müəllim! Sən hara, bura hara? Nə var, nə yox?

– Sağlığın, Mətləb dayı. Yaxşılıqdı. Belə mən gəlirəm. Sən heç ömründə mənim otağımın qapısını döyüb içəri keçməmisən, axı?

– Qocalıq bir köpəkoğlu şey deyilmiş. Hay-hayımız gedib, vay-vayımız qalıb. Yenə siz bizi axtarmalısınız. Ancaq onu da düz deyirsən, pis çıxmasın, sən bizim əzizimizsən, ancaq qəribsən, gərək imkan tapıb sənə baş çəkəydim. Hələ nə yaşımız var, onu da eləyərik.

– Sağlıq olsun.

– Subaylığın da daşını atmırsan ki, gəlinbala bizə bir ləzzətli yemək bişirsin, biz də dağdan, arandan söhbət edə, əlli-əlli vuraydıq. Bəyənmədin də bizim qızları. Ancaq, bacıoğlu, uduzarsan sonra. Bizim qızların təmizliyinə, namus-qeyrətinə söz ola bilməz. Bilmirəm sən necə fikirləşirsən, ancaq yəqini belədi. Bir çaynan aran necədi?

– Çaydan başlayaq?

– Əlbəttə.

– Nə deyirəm. Ancaq bir şüşə spirt gətirmişəm. Onu sən yaxşı qarışdırırsan. Pendir-çörək də götürmüşəm.

– O sumkanı görürsənmi? Qarı ağzına kimi doldurub.

– Allah canını sağ eləsin.

– Allah sənin də canını sağ eləsin. Qarısız bir günüm olmasın, müəllim, ayıbım çölə düşər. Oğul-qızın öz yeri var. Ancaq Allahdan arzum odur ki, məni qarısız, qarını da mənsiz eləməsin. Zalımın qızı, məni bu yaşımda qısqanır.

– Qısqanclıq sevgi əlamətidir.

– Nə bilim. Altmış ildi ki, ailə qurmuşuq, hələ bir dəfə sözümüz olmayıb. Heyf o günlərə. Bizim cavanlığımız ayrı cür olub.

– Mətləb dayı, bazar günü müdiriyyət işə gəlirmi?

– Gələndə gəlirlər. Ancaq bu gün heç biri görünməyib. Deyəsən, Bakıda iclasa gediblər.

– Dəmirovmu?

– Dəmirov da, müavini də. Nədi adı?

– Əli.

– Hə. Nə bilim, belə deyirlər. – Rahatca nəfəs aldı.

– Nə lazım idi ki? – Kişi dəm çaynikinə quru çay atdı.

– Heç.

– Məndən söz gizlədəcəksən?

– Heç nə.

– A kişi, sözünü de, nə lazımdı?

– Mətləb dayı, Bakıya zəng çalacam. hökmən vacibdi.

– Elə bu?

– Poçtdan danışmaq alınmayacaq. Ona görə dedim...

– Müəllim, mən dura-dura sən niyə başqa yerdən danışmalısan? Lap Dəmirovun otağından danış.

– Yox, o biri otaqlardan biri olsa, rahat danışaram.

– Mənim üçün fərqi yoxdu. Onda necə eləyək, çay içib qalxaq yuxarı, yoxsa sonra içərsən?

– Sonra içərəm.

– Nə deyirəm, sən necə istəyirsən, elə də olsun.

Dəm çaynikini pəncərəyə qoyub divardan asılmış açar

dəstini götürdü. İkinci mərtəbəyə qalxıb dayandı, sonra sola dönüb birinci qapını açdı.

– Qızların otağıdı. Səliqə-səhmanlıdı. Duxlarının iyi hələ də getməyib. Sən danış, mən aşağıdayam.

– Bəs otağın nömrəsi neçədir, Mətləb dayı?

– Telefonun üstünə yazıb qoyublar. Orda olmalıdı.

Başdakı stulda oturub dəstəyi götürdü. Mərkəzi poçtu yığdı. Beynində əzbər bildiyi nömrəni sifariş verdi. Otağın nömrəsini də dedi. «Gözləyin» cavabını alıb dəstəyi yerinə qoydu. Koridora çıxıb papiros yandırdı. Var-gəl eləməyə başladı. Necə danışmağı, nədən başlamağı çək-çevir etdi. Aşağıdakı Mətləb kişinin səsi gəldi.

– Zakaz verdinmi?

– Hə.

– Bir yarım saata, bir saata verəcəklər. Gəl bir çay içək.

Aşağı düşüb qapının ağzında dayandı.

– Qorxuram verərlər, səsini eşitmərik.

– Nə danışırsan, ay müəllim. Telefonun səsi gələndə bina yerindən oynayacaq.

– Onda Mətləb dayı, deyirəm çayı təxirə salaq. Adama bir çappa vuraq.

– Vuraq deyirsən, vuraq. – Çay stəkanlarını stolun üstünə qoydu – Elə stəkanda qarışdıracam. Təfavüt eləmir.

– Lap yaxşı.

Şüşədən stəkanların yarıdan çoxuna spirt tökdü. Kolbanın ağzındakı kağızı götürüb stəkanı ağzınacan doldurdu.

– Qaynamış sudu.

– İndi bu neçə qradus olar?

– Əlli iki. Normaldı. – Stolun üstünə çörək, yağ-şor, kartof soyutması qoydu. – Kələm turşusunu şkafdan gətir. Arağın dərmanı odur. – İçək canımızın sağlığına. Can sağlığı, rəhmətlik Səməd Vurğun demişkən, dünyanın ən gözəl nemətidi. Canımız sağ olsa, bu arağı da içə bilərik.

Stəkanlar bir-birinə dəyib cingildəyən kimi, ikisi də onu birbaşa başına çəkdi. Kələmdən bir çimdik ağızlarına qoyub nəfəslərini dərdilər.

– Yaxşı qatmısan.

– Spirt də əlasındandı. Naziminkindəndimi?

– Hə.

– Onun spirtinə söz ola bilməz. O biriləri sudan vururlar, ancaq o yox. Düzdü, uşaqların heç birinə söz olmaz, ancaq Nazim ayrı cür oğuldu.

– Hə, hələlik bəsdi sənə. Çıx otaqda ol, mən də uzanım. Gecə gözümü yummamışam. Nəvəm xəstəydi. Uşaq qızdırmadan yanırdı.

– Allah şəfa versin - deyib pillələri ağır-ağır çıxmağa başladı. Bu dəqiqələrdə onu Bakı ilə calaşdıracaqlar. O Naibəyə nə desin? Nədən söhbət açsın? Yadına düşəndə ki, yazdığı məktubda «Sənsiz çox darıxıram» yazmışdı, özlüyündə utandı, sonra bu sözləri on yerə yozdu, nəhayət qərara gəldi ki, lap düz yazıb. Elə indi də deyəcək ki, onsuz çox darıxır, Bakıya gəlmək, onunla görüşmək istəyir. Görək Naibə nə cavab verəcək? Bəlkə deyəcək ki, heç səninlə görüşüb eləmirəm, mənim öz istədiyim var. O da sağollaşıb dəstəyi yerə qoyacaq və hər şey sona çatacaq. Belə ola bilməz. Axı, qız özü ona təklif etdi ki, zəng çalsın. Telefon nömrəsi verdi. Dəyişib Naibə, tamam dəyişib. Kaş bu istəyi Naibə məktəbdə oxuyanda olaydı. Kaş Naibə əvvəllər də indiki kimi gözəl olaydı. Sən demə, Naibə elə məktəbdə oxuyanda da gözəl imiş, sadəcə onun gözəlliyini duymayıbmış. Başda səliqə ilə qoyulmuş stolda oturdu. Pəncərədən bomboz dağlara baxdı. Dağların başı buludlu idi. Sıx meşəlikdə deyilənə görə, ayı, qaban, canavar olurdu və ovçular buraya qaban ovuna gedirdilər. Ovçulardan biri onlar tərəfdə olurdu və tez-tez eşidirdi ki, Rasimdən qaban əti aldıq.

Maraqlı əhvalatlar danışırdı ovçular. Onlar ova gedəndə üç dəstəyə bölünürlər. Bir dəstə meşədə səs-küy salır, o biri dəstə ovu qabaqda dayanmış yoldaşlarına tərəf qovur. Vurulan qabanlar o saat ölmürlər. Tökülən qanın izi ilə axtarıb heyvanı tapır, soyur, yalnız ətini götürürlər. Ov günü ayıların kefidir. Bilirlər ki, qabanın lazımsız ətləri onlara qalacaq.

Qəfil telefon səsinə diksindi.

– Alo! Bakını sifariş etmisiniz?
– Bəli, bəli.
– Danışın.
Ürəyinin səsi beynində əks-səda verirdi.
– Alo.
– Bəli.
– 77-44-dür?
– Bəli.
– Naibəni olarmı?
– Eşidirəm. Müəllim, sizsiniz?
– Hə, necəsən?
– Yaxşıyam. Siz necəsiniz?
– Belə də. Birtəhər. Necə getdin?
– Yaxşı.
– Yorulmamısan?
– Qətiyyən.
– Məktubu çatdırdın?
– Bəli.
– Bağışla, Naibə, ağlıma birdən gəldi.
– Eybi yox.
– İncimədin?
– Niyə inciməliyəm ki?
– Dedim bəlkə...
– Yox, yox, nə danışırsınız? Avtobusda açıb baxdım. Dedim görüm kimə çataçaq. Mənim üçün maraqlıydı.
– Nə maraqlıydı?
– Görüm müəllimim kimə nə yazıb?
– Gördünmü?
– Bəli.
– Özgə şübhə yerin qalmadı ki?
– Yox.
– Sən tamam dəyişmisən, Naibə?
– Doğrudan?
– Əlbəttə.
– Yaxşılığa, yoxsa pisliyə?
– Ağlınca hansı olar?

– Nə bilim.
– Əlbəttə ki, yaxşılığa. O gün səninlə görüşəndə heç tanımadım. Mənim dərs dediyim Cərullayevadan əsər-əlamət qalmayıb. Şəhərin havası sənə düşür. Həm böyümüsən, həm də gözəlləşmisən.
– Siz hardan zəng çalırsınız? – Naibə onu sonrakı sözləri deməkdən yayındırdı.
– Yol idarəsindən.
– Doğrudan? Mən elə bilirdim poçtdan danışırsınız.
– Yox, Dəmirovun otağından zəng vururam.
– Otaqda heç kim yoxdu?
– Yox, təkəm. Nə olub ki?
– Elə-belə.
– Mən səni görəndən qəribə hisslər keçirirəm. Özüm də bilmirəm niyə. Yuxum ərşə çəkilib.
O güldü.
– Sən harda qalırsan, Naibə?
– Marksın heykəlinin yanında. «Gülnarə» kafesi var, onun yanında.
– Kirədə qalırsan?
– Yox, əmimgildə qalıram.
– İndi təksən?
– Hə, həmişə tək oluram. Əmimgil başqa rayonda olurlar.
– O necə olur?
– Əmimi rayona səhiyyə şöbəsinin müdiri göndəriblər. Ailəliklə orada qalırlar. Bakıya gələndən-gələnə evə baş çəkir.
– Bəs qorxmursan?
– Yox. Nədən qorxacağam?
– Sənin şəxsi həyatında dəyişiklik olmayıb ki?
– Başa düşmədim?
– Demək istəyirəm ki, sevdiyin adam varmı?
– Niyə yoxdu?
– Mən elə bilirdim sən hələ sevməzsən.
– Nəyə görə belə düşünürsünüz?
– Bilirəm də. Ona görə belə düşünürəm.
– Siz çox qəribə adamsınız, müəllim. İnciməyin, sadə, gö-

zəl, insan adamsınız. Ancaq çox sadəlövhsünüz. Ona görə hissləriniz sizi aldadır.

– Hisslərim məni nadir hallarda aldadır.

– İnanmıram.

– Nəyə?

– Belə hisslərinizə.

– Doğrudan? İstəyirsən bu saat sənin nə düşündüyünü deyim.

– Deyin.

– Əvvəla sən divanda uzanmısan. Telefon qara rəngdədir. Yanında üç kitab var. İkisi tibb, biri bədii kitabdır. Mənim məktubum bədii kitabın arasındadı.

– Hardan bilirsiniz?

– Yenə deyim?

– Hə. Sən çox darıxırsan. Təklik səni sıxır. Sənin dözümün yoxdu.

– Bunları düz demirsiniz. Mən darıxmıram.

– Adam düz danışar. Sən məndən də çox darıxırsan. Həyəcanlısan. Ürəyində bir söz var. Onu deyə bilmirsən, onu mənə demək səninçün çətindi.

– Nə sözdü elə?

– Düz desəm təsdiq edəcəksən?

– Hə

– Kişi kimi.

– Kişi kimi.

– Sən mənə demək istəyirsən ki, niyə mənimlə Bakıya gəlmədin.

– Düz tapmadınız.

– Ola bilməz. Axı, sən söz verdin ki, düz danışacaqsan?

– Düz sözümdü.

– Sənin ürəyindən o keçir ki, mən indi Bakıda – sənin yanında olaydım.

Naibənin gülüşü telefonu silkələdi.

– Niyə gülürsən? – dedi.

– Siz nə danışırsınız? Elə şey heç ağlıma gəlməyib. – Xətt kəsildi. Telefonçu qızın tez-tez danışıq səsi eşidildi.

– Siz hələ danışırsınız?
– Bəli.
– Xətti bu qədər zanit eləmək olmaz.
– Pulunu alacaqsınız. Sizə nə fərqi var?
– Tez eləyin. Yekunlaşdırın. Sifariş çoxdur.
– Yaxşı qurtarırıq.
Xəttin o başından Naibənin səsi gəldi:
– Qoymurlar danışmağa?
– Hə, indi kəsəçəklər. Bizim bir-birimizə sözümüz çoxdu. Eləmi? Əgər mənim dediklərim yalandısa, eybi yox, onda mən istəyirəm ki, bu dəqiqə yanında olam.
– Nə danışırsınız, müəllim.
– Olanı deyirəm.
– Bu mümkün deyil.
– Niyə?
– Siz rayonda, mən Bakıda.
– Bakı dünyanın o başı deyil ki.
– Hər halda uzaqdı.
– Məni gözlə. Bu dəqiqə gəlirəm Bakıya. Saat neçə olsa, zəng çalacam. Məni qarşılayarsan.
– Müəllim, sizə nə olub?
– Heç. Dəli olmuşam.
– Allah eləməsin. Düz sözünüzdü?
– Mənim yalan danışdığımı görmüsən?
– Deyə bilmərəm. Ancaq...
– Hələlik. Bakıda görüşənədək!
Naibənin nə dediyini gözləməyib dəstəyi asdı. Onu ancaq Bakıya çatmaq düşündürürdü. Evə gedib əynini dəyişəcək, dörd yola çıxacaqdı. Yol maşını ilə üç saatdan da az vaxta şəhərə çatacaqdı. Bəs səhərki dərsləri necə olsun? Beş saat dərsi vardı. İkinci gün boş vaxtı idi.
Telefon aramsız zəng çaldı.
– Alo! Danışdınız. On beş dəqiqə.
– Sağ olun. – deyib dəstəyi asdı. Fərman müəllimə hökmən deməli, ondan icazə almalı idi. Bəs nə bəhanə gətirsin? Direktorun evini yığdı. Fərman müəllim özü götürdü, indi Ba-

kıya çıxacağını bildirdi. Sağ olsun, Fərman müəllim etiraz etmədi, bir gün yola verməyi boynuna götürdü. Nəyə ehtiyacı olduğunu soruşdu.

– Sağ olun, Fərman müəllim, heç nəyə ehtiyacım yoxdu. Necə olsa, üçüncü günün dərslərinə çatacağam.

Mətləb kişi stolu qaydaya salıb onu gözləyirdi.

– Danışdın?

– Sağ ol. Mətləb dayı, danışdım. Məni üzürlü hesab elə.

– Otur, müəllim, tələsmə.

– Mən Bakıya getməliyəm.

– Nə olsun? Bakı budey, dağın o üzündə. Vacibdi? Bir şey olmayıb ki?

– Yox, ancaq getməliyəm. – Araq stəkanlarını doldurdu.

– Acqarına yol gedəmməzsən. Toqqanın altını bərkit, sonrası düzələcək. Bu stəkanları sənin sağlığına içirəm. Sən hər cür xoşbəxtliyə layiq yoldaşsan.

Mətləb kişi elə bil su içirdi. Stəkanı yerə qoyub yeməyə başladı. O da qocanın üsulunda stəkanı boşaltdı. Sifəti od tutub yanırdı...

– Yaxşı, Mətləb dayı, bütün yaxşılıqlarına görə var ol. Yolçu yolda gərək.

– Səbirli ol. Səbr Allahın adıdı...

## IV



Bu yollar ona çox tanış idi. Universitetdə oxuduğu beş ildə bu yollarla rayona, rayondan isə Bakıya getmişdi. Dağlar, daşlar, dərələr, çılpaq səhralar, saysız-hesabsız cığırlar onun yaddaşında iz salmışdı. Minlərlə fikir beynində dolanmış, xoş xatirələr ürəyindən ilğım kimi keçmişdi. İndi yol maşınında şəhərə yaxınlaşdıqca o hisslər bir lent kimi xəyalında əks olunurdu və ona elə gəlirdi ki, o xəyallar bu yol boyu ətrafa səpələnmişdi.

Yol onu Bakıya aparırdı.

Bakıya yaxınlaşdıqca o dəyişir, nə edəcəyini bilmirdi.

Fikirlər bir-birini qovurdu.

O, bu fikirlərdən canını qurtara bilmirdi.
Külək saat yarım öncə fikirləşdiklərini qoparıb aparmışdı.
Az qala qorxacaqdı.
Çünki Naibə Bakıdakı evlərdən birində tək-tənha idi.
Onun gəlişini bilir və gözləyirdi.
Bu səfər onun ürəyincə idimi?
Görəsən Naibəni sevirmi?..

## V

Qarşıdan böyük təpənin zirvəsi göründü. Çılpaq təpənin o biri üzündə üç ay hərbi təlimdə olmuşdu. 1981-ci il iyunun 1-də universiteti bitirib diplom aldıqdan sonra başlarını daz qırxdırıb sübh tezdən universitetin hərbi meydançasında toplaşdılar. Köhnə, sınıq-salxaq avtobus cırıldaya-cırıldaya onları əvvəlcə Bakıdan çıxardı, sonra Şamaxı yolu ilə «Qaraybat» yazısının altından çəkilən ox istiqamətində sola dönüb 7 km yol getdilər. Bura ilan mələyən düz idi, elə bil külək torpağı qaldırıb zorla gözlərinə soxacaqdı. Üst-başları əməldən çıxdı. İkiotaqlı binada (bura hərbi hissənin geyim otağı imiş) hərbi paltar, papaq, çəkmə alıb geyindilər, öz paltarlarını isə büküb yemək sumkalarına qoydular. Humanitar fakültələrin tələbələrinin əksəriyyəti şəhər uşaqları idi. Çoxu imkanlı ailələrdən olduğundan bu cür çətinliyə dözə bilmirdilər. Bir neçəsi uşaqları yoldan çıxarıb hissədən qırağa qaçmağa sövq etdi. Onlar hərbi and içməməyi, sonra zabitlərin onların başına oyun açacaqlarını dönə-dönə qeyd edirdilər.

O, yoldaşlarından ayrılmasa da, yüz faiz əmin idi ki, bunların hamısı boş şeydi, geç-tez onlar and da içəcəkdilər, hələ o yana da keçəcəkdilər. «Ana uşaqları» başa düşmürdülər ki, 3 aylıq kursu hökmən keçməlidirlər.

Sonra onlar özləri öz ayaqları ilə hərbi hissəyə gəldilər. Vzvodlara bölünüb boy sırası ilə düzüldülər, hərbi and içib düzəngahdakı çadırlara bölündülər.

Günlər çox adi keçirdi – sübh tezden uzun leytenent çadırı

açıb «trevoqa» verirdi. Onlar yerlərindən qalxıb iyli, qaralmış mələfəni ayaqlarına dolayıb çəkmənin içinə soxur, əl-üzlərini yumamış özlərini meydançaya çatdırırdılar. Əllərini qulaqlarının dibinə qoyub əsgəri addımlarla polkovnik Ametova «çest» verdikdən sonra ya silahlarla məşğul olur, ya da təpənin ətəyində taktika dərsi keçirdilər. On gündən bir yeməkxanada növbətçi olurdular. Boş vaxtlarında çadıra girir və yatırdılar.

Qaraybatın o ilan mələyən düzündə yaddaşında çox xatirələr qalmışdı. Bir dəfə tankçıya iyirmi manat verib 27 nəfər Triyestə pivə içməyə getmişdilər. «Ziko» adlı tələbə yoldaşları ilan öldürməkdə məşhur idi. Çadırların qırağına bir ağac basdırmışdı, öldürdüyü ilanları oradan asırdı. Araz gecə səhərəcən lətifə danışırdı. Özü də Araz bir lətifəni ikinci dəfə danışmazdı.

Bir gün onların çadırında qalan Çavanşir rayona getmişdi. Yeri boş qalmışdı. Səhərə yaxın İlham onu dümsüklədi.

– Çaqqala bax, Cavanşirin yerində yatır!

Yuxulu-yuxulu boş yerdə heyvanın adam kimi uzanıb yatdığını gördü. İlham qalxıb əlinə nəsə götürən kimi çaqqal aradan çıxdı, uzaqdan onlara baxdı. Onun gözləri parıldayırdı.

Təlim başa çatmaq üzrə idi. Rəhbərliyin tələbatı sən deyən ciddi deyildi. İsti avqust günü onları da birtəhər etmişdi. Axşama yaxın idi. Hərə öz çadırında istirahət edirdi. Birdən heç kimin ağlına gəlməyən hadisə oldu. Ağ rəngli «Jiquli» toz qopara-qopara onların yanındakı çadırın qabağında saxladı. Elxan idi. Onlarla bir qrupda oxuyurdu. Hansısa nazirin oğlu idi. Maşından bir qız düşdü və tez içəri keçdi. Qızı arxadan görsə də, dalağı sancdı. O bu qızı Gülgəzə oxşadırdı. Mayın 31-də universitetdən çıxanda bu paltarı geyinmişdi. Düzdü, həmişə olduğu kimi onu avtobus dayanacağına kimi ötürmüş, yenə də bir söz deyə bilməmişdi, ancaq ona gün kimi aydın idi ki, Gülgəz onu sevmir. Rəfiqəsinə açıqca demişdi ki, ondan xoşu gəlmir, onun tayı deyil...

İlham çadırların arasında dolaşıb qayıtdı.

– Elxan qız gətirib.

– Nə qız? – O həyəcanla soruşdu.

– Qız da. Qız bilmirsən?
– Görən kimdi?
– O kimyada oxuyan qız vardı ha, deyəsən odu.
Gülgəz idi, o kimya fakültəsini bu il qurtarmışdı. Ancaq ağlına belə gəlməzdi ki, o qız pis yolun yolçusu ola. Elxanla tanışlığının olmasını bilmirdi, çünki Gülgəzi üç ilə yaxın idi ki, tanıyırdı. Gülgəz onun fikirlərini alt-üst etmişdi – universitetdə sakit, ağıllı, başıaşağı bir qız idi.
İlham bir də kəşfiyyat aparıb qayıtdı. Çəkmələrini çıxarıb yerinə uzandı.
– Bizim qrupdan ötrü gətirib. İndi bizə də növbə çatacaq. Hazırlaşın.
Qıraqda uzanmış Kamil papirosa qüllab vurub soruşdu:
– Düz deyirsən?
– Ə, kefsən e, Kamil, dedim ki, Elxangil qurtarandan sonra növbə bizimdi.
– Elxangilin otağında üç nəfər var – Elxan, Xaliq, bir də Mirzə.
– Hə. – İlham təsdiqlədi. – Üç nəfərdən sonra bizik. Birinci mənəm.
Sonra – İlham onu göstərdi. Kamil yerində qurcalanıb İlhama:
– Mən istəmirəm. – dedi.
– Niyə, ə, Kamil? Qaraybatda, gül kimi şey əlinə düşə, atkaz eliyəsən.
– İstəmirəm, qardaş.
– Nədi, qorxursan?
– Qorxmuram ey, deyirəm birdən...
– Külü qoyum başına. Sənin tay-tuşlarının uşaqları məktəbə gedir. Sən hələ bir qıza əl də vurmamısan.
– İstəmirəm.
O düşünürdü. Gülgəzi yüz donda gözünün önünə gətirdi. Əgər çadıra getsəydi, qızın ağ bədənini görəcəkdi. O üç il bunu gözləməyin həsrətində olmuşdu. Ancaq... Birdən-birə bədəni ürpəşdi, tükləri biz-biz oldu, Gülgəzə nifrət etdi.
İlham arxası üstə yerinə uzandı.

– Sənin növbəndi.

Fikrində Gülgəzi tutsa da, ürəyində bu qızın bir başqası ola biləcəyi həvəsi ilə Elxangilin çadırına getdi. Onlar pivə içirdilər. Gülgəzin anadangəlmə lüt siluetini görəndə tutuldu. Qız başını dizlərinə söykəmişdi. Diqqətlə qızın ağ bədəninə baxdı.

– Nə durmusan, tez eləyin, bir azdan gedirik. – Elxan pivəni şüşədən başına çəkib stola qoydu. – Pivə içmək istəyirsənsə, altda yeşikdə var.

– Belə canı görəndə pivə yada düşməz – Xaliqin səsi idi. – Utanma, Elxanın şotuna kef edin. Belə gözəl heç «İnturist»də də yoxdu.

Qıza tərəf yaxınlaşıb onun gözünün içinə baxdı. Sonra tüpürcəyini var gücü ilə qızın üzünə atıb çadırdan çıxdı.

– Ə, bu dəli olub. Niyə belə eləyir?

– Ona belə lazımdı.

– Nədi, xoşun gəlmədi? Ay səni... Özün bilərsən. Bizlik nə var? Pulunu platit eləmişik, gətirmişik sizin hüzurunuza. Burda pis nə var? Kayfınızı çəkin də. – Elxan hiss olunurdu ki, lül-atəşdi. – Ə, sənin canın üçün müsəlmana yaxşılıq yoxdu. Sütül şeyi bəyənmirlər. Özü də havayı, ancaq qəstində qoca bir qarıya on manatı bəh-bəhnən verirlər.

Artıq ona hər şey bəlli olduğundan dillənmədi, həm də gördüyü vəziyyət onu elə tutmuşdu ki, heyi qalmamışdı. Tər sifətindən sel kimi axırdı.



– Necə oldu? – İlham heyrətlə ona baxdı.

– Əla. Necə olmalıdı?

– O saat bilinir ki, yaxşı işləmisən. Sel-suya dönmüsən. – Üzünü Kamilə tutdu. – Ə, dur, səni gözləyirlər.

– İlham, mazgimi xarab eləmə.

– Ə, əntiqə maldı. Sən öl, ömründə görmədiyin şeydi. Dur də!

– İstəmirəm, qardaş, kayfım çəkmir.

–Ə, qızı görsən dəli olacaqsan. Ölü dirildəndi. Elədi? – Ona tərəf döndü. Bir cavab almayıb davam elədi. – Sən öl, Kamil, getməsən bütün hamıya deyəcəm ki... Deməsəm köpəkoğluyam. Şahidlərim də var.

– Ə, İlham, mən ölüm, qəmişini çək, qoy yatım.
– Onda sözümüz sözdü...
Papiros yandırıb aşağıya – heç kimin görmədiyi düzənliyə düşdü. Gülgəzin lüt duruşu gözünün önündən çəkilmirdi.
Onun yerişi, baxışı, təbəssümü, danışığı nə qədər cazibəli və əlçatmaz idisə, Qaraybatın ilan mələşən düzündəki çadırında duruşu o qədər adi idi. Və bu adilik əvvəlcə ona nə qədər pis təsir etsə də, bir o qədər rahatlandırmışdı.

## VI

Bakıya çatanda səkkizə təzəcə işləyirdi. Maşın vağzala qədər gedirdi, ancaq mikrorayonda düşdü. Bilirdi ki, Naibə Karl Marksın heykəlinin yanlarında olur və buradan oraya marşrut çox işləyir. Yolu keçib on dörd mərtəbəli binanın yanındakı telefondan Naibənin əzbərdən bildiyi nömrəsini yığdı.
– Salam, axşamın xeyir, Naibə?
– Salam. Müəllim, sizsiniz?
– Hə.
– Hardan danışırsınız?
– Rayondan. Mərkəzi poçtdan.
– Yalan deyirsiniz? Nə yaxşı zəng çaldınız?
– Olmaz?
– Olar ey. İntəhası bayaq zəng etmişdiniz. Xeyli danışdıq.
– Axı, söhbətimiz yarımçıq qaldı.
– Sabah zəng edərdiniz.
– Naibə, indi biz harda, necə görüşək?
– Nə görüş, müəllim?
– Görüş də.
– Siz Bakıdasınız. Bilirəm ki, gəlibsiniz.
– Düz tapmısan. Səni görmək istəyirəm.
– Nəyə lazımdı ki?
– Naibə, çox lazımdı. Sənə vacib sözüm var.
– Telefonda deyin.
– Telefonda desəydim, bura niyə gəlirdim? Olarmı ki, mən sizə gəlim?

– Yox, nə danışırsınız?

– Gələndə nə olar ki?

– Yoox.

– Bəs necə edək?

Qız susdu.

– Onda on beş dəqiqədən sonra dayanacaqda səni gözləyəcəm.

– Mən düşə bilmərəm.

Hiss etdi ki, Naibə özü qəsdən belə eləyir.

– Düşərsən. Yaxşı, on beş dəqiqədən sonra görüşürük.

59 nömrəli avtobus boş idi, içində iki-üç nəfər oturmuşdu. Arxa qapıdan minib elə arxada oturdu. Beş dəqiqəyə dediyi yerə çatdı. Yolu keçib dayanacaqda papiros yandırdı. Arağın iyinin getdiyini yalan deyərdi, ancaq heç bir təsir hiss etmirdi. Üstünə, üz-gözünə odekalondan o qədər vurmuşdu ki, ətrini indi də hiss edirdi.

Buradan 123 nömrəli ekspres avtobus Dağüstü parka, 88 nömrəli avtobus isə Dəniz kənarı bulvara kedirdi. Onun fikrincə, Dağüstü park daha yaxşı idi, çünki ora nisbətən sakitlik idi və ürəyi istəyincə danışa bilərdi.

Naibə onun gözlədiyindən tez gəldi. Bu onu sevindirdi. Ürəyində əmin oldu ki, qızın ona münasibəti təsadüfi deyil. Deməli, Naibə onun yolunu gözləyirmiş. Zəngdən sonra geyinib hazır vəziyyətdə durubmuş. İndiki geyimi tamam başqa idi. Cins şalvar, kostyum geyinmişdi. Dikdaban ayaqqabısı onun boyunu uzun göstərirdi. Axşamın qaranlığında qızı mələyə oxşadırdı. Naibənin saçı da, yerişi və danışığı da ilahi idi. Özünü az qala qızın üstünə atacaqdı.



– Bu sənsən?

Naibə sükutu ilə ona «hə» cavabı verdi. Çaşmışdı, odur ki, nə deyəcəyini bilmirdi.

– Elə bildin gəlməyəcəm? – Naibə gülüb başını buladı. – Necə olursa olsun, gələcəkdim. Gec deyil?

– Nə ilə gəldin? – Əlini azad etmək istədisə, mümkün olmadı.

– Yol maşını ilə. «Kəpənəy»in yanına çıxdım, təzə yolla gəldik.

– Ora yaxşıdı. Avtobus adamın ürəyini çəkir. Bütün günü yol gəlirsən, bir saat Kürdəmirdə yeməyə əyləşirsən.

– Burda dayanmaq yaxşı deyil. Neynəyək?

– Siz bilirsiniz.

– Mən qonaq gəlmişəm. Ev sahibi sənsən. Deyir, qonaq mənim süpürgəmdi, hara istəsəm ora qoyaram.

– Qonaq yox.

– Nə fərqi var, ikisinə də demək olar.

– Fərqi çoxdur.

– Orası elədir. Gəlsənə, Dağüstü parka gedək? Söhbətimizi rahat davam etdirərik.

– Niyə məhz Dağüstü park? Elə burada da bizə mane olan yoxdur.

– Onda gedək sizə. – Bunu zarafatla dedi. Naibə də zarafatından qalmadı.

– Biz qonaq sevən deyilik. Qonağın üzündən çox izinə baxmağı xoşlayırıq.

– Bəs belə. Ora getmə, bura qoyma. Nə günahın yiyəsiyik?

– Heç bir günahın. Sadəcə obyekti düz seçə bilmirsiniz.

– Odey, 88 gəldi. Getdik dəniz kənarına. – Sarı avtobus yanlarında dayanıb fısıldadı. Qapıların üçü də şaqqıltı ilə taybatay açıldı. Qızın qolundan tutub salona çıxdı.

– Boş yer var, keç otur.

– İstəmirəm. – Arxaya keçdilər. Naibə divara söykənib rahat dayandı.

Üzbəüz idilər. İndi o Naibənin üzünü, gözünü, burnunu, dodaqlarını lap yaxından görür və hiss edirdi ki, onun üzündə utancaqlıq qarışıq bir sevinc də var.

– Heç uşaqlardan görürsənmi?

– Demək olar ki, yox. Sizin sevimli və savadlı şagirdiniz Rəsmiyyə Şamaxıda texnikumda oxuyur. Validə kəsilib. Volodarski fabrikində işləyir. Onun xalası orda işləyir. Xəyalə AMİ-də oxuyur. Bir dəfə avtobusda Nazimlə rastlaşdıq. Politexnikdədi.

– Şagirdlərimin hamısı mənim sevimlim olub. O cümlədən sən.

– Açığı, siz mənə qarşı çox laqeyd idiniz.

– Niyə belə düşünürsən?

– Mən nə düşünürəm, onu da deyirəm.

– Bilim ki, nəyə görə məni tənqid edirsən? Deyə bilərsənmi?

Baxışlarını yayındırıb uzaqlara baxdı.

– Həbibovanı çox istəyirdim? Səninlə otururdu.

– Əvvəlcə hə. O isə sizi ələ salmaq istəyirdi, sizin ona xoş münasibətinizdən partlayırdım.

Həbibova Kəmalə Naibə ilə bir sırada otururdu. Milis idarəsində müstəntiq işləyən Həbib Həbibovun qızı idi. Geyimi, ədası yoldaşlarından fərqlənirdi. Doğrusu, onun müstəntiq qızı olduğunu bilmirdi. Dərsi birinci saat idi. Hiss etdi ki, sıranın altında nəsə yazır. Kəmalədən soruşdu ki, növbəti dərsləri hansıdır. Riyaziyyat dərsi olacaqdı. Ona dedi ki, tarix dərsində riyaziyyat tapşırığı yazmaq olmaz. Ona məhəl qoymadı. Atasının bağışladığı qələmin ucunu açıb uzatmışdı, xəritədən istifadə edirdi. Kəmalənin yazmaqda davam etdiyini görüb qələmlə başından vurdu. Qız qələmi ortadan qıranda başında şimşəklər oynadı. Ona yaxınlaşıb ayağa qaldırdı. Sıradan iki dəftəri götürüb cırıq-cırıq elədi. Qız dodağının altından onu söyürdü. Sol əli ilə Kəmaləni necə vurdusa, əvvəlcə Naibə, onun üstündən isə özü döşəməyə sərildi.

– Onu vurmağımı unutmamısan ki?

– Yox.

– Onda qorxdun?

– Bilirdim ki, vuracaqsan. Ancaq elə vuracağını gözləmirdim. Durduğum yerdə işə düşdüm. Ancaq mənə ləzzət elədi. Çünki çox yuxarıdan gedirdi. Siz onu yerində oturtdunuz. Atasını eşitməyəndə isə lap pərt oldu.



Avtobus vağzalda dayandı.

– Burda düşək?

– Yox. «Azneft»ə qədər gedir. Sonuncu dayanacaqda düşərik.

Minib-düşənlərdən xəbərləri yox idi. Elə bilirdilər ki, ikisindən başqa heç kim yoxdu və onlar avtobusda yox, hardasa skamyada oturublar.

– Hamı elə bilirdi ki, siz Kəmaləni sevirsiniz. Hətta onu vuranda söz çıxartmışdılar ki, Kəmalə sizi bəyənməyib, ona görə acıq çıxırsınız.

– Yatsam yuxuma da girməzdi ki, onu sevərəm. Ümumiyyətlə, mən şagirdlərimdən kimisə sevməyi düşünməmişəm. Ola bilər ki, münasibətlərimdə nəsə səhv edim, ancaq bu o demək deyil.

– Siz yenə internatda qalırsınız?

– Hə. Nədi ki?

– Soruşuram. Mənə görə sizin orada şagirdlərlə bir qalmağınız yaxşı hal deyil.

– Bunu düz deyirsən. Səninlə tam şərikəm.

– Siz götür-qoy edib bir qərara gəlməlisiniz. Əgər rayonda qalacaqsınızsa, özünüzə ev şəraiti düzəltməlisiniz. Qalmayacaqsınızsa, kirayə ev tutmalısınız. Sizə internatda qalan uşaqlar kimi baxırlar.

Bunu heç düşünməmişdi və Naibə danışdıqca özünü birtəhər hiss etməyə başlayırdı.

– Kirayə qalmaq çox elə pul tələb eləmir.

Avtobus dairəni dönüb dayandı. Sürücü təkcə qabaq qapını açdı. Sən demə, avtobusda xeyli adam var imiş. Cibindən sarı manatlıq çıxartdı.

– Məndə postoyannıdı. Sizə bilet götürərəm. Xırda var.

– Siz şəhərli, biz kəndçi. Ancaq kommunizm nəzəriyyəsində bir şey var – kənd şəhərə kömək etməlidir.

– Ərzaqla. Pul şəhərdən kəndə göndərilməlidir.

– Elə şey yoxdur. – Fürsətdən istifadə edib onun qolundan tutdu.

– Müəllimin sənə qonaqlıq vermək istəyir. Özü də «Mirvari» restonanında.

– Siz acsınız?

– Hə.

– Mənim iştaham yoxdur.

– İştaha dişin altındadır.

– Mən restorana getmək istəmirəm. Sizə də məsləhət görmürəm. Gəzək, sonrasına baxarıq. Həm də mənim vaxtım azdı. Uzağı saat yarıma evdə olmalıyam.

– Evdə tək-tənha neyniyəcəksən? Bir də səni kimdi buraxan?

– Sabah dərsiniz var?

– Hə. Qohumum ağır xəstə olduğu üçün icazə almışam.

– Vaxtınız var. Bəs gecə harda qalacaqsınız?

– Başa düşmədim? Necə yəni harda qalacam? Əlbəttə ki, sizdə.

– Düz sözünüzdü?

– Tam ciddi deyirəm. Qalacağım yer yoxdu. Telefonda dedim gəlirəm sizə.

– Mən də dedim olmaz.

– Deməmdin.

– Dedim.

– Desəydin, gəlməzdim.

– Siz ha...

– Gələcəkdim. Qorxma, gecə sizin küçənizdə yatacam.

– Day küçədə niyə?

– Neynim, evə qoymursan.

– Özünü yaxşı aparsan, baxarıq.

– Mən elə özümü yaxşı apara-apara qalmışam bir qıraqda.

– Siz bizim rayonda qalmaq istəyirsinizmi?

– Üzümə yaxşı baxsalar, qalaram.

– Kim baxmalıdır?

– Rayonun rəhbərləri, bir də gözəl qız anası.

– Fərasətiniz olsa, hər şey olar.

– Mənim də fərasətim yoxdu.

– Mən belə deməzdim. Adamın özünün həvəsi olmalıdı. Sizin konkret həyat proqramınız yoxdur. Ona görə də pərakəndə vəziyyətdəsiniz. Fikrinizi cəmləşdirib özünüzə bir yol müəyyənləşdirməlisiniz.



– Mən sənə əla yazmaqda səhv etməmişəm. Elə bilirdim ki...

– Mənə qeyri-kafi düşürdü. Ancaq həyat kitablardakı kimi deyil, çox vaxt onun tam əksinədir. Mən bilirəm ki, sizdən gözəl alim çıxar. Siz bizə dərs deyən müəllimlərdən çox bacarıqlısınız. Tarixdən seminar müəllimimiz jurnalı yoxlamaqla dərsi başa vurur. Hələ bir kəlmə dərs izah etməyib. Bunun üçünsə rayondakılara qoşulub avara-avara gəzmək, içmək yox, hazırlaşmaq lazımdır. Demirəm ki, rayon pisdir, ancaq bizim rayonda sizə çətin olar.

– Mənim diplom işimi yüksək qiymətləndirib namizədlik kimi təsdiqləyiblər. Mən aspiranturaya elanı gözləyirəm.

Dənizin dalğalarına baxırdılar. Təkəmseyrək qağayılar suyun üstündə gəzir, uçub qaranlıqda gözdən itirdilər. – Biz Semaşko xəstəxanasında praktika keçirik. Əmimin tələbə yoldaşı orada kafedra müdiridi. Mən orda işləyəcəm.

– Rayonda işləmək istəmirsən?

– Yox. Əmim tapşırıb. Texnikumdan azad təyinat alacam.

– Azad təyinatı çətin verirlər. Ya gərək Bakıda qeydiyyatı olan oğlanla kəbinin olsun, ya da...

– Əmimin canı sağ olsun. Düzüb qoşacaq. Təkcə qeydiyyat çətindi. Əmimgilə propiska olacam.

Yol dönüb dənizin içərilərinə doğru yönəlirdi. Uzaqda restoranın işıqları yanırdı.

– Naibə, rayonda mənə bir söz demişdin. O doğrudurmu?

– Nə söz?

Tutuldu. Naibədən nəyi necə soruşacağını düşündü. Ona yaxınlaşıb əlini tutdu.

– Doğrudan sən kimisə sevirsən?

– Doğrudan, burda qəribə nə var ki?

– Heç nə. Sadəcə bilmək istəyirəm ki, o kimdir?

– Siz onu tanımırsınız.

– Sizin rayondandır?

– Yox.

– Oxuyur, yoxsa işləyir?

– İşləyir.

– Şəhərdə evi var?

– Yoxdu, ancaq yaxınlarda alacaq.

– Yəqin hansısa şişkanın oğludur?

– Yox. Açığı valideynlərini soruşmamışam.

– Nə vaxt toy edəcəksiniz?

– Hələ bilmirəm. Ancaq yəqin ki, yaxınlarda.

Daha heç nə soruşmadı.

– Gedək «Sadko»ya.

– Orda nə var?

– Mən araq içərəm, sən də nə istəsən yeyərsən.

– Mən ac deyiləm. Sizə isə içmək olmaz. Onsuz da araq iyi gəlir.

– İçmək istəyirəm.

– İçəndə nə olur ki?

– Adam yüngülləşir.

– Boş sözdü, əksinə apar orqanizmi zəiflədir.

– Zəiflətsə də, adamda dərdi-qəmi unutdurur, gözəl xatirələr oyadır.

– Araq içməyəndə olmaz?

– Yox, başqa cür olur.

– Məncə içmək zəiflik əlamətidir.

– Bəlkə də.

– Mənə sözün vardı? – Qız ona qıyqacı baxdı.

– Daha yoxdu, soruşdum, cavab da aldım.

– Ola bilər. Onda gecdi, qayıdaq.

Naibə ayağa qalxmaq istədi. Birdən özündə qəribə bir güc hiss elədi. Qızın qolundan tutub özünə sarı çəkdi. Bunu gözləməyən qız onun üstünə yıxıldı. Kəsik saçları üzünü daladı. Üzü üzünə söykəndi.

– Hara gedirsən? Heç səni buraxarammı? Göydə axtarırdım, yerdə əlimə keçmisən. Gözünü kənara çəkmə, qulaq as, Naibə, mən səni dəli kimi sevirəm. Eşidirsənmi, mən səni sevirəm!

Qız gözlərini döyürdü.

– Burax məni, görürlər. – Naibə qətiyyətlə danışırdı.

– Kim görür, görsün. Mənim vecimə deyil. Səni də heç yana buraxan deyiləm. Eşitdin, nə dedim!?

Sükut.

– Səndən soruşuram, Naibə, eşitdin dediyimi?

– Hə. Nə olsun ki.

– O olsun ki, mən səni sevirəm. Səni heç kimə vermərəm. Bax, bu əllər, gözlər, baxışlar – hamısı mənimdi. Onu heç kim məndən ala bilməz. Sən buna inan.

– Yaxşı, burax məni, ayıbdı.

– Buraxmıram. Yaxın otur. O gündən nə gecəm var, nə gündüzüm. İsti nəfəsin, şirin sözlərinçün qəribsəmişəm.

– İnanmıram.

– Nəyə inanmırsan?

– Mən sizi heç vaxt maraqlandırmamışam. Mənə qarşı laqeyd və soyuq olmusunuz.

– Düz danışmırsan.
– Niyə ki. Sizi başqası maraqlandırırdı.
– Naibə, qulaq as, sən uşaq deyilsən, bayaqdan mən sənin danışıqlarına, ağlına heyran olmuşam. Elə bil birdən-birə dəyişdin, tamam başqa adam oldun. Sən dediklərini mən gözəl anlayıram. Ancaq mən şagirdlərimə başqa niyyətlə yanaşmamışam. Nə Həbibovaya, nə Vüsaləyə, nə də sənə qarşı məhəbbətim olmayıb. Çünki aramızda bir sədd vardı. O söz-söhbətlər şayiədən başqa bir şey deyildi. Bəlkə sənin ürəyində mənə qarşı sevgi olub. Olubsa, mən hiss etməmişəm. Hiss etsəm belə, mən başqa addım ata bilməzdim. Sən məni başa düşürsənmi?
– Deyirsiniz ki, mənə qarşı məhəbbətiniz olmayıb. İndi isə sevgidən danışırsınız.
– Bəli. Hər anın bir hökmü var. O gün təsadüfən məktəbdə görünməsəydin, bəlkə bu gün burada oturmazdıq. Bir baxışınla mənim həyatımı dəyişdin. İndi mən sinifdə müəllim, sənsə şagird deyilsən.
– Deməli, mən sizi maraqlandırmamışam.
– Niyə maraqlandırmamısan?
Naibə səssiz dayanmışdı. Nə düşündüyünü özündən başqa kimsə bilməzdi. O bunu duydu, qısa fasilədən sonra üzünü qıza tutub asta səslə sözə başladı. Söz içindən güclə çıxırdı.
– Qrupunuzda neçə tələbə var?
– İyirmi dörd. Hamısı da qızlardı.
– Nübar üçün bir oğlan yoxdur?
– O biri fakültələrdə var. Mühazirələrdə bir oluruq.
– Sənin sevdiyin oğlan onların arasındadı?
Güldü və başını buladı.
– Qohumundu?
– Yox.
– Onda hansısa rayondandı?
– Düz tapdın.
– Özü də universitetdə oxuyur.
– Yox– dedi. – Dur evə gedək. Daha gecdir.
– Evdə nə var? Açar səndə, gecə saat 1-də getsək də, kimsə bilməyəcək. Hələ yaxşıdı ki, tez gedib, gözə görünmürük. Məni görüb xəbərləyərlər.

– Sənin orada nə işin var?
– Necə yəni? Bəs mən bu gecə harda qalacam?
– Nə bilim?
– Deyirsən küçədə qalıb sizin pəncərəyə baxım?
– Yoox.
– Bəs harda qalım?
– Nə bilim. Bir yer taparsınız. Heç qohumunuz yoxdu burda?
– Mənim bu şəhərdə səndən başqa bir kimsəm yoxdu. Sən də qovursansa, vay mənim halıma. Qovursan?
Gülümsədi.
– Qovursan?
– Nə bilim.
– Nə bilimi qoy bir kənara. Hə, ya yox?
– Yox.
Başını qızın sinəsinə qoydu. Nəfəsini içində saxladı.
– Neynirsiz?
Səs vermədi.
– Neynirsiz? Düz durun. Başınızı götürün. Odey, adamlar keçir. Bizi görürlər.
Yenə səs çıxmadı.
– Müəllim, ay müəllim, durun! – Səs gəlmədiyini görüb başını qaldırdı və silkələdi. – Noldu sizə, müəllim, özünüzə gəlin. – Ayağa qalxıb nəbzini yoxladı.
– Zarafat etməyin, qorxdum.
– Zarafat etmirəm.
– Yaxşı görək. Bir bax, ürəyim necə çırpınır?
Əlini onun döşünün altından qoyub dinlədi. Doğrudan da, ürəyi sürətlə vururdu.
– Sənin ürəyin sürətini artırmışdı, mənimki isə dayanmışdı.
– Siz heç indiyədək sevməmisiniz?
Tutuldu.
– Ancaq yalan danışmayın.
– Mənim yalanımı tutmusan? Nə gizlətməliyəm. İyirmi beş yaşım var. İndiyədən cəmi bir dəfə sevmişəm. O da, necə deyərlər, uzaqdan-uzağa. O sevgi də uğursuz olub. Əgər təfsilatı ilə danışsam, görərsən ki, bu heç sevgi deyil və mənə gülərsən.

– Oturmaqdan yoruldum. Dur gəzək. həm də dayanacağa yaxınlaşaq.

Naibə sumkasını çiyninə atıb sahmanladı. O, qızın qolundan tutdu.

– Olar ki, qolumu buraxasınız?

– Qətiyyən.

– Özümü narahat hiss edirəm, axı.

– Heç bir narahatçılığa əsas yoxdu. Öyrəşmək lazımdı.

– Onda qoy mən sizin qolunuza girim.

– Bu başqa məsələ.

Özündə bir məğrurluq hiss edirdi. Həmişə gördüyü dəniz də, ləpələrin mahnısı da ona qəribə, başlıcası şirin gəlirdi, Neçə illər fikrindəki boşluqdan əsər-əlamət qalmamışdı. Keçirdiyi tənhalığın ağır yükü çiynindən götürülmüşdü. O dünyanın ən zəngin və xoşbəxt adamı idi.

Naibənin qoluna keçən əli quş kimi yüngülləşdirmişdi.

–Bilirsən xoşbəxtlik nədir?

Qız danışmaq istəmirdi.

–Bilirsən?

–Nə bilim.

–Bilmirsən?

–Xoşbəxtlik uzun illər boyu çəkdiyin həsrətin vüsalına qovuşmaqdır.

–Bunu hardan öyrənmisən?

–Həyatdan.

Əlini onun boynuna dolayıb sinəsinə sıxmaq istədi.

–Yaxşı, lazım deyil.

–Bilirsən, Naibə, sən danışdıqca, mənə elə gəlir ki, hansısa bir alimlə söhbət edirəm. Axı, sən danışmağı heç xoşlamazdın.

–Həyat hamını bir-bir sınaqdan keçirir. Tutaq ki, həndəsədən ya fizikadan məsələni həll etməyi bacarmırsan, ya kimyadan hansısa reaksiyanı yerinə yetirə bilmirsən. bu o demək deyil ki, sən heç nə bilmirsən. Əsas odur ki, həyatda mövqe tutmağı bacarasan, öz yerini tutasan. Bunun üçünsə cəsarət, iradə, yeri gəlsə siyasət lazımdır. Əlinə düşən imkandan istifadə etməyi bacarmalısan. İmkan adama hər vaxt verilmir...

## VII

Dayanacağa çatdılar. 88 nömrəli sarı "İkarus"un qapıları açıq idi. İçəridə az adam var idi. Keçib oturdular.

İki dayanacaqdan sonra avtobus ağzına kimi doldu. Yanında qadınlar, uşaqlar dayanmışdı. Naibə başı ilə onlara yer verməyi işarə etdi. Başı qarışdığından ətrafı görmürdü. Həm də qızın yanını tərk etmək istəmirdi. Əlacsız qalıb narazı halda yerini boşaltdı. Kök bir qadın özünü boş yerə yıxdı, qızını yanına çəkdi.

Qıraqdan Naibəyə baxdı. Gözəl idi, çox gözəl. Saçları, alnı, burnu, yanaqları gözləri... Baxışları pəncərədən qırağa yönəlmişdi. Onun pəncərəyə düşən əksinə baxdı. Baxışlar üst-üstə düşdü. Sonra allanıb kənara çıxdı.

Naibə ağır addımlayırdı. O bunu görürdü. Doğrusu, özü də çətin vəziyyətdə qalmışdı. Bir ayağı gedir, biri getmirdi. Evə yaxınlaşdıqca həyəcan keçirir, fikrindən dönmək istəyirdi. Ona elə gəlirdi ki, həyatında baş verəcək dəyişiklik evə çatan kimi sona çatacaq. Qəlbində birdən-birə oyanan, az vaxtda yaşantısını keçirtdiyi xoş anların ömrünü uzatmaq istəyirdi.

– Bəlkə bir az da gəzək. – Naibə evə getmək istəmirdi.

– Harda?

– Qarşıda institutun bağı var. Bu yanda isə Cıdır meydanı. Sən haranı istəyirsən?

– Fərqi yoxdur.

– Onda Cıdıra gedək. – Dayanacaqdan sağa burulub binaların arası ilə irəlilədilər.

– Sən xoşbəxtlik quşu haqqında əfsanəni bilirsən?

– Yox.

– Tutqun görünürsən, Naibə?

– Sizə elə gəlir. Əksinə. – Qolundan tutmaq istədi.

– Siz allah, müəllim, qonşular görər, utanıram.

– Bilirdim ki, qonaqsevən deyilsən. Zarafat edirdim, qorxma, evə getməyəcəm.

– Düz fikirləşmirsiniz? Əfsanə necə oldu?

– Deyir hər bir insanın bir xoşbəxtlik quşu var. O insandan çox-çox uzaqlarda əlçatmaz zirvədə olur. Tək bircə dəfə o elə bir nöqtəyə enir ki, əlini uzadıb tuta bilirsən. tutdunsa, o xoşbəxtlik

nəsibin olur, tutmadınsa ömürlük məhrum olursan o xoşbəxtlikdən. İndi, Naibə, o səadət quşu mənim əlimdədir. Mən onu heç zaman buraxmayacam. O xoşbəxtlik səninlə bağlıdır. Mən istəyirəm ki, bu andan ömür yollarında qoşa addımlayaq, sevincimiz bir olsun, bir deyək, bir gülək. ömür yolu daşlı-kəsəklidir. O daşlı-kəsəkli yollarda sənin köməyinə ehtiyac duyuram. İnanıram ki, mənim ürəkdən gələn bu arzumun səmimiliyinə və qətiliyinə inanacaq, ona müsbət cavab verəcəksən.

– Siz çox içirsiniz? – Bu sualın heç yeri deyildi və gözləmirdi.

Yadına rayondakı yoldaşları, içki məclisləri, otaqdakı dolu və boş araq balonları düşdü.

– Nədir ki?

– Elə-belə soruşuram. Sadəcə maraqlıdır.

– Mən yalan deyəsi deyiləm ki. Ancaq azını-çoxunu bilmirəm. Sərxoş olduğum nadir hallar olub. İki il sənə dərs demişəm, heç məni sərxoş görmüsən?

– Fikir verməmişəm. Mən o binada üçüncü mərtəbədə oluram. – Qarşıdakı beşmərtəbəli binanı göstərdi.

– O işığı yanan evdi?

– Hə.

– İşığı özün yana-yana qoymusan?

– Hə. Elə bilsinlər ki, evdə adam var.

– Əslində isə biz onun kənarında gəzirik. Söhbətdən uzaq düşdük. Qabağa gedək. Sən nə deyirsən?

– Mənim xasiyyətim ağırdır.

– Sənin? – Heyrətlə qıza baxdı. – Nə olar, elə mən də o cür adamları sevirəm.

– Dəhşətli dərəcədə qısqancam.

– Qısqanclıq adamda ən gözəl şeydir. Qısqanclıq varsa, məhəbbət də var.

– Təmizliyi çox sevirəm.

– Bundan gözəl dünyada nə var? – Üst-başına baxıb utansa da, özünü o yerə qoymadı.

– Araq iyindən allergiya oluram.

– Araqdan hələ kiminsə bir şey qazandığını görməmişəm. O heç kimə şərəf gətirməyib.

–Prinsipialam.

–Gözəl, çox gözəl. Bu hər adamda olmur.

–Son moda ilə geyinirəm. Bahaı paltarları almaq xobbimdi.

–Gözəllik ondur, doquzu dondur. İnsanı geyiminə görə qarşılayır, ağlına görə yola salırlar.

–Mən şəhərdə yaşamaq istəyirəm.

–Əgər ürəklər üst-üstə düşərsə, mağarda da yaşamaq xoş olar. Özgə nədir sənin istədiyin?

–Mənə hər şey qəribə gəlir. Elə bilirəm ki, orta məktəbdə oxuyuram, siz də mənə dərs deyirsiniz.

–Hər şey dəyişir, ona alışandan sonra çətinlik olmur.

Mənə bir kəlmə söz de, çıxım gedim.

Naibə dayandı və susdu.

–Nə fikirləşirsən?

–Heç.

–De, o kəlməni de.

–Mən sizi müəllimim, ən gözəl müəllimim kimi sevirəm. Başqa cür alınmır.

–Neynək, müəllim kimi sev.

Ətrafda ağacların kölgəsindən başqa heç nə görünmürdü. Arabir əsən külək yarpaqları xışıldayırdı. Yaxında at kişnərtisi eşidildi.

–Bu səs hardan gəlir?

–Tövlələrdən. – Naibə tövləni göstərdi. – Atları burada saxlayırlar. Mən hər gün bu səsi eşidirəm.

–At muradı. Demək, istəyinə çatacaqsan.

Üz-üzə dayandılar.

Naibə utanırdı.

Utancaq baxışları yerə zillənmişdi.

Əllərini əllərinə aldı.

Sonra saçını əlləri ilə daradı.

Başını sinəsinə sıxdı.

Qız susur, dillənmirdi…

*1984,*
*İsmayıllı-Bakı-İsmayıllı*

# OYUNCAQSIZ UŞAQLIQ

***Neçə illər beynimdə gəzdirdiyim, şeir tək əzbər bildiyim bir yazını vərəqlərə köçürmək istəyirəm. Hər dəfə özümdə cəsarət tapıb yazı masasının arxasına keçir, ancaq qələmi əlimə ala bilmirəm.***

***Ilk cümləni nədən başlayım?...***

***O ilk cümləni tapsaydım, nə dərdim olardı!***

***Bir işi başlamaq çətindi...***

***Elə qurtarmaq da...***

## DURNA DƏSİ KİMİ QIRIŞLAR

Alnımın qırışları getdikcə böyüyür və uzanır. Bu qırışların nə vaxt, necə əmələ gəldiyini bilməmişəm. Təsadüfən güzgüdə görmüşəm. O an bu qırışların durna qatarına oxşadiğini hiss etmişəm.

Durna qatarı uşaqlıq xatirələrimdən yadigar qalıb.Üzü qışa doğru havalar sərinləşəndə durna dəstəsi nəğmə oxuya-oxuya (bəlkə də bu səs nəğmə deyil, həyəcan siqnalı idi, ancaq, mən onu ən şirin nəğmə kimi qəbul edirdim) şimaldan cənuba doğru uçurdu. Başçı qabaqda, qalanları isə sağ-sol istiqamətində - düz xətt boyunca, qövsvari düzülürdü. Az vaxtdan sonra səs əlçatmaz maviliklər boyu xırdalanır, qarşı dağın arxasında görünməz olurdu.

Ağsaqqallar durna dəstəsindən maraqlı əhvatlar danışardılar. Dəstənin önündə gedən yorulanda yerini başqasına verərmiş. Durnalar mavi səmada yuxlayar, dinclərini alarlarmış. Eləsi olur ki, xəstələnir, ya nədənsə yolu sonacan gedə bilmir..Onda o durna dəstədən ayrılıb yerə düşərmiş. Neçə dəfə camaat qərib durnaya rast gəlib. Qəribədir, durnaya heç kəs güllə atmazmış.

Sonrakı illər mənim gözüm göy üzündə olardı. Düzdü, onların qayıtmağını ömrümdə görməmişəm, ancaq, hər payız mən durna dəstəsini cənub yolunda müşaiyət eləmişəm.

Ağsaqqalar bizə nəsihət kimi tapşırırdılar ki, nəbadə, durna dəsi gedəndə daş çevirəsiniz. Əgər çevirsəniz, pərən-pərən düşəcək.

Durna dəsi keçəndə fikirli olurdum, danışmırdım, susub gözümü göylərə zilləyirdim.Bu qəm-kədər nədən doğurdu bilmirdim.Alnımın qırışlarını durna dəstəsinə niyə oxşatmışam – onu da bilmirəm.

## OYUNCAQSIZ UŞAQLIQ

***İsa İsmayılzadənin xatirəsinə***

Onda mənim on yaşım vardı, ömrümdə ilk dəfə babamla şəhərə-dayımgilə gəlmişdim. Evlərinin yanında uşaq oyuncaqları mağazası vardı. Hər gün neçə dəfə bu mağazaya girir, cürbəcür oyuncaqlara heyranlıqla baxırdım. İndi o oyuncaqların nə olduğu

yadımda qalmayıb. Satıcı qızın başının üstündən görünən tankı unuda bilmirəm. Mənə elə gəlirdi ki, o tank doğruçu tankdı, əlimə alsam, hərəkət edəcək, faşistlərin üstünə hücuma keçəcək. Ancaq "10 manat" yazılmış qiymət əlimi yerdən üzürdü. Bu qiymətin ağırlığı oyuncağın sahibi olmaq qədər çətin və ağlasığmaz idi.

Mən kəndə gələnə qədər hər gün o oyuncağa baxmaqdan doymadım.

Mənim oyuncağım olmayıb. Bu o demək deyildi ki, ata-anam kasıb idilər, ya mənə nəyisə almaqda xəsislik ediblər. Yox! Sadəcə o dövrün uşaqlarının – mənim yaşıdlarımın oyuncaq oynatmağa vaxtı olmayıb.

Torpağı əkmişik, ağacları belləmişik, mal-qara saxlamışıq. O arada vaxt tapanda ağaclardan oyuncaqlar düzəltmişik. Yaşıl düzənlərdə futbol meydançası yaratmışıq - daşlardan qapılar qoymuşuq. Topumuz yox idi. Qadınların uzunboğaz corablarını kəsib içinə kağız doldurub, ağızlarını da iplə bərkitmişik. Bizim topumuz bu idi. Biz o "top"la voleybol da oynayırdıq. Tor, məftil, yaxud ip olardı.

...Atam şəhərdən qayıdanda mənə rezin top aldı. Təkcə bizim yox, qonşu kəndlərdə də bayram idi. Üç kəndin uşaqları bu topla oynamağa başladı. Kağız top hara, bu hara! Biz özümüzü məşhur futbolçulara bənzədirdik. Ta o vaxta kimi ki, top kolluğa düşüb deşildi.

Mənim oyuncaqlarım olmayıb. Mənim yaşıdlarımın da.

Mənim uşaqlığım olmayıb. Mənim yaşıdlarımın da.

Mən və yaşıdlarım anadan kişi doğulmuşuq...



## VERGİ BALLADASI

Açığı, əvvəllər vergi haqqında düşünmürdüm. Tarixdən bilirdim ki, vergilər dövlətin iqtisadi inkişafında əhəmiyyətli rol oynayır. Maraq üçün deyim ki, Gəncə xanı böyük şair Nizamiyə bağışlanan üç kəndi vergidən azad edibmiş.

Onu da danışırlar ki, keçmişdə şah vergi yığanları bir kəndə göndərir.Üstündən üç gün keçmiş vergi işçiləri şahın əmri ilə bir

də o kəndə vergi yığmağa gəlirlər. Bir həftədən sonra yenə də...

Kənddən qayıdanlar əliboş gəlirlər. Şah soruşur ki, orda camaatın əhvalı necədi? Deyirlər ki, kənd camaatı eləcə gülür.

- Hə, daha orda heç nə qalmayıb-deyir şah.

Vergi lazım, vacib şeydi. Təkrar kimi olmasın, dövlətin gücü yığılan vergidən asılıdır. Heç kim vergidən yayına bilməz. Əgər hüquqi, ya fiziki şəxs hansısa bir iş görürsə, onun müəyyən edilmiş faizini dövlətə ödəməlidir. Xarici ölkələrdə vergidən yayınan, müəyyən məbləği gizlədən dövlət başçıları, tanınmış insanlar vergi ödənişindəki xırda qüsurlara görə qanun qarşısında diz çöküblər.

Vergi varsa, vergi yığanlar hökmən olmalıdır. Bu absurddu və mən vergiyığanla qonşu olandan sonra çox mətləbləri anlamağa başladım. Qeybət eləmirəm, söhbət eləyirəm. O məni yaxşı tanıyır, mən də onu. Bizdən aşağıdakı mərtəbədə yaşayır, köhnə, təkərlərinin üstü çürümüş, həmişə çirkli "Jiquli" ilə xaltura edirdi. Burda pis nə var ki? Pis o idi ki, səliqəsiz adam idi, təmizkarlıqla işi yox idi. Nəsə, bunun bacanağı vergidə rəis olur, bu taksi sürücüsünü əvvəlcə sürücü kimə işə götürür, sonra addadır vergi yığmağa. Qonşum birdən-birə necə dəyişdi?

Mən dilçi deyiləm, ancaq, özlüyümdə aşkar etdim ki, vergi sözü "ver ki" sözündən götürülüb. Mən bu ixtiramla lap akademik dilçi ilə də mübahisə edərəm. Nəinki mübahisə edərəm, hətta qalib də gələrəm.

"- Ver ki, dövlət güclənsin!"

"- Ver ki, canın qurtarsın!"

Bu cümlələrdəki "ver ki" sözünü vergi ilə əvəz etsək, cüzi dəyişiklik olacaq.

"- Vergi dövləti gücləndirir!"

Vergi verilir. Dövlətə verilir. Bunu başa düşdük.

Vergi vergiyığanların şəxsi ciblərinə verilmir ki? Elə isə nəyə görə vergiyığan ( keçmiş taksi sürücüsü ) bir ilin içində varlıhallı adam olur?

Mən aylıq maaşa qulluq edən, maaşımdan vergi verən insan kimi bunu düşünür və cavab tapa bilmirəm.

"- Ə, filan maşın gələcək, ona iki yüz kisə sement yığdır".

"- Gedərsən filankəsin yanına, mənim adımı verib iyirmi kub taxta yığarsan, yaxşısından".

"- Daşın hamısını şirkət göndərəcək."

Vergiyığan qonşumun amiranə danışıqları binanı silkələməklə yanaşı, sakinləri də narahat edirdi. Onlardan fərqli olaraq mən heç narahat olub eləmirdim. İndi bizim məhəllədən köçüb gedən qonşumu xoruza bənzətməyə başladım.

-Quqquluqu!

Keçmiş taksi sürücüsünü, indiki vergi məmuruna xoruza bənzətmək hardan ağlıma düşdü?

Adamdan soruşarlar: Vergi hara, xoruz hara?

## İŞIQPULU

Bir-birinndən əzəmətli və göz oxşayan bağ evləri yan-yana düzülüb. Hündür hasarların üstü, içi-çölü iri lampalarla doludu. Saymaqla qurtarmaz. Hələ yol boyu düzülən qəndilləri demirsən. Axşam oldumu, işıqların hamısı ətrafı gündüz kimi aydınlaşdırır.

Cavan oğlan əlindəki dəftərə baxıb villalardan birinin qapısındakı düyməni basıb gözləyir. Handan-hana içəridən cavab gəlir.

- Kimdi?

- İşıq idarəsindəndir. İşıq pulları üçün gəlmişəm.

- Nə pul, ə?

- Düz bir ilə yaxındı işığı işlədib pulunu ödəmirsiniz.

- Nə qədər ki?

- İki min manat.

- Gözlə-içəridəki kimsə harasa zəng edir, məlumat verməklə səsi batır. Deməli, o bağdakı adama qulaq asır, bir azdan sonra "oldu, oldu" deyib qapıya yaxınlaşır.

- Sən bilirsən kimin qapısını döyürsən?

- Bura filan nazirindi.

- Bəs yaxşı, sən ki, bunu bilirsən, bəs niyə döyürsən?

- Mən özüm üçün pul yığmıram ha? İşığı işlətmisiniz, dövlətin pulunu verin. Başqa nə istəyirəm?

-Dövləti yeyib dağıdırsınız, sonra gəlib qapı döyürsünüz. Bir

də qapını döysəniz, pis olacaq. Eşitdin?

Oğlan kitabını qatlayıb o biri qapıları döyür. Elə bil sözü bir yerə qoyublar. Hamısı eyni sözləri deyir.

Köhnə evin qapısını açıb içəri keçir. Yaşlı qadın onu içəri dəvət edir.

- Kimsən, a bala?
- İşıq idarəsindən. İşıq pulları üçün gəlmişəm.
- Xoş gəlmisən. Keçən dəfə verdim. Borcum qalıb?
- Qalıb.
- Nə qədər?
- İki manat.

Qoca qadın əlini qoynuna salıb dəsmal çıxardır, onun içindən iki əzik manatlığı ona uzadırdı.

-Hazır çayım var. Gəl bir stəkan iç...

## İKİMİZİN... VƏ HAMIMIZIN KİTABI SONA ÇƏRKƏZ: O BAHAR İYDƏLƏR DƏRD ÇİÇƏKLƏDİ...

...Sona Çərkəzi görəndə universiteti bitirib rayona təyinat almışdım. Onda o bizim üçün sadəcə Sona müəllimə idi: gözləri təbəssümlə dolu, xanım-xatun yerişli, zahirən qayğısız, hamının hörmət və məhəbbət bəslədiyi müəllimə, insan... Onda uzaq 1981-ci ilin may ayının sonları idi...

...Sona Çərkəzlə "Azərbaycan" nəşriyyatında görüşdük. Gözlərində bir baharın qapqara buludları varıydı, bu qaralıq onun çöhrəsini də qaraltmış, əksinə qara saçlarını ağartmışdı. Yerişi də, duruşu da, baxışı da hikmətlə dolu Sona Çərkəz "İkimizin kitabı"nı mənə hədiyyə etdi. Daha heç nə demədi. 2009-cu ilin may ayı idi...

Mən təzəcə çapdan çıxmış bu kitabı vərəqləməmiş bilirdim ki, Sona xanım bir an belə unuda bilmədiyi sevimli, əziz bir insanla bağlı ömür dastanının hər bir saniyəsini - o saniyələri ki, indi onlar Sona xanım üçün uzaq və əlçatmazdı, ancaq uzaq və əlçatmaz olduğu qədər də yaxındı, şirindi, qəmlikədərlidir. Söz-söz, misra-misra, səhifə-səhifə qələmə almaqla

Çərkəz müəllimə 70 yaşında əzəmətli bir abidə ucaldıb. Elə özünə də...

AMEA-nın müxbir üzvü, millət vəkili Nizami Cəfərovun kitaba yazdığı, "Ön söz əvəzi"ndə qeyd olunduğu kimi... Sona xanıma hörmət etməmək, onu sevməmək, sadəcə olaraq, mümkün deyil - həyatın bağışladığı kədəri yalnız ürəyində yox, həm də gözlərində, çöhrəsində daşıyan, taleyinin ağrılarını səsinə hopdurmuş bu insan doğma bildiklərinə, ailəyə, valideynə, həyat yoldaşına və nəhayət, sevgisinə sədaqətin heykəlinə çevrilmişdir.

Artıq neçə illərdir ki, bu heykəl - insan, bu gözəl Sona sönməyən, solmayan məhəbbəti, bitib-tükənməyən etibarı barədə öz təsirli nəğmələrini oxuyur. Və düşünür ki, sussa, həyatın, bizə məlum olan dünyanın o üzündəki Çərkəzi - bizim hamımızın Çərkəzi nigaran qalar, unudulduğunu zənn edər...

O bahar iydələr dərd çiçəklədi,
Ələndi başıma o bahar kədər...
O bahar sevinci qəm üstələdi,
Mən dərd görməmişdim o vaxta qədər.

Bir göz qırpımında ayrıldıq Səndən,
Dünyanın üzünü sanki su aldı...
Həyat həmin andan bu günə kimi,
Mənimçün cavabsız qalan sualdı...



Kitabdakı şeirlərində Sona Çərkəz anadil quşunu xatırladır: o oxuyur, aramsız oxuyur, təkcə baharda deyil, yayda, payızda, qışda oxuyur, oxuduqca Çərkəzli günləri xatırlayır, o xatiratın içində kədər dolu misralarında özünə inam, həyat eşqi tapmaq, gücünü, varlığını sevgisinin, həsrətinin yolunda əritmək istəyir. Bu misralar bənövşə ətirli, bənövşə qoxuludu - Sona Çərkəzin bəxtinə, qismətinə yazılan alın yazısı kimi...

...Sən gedəndən mən ürəkdən gülmürəm,
Həyat nədir, ömür nədir, bilmirəm,

Saçlarıma hey qar yağır, silmirəm.
Səhv salmışam qışı, yazı, payızı,
Bu nə tale, bu nə qismət, nə yazı?..

...1978-ci ilin sentyabrında universitetin yeni – doqquzmərtəbəli binası istifadəyə verildi. Filologiya, tarix və hüquq fakültələri bu korpusa köçdü. I-III mərtəbələrdə filologiya fakültəsi yerləşirdi. Dekanlığın yerləşdiyi mərtəbədən giriş qapısı görünürdü. Çərkəz müəllim dekanlığın qiyabi şöbəsində çalışırdı. Həmişə hərəkətdə, iş başında olan Çərkəz müəllimlə tez-tez rastlaşırdıq. Səmimi salamından sonra hökmən “Necəsiniz?” sualını verərdi. Bu sualın arxasında hamıya (biz tarix fakültəsində oxuyurduq) mənəvi dəstəklə bərabər maddi kömək də dayanırdı və Çərkəz müəllimin tam səmimiyyətlə bizlərdə böyük bir inam hissi yaradırdı. Çərkəz müəllimin təbəssümlü baxışları bizi daha möhkəm, iradəli olmağa sövq edirdi.

O da bizim dövrdə oxuyan tələbələrin yaddaşından silinməz. Çərkəz müəllimlə Sona xanım universitetdə, həyatda, yolda-izdə həmişə bir olardılar. Bir-birinin boyuna biçilən xoşbəxtləri bəlkə də hansısa bəd nəzər kəsdi, onların qoşa yollarının yarıda kəsdi...

“Sənsiz sənə məktublarım” bölməsində Sona xanım Çərkəz müəllimlə qoşa gəldikləri yolun hər addımını açıqlayır.

- Sətirləri qan ağlayan bu qəm dolu yazılarıma Səndən cavab almayacağımı bilirəm Çərkəz, bilə-bilə də yazıram... Olanlardan-qalanlardan, etibarlılardan-etibarsızlardan, gözümlə görüb qulağımla eşitdiklərimdən, qəlbimi sındırıb könlümü bulanlardan hər kəsdən və hər şeydən, yazılması mümkün olanların hamısından yazıram...

Sona Çərkəz yazır, ona görə yazır ki, yazmaya bilmir, yazdıqlarında Əli Kərimin “Bir zaman nə xoşbəxt imişəm, Allah!” - deyir.

“Kədərimə ünvanlanan yazılar”da tanınmış alimlər, Çərkəzsevərlər ürək sözlərini yazır, Sonalı-Çərkəzli və Sonalı-Çərkəzsiz günləri xatırlayırlar. Bu yazılarda filologiya elmləri namizədi Çərkəz Quliyevin sadə, zəhmətsevər, halal, hamının

hörmətini qazanan xarakteri işıqlandırılır.

"Sənin yazdıqların" fəslini Çərkəz müəllim Sonalı günlərində yazıb. Ağ vərəqlərə öz xətti ilə yazıb. Bu kitab Sona xanımın həyatda nəyi varsa, onların ən qiymətlisidir.

Mənə elə gəlir ki, Sona Çərkəzin, "İkimizin kitabı" təkcə Sona xanımın və Çərkəz müəllimin kitabı deyil. Bu kitab hamımızın kitabıdır. Ona görə ki, bu kitab çoxlarına insanlıq, həyat, məhəbbət, etibar, vəfa, sədaqət... hissi aşılayan qiymətli, bütöv bir sənət əsəridir.

## İNSANLARA BƏNZƏR KÜÇƏLƏR

İyirmi ildən artıq idi ki, bu yolların qışda palçığını, yayda tozunu ayaqlayırdı. Buna adət etmişdi. Sanki, buranın şəhərə heç bir aidiyyatı yox idi – uzaq bir əyalət kəndinin məhəlləsi idi. Gecəqondu evlər bir-birinə bitişik idi, əksər evlərin üstünə  qara kağız çəkilib qırlanmışdı. Az-az evlərə şifer düzülmüş, külək aparmasın deyə üstünə daş döşənmişdi. Bəzən ona elə gəlirdi ki, bu daşlar mismara oxşayır. Hasarlar da yöndəmsiz halda idi. . Küçədən axan arx kanalizasiya xəttini əvəzləyirdi. Kəsif qoxu asfaltdan – son avtobus dayanacağından gələnləri qarşılayırdı.

Bu qoxu ona (eləcə də məhəllənin sakinlərinə) yad deyildi. Öyrəşmişdi. Öyrəşməyib neyləyəsiydi? O, elə burada yaşayan hər bir kəs. dəfələrlə əlaqədar təşkilatlara yazıb xahiş etmişdilər ki, Qara şəhərdə işıq, qaz, su xətləri də qaydasına salınsın, küçələrə asfalt salınsın, kanalizasiya xətti çəkilsin... Çəkilməmişdi. Söz vermişdilər, eləməmişdilər. Arada bəzi sakinlər təşəbbüs göstərib öz hesablarına bu işləri görmək istəsələr də, alınmamışdı.

Qara şəhər qaralığında yaşayırdı, hətta dizə qədər yağan qar məhəlləni ağarda bilmirdi.

Ağarmayan adi günlərdən birində sübh tezdən işə gedirdi. Dayanacaqda avtobusları görmədi. Əvəzində başqa texnika gördü. Yəqin ki, axşamdan gətirmişdilər. Asfalt yol qaşınır, dişli çarx qırıntıları iri yük maşınına atırdı.

- "Avtobuslar o biri küçədən gedir". - İşləyən fəhlələrdən biri soruşanlara cavab verdi. Küçəyə baxdı.

“Milyonçular məhəlləsi”nin küçəsi şüşə kimi idi. Bura asfalt salmağa ehtiyac vardımı? Avtobuslara tərəf gedənlər narazılıqla addımlayırdılar. “Doğrudan bu küçənin təzədən asfaltlanmasına nə ehtiyac var?”- deyə düşündü.Qəribəydi yüz on üç metr aralıdakı küçə təmir üzü görmür, bu küçə isə ildə bir dəfə təzələnirdi .

Əynindəki kostyuma baxdı. Neçə vaxt idi ki, geyinirdi. Qara rəng bozarırdı. Rəng də yeyilir!

Ancaq “Milyonçular məhəlləsi”nin sakinləri hər gün bir kostyum dəyişirlər. Böyüklü, kiçikli...

O, elə bilirdi ki, təkcə ağaclar insanlar kimidi. Sən demə küçələr də insanlara bənzəyirmiş.

## XOŞBƏXTLİK GÜNƏŞDİR

***Gənclik illərimin dostu Fuad Seyidəliyevə***

Xoşbəxtlik ən çox işlənən, arzulanan məfhumdur. Kimsə gördüyü yaxşı əməlin müqabilində qarşı tərəfdən “xoşbəxt ol” alqışını alır. Xoşbəxtlik insana xoş əhval-ruhiyyə bəxş edir, insan qəlbən sevinir, ürək açılır və genişlənir, üzlərə təbəssüm qonur, duyğular incəlir, zəriflənir, ciyərdolusu nəfəs alırsan.

Xoşbəxtlik Günəş rəngindədir. Günəşin zərrin şəfəqləri onun simvoludur.

İnsan anadan olanda ağlayır. Bunun sirrini bilən varmı? Bəzən ağlamağın özü belə ən böyük xoşbəxtlik olur. Bu öz yerində. Ancaq körpənin ağlaması çoxlarına – ata-anaya, qohum-əqrabaya, qonum-qonşuya sevinc bəxş edir. Sevinc xoşbəxtlikdir!

Xoşbəxtlik əbədi deyil-deməli, insanın xoşbəxtliyi əbədi olmur!

Xoşbəxtlik bədbəxtliyin qara yelləri üstündən uçub azadlığa çıxan zümrüd quşudur! Xoşbəxlik insanın iç aləminin öz-özünə verdiyi təsəllidir!

Əgər insan addım-addım irəliyə doğru gedib ətrafdakı aləmin cüzi hissəsini görürsə, xoşbəxtdir.

İnsan yaşayırsa, xoşbəxtdir!

Xoşbəxtliyi bu qısa kəlmələrlə başa vurmaq da mənim xoşbəxtliyimdir. Xoşbəxtliyi tapmamaqda gileyli olanlar bilmirlər ki, onlar elə xoşbəxtliyin içindədirlər.

## KÜLƏK – KASIBIN KONDİNSİONERİ

Yayın cırhacır istilərində şəhərdə qalmaq olmur. Göydələnlər bir-birinin ardınca ucaldıqca dənizdən gələn küləytin qarşısı alınır. Üstünə qır döşənmiş evlər səhərdən axşama qızdıqdan sonra istiliyi evlərə verir. Məcbur olub həyətə çıxırsan. Həyət də, sən, deyən sərin deyil. Yarpaq tərpənməyən hava bəzilərinin təzyiqini qaldırır, bəzilərininkini aşağı salır. Su içməkdən insan bezir.Nə qədər soyuq, qazlı su içmək olar? Yeməyə iştaha olmur. Zəngin insanlar bunun çarəsini tapırlar. Onların təkcə evlərində yox, maşınlarında da kondinsioner işləyir. İsti onların vecinə deyil. Bəzən otaqlarındakı soyuqluq qışdakı şaxtaya bənzər olur. İxtiyar qoca evindən çıxıb parkda hərlənir, yorulanda isə skamyada oturub dincini alır. Tər alnında quruyub. Sərin külək əsir. Qadınların, qocaların ürəyi yerinə gəlir. Uşaqlar da hava sərinləşdikcə şıltaqlıqlarını artırırlar.

- Külək kasıbın kondinsioneridir –deyir ixtiyar qoca.

Bənzətmə ürəyinizcə oldumu? Daha doğrusu, külək sizi də sərinlətdimi?

## TƏRİF

Gözlərimə baxıb danışırsan. Mənim haqqımda. Tərifli sözlər deyirsən. Arada baxışlarımız üst-üstə düşür. Mənim içimdə utancaqlıq var – sifətimi qızardır, alnıma tər gəlir. Sənin sifətinsə bozarır.

Ətrafda oturanlar diqqətlə qulaq asır, gah sənə, gah mənə nəzər yetirirlər. Maraq dairəsi çərçivəsində qulaq asmağa borcludurlar.

Sənsə danışırsan. Sənə deyim, mənim haqqında olanları deyirsən. Artıq bir şey yox. Sən danışdıqca udqunur, sözləri qırır, az qala olan həqiqətləri dediyin üçün özünə qınaq kəsilirsən. Mən qulaq asdıqca xəcalət çəkir, həqiqətlərin müəllifliyindən im-

tina etmək haqında düşünürəm.

"- Bu nə üçündür? Bu sözlərə lüzum varmı? Axı, məclis başqasınındı, mənə nə aidiyyatı var? Bir də, qoy, bu sözləri evin kişisi desin. Niyə qadın deyir? Məqsəd nədir?"

Bu suallardan birini qonaqlardan hansısa düşünməmiş olmazdı.

Bizim baxışlarımız yenə üst-üstə düşür.

"– Hə, necədir? Razı qaldınmı?" Qadının gözləri bunu deyirdi. "-Bəsdir də" - mən hirsimdən ayrı söz tapammırdım.

Birdən o gözlərdən qadının ürəyindəkiləri sezə bildim. Ürək onun dediklərinin əksini deyirdi.

Sonra mən heç nə eşitmədim, heç qadın tərəfə, hətta qonaqlara göz yetirmədim.

"-İstəmədiyin şeyin tərsinə danışmaq adamdan məharət tələb edir!"

Bu məharət məni tutdu, odur ki, qadına nifrət edə bilmədim. Hətta, "gözünün içinə kimi yalan deyirsən" demək də ağlımdan çıxdı.

## QARNI QURDDULUQ

Onun qarnında qurd var.

Qonum-qonşu, görən-bilən belə deyir, mən demirəm.

Ona məsləhət görürlər ki, həkimə gedib yoxlansın.

O, əvvəlcə tərəddüd edir, görür ki, bir oturuma beş adamın xörəyini yesə də, bir sümük, bir dəridi. Rəngi saralıb.Məcbur olub həkimə müraciət edir.

Qurd müəyyən olunur, dərmanlar yazılır.

Dərmanların qurda gücü çatmır.

Onun qarnı yenə qurddu qalır.

Bir aləm qurdu doyurmaq heç kimə asan gəlməsin.

Qarnı qurddu olmaq da bir şey deyil.

# MÜNDƏRİCAT

Ön söz ............ 3
Düşüncələr, düşüncələr ............ 5

## Hekayələr

Milyon dollarlıq nahar ............ 16
A N 213-ün qayıdışı ............ 31
İt qanı ............ 45
Perik durnalar ............ 55
Qurd dərmanı ............ 58
Pöhrələr ............ 63
Su xətti ............ 72
Nokdaun ............ 80
Asfalt ............ 95
Onda daha xoşbəxt idi ............ 102
Silinmə ............ 104
Çətənə ............ 111
Azad qadın heykəli ............ 120
Borclu olmayasan ............ 126
Ömürlük xatirələrlə yaşamaq əzabdır ............ 128

## Povestlər

Dəvətnamə ............ 132
Eyfel qülləsində "Tərəkəmə" ............ 187
Qızıl çubuq ............ 221
Birdən-birə ............ 285

**Oyuncaqsız uşaqlıq**

Durna dəsi kimi qırışlar ........................................................ 323
Oyuncaqsız uşaqlıq ........................................................ 323
Vergi balladası ........................................................ 324
İşiqpulu ........................................................ 326
İkimizin... və hamımızın kitabı Sona Çərkəz: O bahar iydələr dərd çiçəklədi... ........................................................ 327
İnsanlara bənzər küçələr ........................................................ 330
Xoşbəxtlik günəşdir ........................................................ 331
Külək – kasıbın kondinsioneri ........................................................ 332
Tərif ........................................................ 332
Qarnıqurdduluq ........................................................ 333

Müzahim İsmayılzadə

# Dünyanın axırı:

# Yaşadığımız....
# Yaşaya bilmədiyimiz illər....

Naşir: Rafiq Xan-Sayadoğlu
Dizaynerlər: İradə Əhmədova, Ceyhun Əliyev
Operator: Rübabə Vəliyeva
Texniki redaktor: Ülvi Arif

---

Yığılmağa verilmişdir: 08.09.2011
Çapa imzalanmışdır. 05.11.2011
Tiraj: 300 ş.ç.v. 21
"MBM" mətbəəsində çap edilmişdir.